İLHAM
ƏLİYEV

# İNKİŞAF –
# MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ ON BİRİNCİ KİTAB

## MART 2021 - MAY 2021

AZƏRNƏŞR
BAKI - 2021

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2021

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2021, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində Müzəffər Ali Baş Komandanın işğaldan azad olunan Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan rayonlarına, qədim Azərbaycan şəhəri, mədəniyyət paytaxtı Şuşaya səfərlərinə dair materiallar, həmçinin Cıdır düzündən Azərbaycan xalqına ünvanladığı Novruz təbriki öz əksini tapmışdır.

Kitabda dövlət başçısının ADA Universitetində təşkil olunmuş «Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq» adlı beynəlxalq konfransda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşündə, Bakıda Hərbi Qənimətlər Parkının açılışı mərasimində geniş məruzə və nitqləri toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2021}}$ **BBK - 32**

© Azərnəşr, 2021

## FÜZULİ VƏ XOCAVƏND RAYONLARINA SƏFƏR

*15 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva martın 15-də Füzuli və Xocavənd rayonlarında olmuşlar.*

**İ l h a m Ə l i y e v:** Yenə işğaldan azad edilmiş torpaqlardayam. Bu gün Füzuli–Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpasına başlanılmışdır. Füzulidən Şuşaya yol çəkilir – «Zəfər yolu» çəkilir. Bərdə–Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işlərinə başlanılmışdır.

Yenə də azad edilmiş torpaqlarda olarkən, bu dağıntılara baxarkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə yeksan edib, bizim tarixi irsimizi silmək istəyib. Amma buna nail ola bilməyib. Biz bu torpaqlara qayıtdıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtdıq. Düşməni öz doğma torpaqlarımızdan qovduq.

Bu gün azad edilmiş torpaqlara gələrkən Qaraxanbəyli kəndindən keçdik. Qaraxanbəyli kəndi müharibənin ilk günündə – sentyabrın 27-də azad edildi. Biz məhz buradan, bu istiqamətdən öz şərəfli missiyamızı icra etməyə başladıq və düşməni torpaqlarımızdan qovduq. İndi isə quruculuq işləri ilə məşğuluq və həyatımızın yeni dövrü başlayır – quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü.

*Prezident İlham Əliyev səfər çərçivəsində Füzuli–Hadrut avtomobil yolunun təməlini qoydu.*

*Bu yol başlanğıcını «Zəfər yolu»ndan götürür və yeni inşa ediləcək Hadrut–Cəbrayıl–Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri inşa ediləcək.*

*Dövlət başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Xocavənd rayonuna yola düşdülər.*

– Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş veribdir. Müharibə dövründə – Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdı, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıbdır.

Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb,

binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!

Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı daş üstündə qoymayıb. Görün yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, «Artsax dövləti» – cəhənnəmə getdi! «Dövlət» idisə, niyə daşı daş üstə qoymayıblar? Çünki bilirdilər ki, bu torpaq onların deyil, azərbaycanlıların torpağıdır.

Bura işğaldan azad edilmiş Xocavənd rayonudur.

Durduğumuz yer Xocavənd rayonunun Edilli kəndidir. Bura isə Ağbulaq kəndidir. Qəhrəman Azərbaycan Ordusu qədim Azərbaycan torpağını işğalçılardan azad edib. Burada döyüşlər gedib. Vuruşaraq, döyüşərək, düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bura da işğaldan azad edilmiş keçmiş Hadrut rayonunun Düdükçü kəndidir. Görün necə gözəl mənzərədir.

*Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində Dövlət bayrağımızı qaldırdı və çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edilib. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olubdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq, nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olubdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi.

Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilibdir – oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaş-

dırmanı düzgün icra edərək, biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik.

Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir, bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizləniblər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayalara dırmaşaraq, biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi

sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı – Xocavənd adı qaytarılıbdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilibdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyir ki, Azərbaycan 7 rayonu azad edib, bu belə deyil. Biz 7 rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atıbdır.

Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün bura gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakəti törədib. Bu gün onları müdafiə edən, onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi bizim şəhərlərimizi nə günə salıb. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilibdir. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılmışdır. Amma bu qəsəbə sala-

matdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur Azərbaycan Ordusunun yanaşması, budur bizim mənəvi kodeksimiz. Bəs ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri – ermənilər orada qanunsuz yaşayıblar – o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su-elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilmiş təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi, Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik.

Xocavənd bizimdir!

Qarabağ Azərbaycandır!

* * *

*Sonra Prezident İlham Əliyev Hadrut–Cəbrayıl–Şükürbəyli avtomobil yolunun təməlini qoydu.*

*Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə, Şükürbəyli kəndində Hacıqabul–Mincivan–Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometr olan 4 hərəkət zolaqlı bu yol boyunca avtomobil körpüləri tikiləcəkdir.*

## KEÇMİŞ HADRUT RAYON PARTİYA KOMİTƏSİNİN BİNASINDA GÖRÜŞ

*15 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva martın 15-də keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında olmuşlar.*

**İlham Əliyev:** Bu bina keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasıdır. Qanunsuz rejim burada özləri üçün administrasiya yaratmışdı. Bu bina Azərbaycanın vəsaiti hesabına tikilibdir və biz onu qaytardıq. Hadrut bizimdir!

Bu sözlər köhnə əlifba ilə yazılıb: «Kolxozların torpaqlardan əbədilik faydalanması üçün». Bu, 1939-cu ilə qədər yazılıb. 1939-cu ildə əlifbamızı dəyişdirdilər. Bu, tarixi sənəddir.

*Daha sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış oldular.*

– Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir. Ermənilər bu kilsəni də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı?

Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir ediblər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaratmaq istəyiblər, amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin – Alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tutacaqlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar.

İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini bir müddətdən sonra necə təmir etdirəcəyimizi görəcəklər. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini bütün dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda işğala qədər 67 məscid var idi, indi cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız

ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb.

Buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? «Kamo», «Artur», nə bilim, «Marta». Öz kilsələrini belə təhqir edərdilər? Bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardılar – «İqor», «Aşa»? Uçurublar, dağıdıblar, qapını da yandırıblar.

* * *

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Tuğ kəndində oldular.*

**İlham Əliyev:** Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir.

**Mehriban Əliyeva:** Bu, məktəb binasıdır?

**İlham Əliyev:** Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün nə günə qoyublar. Sonra da deyirlər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaqdır.

Tuğ kəndində azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Buradan bütün dağıntılar yaxşı görünür. Təbii ki, Tuğ kəndinin sakinləri öz evlərini tanıyırlar. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri doğma kəndlərinə qayıdacaqlar.

Görün Azərbaycan necə də gözəldir. Qarabağ necə də gözəldir. Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik.

*Dövlət başçısı və xanımı Tuğda Alban məbədində oldular.*

– Bunlar növbəti erməni saxtakarlığıdır. Sonradan gətirilmiş daşlardır. Bu məbədə heç bir aidiyyəti yoxdur.

Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da erməniləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq.

*Daha sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Azıx kəndinə yola düşdülər.*

– Tuğ kəndindən çıxdıq, indi gedirik Azıx kəndinə. Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti də çox gözəldir.

Azıx kəndinə yaxınlaşırıq. Qarabağın gözəl mənzərəsi. Bura Azıx kəndinin ərazisidir.

Azıx mağarasına gedirik, hələ yolumuz uzaqdır.

Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etdik, fiziki formamızı göstərdik. İndi girəcəyik Azıx mağarasının içinə.

Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdi və ondan sonra burada tədqiqatlar aparılmışdı. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsi-

mizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yolla tədqiqatlar aparacaqlar.

Buradan da gözəl mənzərə açılır. Azıx kəndi, bax, oradadır. Biz bu zirvəni də qət etdik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, biz onu qət edə bilməyək. Gəlin bir yerdə deyək: Azıx Azərbaycandır! Qarabağ Azərbaycandır!

## ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*16 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva martın 16-da Şuşa şəhərinə gəlmişlər.*

**İ l h a m  Ə l i y e v:** Dünən Azıxdan çıxdıq Şuşaya gəldik. Yollar hələ ki, çox bərbad vəziyyətdədir, çünki yol yoxdur, «Zəfər yolu» ilə gəlmişik. Hələlik ancaq torpaq yoldur, çünki havalar soyuq keçir, asfalt döşəmək mümkün deyil. Palçıq idi və güclü duman var idi. Ona görə Azıxdan Şuşaya 1 saat 45 dəqiqəyə gəldik. Gecə Şuşada qaldıq. Səhər saat 9-da çıxmışıq və gedirik, bir neçə tədbir vardır. Hava açıqdır, ancaq yenə də buludlar şəhərin üstündədir.

Keçən dəfə yanvar ayında gəlmişdik. Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini Şuşaya qaytardıq. Bu gün bir daha Şuşaya gəlmək insana böyük zövq verir. Sol tərəfdə Şuşanın qarlı, dumanlı dağlarıdır.

Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Bu gün bərpa işlərinə start veriləcək.

Məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildi. İlkin araşdırmalara başlanıldı və yaxın gələcəkdə layihə təqdim ediləcəkdir.

Şuşa bütün mövsümlərdə gözəldir. Bulaqları da bərpa edəcəyik. Otuz il ərzində ermənilər bütün bulaqlarımızı qurudublar. Görün şəhər nə gündədir, düşmən Şuşanı nə günə salıb.

Vaqifin məqbərəsinə yaxınlaşırıq. Artıq işlərə start verilib. Layihəyə baxmışam. Bax, burada fotoşəkillər də vardır. Ulu öndər Heydər Əliyev burada olarkən həm açılışda, həm də Vaqif Poeziya Günündə iştirak edib. Tarixi bərpa edirik. Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə.

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəldilər.*

*Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və xanımına bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verdi. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcək. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar.*

– Mən bu şəkilləri arxivdən tapmışam. Vaqif Poeziya Günləri keçirilirdi, 1982-ci ilin yay ayında. Məqbərənin önündə ulu öndər Heydər Əliyev. İnsanlar da, bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, görək burada nə olub və bu şəkil tapıldı. Görürsünüz, Vaqifin təsviri, bax, bu divarda idi. Mənfur düşmən bunu da söküb, bu mərməri də söküb. Bu da qəbirin üstündə sinə

daşı idi. Vandal erməni bunu da söküb. Hamısını bərpa edəcəyik. Ulu öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar arxivdən daha bir neçə şəkil tapmışam, mən də buradayam. Bunda da Cıdır düzündəyik. Bunu bir dəfə göstərmişdim, Natəvan bulağının önündə. Bir şəkil də var, onu da göstərməliyəm. Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikiblər. Bax, budur. Vaqifin büstü, ulu öndər də baxır. Bu büstü də bərpa edəcəyik.

*Sonra dövlət başçısı, xanımı və qızı xan sarayının qalıqlarına baxdılar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.*

– Bura Pənahəli xanın sarayı olub. Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edibdir.

Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər.

Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli

əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini, bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam.

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəldilər.*

*Qeyd olundu ki, Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq.*

– Bu, postamentin bünövrəsidir. Ermənilər dağıdıblar, biz bərpa edəcəyik. Erməni vandalları işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansara Tarix-Memarlıq Kompleksini də dağıdıblar.

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Karvansara Tarix-Memarlıq Kompleksinə baxdılar.*

*Dövlət başçısına burada görüləcək işlərlə bağlı məlumat verildi.*

*Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır.*

*Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək – 1992-ci ilədək fəaliyyət göstəribdir.*

– Bura Şuşa şəhərinin rəsm qalereyası olub. Azərbaycan hökuməti burada qalereya təşkil etmişdi. İşğal zamanı düşmənlər buradan öz məqsədləri üçün istifadə ediblər. İndi tamamilə yenidən bərpa edilə-

cək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcəkdir.

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva «Qarabağ» mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış oldular. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaqdır.*

*Dövlət başçısına və xanımına Şuşa şəhərində tarixi və dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verildi.*

– İşğal dövründə hoteli də dağıdıblar, burada cəmi bir mərtəbə işləyib. Pis vəziyyətdə idi, qısa müddət ərzində şourum kimi hazırlanıb. Hotelin bütün otaqları bu stildə olacaq.

«Qarabağ» hotelində gedən yenidən qurulma işləri ilə tanış olduq. İşğal dövründə hotel faktiki olaraq, fəaliyyət göstərmirdi, cəmi bir, ya iki mərtəbə fəaliyyət göstərirdi. Bu hotel də sovet dövründə Azərbaycanın büdcəsi hesabına tikilmişdi və ona «Qarabağ» adı verilmişdi. Sonra mənfur düşmən hotelin adını dəyişdirib «Şuşi palace» qoyub. «Şuşi» adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt da olmayacaq.

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şuşa Xalça Muzeyində də oldular. Qarabağ xalçaçılıq sənətinin ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılmış bu muzey də işğal zamanı ciddi ziyan görübdür.*

*Dövlət başçısı, xanımı və qızı Şuşada «Park hotel»in yerləşəcəyi binaya da baxdılar. Yenidən qurulmadan sonra hotel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.*

– Burada keçmiş sanatori korpusu olub. İşğal dövründə buradan kiçik hotel kimi istifadə ediblər, amma çox primitiv qaydada. Çox biabırçı bir şərait var idi. İndi yenidən bərpa edilir. Bu da şourumdur, hotelin otaqları, bax, belə olacaq və bu il hotel artıq istifadəyə veriləcəkdir.

*Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına icra olunacaq layihələrlə bağlı məruzə etdi.*

*Prezident İlham Əliyev Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verdi.*

– Şuşa sanatorisinə də baxış keçirdik. Orada da korpusların bir çoxu ermənilər tərəfindən dağıdılıb. Amma bəzi korpuslardan istifadə etmək mümkün olacaq. Burada da kiçik hotellərin yaradılması nəzərdə tutulur. Nəzərə almalıyıq ki, Şuşaya çox böyük turist axını olacaq, ona görə burada 5, 4 və 3 ulduzlu hotellər olmalıdır.

Buradan da şəhərə, şəhərin ətrafında yerləşən dağlara gözəl mənzərə açılır. Amma bir daha görürük, ermənilər burada, demək olar ki, bir dənə də bina tikməyiblər. Bəlkə bu binanı tikiblər, bu da eybəcər bir tikilidir. Ancaq sovet vaxtında Azərbaycan tərəfindən tikilmiş binalardan istifadə ediblər, azərbaycanlıların evlərində yerləşiblər. Bütün bu evlər sovet vaxtından qalan evlərdir, «xruşovka»lardır.

Bunlar da öz müddətini çoxdan bitiribdir. Bu binaların vəziyyətinə indi diqqət yetirilməlidir.

Şuşada işğal dövründə təxminən 2000 adam yaşayırdı, onların da böyük hissəsi hərbçilər və onların ailə üzvləri idi. Ona görə də bu binaların böyük hissəsi boş qalmışdı. Baxın, burada bir dənə normal vəziyyətdə bina var, yoxsa yox?

Ermənilər Şuşanı erməni şəhəri kimi qələmə vermək istəyirlər. Halbuki Şuşanın təməlini qoyan Pənahəli xan olub və həmişə burada azərbaycanlılar yaşayıblar. Yaxşı, erməni şəhəri idisə, niyə əl gəzdirməmisiniz? Şuşa kimi mənzərəsi, təbiəti olan şəhəri belə günə salmaq vəhşilikdir. Azərbaycanlıların evlərini dağıdıblar və hesab edirdilər ki, bu işğal əbədi olacaq. Biz işğala son qoyduq.

Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, hətta dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və biz buna nail olacağıq, 100 faiz. Bu da Realnı məktəbinin dağılmış binasıdır, görün ermənilər bu binanı nə günə salıblar. Sol tərəfdə də mənə verilən məlumata görə, internat məktəbi olub. Bunu da dağıdıblar, ancaq fasad hissəsi qalıbdır.

Biz artıq Şuşadan ayrılırıq, ancaq yenə də ayrılmaq istəmirik. Şuşa insanı özünə o qədər cəlb edir ki, buraya gələnlər qayıtmaq, getmək istəmirlər. Ancaq indi biz Bakıya qayıtmalıyıq. Yolüstü Daşaltı kəndində dayanacağıq. O kəndə də baxacağıq. Ondan sonra istiqamət Bakı şəhəridir.

**Mehriban Əliyeva:** Hava günəşli, açıq, mavi səma.

**İ l h a m Ə l i y e v:** Şuşaya «hələlik» deyirik. Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşağıda Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Bura isə Şuşa yarımstansiyasının binasıdır. Bu bina qısa müddət ərzində inşa edildi və Şuşanı dayanıqlı enerji ilə təchiz edəcəkdir. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı.

Buradan Şuşanın qayaları gözəl görünür. Azərbaycanın təbiəti də bizi salamlayır, çünki biz haqq yolundayıq, işimiz də haqq işidir.

Bura isə Daşaltı kəndidir. Daşaltı kəndi ilə də tanış olacağıq.

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şuşa rayonunun Daşaltı kəndinə gəldilər.*

**A y d ı n K ə r i m o v:** O, Böyük Kirs dağıdır. Şuşanın su mənbələrindən biri onun ətəyindən gəlir.

**M e h r i b a n Ə l i y e v a:** Bu, yeni Daşaltı hesab olunur?

**A y d ı n K ə r i m o v:** Bəli.

**M e h r i b a n Ə l i y e v a:** O da köhnə Daşaltı.

**İ l h a m Ə l i y e v:** Bizim hərbçilər oradan gəliblər.

Həm sağ tərəfdə, həm də sol tərəfdə Daşaltı kəndinin gözəl mənzərəsidir. Daşaltı kəndi də işğalçılardan azad edilib. Bizim müzəffər ordumuz məhz Daşaltıdan qalxaraq, sıldırım qayaları qət edərək, Şuşaya daxil olub. İrəlidə də Böyük Kirs dağıdır. Azərbaycanın gözəl təbiəti gözümüzün önündədir.

Hansı tərəfə baxsan gözəllik, yaşıllıq görürsən. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaqdır.

*Erməni qəsbkarları tərəfindən 1992-ci ildə işğal olunmuş Daşaltı kəndi də hərtərəfli terrora məruz qalmışdı.*

*Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verdi.*

**BEYNƏLXALQ OLİMPİYA**
**KOMİTƏSİNİN PREZİDENTİ**
**CƏNAB TOMAS BAXA**

Hörmətli cənab Bax!

Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir və ən xoş arzularımı yetirirəm.

Keçirilmiş səsvermədə inamlı qələbəniz bütün olimpiya ailəsi tərəfindən Sizə olan etimadın bariz göstəricisi, olimpiya hərəkatının inkişafı, idmanın təşviqi sahəsində xidmətlərinizə verilən yüksək qiymətdir.

Məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycan ilə Beynəlxalq Olimpiya Komitəsi arasında əməkdaşlıq yüksək səviyyədədir və biz bu əməkdaşlığın daha da genişləndirilməsinə mühüm əhəmiyyət veririk. Əminəm ki, olimpiya ideallarının təntənəsi naminə tərəfdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə daim müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2021-ci il*

## SLOVAKİYA RESPUBLİKASININ XARİCİ VƏ AVROPA İŞLƏR NAZİRİ İVAN KORÇOKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Slovakiya Respublikasının Xarici və Avropa İşlər naziri İvan Korçokun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Slovakiyanın Xarici və Avropa İşlər naziri Bakıda sonuncu dəfə təxminən 20 il əvvəl olduğunu qeyd edərək, bu səfər zamanı paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı.*

*Söhbət zamanı siyasi əlaqələr, iqtisadi əməkdaşlıq, ticarət əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi, minalardan təmizləmə sahəsində əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi, dövlətlərin ərazi bütövlüyü və suverenliyi, sərhədlərin toxunulmazlığı prinsiplərinin dövlətlərarası münasibətlərdə aliliyi qeyd olundu.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ

Hörmətli cənab Prezident!

23 mart – Pakistan Günü münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasındakı əlaqələr ortaq tarixi, dini, mədəni köklərə malik qardaş xalqlarımızın iradəsindən qaynaqlanır. Belə möhkəm təməllər üzərində qurulmuş strateji tərəfdaşlıq münasibətlərimizin hazırkı yüksək səviyyəsi böyük məmnunluq doğurur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı Pakistanın nümayiş etdirdiyi qəti və birmənalı mövqe, haqq işimizə göstərdiyi tərəddüdsüz dəstək və həmrəylik xalqımız tərəfindən olduqca yüksək qiymətləndirilir.

Mən Azərbaycan ilə Pakistan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm. Əminəm ki, qarşılıqlı etimad, dəstək və həmrəyliyə əsaslanan dövlətlərarası münasibətlərimiz, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2021-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və səadət arzulayıram.

Novruz bayramı bizə ulu əcdadlarımızın təbiətin əbədi nizamına ehtiramını ifadə edən müqəddəs yadigarıdır. Bu bayram Azərbaycan xalqının qədim və zəngin dünyagörüşünün, gələcəyə nikbin baxışının, bütövlükdə milli varlığımızın dolğun təcəssümü olub, mədəni sərvətlər xəzinəmizdə müstəsna yer tutur. Yad təsirlərdən qoruyaraq layiqincə yaşatdığımız Novruz ənənələri çoxəsrlik keçmişinə daim ehtiramla yanaşan xalqımızın eyni zamanda, bəşər mədəniyyətinə töhfəsidir.

Yaz bayramının Odlar diyarına builki gəlişi xüsusən əlamətdardır. Şadam ki, müstəqilliyimizin bu baharına dövlətçilik tariximizdə qızıl hərflərlə əbədi qalacaq və həyatımıza hələ yeni-yeni nailiyyətlər bəxş edəcək parlaq Qələbə ilə qədəm qoymuşuq. Haqq işi uğrunda mübarizə duyğusundan aldığımız misilsiz mənəvi güclə biz sınaq anında yumruq kimi birləşərək, əzəli torpaqlarımıza xaincəsinə uzanan əlləri kəsmiş, yurdumuzu bədxah düşməndən təmizləmiş və ədaləti qanımız bahasına bərpa etmişik. Ruhumuzun yenilməzliyinin təntənəsinə çevri-

lən və bizi dünyaya məğrur millət olaraq tanıdan şanlı Zəfərimiz Azərbaycana əbədi bahar gətiribdir. Xalqımızın qalibiyyət ovqatını bütün qəlbi ilə yaşadığı bu bayram günlərində bir daha Vətənimizin ərazi bütövlüyü naminə canlarını fəda etmiş qəhrəman övladlarımıza rəhmət diləyir, onların əziz xatirəsini dərin ehtiramla yad edirik.

İrəlidə bizi işğaldan azad olunmuş yurd yerlərimizdə nəhəng quruculuq işləri gözləyir. İnanıram ki, yaz fəslinin qurub-yaratmaq əzmimizi artıran yeniləşdirici ab-havası ilə həmahəng birlik və həmrəylik nümayiş etdirəcək, Böyük Qayıdış planımızı sülh və əmin-amanlıq şəraitində uğurla gerçəkləşdirəcək, doğma Qarabağı qısa müddətdə dirçəldəcəyik.

Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm. Bu bayram öz gəlişi ilə evinizə, ocağınıza bol ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2021-ci il*

## CIDIR DÜZÜNDƏ ALOVLANAN TONQAL BAŞINDAN AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*20 mart 2021-ci il*

Əziz bacılar və qardaşlar, mən sizin hamınızı Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm! Bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram!

Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və o gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və o gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz

bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.

Noyabrın 8-də Şuşanın azad olunması ilə bağlı müjdəni Azərbaycan xalqına verərkən dedim ki, Şuşa, sən azadsan! Bu gün azad Şuşada biz öz milli bayramımızı – Novruz bayramını qeyd edirik. Şuşa 28 il əsarətdə idi. 28 il mənfur düşmən tərəfindən dağıdılırdı, məhv edilirdi. Şuşanın tarixi siması dağıntılara məruz qalırdı. Düşmən Şuşanı erməniləşdirmək istəyirdi. Şuşada Azərbaycan xalqının irsini silmək istəyirdi. Ancaq buna nail ola bilmədi. Bəli, Şuşa dağıntılara məruz qaldı, Şuşada tarixi abidələrimiz mənfur düşmən tərəfindən dağıdıldı. Ancaq Şuşa əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, Azərbaycanın milli ruhunu qorudu və bu gün Şuşada olarkən bir daha bunun canlı şahidi oluruq. Şuşa Azərbaycan xalqının ruhunu qoruya bildi və bizi gözləyirdi. Biz də gəlməli idik və gəldik. Ancaq gəlmək üçün güc toplamalı idik, gəlmək üçün hazırlıq işləri aparılmalı idi. Bütün istiqamətlər üzrə hazırlıq işləri aparılmalı idi və aparılırdı. Biz ölkəmizin inkişafını təmin etməli idik. Xalqımızın birliyini təmin etməli idik. Vətəndaş müharibəsindən çıxmış ölkə üçün, xalq üçün bu o qədər də asan məsələ deyildi. Vətəndaş müharibəsindən sonra bu günə qədər ölkədə gedən proseslər xalqımızı vahid ideya uğrunda, vahid amal uğrunda, torpaqlarımızın azad edilməsi amalı uğrunda birləşdirdi. Biz bu milli birliyi, milli həmrəyliyi təmin edə bildik. Bu olmasaydı, bu Qələbə də olmayacaqdı.

Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar və qətnamələri qəbul etdirə bildik. Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi.

Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur.

Biz hərbi güc toplamalı idik və bu istiqamət 1-ci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim Prezidentlik dövrümdə hərbi xərclər hər zaman 1-ci yerdə idi və mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Bütün dünyaya açıq deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu.

Biz güclü ordu yaratmışıq. Peşəkar ordu yaratmışıq. Qəhrəman ordu yaratmışıq. Hərbçilərimiz ən yüksək qiymətə layiqdirlər. Biz müharibə dövründə şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbr versin. Biz Şuşanı qan tökərək azad etmişik, Şuşa uğrunda ciddi döyüşlər gedirdi. Laçın dəhlizi boyunca işğalçıların qalıqları səpələnmişdi, yüzlərlə, bəlkə də 1000-ə qədər işğalçı Şuşa döyüşlərində məhv edildi. Hərbçilərimiz sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək, yüngül

silahlarla Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardıq. Amma bizə qarşı burada toplardan, tanklardan istifadə olundu. Düşmən bizim gücümüzü gördü, iradəmizi gördü, milli ruhumuzu gördü və məğlub oldu. Şuşanın azad edilməsi Vətən müharibəsində xüsusi yerə malik olan hadisədir. Şuşa bizim hədəfimiz idi və biz bu hədəfə doğru gedirdik. Şuşaya qədər azad edilmiş bütün torpaqlarda Azərbaycan Ordusunun yerləşməsi Şuşanın azad olunmasını da şərtləndirmişdi. Cəbrayıl rayonu, Suqovuşan, Hadrut, Xocavənd rayonunun böyük hissəsi, Zəngilan, Füzuli, Qubadlı rayonları, Laçın rayonunun cənub hissəsi, Kəlbəcər dağları, Murov dağı və ondan sonra Şuşa. Müharibə zamanı 300-dən çox kənd və şəhər azad edildi, düşmən məcbur olub diz çökdü, təslim oldu və noyabrın 10-da kapitulyasiya aktına imza atdı.

Müharibənin ilk günlərindən mən deyirdim ki, düşmən bizə tarix versin, düşmənin rəhbəri tarix versin, nə vaxt bizim torpağımızdan rədd olur və biz müharibəni dayandırmağa hazırıq. Yenə də sözümdə durdum, bizə tarix verilən kimi, kapitulyasiya aktı imzalanan kimi, müharibə dayandı və biz bir güllə atmadan, bir itki belə, vermədən Ağdam, Kəlbəcər və Laçın rayonlarına da qayıtdıq. Beləliklə, ərazi bütövlüyümüzü bərpa etdik. Yenə də deyirəm, biz hazırlaşmalı idik, Şuşa bizi gözləyirdi. Amma biz elə gəlməli idik ki, bu məsələni birdəfəlik həll edək.

Son illər ərzində mən həm çıxışlarda, həm müsahibələrdə dəfələrlə demişəm ki, bizə məsələnin ya-

rımçıq həlli lazım deyil. Bu nə deməkdir, Azərbaycan xalqı yəqin ki, gözəl başa düşür. Mən demişdim ki, hər şeyi vaxtında etmək lazımdır. Nəyi, nə vaxt, necə etmək lazımdır, bilirəm. Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmayıbdır. Bütün Prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanırdı – bu addım bizi qələbəyə yaxınlaşdıracaqmı, yoxsa yox. Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. Mənim çıxışlarım var, onlar tarixdə qalır. Hər gün hər birimiz qələbəni yaxınlaşdırmalıyıq.

Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi, dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz.

Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoyub, Şuşanı tikib, qurub. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə də belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib. Bəli, evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bir neçə eybəcər bina tikilib. Faktiki olaraq, burada heç bir tikinti aparılmayıbdır. Ancaq sovet vaxtından qalan o «xruşovka»larda məskunlaşmış 2000-ə yaxın erməni yaşa-

yırdı, onların da böyük hissəsi hərbçilər və onların ailələri idi. Əgər bu, erməni şəhəri idisə, niyə ermənilər gəlib burada yaşamadılar? Çünki burada ermənilərin tarixi yoxdur. Əgər erməni şəhəridirsə, niyə belə bərbad günə qoyublar? Niyə talayıblar Şuşanı, niyə 28 il ərzində bərpa etməyiblər? Bəs hanı onların xeyriyyəçiləri? Deyirdilər ki, xeyriyyəçilər bunu etdilər, onu etdilər, ora pul verdilər, bura pul verdilər. Hər il marafonlar keçirirdilər, on milyonlarla dollar pul yığırdılar. İndi bilinir ki, o pullar keçmiş rəhbərliyin cibinə gedirdi. Mən azad edilmiş torpaqlara dəfələrlə gəlmişəm. Burada olan səfalət bəlkə də dünyanın heç bir yerində yoxdur. Bəs nə ediblər onlar? Hamısı yalan idi, saxta idi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Onların şəbəkələri dünyanın müxtəlif paytaxtlarında fəaliyyət göstərir, saxta məlumat ötürür və bu saxta məlumat ətrafında sonra müzakirələr gedir və olmayan şeyləri reallıq kimi qələmə verirlər.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verilib. Bu gün Şuşada olarkən verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işlərinə başlanılıb, infrastruktur layihələrinə start verilibdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə, indi onun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq

olunacaqdır. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaqdır. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik – Azərbaycan xalqıdır.

Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq. Biz hətta o satqınlığı, o xəyanəti edən AXC–Müsavat cütlüyünün mənfur liderlərinə layiq olduqları cəzanı vermədik. Halbuki onlar istənilən cəzaya layiqdirlər. Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim Prezidentlik dövrümdə yetişmiş gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırdı və bütün amillər birləşərək, bu müharibənin nəticələrini şərtləndirdi.

Bizim müharibəmiz – İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yox-

dur, biz onu məhv etmişik. Bu gün Novruz bayramını Cıdır düzündə qeyd edərkən qürur hissi ilə deyirəm: Şuşa, sən azadsan!

Şuşa Azərbaycandır!

Qarabağ Azərbaycandır!

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə naziri, Dubay Əmirinin müavini şeyx Həmdan bin Rəşid əl-Məktumun vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 mart 2021-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİR VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

Əlahəzrət!

Qardaşınız – Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə naziri, Dubay Əmirinin müavini, görkəmli dövlət xadimi şeyx Həmdan bin Rəşid əl-Məktumun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 mart 2021-ci il*

## OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİNİN BAKININ BİNƏQƏDİ RAYONUNDA YERLƏŞƏN 4 SAYLI DOST MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*30 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Operativ Sosial Təminat Agentliyinin Bakının Binəqədi rayonu, Ziya Bünyadov prospektində yerləşən 4 saylı DOST Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı Mərkəzin binasında yaradılmış şəraitlə tanış oldu.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Mərkəzdə görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Vətəndaş maraqlarına xidmət edən, onun müasir sosial trendlərə çevik uyğunlaşmasına hesablanan şəffaflıq, sosial ədalət və yeni dövrün çağırışlarından irəli gələrək, xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqi Prezident İlham Əliyevin sosial siyasət fəlsəfəsinin ana xəttini təşkil edir və əhali tərəfindən rəğbətlə qarşılanır. Ölkə üzrə respondentlər arasında keçirilən bir neçə sorğunun nəticələri sosial mexanizmlərə və elektron xidmət elementlərinə insanların xüsusi maraq göstərdiyini də sübuta yetirir.*

*Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış agentliyin sayca 4-cü DOST Mərkəzində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə bütövlükdə 132 xidmət göstəriləcəkdir.*

*Əlillər, müharibə veteranları, şəhid ailələri dövlətin hər zaman diqqət və qayğı göstərdiyi həssas kateqoriyaya aiddirlər. Ölkədə fəaliyyətə başlayan bütün sosial obyektlər və xidmət infrastrukturu bu meyarları özündə əks etdirir. Bununla yanaşı, Vətən müharibəsində sağlamlığını qismən itirmiş qazilərin qısa zamanda cəmiyyətə inteqrasiyası məqsədilə reabilitasiya vasitələrinin verilməsi, onların yüksək texnologiyalı protezlərlə təmin edilməsi sosial siyasətin həm də mənəvi-əxlaqi normalara söykəndiyinin təcəssümüdür.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri dövlət başçısına ölkəmizdə sosial təminat sisteminin inkişafı barədə məlumat verdi.*

**Sahil Babayev:** Cənab Prezident, Sizin siyasətinizin ana xətti olan sosial təminat sistemi daim inkişaf edir. Ötən dövr ərzində təkcə sosial ödənişlər 1 milyard 800 milyon manat artıb. Pensiya ödənişləri 36 faiz, müavinət ödənişləri 120 faiz, təqaüd ödənişləri 3,5 dəfə artıbdır. Bu da, əlbəttə ki, orta aylıq göstəricilərə çox ciddi təsir edib. Azərbaycan nadir ölkələrdəndir ki, cəmi 3 il ərzində orta

pensiya 60 faiz artıbdır. Tapşırığınıza əsasən, post-müharibə dövründə müharibə iştirakçıları ilə aktiv fəaliyyətimiz davam edir. Artıq 20 mindən çox şəxsi həm sosial ödənişlər, həm psixoloji dəstək, həm də reabilitasiya vasitələri ilə əhatə etmişik. Bu şəxslərə artıq 1200 reabilitasiya vasitəsi təqdim etmişik. Məşğulluq proqramlarımız isə 3700 şəxsi əhatə edib.

«Bir pəncərə» sistemi üzrə vətəndaşlara tam şəffaf, sadə və əlçatan prosedurlar təklif etməyə imkan verən Mərkəz bu sahədə ölkəmizin yeni brendini formalaşdırır. Bundan əlavə, onu da qeyd etməliyik ki, ötən dövrdə əhalinin sosial təminatının daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər görülüb.

Mərkəzdə 230 nəfərdən çox əməkdaş, habelə «Könüllü DOST» proqramı üzrə 50 nəfər könüllü gün ərzində orta hesabla 800 vətəndaşın qəbulunu həyata keçirəcək. Burada çalışanların əksəriyyəti gənclərdən ibarətdir, bu isə daxili intellektual resursları üzə çıxarmağa kömək etməklə yanaşı, xidmətin yüksək keyfiyyətlə icrasında da müstəsna rol oynayır.

DOST Mərkəzinin tərkibindəki «Çağrı mərkəzi» ölkə üzrə gündəlik 5000-dək zəng qəbuluna şərait yaradır. «ART School» – İnklüziv İncəsənət məktəbi isə ildə orta hesabla 150–200 əlilin təlimlərdən keçməsinə imkan verəcək. Bütün bunlar dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması kimi sosial islahatlar proqramının əsas hədəflərinin real müstəviyə uğurla proyeksiya olunduğu deməkdir.

*Diqqətə çatdırıldı ki, indiyədək DOST mərkəzlərində xidmət göstərilmiş 330 mindən çox şəxsin məmnunluq dərəcəsi 97,2 faiz təşkil edir. Binəqədi rayonunda 7000 kvadratmetr ərazini əhatə edən 4 saylı DOST Mərkəzinin fəaliyyətə başlaması da bu prosesə mühüm töhfə verəcək, daha geniş miqyasda keyfiyyətli sosial xidmətlərin həyata keçirilməsinə imkan yaradacaqdır.*

*Gələcək planlar barədə danışan nazir qeyd etdi ki, yaxın vaxtlarda Abşeronda növbəti DOST Mərkəzi açılacaq, Quba, Sabirabad, Gəncə, Sumqayıtda da artıq bu istiqamətdə iş gedir. Ümumilikdə 16 regional Mərkəzin yaradılması planlaşdırılır. Əlbəttə, bu sahədə önəmli prioritetlərdən biri də işğaldan azad olunmuş ərazilərimizlə bağlıdır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, artıq Şuşada DOST Mərkəzinin yaradılması ilə bağlı işlərə başlanılıbdır.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ VİDEOKONFRANS FORMATINDA QEYRİ-FORMAL ZİRVƏ GÖRÜŞÜ

*31 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə çıxış etmişdir.*

*Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev onlayn Zirvə görüşünü açaraq iştirakçıları salamladı, təşkilatın əsas məqsədinin türk dünyasını ən vacib iqtisadi, mədəni məkanlardan birinə çevirmək olduğunu dedi. Qazaxıstan dövlətinin başçısı Türküstan şəhərinin türk dünyasının mənəvi paytaxtlarından biri olduğunu bildirdi.*

*Sonra Qazaxıstanın qədim Türküstan şəhərinin tarixindən, mədəniyyətindən və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətindən bəhs edən qısa film nümayiş etdirildi.*

*Qazaxıstanın birinci Prezidenti – elbası, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev çıxışında Azərbaycan Prezidentini Qələbə münasibətilə təbrik etdi.*

**Nursultan Nazarbayev:** Bu gün mən Azərbaycan Respublikasının Prezidenti İlham Heydər

oğlu Əliyevi təbrik edirəm. Xüsusilə qeyd etmək istəyirəm ki, ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyə önəmli rol oynamışdır.

*Nursultan Nazarbayev 2019-cu ildə Bakıda keçirilmiş VII Zirvə görüşündə Türk Şurasının fəxri sədri seçildiyini və bundan böyük şərəf duyduğunu bildirdi. Nursultan Nazarbayev budəfəki Zirvə toplantısının keçirilmə səbəblərindən biri kimi, dünyada baş verən dəyişiklikləri, xüsusilə pandemiya ilə mübarizəni qeyd edərək, «Türk dünyasının gələcəyi – 2040» adlı sənədin hazırlanmasını təklif etdi. O, Türküstan şəhərinin yüksək səviyyəli tədbirlərə ev sahibliyi etməyə hazır olduğunu bildirdi. Qazaxıstanın ilk Prezidenti iqtisadi əlaqələrin əhəmiyyətinə də toxundu.*

– Biz hamımız bu prosesləri həyəcanla izləyir və nəticələri gözləyirdik. Əlbəttə, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi və Rusiyanın dəstəyi ilə Bakı və İrəvan arasında imzalanmış sülh razılaşması böyük İpək yolunun çiçəklənməsi üçün yeni imkanlara yol açır və Çinin «Bir kəmər – bir yol» təşəbbüsündən istifadə etməklə, Xəzər dənizinin rolunu artırır.

**Kasım-Jomart Tokayev** (*Qazaxıstan Prezidenti*): Növbəti çıxış üçün söz Türk Şurasının hazırkı sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə verilir.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Qazaxıstan Respublikasının Prezidenti!

Hörmətli həmkarlar!

İlk növbədə, Zirvə görüşünün keçirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüsə görə Nursultan Abışoviç Nazarbayevə təşəkkürümü bildirmək istəyirəm. Nursultan Abışoviç Nazarbayev Türk Şurasının fəxri sədri kimi, çox fəal iş aparır və bu sammitin keçirilməsi bunun bariz təsdiqidir.

Bugünkü Zirvə görüşü 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş Zirvə görüşündən sonra ikinci görüşdür. Bir il əvvəl, keçən ilin aprel ayında Bakıda Azərbaycanın təşəbbüsü ilə COVID-19-a həsr edilmiş Zirvə görüşü keçirilmişdir və bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, Zirvə görüşləri müntəzəm olaraq keçirilir və üzv ölkələr arasındakı birliyə onun çox böyük müsbət təsiri vardır.

Bu ilin sonunda Azərbaycan Türk Şurasındakı sədrliyini qardaş Türkiyəyə təhvil verəcək. Türkiyədə keçiriləcək rəsmi Zirvə görüşündə Azərbaycanın sədrliyi dövründə gördüyü işlərlə bağlı məlumat veriləcəkdir.

Bu gün isə fürsətdən istifadə edərək, İkinci Qarabağ müharibəsi haqqında məlumat vermək istərdim. Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərini işğal altında saxlayırdı. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt edilmişdi, 1 milyondan çox azərbaycanlı öz doğma torpağından didərgin sa-

lınmış, qaçqın-köçkün vəziyyətinə düşmüşdü. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdı. Ermənistan Azərbaycana qarşı soyqırımı törətmişdi. 1992-ci ildə törədilmiş Xocalı soyqırımı nəticəsində 600-dən çox günahsız, dinc insan vəhşicəsinə öldürülmüşdü. Onların arasında 106 qadın, 63 uşaq vəhşicəsinə qətlə yetirilmişdi.

Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini daim dəstəkləyiblər. Ancaq bu dəstəyin praktiki həyatda o qədər də böyük əhəmiyyəti yox idi. Çünki məsələ öz həllini tapmırdı. BMT Təhlükəsizlik Şurası – dünyanın ali beynəlxalq qurumu 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Bu qətnamələr 1993-cü ildə qəbul edilmiş və icrasız qalmışdı. Digər beynəlxalq təşkilatların qərar və qətnamələri də Azərbaycanın mövqeyini dəstəkləyirdi və bunun çox böyük siyasi və hüquqi mənası var idi. Halbuki real, praktiki müstəvidə məsələnin həllinə xidmət etmirdi. ATƏT, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir.

Məsələnin həlli ilə bağlı 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdı və 28 il ərzində fəaliyyət göstərsə də, nəticə olmamışdı. Minsk qrupunun fəaliyyətinin nəticəsi sıfıra bərabərdir. Halbuki Minsk qrupuna həmsədrlik edən ölkələr dünyanın aparıcı ölkələridir, nüvə dövlətləridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Əlbəttə ki, Ermənistana

qarşı işğalla bağlı ciddi təzyiq göstərilsəydi və Azərbaycanın tələbi nəzərə alınıb sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan sülh yolu ilə öz həllini tapa bilərdi.

Əfsuslar olsun ki, bu, baş vermədi. Əksinə, məsələnin dondurulması istiqamətində addımlar atılmışdı. Ermənistan faktiki olaraq, danışıqlardan imtina etmişdir. Əgər əvvəlki illərdə danışıqların imitasiyası ilə məşğul idisə, son iki-üç il ərzində faktiki olaraq, açıq, nümayişkaranə şəkildə bildirirdi ki, bir qarış da Azərbaycan torpağı Azərbaycana qaytarılmayacaq. Bundan əlavə, Ermənistan rəhbərinin məsuliyyətsiz və təxribat xarakterli addımları və bəyanatları faktiki olaraq, danışıqları mənasız etmişdi. Ermənistan rəhbəri iki il bundan əvvəl bildirmişdi ki, «Qarabağ Ermənistandır və nöqtə».

Təbii ki, bizim buna cavabımız oldu və ən ciddi cavab döyüş meydanında verildi. Ancaq bu özlüyündə göstərir ki, Ermənistan rəhbərliyi məsələni həll etmiş hesab edirdi və torpaqları geri qaytarmaq istəmirdi. Ondan başqa, Ermənistanın keçmiş müdafiə naziri, hansı ki, hərbi məğlubiyyətdən sonra vəzifədən azad edildi, Azərbaycanı yeni müharibə ilə hədələyirdi. Amerikada olarkən erməni diaspora təşkilatları ilə görüş əsnasında bəyan etmişdi ki, Ermənistan yeni torpaqlar uğrunda yeni müharibəyə hazırlaşır. Bu, faktiki olaraq, Azərbaycana qarşı çox ciddi, təxribat xarakterli bir addım idi. Bizi hədələyən keçmiş müdafiə naziri hərbi məğlubiyyətə görə vəzifədən uzaqlaşdırıldı.

Digər təxribat xarakterli addımlardan biri də qədim Azərbaycan şəhəri, bizim mədəni paytaxtımız olan Şuşada qanunsuz xunta rejimi, keçmiş Dağlıq Qarabağ rejimi başçısının andiçmə mərasiminin keçirilməsi idi. Bu, Azərbaycan xalqına qarşı təhqir idi. Qondarma «Dağlıq Qarabağ respublikası»nın qondarma parlamentinin Şuşa şəhərinə köçürülməsi və parlament üçün binanın inşa edilməsi də – bu bina indi məhv ediləcək, yaxud söküləcək – təxribat xarakterli addım idi. Yəni bütün bu addımlar göstərirdi ki, Ermənistan bizi təxribata çəkir, bizdən sərt reaksiya gözləyir və ondan sonra günahı bizim üstümüzə yıxıb, yenə də məsələni daha 30 il uzatmaq istəyir. Biz təxribata uymadıq. Biz özümüzü təmkinli, beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun şəkildə apardıq və belə olan halda, Ermənistan keçən ilin yayında bizə qarşı hərbi təxribat törətdi. Ermənistan–Azərbaycan dövlət sərhədində bizim mövqelərimiz atəş altına düşdü. Ermənistanın hərbi birləşmələri bizim sərhədimizi keçməyə cəhd göstərdi, bir neçə hərbçimiz həlak oldu. Biz onlara layiqli cavab verdik və onları geri oturtduq. Ancaq biz Ermənistan–Azərbaycan dövlət sərhədini keçmədik. Bir neçə gün davam edən hərbi toqquşma dayandı. Çünki bizim Ermənistan ərazisində müharibə aparmaq niyyətimiz yox idi. Halbuki istəsəydik rahatlıqla Ermənistan ərazisinə daxil ola bilərdik. Ondan bir ay keçəndən sonra – avqust ayında yeni bir təxribat törədildi və Azərbaycana diversiya qrupu göndərildi. Diversiya qrupunun rəhbəri saxlanıldı və ifadə verdi ki, o, terror

aktları keçirmək üçün Azərbaycana göndərilib və bu, növbəti təxribat idi. Nəhayət, sentyabrın sonlarında bizim hərbi mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə məruz qaldı və bunun nəticəsində bir neçə hərbçi və bir neçə mülki şəxs həlak oldu. Biz təbii ki, buna adekvat cavab verərək, əks-hücum əməliyyatı keçirib düşməni layiqincə cəzalandırdıq və 44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müharibə dövründə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Bizim tarixi şəhərimiz Şuşa noyabrın 8-də işğalçılardan azad edildi və Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı.

Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri Bəyanat imzaladıq. Bu bəyanat əsasında bizim digər rayonlarımız artıq siyasi yollarla Azərbaycana qaytarıldı. Beləliklə, məsələ hərbi-siyasi yollarla həll olundu. Artıq tam əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapıbdır. Hazırda Dağlıq Qarabağ adında hər hansı bir ərazi vahidi yoxdur. Azərbaycan bu məsələni həll edib, tarixi Zəfər əldə edib və dağıdılmış ərazilərdə bərpa işlərinə başlanılıbdır.

Biz müharibənin ilk günündən qardaş Türkiyədən böyük dəstək aldıq. Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəs-

təyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə, bu çox ciddi mesaj idi, ciddi siqnal idi. Bu bizə imkan verdi ki, əks-hücum əməliyyatını uğurla keçirək, imkan verdi ki, hər hansı bir kənar qüvvə məsələyə müdaxilə etməsin. Mən həmişə deyirdim ki, əgər xarici müdaxilə olmasa, Azərbaycan Dağlıq Qarabağ məsələsini qısa müddət ərzində həll edə bilər və belə də oldu.

Bu dəstəyə görə qardaş Türkiyəyə və onun hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirmək istəyirəm. Müharibə dövründə və müxtəlif dövrlərdə Prezident Ərdoğanın və Türkiyənin digər rəsmi şəxslərinin çoxsaylı bəyanatları məsələnin həllində xüsusi önəmli rol oynamışdır. Məni və Azərbaycan xalqını Şuşanın azad olunması ilə əlaqədar ilk təbrik edən Prezident Rəcəb Tayyib Ərdoğan olmuşdur. Noyabrın 8-də bu təbriki bizə çatdırmışdır. Türk Şurası sentyabrın 28-də – müharibədən bir gün sonra Azərbaycana dəstək xarakterli açıqlama vermişdir.

Ondan sonra müharibə dövründə bir neçə dəfə buna oxşar açıqlamalar vermişdir. Türk Şurasına təşəkkürümüzü bildiririk. Digər beynəlxalq təşkilatlar – «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı bizə öz siyasi dəstəyini göstərmişdir.

Azad edilmiş torpaqlarda hər şey dağıdılıb. İndi jurnalistlər oraya gedir, diplomatlar səfərlər edirlər. Görürlər ki, şəhərlər dağıdılıb, evlər dağıdılıb, kəndlər dağıdılıb, tarixi abidələrimiz dağıdılıb. Ağdamı xarici və yerli jurnalistlər Qafqazın Xirosiması ad-

landırıblar. Füzuli şəhəri işğaldan azad olunandan sonra bu şəhərdə bir salamat bina qalmamışdı ki, o binanın damında Azərbaycan bayrağı qaldırılsın. Ermənilər bütün şəhərlərimizi məhv ediblər, bütün tarixi abidələrimizi məhv ediblər, qəbiristanlıqları şumlayıblar, qəbirləri dağıdıblar, 60-dan çox məscidi dağıdıblar və yarımçıq sökülmüş məscidlərdə inək və donuz saxlayıblar. Bu videokadrlar internetdə vardır. Yəni bu, bütün müsəlman aləminə qarşı təhqirdir, cinayətdir və bütün dünya artıq bunu görür və görməlidir. Biz öz tarixi missiyamızı icra etdik, erməni faşizmini məhv etdik. Hazırda bərpa işlərinə start verilib. Müharibədən sonra bir çox azərbaycanlı mülki şəxs və hərbçi minaya düşərək həlak olub və yaralanıbdır.

Ermənistan bu günə qədər bizə mina xəritələrini vermir. Bu, növbəti hərbi cinayətdir. Ona görə minalardan təmizləmə işi daha çox vaxt aparacaq. Bu işlər başa çatmadan, əlbəttə ki, biz köçkün, qaçqın soydaşlarımızı o torpaqlara qaytara bilmərik.

Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanıbdır, türk dünyası parçalanıbdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının

birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün də əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün.

Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmir yolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start veribdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər.

Mən çıxışımı yekunlaşdırmaq istəyirəm. Yenə də demək istəyirəm ki, mən öz çıxışımı bu məsələyə həsr etdim. Bu da təbiidir. Çünki dost ölkələrin rəhbərləri məsələnin mahiyyətini dərindən bilməlidirlər. Ümid edirəm ki, növbəti canlı təmaslar əsnasında biz bu məsələni daha geniş formatda müzakirə edəcəyik. Əminəm ki, Türkiyədə keçiriləcək Zirvə görüşündə biz hamımız canlı olaraq iştirak edəcəyik. Biz sədr kimi, orada həm görülmüş işlərlə bağlı məlumat verəcəyik, həm də gələcək planlar haqqında danışacağıq. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

**Kasım-Jomart Tokayev:** Hörmətli İlham Heydər oğlu, məlumatlı və mənalı nitqiniz üçün tə-

şəkkür edirik. Azərbaycan və Ermənistan arasında razılaşma çox vacib amil rolunu oynayır, biz onun uğuruna inanırıq və Sizi bir daha təbrik edirik.

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əhəmiyyətini vurğuladı, pandemiyaya qarşı birgə mübarizənin vacibliyindən danışdı. Türkiyə Prezidenti ölkələrimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərdə də təşkilatın həmrəylik nümayiş etdirdiyini bildirdi.*

**Rəcəb Tayyib Ərdoğan:** Bu münasibətlə əziz qardaşım, hörmətli İlham Əliyev başda olmaqla, bütün azərbaycanlı qardaşlarımı Dağlıq Qarabağdakı Zəfərlə bağlı şəxsən öz adımdan və xalqım adından bir daha təbrik edirəm. 44 gün davam edən, dastana bənzər mübarizədən sonra 30 illik işğal sona çatdı, Dağlıq Qarabağ Ana Vətənlə yenidən qovuşdu. Ancaq deməliyəm ki, Qarabağ bölgəsindəki 67 məsciddən 63-ü dağıdılıb, həmçinin kilsələr də yerlə yeksan edilibdir.

Həmçinin bu gün 1918-ci ildə azərbaycanlı qardaşlarımızın məruz qaldıqları soyqırımın anım günüdür. Biz Xocalı qətliamını heç vaxt unuda bilmərik. Biz bu qətliamın növbəti ildönümünü bir müddət əvvəl qeyd etdik. Mən qətlə yetirilmiş on minlərlə qardaşımıza rəhmət diləyirəm.

Qarabağdakı türk irsinin bərpası və qorunması üçün bütün imkanlarımızla Azərbaycanın yanında olmağa davam etməyimiz hamımız üçün əhəmiyyət daşıyır. Eyni qaydada bu addımı atarkən tezliklə Azərbaycanın bu bölgəsini inkişaf etdirmək üçün

bütün məcburi köçkün qardaşlarımızın yenidən doğma torpaqlarına qayıtmalarına önəm verirəm. Arzum odur ki, ən qısa zamanda – Ramazan bayramından sonra qardaşımla birgə Şuşanı ziyarət edək, inşallah, orada yeni bir bayram yaşayaq.

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Türk Şurasının regional əməkdaşlıq üçün səmərəli mexanizmə çevrildiyini vurğuladı. O, türk dövlətlərinin istənilən çağırışlara hazır olmasının, mövcud potensialın genişləndirilməsinin vacibliyindən danışdı. Şavkat Mirziyoyev Azərbaycanın qazandığı Qələbə münasibətilə təbriklərini çatdırdı.*

**Şavkat Mirziyoyev:** Fürsətdən istifadə edərək, bir daha Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi və Azərbaycan xalqını Dağlıq Qarabağın qaytarılması və tarixi ədalətin bərpası münasibətilə təbrik etmək istəyirəm. Özbəkistan bu prosesə töhfə vermək üçün hazırdır. Biz qədim abidələrin, məscidlərin, mədəni maarifləndirmə məkanlarının bərpası haqqında danışmışıq. Biz hazırda bu istiqamətdə fəaliyyətimizi azərbaycanlı həmkarlarımızla davam etdiririk.

*Türk Şurasının baş katibi Bağdad Amreyev Türk dünyasının digər ölkələrlə sabit əlaqələr qurduğunu, 10-dan çox ölkənin təşkilatda müşahidəçi statusu əldə etməkdə maraqlı olduğunu bildirdi. Bağdad Amreyev pandemiyanın Türk Şurası daxilində əməkdaşlığa yeni stimul verdiyini vurğuladı, İstanbulda keçiriləcək sammitlə bağlı bir sıra təkliflər səsləndirdi. Türk Şurasının baş katibi də Azərbaycanı parlaq Qələbəsi münasibətilə təbrik etdi.*

**B a ğ d a d  A m r e y e v:** Bütün çağırışlara və çətinliklərə baxmayaraq, 2020-ci ilin gündəliyi zəngin olub. Ötən il Türk dünyası üçün həqiqətən də məhsuldar və hətta Zəfər ili olub. Türk dünyası önəmli uğurlarına, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunmasına, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsinə görə daha da güclənib. Dağlıq Qarabağdakı müharibə zamanı Türk Şurası bütün üzv dövlətləri və zati-alilərin adından Azərbaycanı bütün vasitələrlə dəstəkləyib. İcazə verin, təşkilatın fəaliyyətdə olan sədri kimi, zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çoxşaxəli əməkdaşlığın inkişafında göstərdiyi səylərinə görə təşəkkürümü bildirim.

* * *

*Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov və Macarıstanın Baş Naziri Viktor Orban Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə çıxış etdilər.*

# RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ ALEKSEY OVERÇUK İLƏ GÖRÜŞ

*1 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Hökumətinin sədr müavini Aleksey Overçuku qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi yenidən görməyimə şadam, xoş gəlmisiniz! Üçtərəfli işçi qrupu çərçivəsində işlər uğurla gedir. Çox intensiv məsləhətləşmələr aparılır. Bu məsələ barədə mənə vaxtaşırı məruzə edirlər. Şadam ki, qəbul edilmiş qərarın düzgün olması təsdiqlənir, ən başlıcası, artıq konkret nəticə vardır. Bildiyimə görə, həm əyani, həm də videokonfrans formatında beş iclas keçirilib.

Beləliklə, müzakirə üçün mövzu var və bu mövzu həm iqtisadi preferensiyalar, həm regional əməkdaşlıq, həm də bizim regionda təhlükəsizliyin və sülhün möhkəmləndirilməsi baxımından vacibdir. Xüsusən ona görə ki, münaqişədən sonrakı dövrdə vəziyyət bütövlükdə müsbət istiqamətdə inkişaf edir, eskalasiya riskləri minimaldır. Təbii ki, əməkdaşlıq elementləri nə qədər çox olsa, təhlükəsizlik və sabitlik də bir o qədər möhkəm olacaq. Ona görə də biz bu gün həmin məsələləri müzakirə edəcək, sonrakı addımla-

rımızı və fəaliyyətimizi planlaşdıracağıq. Bir daha xoş gəlmisiniz!

**Aleksey Overçuk**: Sağ olun, hörmətli İlham Heydər oğlu. Sizinlə görüşmək, regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə Baş nazirlərin müavinlərinin üçtərəfli işçi qrupu çərçivəsində aparılan işləri müzakirə etmək imkanına görə təşəkkürümü bildirmək istəyirəm. Siz qeyd etdiyiniz kimi, biz həm əyani, həm də videokonfrans rabitəsi rejimində beş dəfə görüşmüşük. İşimizdə müəyyən tərəqqi var və sıx əlaqəli şəkildə işləyirik. Biz həm Azərbaycan tərəfi, həm də Ermənistan tərəfi ilə daim əlaqədəyik. Həqiqətən, burada çox yaxşı əlaqə yaradılıbdır.

## TÜRKİYƏNİN «BAYKAR» ŞİRKƏTİNİN TEXNİKİ DİREKTORU SƏLCUQ BAYRAKTAR VƏ ASELSAN ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN RƏHBƏRİ VƏ BAŞ DİREKTORU HALUK GÖRGÜN İLƏ GÖRÜŞ

*1 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Türkiyənin «Baykar» şirkətinin texniki direktoru Səlcuq Bayraktarı və ASELSAN şirkətinin İdarə Heyətinin rəhbəri və baş direktoru Haluk Görgünü qəbul etmişdir.*

*Səlcuq Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçımıza çatdırdı. O, Prezident İlham Əliyevi Vətən müharibəsindəki Qələbə münasibətilə təbrik etdi, şəhidlərimizin xatirəsini andı.*

*Rəcəb Tayyib Ərdoğanın salamlarına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

*Dövlət başçısı Vətən müharibəsi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının Azərbaycana dəstəyini xüsusi vurğuladı. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının martın 31-də keçirilmiş Zirvə görüşündə*

*Türkiyə Prezidentinin Azərbaycanı Qələbə münasibətilə bir daha təbrik etməsini yüksək qiymətləndirdi.*

*Türkiyə müdafiə sənayesinin əldə etdiyi nailiyyətlərə toxunan Prezident İlham Əliyev Səlcuq Bayraktarın bu uğurların önündə getdiyini vurğuladı, «Baykar» şirkətinin istehsal etdiyi məhsulların torpaqlarımızın azad olunması zamanı düşmən texnikasının məhv edilməsindəki rolunu qeyd etdi.*

*Dövlət başçısı Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin gücləndirilməsinə, əməkdaşlığın inkişafına, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə Səlcuq Bayraktarın «Qarabağ» ordeni ilə təltif edildiyini bildirdi və ordeni Səlçuk Bayraktara təqdim etdi.*

*Yüksək mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Səlcuq Bayraktar bundan böyük qürur və şərəf duyduğunu söylədi.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*1 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında aprelin 1-də telefon danışığı olmuşdur.*

*Telefon söhbəti zamanı Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyət müzakirə olundu. Vəziyyətin bütövlükdə sabit olmasından, atəşkəs rejiminə riayət edilməsindən məmnunluq ifadə edildi.*

*Rusiya Federasiyası Hökumətinin sədr müavini Aleksey Overçukun Bakıda apardığı danışıqlar nəzərə alınmaqla, Cənubi Qafqazda iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının nizamlanması üzrə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlarına müvafiq olaraq, aparılan işlərin gedişi nəzərdən keçirildi. Bu kontekstdə üç ölkənin Baş Nazir müavinlərinin həmsədrliyi ilə işçi qrupunun fəaliyyəti müsbət qiymətləndirildi.*

*İkitərəfli gündəlikdəki bir sıra aktual məsələlərə, o cümlədən koronavirus pandemiyasına qarşı mübarizədə əməkdaşlıq məsələlərinə toxunuldu.*

*Hər iki tərəfin Azərbaycan–Rusiya strateji tərəfdaşlığının möhkəmləndirilməsini, qarşılıqlı faydalı layihələrin inkişafını davam etdirmək əzmi təsdiqləndi.*

*Əlaqələrin bundan sonra da davam etdirilməsi barədə razılıq əldə edildi.*

## DÜNYA BANKININ REGİONAL DİREKTORU SEBASTİAN MOLİNEUS İLƏ GÖRÜŞ

*1 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Dünya Bankının regional direktoru Sebastian Molineusu qəbul etmişdir.*

**İlham Əliyev**: Xoş gəlmisiniz, sizi görməyə çox şadam.

**Sebastian Molineus**: Mən də Sizi görməyə şadam. Nəhayət, Azərbaycana yenidən dönmək və Sizi görmək çox xoşdur.

**İlham Əliyev:** Bilirəm ki, sizin məşğul proqramınız var.

**Sebastian Molineus:** Elədir ki, var. Təsəvvür edirəm ki, Sizin cədvəliniz mənimkindən daha çox məşğuldur. Odur ki, bizi qəbul etmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm.

**İlham Əliyev:** Gələcək əməkdaşlığımızla bağlı fikir mübadiləsi aparmaq, birgə addımlarımızı uzlaşdırmaq üçün yaxşı fürsətdir. Çünki bu vaxta qədər əməkdaşlıq çox uğurlu olubdur. Mən elə indicə məlumata baxdım. Biz 47 layihə həyata keçirmişik və onların bəziləri hələ icra mərhələsindədir. Ümumi paket təxminən 4 milyard ABŞ dolları təşkil edir. Bizim inkişafımızın çox vacib sahələrinə, infrastruk-

tura göstərdiyiniz dəstəyə görə sizə minnətdarlığımı ifadə etmək istəyirəm. Eləcə də, TANAP-ın maliyyələşdirilməsi ilə bağlı verdiyiniz dəstəyə görə sizə xüsusi təşəkkürümü bildirirəm. Bu da maliyyə baxımından, həm də digər maliyyə institutlarına müəyyən siqnalın verilməsi baxımından çox önəmli idi. Şadam ki, artıq layihənin açılışı olubdur. «Cənub Qaz Dəhlizi» tam olaraq 3 aydır ki, fəaliyyət göstərir və bu, yalnız başlanğıcdır. Əlbəttə, biz «Doing Business» proqramında mövqemizi yaxşılaşdırmağımızla çox fəxr edirik. Biz 191 ölkə arasında 28-ci mövqedəyik. Bu bizim üçün həqiqətən də mühüm nailiyyətdir. Lakin biz islahatları davam etdirəcək və mən əminəm ki, görüşümüzdə biz bunu müzakirə edəcəyik. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə yeni imkanlar vardır. Orada infrastrukturun inkişafına böyük ehtiyac vardır. Çünki bütün infrastruktur dağıdılıb və insanları qaytarmaq üçün biz, əlbəttə ki, minalardan təmizləmə işlərini, sonra isə yenidən qurulma işlərini həyata keçirməliyik. İnfrastruktur layihələri olmadan məcburi köçkün və qaçqınları torpaqlarına qaytarmaq mümkün olmayacaq. Odur ki, biz bu məsələlərdə də Dünya Bankı ilə əməkdaşlığa güvənirik.

**Sebastian Molineus:** Əvvəla, bizimlə görüşmək üçün vaxt ayırdığınıza görə çox sağ olun. İcazə verin, Sizi gec də olsa Novruz bayramı münasibətilə təbrik edim. Ümid edirəm ki, bayramı ailənizlə keçirmək imkanınız olub. Bir daha qeyd etmək istəyirəm ki, yenidən burada olduğuma görə çox böyük sevinc hissi keçirirəm. Pandemiyanın baş qaldırmasından bir il keçib və xoşbəxtlikdən biz geri qayıda bildik.

Cənab Prezident, əvvəla, Sizə Azərbaycan üzrə yeni ölkə menecerimiz Sara Mayklzı təqdim etmək istəyirəm. Əlbəttə, Siz onu yaxşı tanıyırsınız. Sara ölkə üzrə yeni menecer olacaq. O, növbəti 4 ildə burada olacaq. Hesab edirəm ki, o, əla seçimdir. Siz bunu tezliklə görəcəksiniz. O, Azərbaycan hökuməti və Dünya Bankı arasında əməkdaşlığı daha da təkmilləşdirmək üçün bütün keyfiyyət və atributlara sahibdir.

**İlham Əliyev:** Sizə burada yaxşı vaxt keçirməyi arzulayıram.

*Söhbət zamanı Dünya Bankının regional direktoru Sebastian Molineus Azərbaycanda iqtisadi sahədə gedən proseslərin və ölkəmizlə əməkdaşlığın önəmini vurğuladı, Azərbaycan Prezidentinin islahatlar siyasətini yüksək qiymətləndirdi.*

*Görüşdə strateji istiqamətlərdə əlaqələrin və Dünya Bankı ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU TEDROS ADHANOM QEBREYESUSLA VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*1 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusla videokonfrans formatında görüşmüşdür.*

*Görüşdə Ümumdünya Səhiyyə Təşkilatının Avropa Bürosunun sədri Hans Klüqe və təşkilatın digər rəhbər nümayəndələri iştirak etdilər.*

*Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycanın təşkilata bütün sahələrdə, o cümlədən maliyyə sahəsində 10 milyon dollar dəyərində etdiyi yardımı yüksək qiymətləndirərək, ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına siyasi və mənəvi dəstəyinin çox dəyərli olduğunu qeyd etdi.*

*Prezident İlham Əliyev pandemiya ilə mübarizə istiqamətində ölkəmizdə görülmüş işlərdən danışdı, bu sahədə Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfələri qeyd etdi. Ölkəmizin təşəbbüsü ilə BMT Baş Assambleyasının koronavirus xəstəliyi ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının, Türk Şurasının fövqəladə Zirvə görüşünün keçirildiyini bildirdi.*

*Martın 21-də isə BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində «Qoşulmama Hərəkatı»nın sədri qismində Azərbaycanın təşəbbüsü ilə «COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi» adlı Qətnamənin qəbul edildiyini vurğuladı.*

*Dövlət başçısı dünyada pandemiyaya qarşı mübarizənin əhəmiyyətinə toxunaraq, peyvənd millətçiliyi ilə bağlı ictimaiyyətə açıqlamalar verdiyini, bəzi ölkələrin tələb olunandan daha çox peyvənd sifariş etdiyini, bəzi ölkələrin isə ciddi problemlərlə üzləşdiyini bildirdi.*

*Prezident İlham Əliyev peyvəndlərin ədalətli şəkildə bölüşdürülməsində müşahidə edilən ayrı-seçkiliyin məyusluq yaratdığını diqqətə çatdırdı.*

*Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus COVAX təşəbbüsü çərçivəsində ən qısa zamanda 84 min «AstraZeneca» peyvəndinin Azərbaycana göndəriləcəyini vurğuladı. Prezident İlham Əliyev bununla bağlı təşəkkürünü bildirdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ TİCARƏT NAZİRİ RUHSAR PEKCANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Ticarət naziri xanım Ruhsar Pekcanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ruhsar Pekcan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçımıza çatdırdı. Prezident İlham Əliyev də Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

*Türkiyədə Azərbaycanın uğurlarından qürur duyulduğunu deyən Ruhsar Pekcan Vətən müharibəsi zamanı Türkiyə xalqının Azərbaycandakı hadisələri və Prezident İlham Əliyevin fəaliyyətini yaxından izlədiyini, qazanılan uğurlara sevindiklərini bildirdi.*

*Prezident İlham Əliyev Türkiyə xalqının dəstəyini hər zaman hiss etdiyini və Vətən müharibəsində də Türkiyə ictimaiyyətinin Azərbaycanın yanında olduğunu vurğuladı. Dövlət başçısı müharibənin ilk günündən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın verdiyi önəmli bəyanatları yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev Vətən müharibəsində Türkiyə mətbuatının fəaliyyətinə toxundu, müharibə ilə bağlı məlumatların dünyaya yayılmasında onun xüsusi rolunu yüksək qiymətləndirdi.*

*Həm müharibə zamanı, həm də sonrakı dövrdə Türkiyə ictimaiyyətindən çoxlu dəstək məktubları aldığını qeyd edən dövlət başçısı bunun birliyimizin növbəti təzahürü olduğunu bildirdi.*

## AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ VƏZİFƏSİNƏ TƏYİN OLUNMUŞ ZAUR MİKAYILOV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*5 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar aprelin 5-də Zaur Mikayılovu videoformatda qəbul etmişdir.*

*Dövlət başçısı qəbulda çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Siz Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edilirsiniz. Bu sahə prioritet sahələrdən biridir. Mən bu sahəyə həmişə çox böyük diqqət göstərmişəm. Bu gün, indiki şəraitdə bu sahənin əhəmiyyəti daha da artır. Son illər ərzində bu sahədə böyük işlər görülüb. Köhnə infrastrukturun təmiri ilə bağlı əsaslı işlər görülübdür. Çünki əsas infrastruktur sovet dövründə yaradılmış və vaxt keçdikcə yararsız vəziyyətə düşmüşdü, ona görə təmirə ehtiyac var idi. Eyni zamanda, mənim təşəbbüsümlə bir neçə böyük su anbarı inşa

edilibdir. Əgər vaxtında bu su anbarları inşa edilməsəydi, bu gün meliorasiya sahəsində bizim böyük problemlərimiz ola bilərdi. Eyni zamanda, içməli su təminatı da Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyəti tərəfindən həmişə diqqət mərkəzində olubdur. Cəmiyyət ölkəmizdə bir neçə içməli su layihəsini də icra edibdir.

Bildirməliyəm ki, mənim təşəbbüsümlə inşa edilmiş Taxtakörpü su anbarı eyni zamanda, suvarma işləri ilə bərabər, Bakının da içməli su ilə təmin edilməsində önəmli infrastruktur obyektidir. Çünki Taxtakörpü–Ceyranbatan su kanalının çəkilməsi Ceyranbatan su anbarında suyun səviyyəsinin lazımi səviyyədə saxlanılmasına şərait yaradır. Əgər biz son iki ilin quraqlığını nəzərə alsaq, birmənalı şəkildə demək olar ki, vaxtilə Taxtakörpü su anbarı və su kanalı tikilməsəydi, Bakıda çox kəskin su problemi olacaqdı. Taxtakörpü su anbarından sonra Şəmkirçay su anbarı inşa edilibdir.

Beləliklə, ölkəmizin həm şimal, həm də qərb bölgələrində vaxtilə suvarılmayan on minlərlə hektar torpağa su verilibdir. Artıq bu özünü kənd təsərrüfatı istehsalının, məhsuldarlığın artmasında göstərir.

Meliorativ tədbirlər hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır, xüsusilə su ehtiyatları o qədər də böyük həcmdə olmayan ölkələrdə bunun daha da böyük əhəmiyyəti vardır. Bir daha demək istəyirəm ki, su anbarlarının, su kanallarının tikintisi infrastruktur layihələri arasında həmişə prioritet yerdə olub və bundan sonra da belə olacaqdır. Bütün bu işlərlə bərabər, biz, əlbəttə, suyun səmərəli istifadəsindən də

həmişə narahat idik. Bu sahədə əldə edilmiş uğurlar var, eyni zamanda, çətinliklər də var, çatışmazlıqlar da var. Bunlar aradan qaldırılmalıdır.

Amma bütövlükdə son illər ərzində kənd təsərrüfatının dayanıqlı inkişafı su təminatının səmərəliliyi ilə bilavasitə bağlıdır. Biz son illər ərzində vaxtilə suvarılmayan torpaqlara su gətirmişik. Bu torpaqların həcmi 100 min hektarlarla ölçülür. Vaxtilə, ümumiyyətlə, su görməyən torpaqlara, yaxud da ki, qismən suvarılan torpaqlara suyun verilməsi bu bölgələri canlandırdı və 100 minlərlə hektar torpağa su verildi.

Bu gün biz kənd təsərrüfatının müxtəlif sahələrində bu siyasətin təzahürlərini görürük. Bizim bəzi iri fermer təsərrüfatlarımızda, taxılçılıqla məşğul olan təsərrüfatlarda məhsuldarlıq bir hektardan 50, 60, hətta 70 sentnerə çatır. Bu, Avropanın aparıcı ölkələrinin səviyyəsinə uyğundur. Burada təkcə suvarma işləri yox, eyni zamanda, digər tədbirlərin də xüsusi çəkisi vardır. Ancaq suvarma olmadan məhsuldarlıqdan söhbət gedə bilməz.

Biz son illər ərzində Azərbaycanda pambıqçılıq sahəsini, demək olar ki, dirçəltmişik. Təqribən 5-6 il bundan əvvəl pambıqçılıq tamamilə məhv olmuşdu və ölkədə cəmi 20–30 min ton pambıq yığılırdı. Görülmüş tədbirlər nəticəsində biz keçən il rekord göstəriciyə nail olduq – 330 min tondan çox pambıq yığıldı və hektardan məhsuldarlıq 33 sentnerdən çoxdur. Əgər sovet dövrünün ən uğurlu illəri ilə müqayisə etsək, deyə bilərik ki, sovet dövründə cəmi iki ildə hektardan məhsuldarlıq 33 sentnerdən

çox olmuşdu. Yəni bütün bunların təməlində məqsədyönlü siyasət və aidiyyəti qurumların koordinasiyalı şəkildə fəaliyyətinin təkmilləşdirilməsi dayanır. Kənd təsərrüfatında məhsuldarlığın artırılması bizim üçün bundan sonra da prioritet məsələlərdən biri olacaqdır.

Biz indi ərzaq təhlükəsizliyimizi təmin etmək üçün əməli addımlar atırıq. Ölkəmizin imkanları, gözəl iqlimi, bir neçə iqlim zonasının mövcudluğu bizə imkan verir ki, bir çox məhsullar Azərbaycanda yetişdirilsin. Məhsuldarlığın artırılması, əlbəttə ki, bu işlərə daha böyük təkan verəcək. Biz nəzərə almalıyıq ki, Azərbaycan dövləti sürətlə inkişaf edir, tələbat artır, əhali artır. Sovet İttifaqı dağılanda Azərbaycanın əhalisi 7 milyon idisə, bu gün 10 milyondan çoxdur. Deməli, istehlak da artır. Daxili istehlakı təmin etmək və ixrac imkanlarımızı artırmaq üçün, əlbəttə ki, qeyri-neft sektoru sahəsində kənd təsərrüfatının xüsusi yeri vardır. Təbii ki, suvarma aparılmadan, bu sahədə işlər düzgün istiqamətdə təşkil olunmadan biz hər hansı bir uğurdan söhbət edə bilmərik. Əldə edilmiş nailiyyətlərlə əlaqədar çox danışmaq olar, mən sadəcə, əsas məqamları qeyd etdim.

Eyni zamanda, sizin qarşınızda duran vəzifələrdən biri çatışmazlıqların aradan qaldırılması, idarəetmədə müasir yanaşmanın tətbiq edilməsi, müasir texnologiyaların ölkəmizə gətirilməsidir. Çünki biz bundan sonra meliorativ tədbirləri, necə deyərlər, dədə-baba üsulu ilə apara bilmərik.

Dünyanın bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirilməlidir, sudan səmərəli istifadə

edilməlidir. Bizdə mövcud problemlərdən biri də itkilərin böyük həcmdə olmasıdır. Bu itkilər bəzi hallarda təbii xarakter alır, amma bəzi hallarda səhlənkarlıq ucbatından baş verir. Uçotun olmaması, əlbəttə, bizim işimizi çətinləşdirir. Ona görə tam uçot aparılmalıdır. Bizim su anbarlarımıza daxil olan və oradan çıxan suyun həcmi yaxın aylara qədər uçota alınmırdı. Düzgün təhlil aparmaq, proqnoz vermək üçün imkanımız yox idi. Ona görə itkilərin azaldılması ən vacib problemlərdən biridir.

Kanalların təmiri və yenidən qurulması da önəmli vəzifələrdən biridir. Sovet vaxtında çəkilmiş kanalların böyük əksəriyyəti torpaq kanallar idi. Onların böyük hissəsi bu gün də fəaliyyətdədir. Əlbəttə ki, torpaq kanallar suyun istənilən həcmdə ötürülməsinə imkan vermir, itkilər həm də buna görə baş verir, eyni zamanda, torpağın şoranlaşmasına da gətirib çıxarır. Ona görə də biz canımızı torpaq kanallardan qurtarmalıyıq. Ancaq onun əvəzinə hansı texnologiyalar gətiriləcək, bunu artıq siz müəyyən etməlisiniz. Dünyanın bu sahədəki aparıcı şirkətləri ilə sıx təmaslar qurulmalıdır, iqlimi bizim iqlimimizə oxşar olan ölkələrin təcrübəsindən faydalanmalıyıq. Elə ölkələr var ki, orada su resursları bizimkindən də azdır, ancaq məhsuldarlıq qat-qat çoxdur. Ona görə bütün bunlar gərək dəqiq araşdırılsın, düzgün fəaliyyət planı tərtib edilsin, lazım olarsa, Dövlət Proqramı qəbul olunsun ki, biz bundan sonrakı illərdə meliorasiya və suvarma sahəsində dünyanın ən müasir prinsiplərini ölkəmizdə tətbiq edək.

Bir müddət bundan əvvəl bu məsələ araşdırılarkən göstəriş vermişdim ki, yeni kiçik su anbarlarının yaradılması ilə bağlı təkliflər hazırlanıb təqdim olunsun. Belə təkliflər verildi. Mən prinsip etibarilə bu təklifləri təsdiqlədim və 10 yeni su anbarının tikintisi nəzərdə tutulur. Siz bir daha bu məsələlərə baxın, bu məsələləri təhlil edin. Çünki hər bir su anbarının tikintisi böyük vəsait tələb edir. Ondan sonra kanallar çəkilməlidir, digər tədbirlər görülməlidir. Bütün bu vəsait dövlət büdcəsi tərəfindən təmin edilir. Ancaq biz baxmalıyıq ki, bu sahəyə qoyulan vəsait nəticə ilə nə qədər uzlaşır.

Qoyulmuş vəsaitin müqabilində biz hansı nəticəni əldə edirik və edəcəyik. Çünki bu, düzgün hesablanmasa, bizim işimiz heç vaxt səmərə verməyəcək. Bu sahənin inkişafı dövlətin özəl sektora göstərdiyi növbəti qayğının təzahürüdür. Çünki dövlət bütün xərcləri öz üzərinə götürür ki, fermerlər, kəndlilər daha yaxşı məhsul götürsünlər, özləri üçün daha yaxşı şərait yaratsınlar, onların həyat səviyyəsi qalxsın. Nəzərə alsaq ki, kənd təsərrüfatı sahəsində fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar, bu sahənin inkişafı ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Bu, Azərbaycanda bir növ sosial sahə kimi qəbul olunur. Ancaq əgər inkişaf etmiş ölkələri götürsək görərik ki, orada belə deyil – suyun hər bir litri hesablanır, hər yerdə sayğaclar qoyulur, uçot düzgün aparılır və qoyulmuş investisiyanın müqabilində hansı nəticə əldə olunacaq bəri başdan hesablanır. Bizdə də belə olmalıdır.

Biz bundan sonra da kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlarımızı dəstəkləyəcəyik. Artan subsidiyalar bunu bir daha göstərir. Bizim niyyətimiz, siyasətimiz dəyişməz olaraq qalır. Ancaq bununla bərabər, kənd təsərrüfatı ilə məşğul olan hər bir adam öz məsuliyyətini də dərk etməlidir. Təhlil aparılarkən biz bir şeyə rast gəldik – suyun ədalətsiz bölüşdürülməsi halları geniş vüsət almışdır. Burada həm mərkəzi icra orqanları, həm yerli icra orqanları, həm də bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdilər. Belə olan halda, bəzi fermerlərə, bəzi kəndlilərə su çatmırdı. Mən göstəriş vermişdim, indi təhlil aparılır, araşdırma aparılır. Buna da son qoyulmalıdır. Su xətlərinin üzərində çoxsaylı qanunsuz birləşmələr quraşdırılıbdır. Təhlil aparılarkən biz buna da rast gəldik. Belə çıxdı ki, heç kim buna məsuliyyət daşımır, heç kim buna cavabdehlik daşımır. Buna son qoyulmalıdır. Mən göstəriş vermişdim ki, su xətləri üzrə həm vizual monitorinq aparılmalıdır, yəni yerində, eyni zamanda, müasir müşahidə sistemləri – kameralar quraşdırılmalıdır və bu qanunsuz birləşmələrə son qoyulmalıdır.

Çatışmazlıqlar çoxdur və siz fəaliyyət dövrünüzdə bütün bu işləri təhlil edəcəksiniz. Yenə də deyirəm, bu sahə prioritet sahə olaraq qalır və qalacaqdır. Ancaq burada yeni müasir tələblərə uyğun yanaşma olmalıdır. Hesab edirəm ki, siz bu məsələləri qısa müddət ərzində bir daha təhlil edib, konkret təkliflər paketi ilə çıxış edəcəksiniz.

Digər önəmli məsələ azad edilmiş torpaqlarda meliorativ tədbirlərin görülməsi ilə bağlıdır. Azad edilmiş torpaqlarda bizim böyük su mənbələrimiz mövcuddur və su mənbələrimiz orada formalaşır. Biz uzun illər ərzində, 30 ilə yaxın müddətdə bu imkanlardan məhrum idik. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini, o cümlədən bu sahədə də aparırdı və bizə qarşı ekoloji terror təşkil edilmişdi. Meşələrin qırılması, qoruqların məhv edilməsi – 54 min hektar meşə sahəsi ermənilər tərəfindən kəsilib, dağıdılıb, talanıb, oğurlanıb və bu, böyük cinayətdir. Dəymiş bütün ziyan indi hesablanır, o cümlədən bu ziyan da hesablanacaqdır. Onlar bizi sudan məhrum etmişdilər. Sərsəng su anbarı və Suqovuşan su anbarı onların nəzarətində idi. Bu iki su anbarını ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyev tikdirmişdi. Bu su anbarları onun təşəbbüsü ilə tikilmişdi ki, Ağdam, Tərtər, Goranboy, Bərdə və digər rayonlarımızda suvarma işləri aparılsın. Sərsəng su anbarının əsas məqsədi, funksiyası sadaladığım və digər rayonlarımıza suyun verilməsi idi. O vaxt bu mənbədən 100 min hektara yaxın torpağa su verilirdi, eyni zamanda, Suqovuşandan da. Lakin o, kiçikhəcmli su anbarıdır. Sərsəng su anbarında 500 milyon kubmetrdən çox su toplanırdı. Ancaq ermənilər suyumuzu kəsirdilər, qışda ekoloji ziyan vurmaq üçün qəsdən buraxırdılar, yaz-yay aylarında suyu kəsirdilər, biz susuz qalırdıq. Biz o bölgənin suvarılması ilə bağlı xüsusi tədbirlər planı hazırlamışdıq və mənim göstərişimlə orada yüzlərlə subartezian quyusu qazılmışdır. Ancaq biz Suqovuşan

qəsəbəsini azad edərkən Suqovuşan su anbarını da nəzarətimizə götürdük. Suqovuşan nəzarətimizə keçəndən sonra imkan yarandı ki, dediyim Ağdam, Tərtər, Bərdə, Goranboy və digər rayonlarımızda su təminatı böyük dərəcədə yaxşılaşsın. Ancaq o rayonlara gedən kanallar uzun illər ərzində istifadəsiz qalıb. Təhlil aparılmalıdır, onların vəziyyəti nə yerdədir, təmirə ehtiyac varsa, bu işlərə də baxılmalıdır ki, biz vaxt itirmədən suyu sahə başına, vətəndaşlarımızın sərəncamına verək.

Ağdam rayonunda Xaçınçay su anbarı, Füzuli şəhərinin, daha doğrusu, dağıdılmış şəhərin yaxınlığında su anbarı yerləşir. Artıq mənim göstərişimlə oraya qruplar ezam edilib. Azad edilmiş torpaqlarda digər su anbarları da var. Onların bütün parametrləri təhlil edilməlidir. Əlbəttə, biz bu su anbarlarından səmərəli şəkildə istifadə edəcəyik. Azad olunmuş torpaqlara vətəndaşlarımız qayıdandan sonra, əlbəttə ki, bu onlar üçün əlavə imkanlar yaradacaqdır.

Bununla paralel olaraq, azad edilmiş torpaqlarda bizim böyük çay resurslarımız da vardır. Biz bundan da məhrum idik. Bu gün azad edilmiş torpaqlarda formalaşan çaylarımız bizim əsas çaylarımızdır. Tərtərçay Kəlbəcər rayonu ərazisində formalaşır. Amma mənfur düşmən bizi Tərtərçayın suyundan məhrum etmişdi. Hətta Qarabağ bölgəsinə dəfələrlə səfərim zamanı mən bu problemlə maraqlanarkən görürdüm ki, o, böyük problemlər yaradır. Misal üçün, Tərtərin suyunu tam kəsirdilər. Tərtərçay bir çox yerlərdə, demək olar ki, qurumuş-

du. İndi biz Tərtərçaya qayıtmışıq, onun mənbəyinə qayıtmışıq. Bazarçay – ona Bərgüşad çayı da deyirlər, Həkəri çayı, Oxçuçay – bir çox çaylar, 10-dan çox çay orada formalaşır. Onların potensialı təhlil edilməlidir. Çayların məcrası ilə bağlı düzgün təhlil aparılmalıdır ki, biz bilək bu çaylardan necə səmərəli istifadə edək. Onların bir çoxu Araz çayına axır.

Azad edilmiş torpaqlarda su anbarlarının tikintisinə ehtiyac varmı, yoxmu, bu məsələyə də mütləq baxılmalıdır. Əlbəttə, azad edilmiş torpaqlarda bizim ən böyük su mənbəyimiz qonşu İranla sərhəddə yerləşən Xudafərin və Qız qalası su anbarlarıdır. Onlar çox böyük su anbarlarıdır. Xudafərin su anbarının həcmi 1,6 milyard kubmetrdir, çox böyük su anbarıdır. Bu su anbarından istifadə etmək üçün əlavə infrastruktur layihələri icra edilməlidir. İlk növbədə, kanallar çəkilməlidir ki, azad edilmiş torpaqlara – Zəngilan, Cəbrayıl, Qubadlı və digər bölgələrə biz bu su anbarlarından su götürüb, ondan səmərəli şəkildə istifadə edə bilək. Bu bizim böyük potensialımızdır.

Həm azad edilmiş torpaqlarda, həm də ölkəmizin digər yerlərində bizim bütün su ehtiyatlarımızın potensialı dəqiq təhlil olunmalıdır. Bu su ehtiyatlarından maksimum səmərə ilə istifadə etmək üçün konkret proqramlar və təkliflər təqdim edilməlidir. Beləliklə, bu sahədə görüləcək işlər çoxdur, həm azad edilmiş torpaqlarda, həm də digər ərazilərdə. Əsas prinsip müasirlik, ekoloji təhlükəsizlik və maksimum səmərəlilik olmalıdır ki, Azərbaycan vətəndaşları, kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlar öz hə-

yatlarında müsbət dəyişiklikləri görsünlər. Əminəm ki, bu belə də olacaq.

Yenə də deyirəm, son illər ərzində bu sahə mənim tərəfimdən həmişə prioritet sahə kimi qiymətləndirilibdir və bu sahənin inkişafı üçün çox böyük işlər görülüb, dövlət büdcəsindən böyük həcmdə vəsait ayrılıbdır. Əgər bu işlər görülməsəydi, bu gün biz çox böyük problemlərlə üzləşmiş olardıq. Ancaq əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, biz bu sahəyə müasir menecment gətirməliyik. Mən sizi bu vəzifəyə təyin edərkən məhz bu amili nəzərə aldım ki, hər bir yerdə müasir menecment olmalıdır, idarəetmə olmalıdır. Son vaxtlar apardığım kadr islahatları bunu göstərir. Harada ki, müasir menecment, müasir idarəetmə, dürüstlük, təmizlik, vicdan varsa, orada nəticə də olacaqdır. Sizi bu vəzifəyə təyin edərkən tövsiyələrimi verərək, əmin olduğumu bildirmək istəyirəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız.

**Zaur Mikayılov:** Möhtərəm cənab Prezident, çox təşəkkür edirəm. Bu təyinat mənim üçün çox böyük şərəf, eyni zamanda, çox böyük məsuliyyətdir. Bu etimadınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirəm ki, bu etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm və Vətənimiz üçün, ölkəmiz üçün canla-başla çalışacağam.

## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU TEDROS ADHANOM QEBREYESUSUN TƏŞƏBBÜSÜ İLƏ ÜMUMDÜNYA SAĞLAMLIQ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİNİN VİDEOMÜRACİƏTİ

*6 aprel 2021-ci il*

*Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil-qərargahında aprelin 6-da təşkilatın baş direktoru Tedros Adhanom Qebreyesusun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciəti təqdim olunmuşdur. Qeyd edək ki, tədbirdə 4 ölkənin dövlət və hökumət başçısının videomüraciəti yayımlanmışdır.*

**Tedros Adhanom Qebreyesus** (*Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru*): İndi isə pandemiya ilə bağlı təcrübəsi və pandemiyanın kəskin fazasının mümkün qədər tez bitməsi üçün hansı tədbirlərin görülməsinin vacib olması barədə danışmaq üçün sözü zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin videomüraciəti

Biz 1950-ci ildən etibarən hər il aprelin 7-də Ümumdünya Sağlamlıq Gününü qeyd edirik. Lakin 2021-ci ildə sağlamlığın əhəmiyyəti daha da artmışdır. Müasir, davamlı, yüksəkkeyfiyyətli səhiyyə sisteminə sahib olmaq hər bir ölkə üçün prioritetdir.

Hazırda Azərbaycanda səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan icbari tibbi sığorta tətbiq etməklə ilkin tibbi yardımı gücləndirir, təcili tibbi yardım xidmətlərini yeniləyir, ölkədə elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarını istifadəyə verməklə rəqəmsallaşmanı təmin edir.

Bu arada, COVID-19 pandemiyasının ikinci ili bütün dünyada səhiyyə sistemlərinə böyük təzyiq göstərməyə davam edir.

Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında «Qoşulmama Hərəkatı»nın Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Biz həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərmişik.

Builki Ümumdünya Sağlamlıq Günü «Daha ədalətli və daha sağlam dünyanın qurulması» mövzu-

suna həsr olunub. Bu mənada peyvəndlərin bərabər və ədalətli şəkildə paylanılması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bununla belə, peyvəndlərin inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qeyri-bərabər və ədalətsiz paylanılması bizi dərindən narahat edir. Bəzi ölkələr ehtiyacı olduğundan dəfələrlə çox peyvənd tədarük edir. Aydındır ki, belə şəraitdə digər ölkələr peyvənd qıtlığı ilə üzləşəcək.

Azərbaycan peyvəndlərin paylanılmasında ədaləti dəstəkləyərək, BMT-nin İnsan Hüquqları Şurasında «Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi» adlı qətnamə layihəsi irəli sürüb. Qətnamə bu il martın 23-də konsensus əsasında qəbul edilib.

Azərbaycan, həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olub. Biz və bütün beynəlxalq ictimaiyyət bu təşəbbüsün pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olmağını gözləyirik.

Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq.

Ümumdünya Sağlamlıq Gününüz mübarək!

**Tedros Adhanom Qebreyesus:** Təşəkkür edirəm, Prezident Əliyev. Mən Sizin peyvəndlərə bərabərhüquqlu, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin olunması ilə bağlı BMT-nin İnsan Hüquqları Şurasında göstərdiyiniz liderliyi alqışlayıram və peyvəndlərin ədalətli şəkildə paylanılması üçün tərəfimizdən daha çox işlərin görülməli olması ilə bağlı fikrinizlə razıyam.

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ YUSİF BİN ƏHMƏD ƏL-OSAYMİN İLƏ GÖRÜŞ

*8 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul etmişdir.*

**İlham Əliyev:** Gəldiyinizə görə təşəkkür edirəm. Siz bizi müntəzəm olaraq ziyarət edirsiniz. Bu bizim əməkdaşlığımızın və sizin ölkəmizə münasibətinizin çox yaxşı nümayişidir. Əvvəla, söhbətimizə başlamazdan öncə mən sizi İslam Əməkdaşlıq Təşkilatı və Azərbaycan arasında əməkdaşlığın inkişafına verdiyiniz müstəsna töhfəyə görə Azərbaycanın dövlət ordeni – «Dostluq» ordeni ilə mükafatlandırmaq istəyirəm.

*Azərbaycan Prezidenti İlham Əliyev «Dostluq» ordenini Yusif bin Əhməd əl-Osayminə təqdim etdi.*

– Həmçinin fürsətdən istifadə edərək, Azərbaycan və Ermənistan arasında münaqişənin həll olunması ilə bağlı Azərbaycana davamlı dəstəyinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm.

Bildiyiniz kimi, münaqişə bizim tərəfimizdən birtərəfli qaydada həll olunub. 44 günlük müharibə Azərbaycan torpaqlarının 30 il davam edən və 1 mil-

yondan çox azərbaycanlının iztirabına, şəhər və kəndlərimizin tamamilə dağıdılmasına gətirib çıxaran işğalına son qoydu. İndi əcnəbi jurnalistlər və diplomatlar işğaldan azad olunmuş ərazilərə səfər edəndə görürlər ki, ermənilər hər şeyi dağıdıblar. Bütün şəhərlər, bütün kəndlər, tarixi və dini məkanlar, məscidlər, qəbiristanlıqlar dağıdılıb. Bu, islamofobiyanın, azərbaycanofobiyanın, vandalizmin təzahürüdür. Çünki dəfələrlə dediyim kimi, bizim şəhərlərimiz Birinci Qarabağ müharibəsi ərzində deyil, sonradan, işğal dövründə dağıdılıb. Bu, bütün Azərbaycan və islam irsini Azərbaycanın bu tarixi torpaqlarından silmək və həmin torpaqların mənşəyini dəyişdirmək üçün qəsdən yürüdülən siyasət idi. Mən bilirəm ki, səfirlər, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Kontakt qrupunun üzvləri bu yaxınlarda işğaldan azad edilmiş ərazilərə səfər ediblər və bunu öz gözləri ilə görüblər. Onlar açıq bəyanatlar veriblər və biz buna görə çox minnətdarıq. İndi biz bütün dünyanın bunu görməyini, başa düşməyini istəyirik ki, bizim atdığımız addımlar haqq işi idi, beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, özünümüdafiə hüququmuza və ədalətə əsaslanırdı. Biz ədaləti bərpa etdik. Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır. Lakin bu, vaxt aparacaq. Çünki ən böyük problem minalardır. Müharibə bitəndən sonra bizdə artıq onlarla itki olub, o cümlədən minalardan ölənlər olub. Ermənistan bizə minaların xəritəsini verməyib. Bu daha bir müharibə cinayətidir. Çünki bunu etmək onların borcudur. Lakin müharibənin

artıq aylardır bitməsinə baxmayaraq, onlar azərbaycanlılara qarşı bu siyasəti davam etdirirlər.

Buna baxmayaraq, biz lazım olan hər şeyi edəcəyik. Minatəmizləmə prosesi gedir. Biz artıq yenidən qurulma işlərini planlaşdırırıq. Şəhərlərin, kəndlərin baş planları artıq hazırlanma prosesindədir və əlbəttə ki, biz islam dünyasından olan qardaşlarımızın gəlib ermənilərin bizim tarixi irsimizə nə etdiklərini və yenidən qurulma prosesini görməsini istəyirik. Sözsüz ki, mən sizi gələcəkdə, bu proseslərə başlayandan sonra da görməyə şad olardım.

**Yusif bin Əhməd əl-Osaymin**: Cənab Prezident, əvvəlcə, məni və Təmas qrupuna daxil olan ölkələrdən nümayəndə heyətini dəvət etdiyinizə, hadisələrin necə cərəyan etdiyini görmək imkanının yaradılmasına görə Sizə təşəkkür etmək istəyirəm. Sizinlə olan şəxsi münasibətimizə böyük dəyər verirəm, bu hər zaman belə olub və belə də davam edəcəkdir.

Cənab Prezident, Sizi təbrik etmək istəyirəm, çünki hər dəfə Bakıya səfərə gələndə hər tərəfdə yenilik və inkişafın şahidi oluram, şəhər sonuncu dəfə gördüyümdən daha fərqli olur. Əminəm ki, bütün bu inkişafın, tərəqqinin və gərgin işin arxasında Siz dayanmısınız və bu hər bir azərbaycanlının istəyidir.

Cənab Prezident, bu böyük Qələbə münasibətilə Sizi təbrik edirəm. Bu, yalnız Sizin deyil, bizim də qələbəmizdir və biz çox xoşbəxtik. Mən Sizin liderliyinizi və səbr nümayiş etdirməyinizi təqdir edirəm. Siz 30 il ərzində torpaqların işğalı məsələsində təmkinlə davrandınız, bunun başqa bir ölkədə ola bilə-

cəyinə inanmıram. Sizin məsələniz haqq işi idi – torpaqlar sizin idi, beynəlxalq hüquq tərəfinizdə idi, İslam Əməkdaşlıq Təşkilatı yanınızda idi və onun qətnamələri sizi dəstəkləyirdi. Burada söhbət ölkə ərazinizin 20 faizindən, Azərbaycanın böyük bir hissəsindən gedir. Allaha şükürlər olsun ki, Sizin müdrikliyiniz və təmkinliyiniz öz bəhrəsini verdi və məsələ müsbət həll olundu.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*8 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə aprelin 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng etmişdir.*

*Telefon söhbəti zamanı Dağlıq Qarabağ ətrafında vəziyyət, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlarına müvafiq olaraq, vəziyyətin daha da sabitləşdirilməsinin müzakirəsi davam etdirildi.*

*Söhbət zamanı xüsusi olaraq sülhün, təhlükəsizliyin və regionun davamlı sosial-iqtisadi inkişafının təmin olunması, həmçinin nəqliyyat kommunikasiyalarının bərpası üzrə işin gedişi ətraflı şəkildə nəzərdən keçirildi. Bu baxımdan aprelin 7-də Moskvada keçirilmiş Rusiya–Ermənistan yüksək səviyyəli görüşün yekunları nəzərdən keçirildi. Müxtəlif formatlarda təmasların fəallaşdırılması qərara alındı.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Həyat yoldaşınız – Edinburq hersoqu, şahzadə Filipin vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Şərəfli və ləyaqətli bir ömür yolu keçmiş şahzadə Filip öz doğma xalqına sədaqətlə xidmət etmiş, həmişə Sizin yanınızda olmuş, ölkənizin rifahı naminə məsuliyyətli fəaliyyətinizdə Sizə dəstək vermişdir.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, ailənizin üzvlərinə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 aprel 2021-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS CONSONA**

Hörmətli cənab Baş Nazir!

Edinburq hersoqu, şahzadə Filipin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə, Birləşmiş Krallığın bütün xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 aprel 2021-ci il*

## BMT BAŞ ASSAMBLEYASININ 75-ci SESSİYASININ SƏDRİ VOLKAN BOZKIR İLƏ GÖRÜŞ

*9 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri Volkan Bozkırı qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Sizinlə dəfələrlə görüşmüşük, siz Bakıda dəfələrlə olmusunuz. Amma bu dəfə BMT Baş Assambleyasının sədri kimi səfər edirsiniz. Bu çox gözəl hadisədir. Şadam ki, Azərbaycana səfər edirsiniz.

Biz fəxr edirik ki, qardaş ölkənin nümayəndəsi BMT Baş Assambleyasının sədridir. Bilirəm ki, COVID-ə baxmayaraq, 75-ci sessiya uğurla davam edir və burada sizin böyük səyiniz vardır.

Bizə göstərdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Bilirsiniz ki, biz COVID-lə bağlı bir neçə təşəbbüslə çıxış etdik. Türk Şurasının Zirvə görüşünü, «Qoşulmama Hərəkatı»nın Zirvə görüşünü keçirdik, BMT Baş Assambleyasının COVID-lə bağlı xüsusi sessiyasının keçirilməsinə nail olduq və sizin də böyük dəstəyiniz oldu. Ondan sonrakı hadisələr göstərdi ki, doğrudan da bu, indi gündəlikdə duran önəmli məsələlərdən biridir. Çünki vaksin millətçiliyi, vaksinlərin ədalətsiz bölüşdürülməsi bu gün artıq dünya

gündəmini zəbt edən bir məsələdir. Azərbaycan ilk ölkələrdən idi ki, bu məsələni açıb qaldırdı. Bu gün biz çalışırıq ki, bu ədalətsizliyi aradan qaldıraq. Eyni zamanda, COVID dönəmində biz 30-dan çox ölkəyə maddi və humanitar yardım göstərmişik və bu fəaliyyəti davam etdirmək əzmindəyik.

BMT qurumları ilə bizim ənənəvi sıx əlaqələrimiz olubdur və bu əlaqələr davam edir. Müharibədən sonrakı dövr ərzində təmaslar daha fəal olub və bu təmaslar davam etdiriləcək. Əlbəttə ki, bundan sonra da BMT dünyanın aparıcı qurumu kimi, postmünaqişə dövründə də fəal olmalıdır. Mən dəfələrlə bildirmişəm ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bunu həll edib və 30 ilə yaxın kağız üzərində olan qətnamələri yerinə yetirib. Münaqişə artıq tarixdə qalıbdır. İndi isə yeni dövr başlayıb – quruculuq dövrü, bərpa dövrü. Artıq buna da start verilib və biz BMT-nin bütün qurumları ilə, o cümlədən UNESKO ilə sıx təmasdayıq. UNESKO ilə gedən müzakirələr əsnasında missiyanın göndərilməsi nəzərdə tutulur. Əslində biz münaqişə dövründə dəfələrlə UNESKO-ya müraciət etmişdik ki, faktaraşdırıcı missiyanı işğal edilmiş bölgələrə göndərsin. Çünki bizdə olan məlumata görə, orada bizim tarixi, dini, mədəni abidələrimiz ermənilər tərəfindən dağıdılmışdır və biz istəyirdik ki, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə bilavasitə məşğul olan UNESKO gəlsin və bunu təsdiq etsin. Əfsuslar olsun ki, münaqişə dövründə bu təklifimiz cavabsız qalmışdır, ancaq münaqişədən sonra indi missiyanın göndərilməsi gözlənilir. Biz bunu alqışlayırıq.

Azad edilmiş torpaqlarda erməni vəhşiliyi, vandallığı göz qabağındadır. Nə qədər çox beynəlxalq təşkilatlar bunu öz gözləri ilə görsələr, münaqişə ilə bağlı, Ermənistanın işğalı ilə bağlı dünya birliyində təsəvvür bir o qədər daha geniş olar.

Bir sözlə, hörmətli Volkan bəy, biz bu istiqamətdə işlərimizi davam etdirəcəyik. Bir daha Azərbaycana gəldiyiniz üçün sizə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, siz bu yaxınlarda Türkiyəyə, Vətəninizə səfər etmisiniz və Azərbaycana, yenə də Vətəninizə səfər edirsiniz.

**Volkan Bozkır:** Hörmətli cənab Prezident!

Həqiqətən də Azərbaycana BMT Baş Assambleyasının sədri olaraq, ilk səfərimi etməkdən böyük məmnunluq və qürur duyuram. Azərbaycan BMT üçün çox önəmli bir ölkədir. Zati-alinizin pandemiya dövründə rəhbərlik etdiyi BMT-nin xüsusi sessiyası həqiqətən, tam zamanında və son dərəcə önəmli nəticələr ortaya qoyan bir toplantı oldu. Sizin aylarla sürən səyləriniz əslində mənə sədrlik etmək qürurunu bəxş etdi və bu baxımdan Sizə təşəkkür borcluyam.

Həmçinin «Qoşulmama Hərəkatı»na sədrliyi son dərəcə müvəffəqiyyətlə həyata keçirirsiniz. Bu, BMT üçün çox önəmli bir təşkilatdır və onun sədri olmaq da xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan fəaliyyətinizə görə Sizə təşəkkür etmək məqsədilə gəldim.

BMT Baş Assambleyasının bir türk sədri olaraq da Azərbaycana gəlmək mənim üçün xüsusi bir xoşbəxtlik və qürur mənbəyidir. Bəhs etdiyiniz bütün məsələləri həqiqətən, Nyu Yorkdan diqqətlə izləyirik.

## RUSİYA FEDERASİYASININ BAŞ PROKURORU İQOR KRASNOV İLƏ GÖRÜŞ

*9 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Bildirildi ki, ölkələrimizin prokurorluq orqanları arasında həyata keçirilən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrimizin genişləndirilməsi işinə töhfə verməklə bərabər, ölkələrimiz qarşısında duran təhdidlər, müasir çağırışlar, cinayətkarlığa qarşı mübarizə işində mühüm rol oynayır.*

*Söhbət zamanı əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu, perspektiv məsələlər müzakirə edildi.*

## TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ƏRKAN ÖZORAL İLƏ GÖRÜŞ

*10 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Türkiyə Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Ərkan Özoralı qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab səfir, sizin fəaliyyət müddətiniz başa çatır, siz Türkiyəyə qayıdırsınız. İlk növbədə, sizə gördüyünüz işlərə görə öz təşəkkürümü bildirmək istəyirəm.

Fəaliyyət müddətində siz Türkiyə–Azərbaycan qardaşlıq əlaqələrinin inkişafı üçün çox böyük işlər görmüsünüz, səylər göstərmisiniz və bu gün bu əlaqələr ən yüksək zirvədədir. Bütün sahələrdə Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı, birliyi özünü təsdiq etdi və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi dəstək, əlbəttə, həmişə bizim xatirimizdə olacaq, bizim qəlbimizdə yaşayacaqdır. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından bizə verdiyi dəstək bizi ruhlandırdı və bəzi xarici qüvvələrin bu müharibədən kənarda durmasını təmin etdi.

Bizim əlaqələrimiz çoxşaxəlidir. Siz burada fəaliyyət göstərən səfir kimi, bu əlaqələrin nə qədər dərin olmasını yaxşı bilirsiniz. Elə bir sahə yoxdur ki, o sahədə biz əməkdaşlıq etməyək. Son illərdə bütün sahələrdə böyük inkişaf vardır. Artıq bizim vətəndaşlarımızın qardaş ölkələrə pasportsuz, yəni daxili sənədlə səfər etməsi, əlbəttə ki, əlaqələrimizin nə qədər dərin olmasından xəbər verir.

Sizin buradakı fəaliyyətiniz həm bir səfir, həm də bir türk vətəndaşı kimi, böyük təqdirlə qarşılanır. Siz burada özünüzü vətəninizdəki kimi hiss etmisiniz, bu da təbiidir. İndi demək istəyirdim ki, vətənə qayıdırsınız, əslində siz vətəndəsiniz və hər zaman burada sizin yeriniz var, bizim ürəyimizdə yeriniz var. Bilirəm ki, Azərbaycan ictimaiyyəti, Azərbaycanda fəaliyyət göstərən ictimai təşkilatlar, media nümayəndələri, rəsmi şəxslər sizin fəaliyyətinizə çox böyük qiymət verirlər, o cümlədən də mən. Çünki bu illərdə həm burada, həm Türkiyədə çoxsaylı səfərlərim əsnasında sizin fəaliyyətinizin şahidi olmuşam və görmüşəm. Bilirəm ki, siz bütün səylərinizi iki qardaş xalqın bir-birinə daha yaxın olmasına istiqamətləndirmisiniz.

Bütün bunları nəzərə alaraq, siz Azərbaycan dövlətinin yüksək ordeni – «Dostluq» ordeni ilə təltif edilmisiniz və istərdim ki, bu yüksək mükafatı sizə təqdim edim.

*Prezident İlham Əliyev «Dostluq» ordenini səfir Ərkan Özorala təqdim etdi.*

**Ərkan Özoral:** Çox təşəkkür edirəm. Çox sağ olun. Cənab Prezident, məni bu şərəfə layiq bil-

diyiniz üçün Sizə çox təşəkkür edirəm, minnətdarlığımı bildirirəm. Mən Azərbaycan ilə Türkiyəni heç vaxt bir-birindən ayırmadım. İkisi də mənim Vətənimdir, birinci Vətənim, ikinci Vətənim deyil. İkisi də eyni dərəcədə Vətənimdir. Ankara mənim üçün nə qədər əzizdirsə, Bakı da mənim üçün eynidir. Bu sevginin nəticəsi odur ki, özümü çox bəxtiyar hiss edirəm. Çünki Azərbaycana gəlmiş və gələcək bütün türk səfirləri içində ən gözəl anlara şahidlik edən səfir mən oldum. Bu Vətən müharibəsinə şahidlik etmək mənim üçün çox böyük xoşbəxtlik oldu. Özümü fərqli hiss edirəm.

Mən burada Türkiyə ilə Azərbaycanın bir-birinə daha da yaxınlaşması üçün vəzifəmi yerinə yetirdim. Amma bu işi görməyə imkanı təmin edən sizlər, cənab prezidentlərimiz, bizim üçün açdığınız yol oldu.

Azərbaycanda fəaliyyət göstərdiyim müddətdə bütün qurumlardan, rəsmi şəxslərdən bütün səviyyələrdə başda Siz olmaqla, hər zaman dəstək aldım. Hamınıza ayrıca təşəkkür və minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan xalqına Sizin şəxsinizdə minnətdarlığımı çatdırmaq istəyirəm. Hər zaman qardaşlığımızı hiss etdim, getdiyim hər yerdə ona şahid oldum. İnşallah, Türkiyə ilə Azərbaycan bundan sonra bir-birinə daha da yaxın olacaq. Sizin də söylədiyiniz kimi, biz birlikdə güclüyük. Çox təşəkkür edirəm, çox sağ olun.

## BAKIDA HƏRBİ QƏNİMƏTLƏR PARKININ AÇILIŞI MƏRASİMİ

*12 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycanın Vətən müharibəsində Qələbəsinin rəsmiləşməsindən bir gün sonra – noyabrın 11-də Müzəffər Ali Baş Komandan hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planların olduğunu demişdi. Dekabrın 10-da Zəfər paradında həmin texnikanın bir qismi nümayiş etdirildi. Eyni zamanda, Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürdü. Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşıb – açıq səma altında nadir park salınıbdır.*

*Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Hərbi Qənimətlər Parkının ilk ziyarət bileti təqdim edildi.*

*Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənmiş mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun «Dəmir yumruq» əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xət-*

*ləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvəsi isə, sözün həqiqi mənasında, mövqelərini qoyub qaçdı. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnika, raket kompleksləri, hərbi nəqliyyat vasitələri və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalarından biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunmuş torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanmış lövhə də parkın ərazisindədir.*

*Dövlət başçısı lövhənin qarşısında çıxış etdi.*

**İlham Əliyev:** Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıblar.

Əslində bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək, öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu vardır. Azərbaycanlılar isə şəxsi maşınlarını qoyub, öz torpaqlarından çıxmışdılar. Biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülübdür. Hələ müharibənin

getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik.

Dekabrın 10-da keçirilmiş hərbi paradda bu lövhə nümayiş etdirildi. Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın sadəcə, kiçik bir hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülübdür. Buraya gələn hər bir insan – Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur onlara verilən cavab.

Qarabağ Azərbaycandır!

* * *

*44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə müharibə cinayətləri törədib, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetiribdir. Həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə parkın giriş hissəsində yerləşdirilib. Burada Şuşaya atılmış «İsgəndər - M» raketinin qalıqları da vardır.*

*Dövlət başçısı «İsgəndər - M» raketinin qalıqlarına baxdı.*

**İ l h a m Ə l i y e v:** Şuşanı ermənilər, bax, bu «İsgəndər - M» raketləri ilə atəşə tutmuşdular. Haradandır bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur və biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan «İsgəndər - M» raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər. Bizdə kifayət qədər məlumat vardır. Biz rəsmi açıqlama gözləyirik. Hər kəs gəlib bunu görəcək. Bu, erməni vəhşiliyinin, hərbi cinayətin növbəti əyani sübutudur.

*Nümayiş etdirilən qənimətlər sırasında «Kub» zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla, tırtıllı ağır texnika da vardır. Onlar saz vəziyyətdədir. Düşmənin 150-dək ağır texnikası, T-72 tankları, piyadaların döyüş maşınları, 2S1 «Qvozdika» özüyeriyən artilleriya qurğusu, «Osa» zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar. Vətən müharibəsində döyüş həm də informasiya cəbhəsində davam edirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən – Azərbaycan Prezidentindən alırdı. Qələbə «tvitr»ləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr parkın ərazisindəki videozalda nümayiş etdirilir.*

*Parkın ərazisindəki hər bir element, demək olar ki, nadirdir. Məsələn, buradakı oturacaqların alt*

*hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb.*

*Hərbi Qənimətlər Parkının ən maraqlı yerlərindən biri də 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunmuş, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılmış tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Otuz il ərzində möhkəmləndirilən mövqelərin daxilində isə yaxşı təchiz edilmiş döyüş postu, əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.*

*Azərbaycan Ordusuna qarşı kustar üsulla hazırlanmış rels üzərində hərəkət edən iriçaplı minaatanlardan istifadə olunurdu. Özəllik ondan ibarətdir ki, bu minaatanlar relslə arxaya doğru çəkilir, atəş açılır, daha sonra relslə gizlədilirdi. Beləliklə, atəş*

*nöqtəsini müəyyən etmək daha çətin olurdu, amma mümkünsüz deyildi.*

*Prezident İlham Əliyev bütün bu mühəndis-maneə sistemləri, döyüş postu və əsgər kazarması ilə tanış oldu.*

*Hərbi Qənimətlər Parkı qazanılmış tarixi Zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.*

*Hərbi Qənimətlər Parkı ilə tanışlıqdan sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev təltif olunan hərbi qulluqçularla görüşdü. Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Salam, cənab zabitlər. Əziz hərbçilər, bu gün sizə dövlətimizin yüksək hərbi mükafatları təqdim edilir. Bu mükafatlar müharibədən sonra mənim təşəbbüsümlə təsis edilib. Mükafatların adlarını da özüm vermişəm – «Vətən müharibəsi qəhrəmanı» ulduzu, «Zəfər» və «Qarabağ» ordenləri yeni təsis edilmiş yüksək hərbi mükafatlardır.

Xahiş edirəm ki, təntənəli mərasimimizin əvvəlində Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbr versin. Şəhidlərimizin ya-

xınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban veriblər. Təsəlli odur ki, torpaqlarımız azad olunub, ərazi bütövlüyümüz bərpa edilib. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsi şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq.

Bugünkü təntənəli mərasimin yeri təsadüfən seçilməyib. Biz bu mərasimi yeni bulvarda keçiririk. Uzunluğu 12 kilometr olan yeni bulvar mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl salınıb. Müqayisə üçün deyə bilərəm ki, köhnə bulvarın uzunluğu cəmi 3 kilometrdir. Bu bulvarın salınması dövlətimizin qüdrətini göstərir, xalqa olan qayğını göstərir. Bu yenilikdir, inkişafdir, bu bizim gücümüzün təzahürüdür. İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilibdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspekt-

lərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirdik, biz dünyada heç vaxt olmayan Qələbəni qazandıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq.

Biz inkişaf edərək, torpaqlarımızı azad etdik. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, biz bunu təmin etməsəydik, lazımi dərəcədə lazım olan müasir silahları əldə edə bilməzdik. Ona görə bu təntənəli mərasimin burada keçirilməsində böyük rəmzi məna vardır. Yenilik, inkişaf, güc – bunlar əsas amillərdir. Bir də Vətən sevgisi. Bu bulvarın ərsəyə gəlməsində, bunun təməlində Vətən sevgisidir. Çünki bu zona əvvəllər sənaye zonası idi və burada bir çox köhnəlmiş, sıradan çıxmış müəssisələr fəaliyyət göstərirdi. Bütün bu ərazi təmizləndi, yeni bulvar salındı. Sağ tərəfdə olan boş yer də təmizlənib sərəncama götürülübdür.

Bu mərasimin burada keçirilməsinin digər səbəbi burada yerləşən Hərbi Qənimətlər Parkıdır. Parkın açılışını bu gün etdim. Burada düşmənin nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş texnikası bir daha bizim gücümüzü göstərir, bir daha düşmənin məğlubiyyətini göstərir. Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 ədəd

S-300 zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksi, 522 yük avtomaşını və digər texnika məhv edilib və ya qənimət kimi götürülübdür.

Hərbi Qənimətlər Parkına gələn hər bir insan ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün maneələri dəf edərək, düşməni məğlub etdilər.

Otuz il ərzində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmadı. Ancaq bizim problemlərimiz ondan daha əvvəl başlanmışdı, daha dəqiq desəm, 1987-ci ildə. Çünki 1987-ci ildə Heydər Əliyevin bütün vəzifələrdən, o cümlədən Siyasi Büronun üzvü vəzifəsindən uzaqlaşdırılması ilə ermənilərin əlinə fürsət düşdü və onlar bu fürsətdən istifadə etdilər. Heydər Əliyevin istefasından iki həftə keçməmiş bir erməni millətçisi – Qorbaçovun müşaviri, onun sağ əli Aqanbekyan hələ 1987-ci ildə Fransada olarkən Fransa qəzetinə müsahibə verərək demişdi ki, Dağlıq Qarabağ Ermənistana birləşməlidir. Heydər Əliyevin dövründə heç vaxt buna cürət edə bilməzdilər. Ona görə dünya erməniliyinin əsas hədəfi Heydər Əliyev idi. Bilirdilər, o nə qədər vəzifədədir, heç vaxt imkan verməz ki, erməni millətçiliyi baş qaldırsın. Necə ki, keçən əsrin 70–80-ci illərində Azərbaycana rəhbərliyi döv-

ründə bütün separatçı meyillərin qarşısı elə yerindəcə alınırdı. İndi tarixə baxın, sanki heç nə dəyişilməyib. Sovet vətəndaşı, özünü akademik sayan Fransada bu açıqlamanı verir və artıq bu mövzu ortalığa atılır. Biz yaxşı xatırlayırıq ondan sonra hansı proseslər baş vermişdi. Faktiki olaraq, Dağlıq Qarabağı Azərbaycandan ayırmışdılar. Xüsusi idarəetmə komitəsi yaradılmışdı. Moskvadan bir adam göndərilmişdi. O da sırf ermənipərəst bir adam idi. Faktiki olaraq, bizim problemlərimiz o vaxtdan başlanmışdı. O vaxt Azərbaycana qarşı çirkin informasiya kampaniyası aparılırdı. Bütün bunları yaşlı nəsil yaxşı xatırlayır.

Müstəqillik əldə olunandan sonra nələr baş verdi? Müstəqillikdən dörd ay sonra Xocalı soyqırımı törədildi. Ermənistan və Sovet İttifaqının 366-cı alayı hərbi cinayət törətdi, vəhşilik törətdi. Dinc insanları qətlə yetirdi. Onların arasında uşaqlar, qocalar, qadınlar vardı. Xocalı soyqırımı bu gün dünya tərəfindən tanınır. 10-dan çox ölkə bu soyqırımını rəsmən tanıyıbdır. Xocalı soyqırımından üç ay keçəndən sonra Şuşa və Laçın işğal altına düşdü.

Məhz o vaxt faktiki olaraq, hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC–Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi. O vaxt müdafiə naziri onların adamı idi, hansı ki, söz vermişdi, əgər Şuşa əldən getsə, öz başına güllə çaxacaq. Bu günə qədər tula kimi orada-burada sülənir. Faktiki olaraq, hakimiyyət Xalq Cəbhəsi–Müsavatın əlində idi. On-

lar Şuşa və Laçını ermənilərə təhvil verərkən Bakıdakı hakimiyyəti yıxmaq istəmiş və buna nail olmuşdular. Ondan bir ay keçəndən sonra hərbi çevriliş edib, parlament binasını zəbt edərək, hakimiyyəti devirdilər və qanunsuz olaraq hakimiyyətə gəldilər. Bu onların böyük xəyanətidir. Ondan sonra nələr baş verdi? Ondan sonra ölkə faktiki olaraq, idarəolunmaz vəziyyətə düşdü. Xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik, talançılıq hökm sürürdü. Kəndlər işğal altına düşürdü, Xalq Cəbhəsi–Müsavat hakimiyyəti Ermənistana benzin satırdı. Özləri də bunu etiraf etmişdilər. Bu videomateriallar, kadrlar vardır. Özləri də etiraf etmişdilər ki, bu xəyanətin içindədirlər. Ordunu gücləndirmək, ordumuza dəstək vermək əvəzinə, ancaq öz hakimiyyətlərini möhkəmləndirirdilər. Heydər Əliyev imkan vermədi ki, ermənilər blokada şəraitində olan Naxçıvanı da işğal altına salsınlar, halbuki dəfələrlə belə cəhdlər olub. Orada sərhəddə gedən şiddətli döyüşlərdə bizim hərbçilərimiz və mülki vətəndaşlar sinələrini qabağa verərək, öz torpaqlarını müdafiə etdilər, məhz Heydər Əliyev amili hesabına. Onlar isə buradan Naxçıvana hərbi desant göndərirdilər ki, Heydər Əliyevi hakimiyyətdən devirsinlər. O vaxt Daxili Qoşunların komandanı, bu gün xaricdə gizlənən bir tula, oraya desant göndərmişdi. Torpaqlar əldən gedir, ermənilər kəndlərimizi zəbt edir, onlar isə Naxçıvanda Heydər Əliyevə qarşı mübarizə aparırdılar. Bunlar Xalq Cəbhəsi–Müsavat xəyanətkarlarının əməlləridir. Ancaq qorxdular, heç burunlarını soxa bilmədilər. Çünki xalq qalxdı, dedilər ki, gələn kimi

sizi burada məhv edəcəyik. Vətəndaş müharibəsinə start verdilər, Gəncəni bombaladılar, Azərbaycan əsgərlərini əsir götürdülər, torpaqlar işğal altına düşə-düşə. Bu, xəyanət deyil, bəs nədir?! 1993-cü ilin aprelində Kəlbəcəri düşmənə verdilər. Ondan sonra təşvişə düşdülər, qorxuya düşdülər, depressiyaya düşdülər. Bu günə qədər də bu depressiyadan çıxa bilmirlər. Öz canlarını qurtarmaq üçün o vaxt məcbur olub Heydər Əliyevə müraciət etdilər ki, onları burada, Prezident Aparatının qarşısında asmasınlar. Onların dar ağacı hazır idi. Azərbaycan xalqı bunlara cəmi bir il dözdü. Amma görün bir il ərzində nə qədər böyük ziyan vurdular – torpaqlarımız əldən getdi, ordunu məhv etdilər, vətəndaş müharibəsinə start verdilər, qardaş qanı tökdülər. Ona görə mən deyəndə ki, bunlar xəyanətkar, satqın, düşməndirlər, bax, buna əsaslanaraq deyirəm. Tarixi faktlara əsaslanaraq deyirəm. Onların mənfur xisləti bu gün də özünü büruzə verir. İkinci Qarabağ müharibəsi zamanı da altdan-altdan bizim ordumuza şər ataraq, haqq işimizə şər ataraq, düşmənin dəyirmanına su tökdülər. Ona görə bu tarixi bilmədən bugünkü reallığa düzgün qiymət vermək mümkün deyil.

Məhz Azərbaycan xalqının dəstəyinə arxalanaraq Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra bütün xoşagəlməz hallara son qoydu, bütün qanunsuz silahlı birləşmələri tərk-silah etdi, sabitlik, qayda-qanun yaradıldı və nizami ordu quruculuğuna başlanıldı.

Mən 2003-cü ildə hakimiyyətə gələndə Prezident vəzifəsinə başlayaraq söz vermişdim ki, ərazi bütöv-

lüyünü qoruyacağam və bu sözə əməl etdim. Azərbaycanın ərazi bütövlüyü 17 il ərzində qorundu. Düşmənin bütün cəhdlərinə baxmayaraq, hər hansı bir güzəşt edilmədi. Halbuki təzyiqlər də olmuşdur, təhdidlər də olmuşdur. Mənə qarşı çevriliş cəhdləri də oldu. 2003-cü ildə Azadlıq meydanında AXC–Müsavat cütlüyünün tör-töküntüləri hərbi çevriliş etmək istədilər, alınmadı, xalq dəstəkləmədi. 2005-ci ildə Azərbaycanda «narıncı inqilab» təşkil etmək istədilər. Artıq başlarına narıncı bantlar da bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Nə idi məqsəd? Məqsəd satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək idi. Mən bunu qoymurdum. Ona görə bəzi xarici paytaxtlarda qərar verildi ki, İlham Əliyevi devirməliyik. O vaxt da «narıncı inqilab» dəbi var idi. Orada-burada inqilablar baş verirdi. Bu inqilabların axırı nə oldu, indi hər kəs görür. Ölkələr bərbad vəziyyətdədir, böhrandan çıxa bilmirlər, artıq 15–17 ildir böhran hökm sürür. O ölkələrin böhrandan çıxma ehtimalı çox aşağıdır. Yenə də xalq arxamda durdu. Yenə də xalq müstəqil siyasəti dəstəklədi. Bütün təzyiqlərə, bütün cəhdlərə – ondan sonra da cəhdlər olmuşdu – baxmayaraq, Qarabağ məsələsində bir faiz də güzəştə getmədim. Bunun əksinə, 2003-cü ildə Prezident seçiləndən sonra demişdim ki, artıq nə danışılıb, qalsın kənarda. Mən bunu tanımıram. Sıfırdan başlamalıyıq danışıqlara, sıfırdan. Bütün təzyiqlərə baxmayaraq, buna da nail oldum. Məhz bunun nəticəsində Madrid prinsipləri ortalığa çıxdı. Bəli, Madrid prinsipləri bizi tam qane

etmirdi. Mən bunu gizlətmirəm. Ancaq Madrid prinsiplərinin əsasında bizim torpaqlarımızın azad edilməsi nəzərdə tutulurdu. Mən dəfələrlə demişdim ki, heç vaxt ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb, olmayacaq və həyat bunu təsdiqlədi. Mənim o vaxt danışıqların uğurla başa çatmasına inamım var idi. Çünki mən bu vəzifəyə təzə seçilmişdim, hələ böyük siyasətin, riyakarlığın nə dərəcədə geniş vüsət almasından xəbərsiz idim. Hesab edirdim ki, kim, hansı tərəfmüqabili nəyi deyirsə, o da həqiqətdir. Sonra anladım ki, bütün bu illər ərzində bizi aldatmağa çalışırmışlar. Məsələni həll etmək yox, dondurmaq istəyirmişlər. Bu məsələ ilə bilavasitə məşğul olan beynəlxalq qurumlar bu torpaqları erməni tapdağının altında daim saxlamaq istəyirmişlər. Bunu sonra anladım.

Ancaq bununla paralel, danışıqlar apararaq eyni zamanda, hazırlıq işləri də gedirdi. Mən bunu gizlətmirdim. Dəfələrlə demişdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, biz bunu hərbi yolla həll edəcəyik. Nəticədə belə də oldu. Nə demişəmsə, onu da etmişik. Bütün bu illər ərzində deyirdim ki, bizim torpağımızda heç vaxt ikinci erməni dövləti yaradıla bilməz. Deyirdim ki, birinci erməni dövləti bizim tarixi torpağımızda yaradılıbdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək, paytaxt düzəltmək idi. Mən bunu qınamışam.

Demişəm ki, bu, xəyanət idi, satqınlıq idi, bağışlanmazdır. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqı qarşısında böyük xidmətləri var. Ancaq

biz tarixi malalamamalıyıq, tarixi bilməliyik. Bilməliyik ki, keçən əsrin 18–20-ci illərində Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi zaman müstəqilliyimiz yarımçıq idi. İrəvanı verdik Ermənistana. Halbuki buna o vaxt İrəvandan olan nümayəndələr etiraz edirdilər. Onların səsinə fikir verən olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti tam hakimiyyəti təmin edə bilmirdi. İngilis generalları burada meydan sulayırdılar. Hətta bizim bayrağımızı təsdiq etmək üçün ingilis generalı gərək əmr verəydi. Hər şey necə olub, elə də deməliyik. Saxta tarix uydurmamalıyıq. Həm sovet dövründə, həm də müstəqilliyin ilk illərində bizim üçün o qədər saxta tarix uydurmuşlar ki. Biz elə saxta tarixin girovuna çevrilmişik. Hər şeyi bilməliyik – kimin tarixdə hansı rolu var və nəticə nədən ibarətdir.

Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq. Bütün bu 17 il ərzində bizim əsas büdcə xərclərimiz hərbi xərclər olubdur. Biz istədiyimizə nail olduq. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah, sursat, texnika ilə təchiz edildi. Biz bir ölkədən asılı olmamaq üçün bu texnikanı bir çox mənbələrdən almışıq. Buna nail olmaq üçün gərək sənin tərəfdaş ölkələrlə sıx əlaqələrin olsun. Çünki silah bazarı çox həssasdır. Burada ancaq kommersiya, biznes maraqları hər şeyi həll etmir. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanları-

mız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

İkinci Qarabağ müharibəsinə hazırlaşmalı idik və hazırlaşdıq. Siyasi sabitlik, vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyini hiss edərək, çox inamlı islahatlar aparıldı və siyasi müstəvidə artıq vəziyyət sağlamlaşdı. Beynəlxalq müstəvidə, beynəlxalq təşkilatlar tərəfindən bizə sərf edən önəmli qərarlar və qətnamələr qəbul edildi. Mən bu barədə əvvəlki illərdə danışarkən bəziləri hesab edirdi ki, bəli, bunlar qəbul olundu, amma bunun nəticəsi yoxdur. Bu gün hər kəs gördü bunun nəticəsini.

BMT Təhlükəsizlik Şurasının qətnamələri var idi, ondan başqa ciddi bir sənəd yox idi. BMT Baş Assambleyasının qərarı, «Qoşulmama Hərəkatı»nın qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti. Avropa Şurası Parlament Assambleyası həmişə bizə düşmənçilik mövqe sərgiləyib, amma hətta onlar da məcbur olub ərazi bütövlüyümüzə dəstək nümayiş etdiriblər. Bütün bunlar siyasi və hüquqi baza yaradıbdır. Əgər bu olmasaydı, müharibə dövründə bizə qarşı Minsk qrupuna həmsədrlik edən ölkələrin BMT-dəki təşəbbüsü nəticə verə bilərdi. Bunu da hər kəs bilsin, bir çoxları bilmir. Müharibə gedə-gedə bizə qarşı sanksiyalar tətbiq etmək istəyirdilər. Biz öz torpağımızda vuruşuruq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik. Bizə qarşı sanksiyalar tətbiq etmək ədalətsizlikdir, vicdansızlıqdır. Kim idi bunları təşkil edən? Minsk qrupuna həmsədrlik edən ölkələr. Kim bunun qarşısını aldı? Bizə dost olan ölkələr, «Qoşulmama Hərəkatı»na üzv olan ölkələr.

Çünki biz «Qoşulmama Hərəkatı»nın sədri kimi, özümüzü ləyaqətlə aparmışıq, bu ölkələrə kömək etmişik, həm maliyyə yardımı göstərmişik, həm də humanitar yardım. COVID ilə bağlı 30-dan çox ölkəyə humanitar, maliyyə yardımı göstərmişik. Onların maraqlarını müdafiə etmişik və onlar da öz növbəsində, bizə dəstək verdilər. Düzdür, hər hansı bir qətnamə qəbul olunsaydı belə, bizi dayandıra bilməzdi. Heç kim və heç nə bizi dayandıra bilməzdi. Mən müharibə dövründə dəfələrlə xalqa müraciət edərək demişdim ki, rədd olsun düşmən bizim torpağımızdan, mən müharibəni dayandırıram. Ona görə beynəlxalq müstəvidə hazırlıq aparılmalı idi. İqtisadi sahədə hazırlıq aparılmalı idi. Əgər biz hansısa bir ölkədən və yaxud hansısa beynəlxalq maliyyə qurumundan asılı olsaydıq, müharibəni apara bilərdikmi? Əlbəttə, yox. Bizə min cür təzyiq edəcəkdilər, bizi təhdid edəcəkdilər, imkanlarımızı kəsəcəkdilər.

İqtisadi müstəqillik əsas məsələlərdən biri idi. Buna da nail olduq. Enerji müstəqilliyinə nail olduq. Tarixi layihələri həyata keçirdik. 2006–2007-ci illərdə neft-qaz kəmərləri inşa edildi. Əgər o kəmərlər tikilməsəydi, bizim bu qədər vəsaitimiz olmazdı. Vəsait yoxdursa, silah da olmayacaqdı. Silahları bizə heç kim bağışlamayıb. Ermənistandan fərqli olaraq, 5 milyard dolları bizə heç kim hədiyyə etməyib. Onların məhv edilmiş və qənimət götürülmüş silahlarının dəyəri 5 milyard dollardır. Biz pulla almışıq, iqtisadi müstəqillik olmasaydı, necə ala bilərdik? Müharibəni necə apara bilərdik? Torpaqlar

erməninin tapdağı altında əbədi qala bilərdi. Ona görə iqtisadi müstəqillik əsas idi, bu sahədə də hazırlaşdıq. Ermənistanı dalana çevirməli idik. Bütün nəqliyyat, kommunikasiya, enerji xətlərini elə çəkdik ki, onlardan yan keçdi. Mən nə qədər təzyiqlə üzləşdim – yox, bu xətt Ermənistan üzərindən keçməlidir, dəmir yolu Ermənistan üzərindən keçməlidir. Bakı–Tbilisi–Qars inşa edilməməlidir, biz buna kredit verməyəcəyik. Dedim, vermirsən, cəhənnəmə vermə. Mən özüm Gürcüstana 725 milyon dollar kredit verdim. Nail olduq, bunu tikdik, Ermənistan dalana çevrildi. Bu özlüyündə ona gətirib çıxardı ki, Ermənistandan kütləvi köç başlandı. Köç olan kimi bazar daralır. Bazar daraldıqca, heç kim investisiya qoymur.

Adam gərək dəli olsun ki, Ermənistana investisiya qoysun, həm o illərdə, xüsusilə də indi. Beləliklə, Ermənistanı iqtisadi cəhətdən çökdürmək əsas vəzifələrdən biri idi, mən bunu gizlətmirdim və buna nail olduq.

Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ən vacib məsələlərdən biridir. İkinci Qarabağ müharibəsi göstərdi ki, bu sahədə də böyük uğurlar əldə edilib. Əlbəttə, ilk növbədə, ordu quruculuğu. Ordunun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, peşəkarlığı, xidmət şəraiti, hərbçilərin məişət şəraiti yaxşılaşdırıldı. Elə güclü ordu yaratmışıq ki, beynəlxalq reytinqlərdə həmişə 50-ci yerlərdə idik, indi müharibədən sonra təbii ki, daha da yüksək yerlərə qalxacağıq. Müharibə dövründə gücümüzü göstərdik.

Biz Ermənistana şans verirdik. Hələ 2016-cı ildə aprel döyüşləri zamanı şans verdik. Ovaxtkı xunta başçısı Sarkisyan acı məğlubiyyətdən sonra mənə torpaqları qaytarmağı söz vermişdi. O vaxt aprel döyüşləri gedə-gedə onlar gecə-gündüz Moskvaya, Rusiyanın Baş Qərargah rəisinə zəng edirdilər ki, Azərbaycana deyin müharibə dayansın, yalvarırdılar. Biz o şərtlə dayandıq ki, dərhal danışıqlar başlansın və başlandı. Müharibə dayanandan bir ay sonra Vyanada artıq Minsk qrupunun həmsədr ölkələrinin Xarici İşlər nazirləri səviyyəsində görüş keçirildi. Nə üçün o vaxta qədər bu səviyyədə görüş keçirilmirdi? Amma aprel döyüşlərində biz ermənilərin başına bir zərbə vurandan sonra dərhal may ayında görüş keçirildi. İyun ayında Rusiyada Zirvə görüşü keçirildi. Sarkisyan mənə söz verdi ki, ona iki həftə vaxt lazımdır ki, bunu həll etsin. Dedim yaxşı, çıxdı getdi. Ondan sonra orada ya özləri təşkil etmişdilər, ya da özü-özlüyündə belə bir hadisə baş vermişdi, polis bölməsini zəbt etmişdilər. Bunu bəhanə gətirərək, o, sözündən imtina etdi. Yenə də bizi aldatdılar.

Tək Sarkisyan yox, onların hamısı. 2018-ci ildə Naxçıvan əməliyyatı – yenə də onlara dərs verdik, yenə də göstərdik ki, axırı pis olacaq, məhv edəcəyik sizi. O da dərs olmadı. O da düşdü hakimiyyət dəyişikliyinə. Ermənistana təzə hakimiyyət gəlmişdi. Ondan bir ay sonra biz Naxçıvanda sərhəddə uğurlu əməliyyat keçirərək, önəmli strateji yerləri götürmüşdük və artıq Qarabağa gedən yola tam nəzarət edirdik. Müharibə dövründə – indi bu, sirr

deyil – bilirdik ki, Dağlıq Qarabağa nə aparılır. İstənilən an o yolu kəsə bilərdik. Sadəcə olaraq, buna ehtiyac yox idi. O da dərs olmadı. Ondan sonra yeni hakimiyyət bizdən vaxt istədi. Dedi ki, vaxt verin biz burada daxili problemləri, köhnə xunta nümayəndələrinin problemlərini həll edək, biz həll edəcəyik. Bizi yenə də aldatdılar. Ondan bir il sonra Ermənistanın baş naziri Dağlıq Qarabağda demişdi ki, «Qarabağ Ermənistandır». Bu nə deməkdir? O deməkdir ki, danışıqlar qurtardı, mənasızdır. Bu, danışıqların sonu idi. Təxribat xarakterli digər addımlar, hərəkətlər, çıxışlar göstərirdi ki, Ermənistan torpaqları qaytarmaq istəmir. Azad edilmiş torpaqlarda gördüyümüz mənzərə, sizin dəf etdiyiniz o təmas xətləri, o müdafiə xətləri göstərir ki, bir qarış torpaq vermək istəmirdilər. Başımızı aldatmaq, öz himayədarlarına arxalanmaq, onlardan müftə silah almaq, siyasi dəstək almaq, onların ölkələrində yaşayan lobbiçilərdən istifadə etmək və bizi bu vəziyyətdə əbədi saxlamaq – bu idi onların niyyəti. Ondan sonra iyul, sentyabr aylarında dövlət sərhədində təxribatlar törədildi, avqust ayında diversiya qrupu göndərildi və sentyabr ayında artıq İkinci Qarabağ müharibəsi başlandı.

Azərbaycan xalqının müharibə ilə bağlı geniş təsəvvürü vardır. Vaxt keçdikcə ayrı-ayrı əməliyyatlar haqqında da məlumat verəcəyik. Ancaq 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi. Göstərdi ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Biz düşməni hər gün qovurduq, hər gün. Azərbaycan Silahlı

Qüvvələri 44 gün ərzində bir dəfə də geriyə addım atmadı, halbuki müharibələrdə hücumlar, geriyə dönmələr, manevrlər olur. Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilməmişdi. Ermənistan ordusunda 10 min fərari olub, özləri bunu etiraf ediblər. İndi onları əfv etmək istəyirlər. İndi 5000 fərarini əfv etmək istəyirlər. Bəs qalan 5000? Yəqin ki, çıxıb gedib, artıq Ermənistanda yoxdur.

Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizdə bir nəfər də fərari olmamışdı. Yaralanmış hərbçilər, ağır yaralanmış hərbçilər bir amalla yaşayırdılar ki, tezliklə sağalıb yenə də döyüşə qayıtsınlar. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti yüksək mənəvi ruh göstərdi, peşəkarlıq, qəhrəmanlıq öz yerində, mənəvi ruh. Onlar bizi görəndə qabağımızdan qaçırdılar, biz onları hər gün qovurduq.

Bütün əməliyyatlar düşünülmüş şəkildə aparılırdı. Gün ərzində görülmüş işlər hər gün mənə məruzə edilirdi, müşavirələr keçirilirdi, növbəti gün ərzində görüləcək işlərin planı tutulurdu. Deyə bilərəm ki, nəzərdə tutduğumuz bütün məsələlər əksər hallarda öz həllini tapdı. Əlbəttə, bəzi yerlərdə yubanmalar oldu, bəzi yerlərdə daha da tez, yaxud da ki, daha da böyük həcmdə əməliyyat aparıla bilərdi. Ancaq bu müharibədir, onu planlaşdırmaq mümkün deyil. Hər gün bizim hərbçilərimiz öz həyatını risk altına atırdılar. Çünki o istehkamları, o müdafiə xətlərini keçmək həm peşəkarlıq, həm güc, həm də cəsarət tələb edirdi. Bizim aslanlarımız ölümə gedirdilər. Çünki onların işi haqq işi idi, onlar öz torpaqları uğrunda vuruşurdular. Erməni əsgərinin

bizim torpağımızda nə işi var? Mən bunu hələ bir neçə il bundan əvvəl bir beynəlxalq tədbirdə demişdim. Hansısa erməni mənə sual vermişdi ki, orada snayper müharibəsi gedir, yaxud da erməni əsgərləri ölür. Dedim ki, ölmək istəmirsə, rədd olsun bizim torpağımızdan. Müharibə dövründə dəfələrlə demişdim, Ermənistan rəhbəri mənə tarix versin ki, bizim torpağımızdan nə vaxt rədd olur, həmin an biz müharibəni dayandıraq.

Belə də oldu. 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi, Ermənistan ordusunun beli qırıldı, Ermənistan ordusu məhv edildi. On min fərarisi olan ordu biabırçılıq və rəzalətdir. Onlar öz əsgərlərini döyüş məntəqələrində zəncirlə bağlayırdılar ki, qaçmasınlar. Bu vəhşilikdir, öz əsgərinə qarşı vəhşilikdir.

Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü. Şuşa əməliyyatı ayrıca bir dastandır, o haqda hələ çox danışılacaqdır. Ancaq Şuşaya gedən hər bir adam o sıldırım qayaları görərkən təsəvvür edə bilmir ki, o alınmaz qala necə alındı. Ancaq peşəkarlıq, rəşadət, qəhrəmanlıq və milli ruh hesabına biz Şuşanı azad etdik və düşmən diz çökdü, qabağımızda başını əydi, ağ bayraq qaldırdı, öz məğlubiyyətini etiraf etdi, noyabrın 10-da kapitulyasiya aktına imza atdı və biz bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissəsini də geri aldıq.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dün-

yada təsdiq etdik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq. Onların törətdikləri vəhşilikləri görəndə adam dəhşətə gəlir. Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşilik deyil, nədir? Hələ bəlkə vəhşi o qədər də ağır söz deyil. Bütün dünya gördü ki, onların əsas ideoloji amili nə idi. Guya onlar burada azlıqda yaşayan mədəni, böyük sivilizasiyaya aid olan bir xalqdır, ətrafda da vəhşi müsəlmanlar bunları əhatə edir. Avropanın hər bir tinində bunu deyirdilər. Rusiyanın hər bir tinində bunu deyirdilər ki, bizə kömək edin, yoxsa bizi burada boğarlar. İndi hər kəs gördü bunun sivilizasiyası nədir, bunun mədəniyyəti nədir, bunun əxlaqı, mənəviyyatı nədir?! Qəbirləri dağıdan, şumlayan, ölülərin qızıl dişlərini çıxaran, məsciddə donuz saxlayan vəhşidir, başqa adı yoxdur. Bütün dünya bunu gördü və daha da çox görəcək.

İndi azad edilmiş torpaqlara ezam olunanlar və xarici qonaqlar hər şeyi öz gözləri ilə görürlər. Biz bütün azad edilmiş torpaqları bərpa edəcəyik. Sadəcə olaraq, biz erməni vəhşiliyini heç vaxt unutmamalıyıq. Biz çox xeyirxah xalqıq. Bu bizim üstünlüyümüzdür, eyni zamanda, qarşında vəhşi olanda, xeyirxah olmaq olmaz. Onlara elə cavab verməliyik ki, bunu öz tarixi yaddaşlarında əbədi saxlasınlar, bu onların yaddaşlarından heç vaxt si-

linməsin və silinməyəcək. Bu gün orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidirlər ki, dəmir yumruq yerindədir. Lazım olarsa, onların başını elə əzərik ki, buna əbədi son qoyular.

Bu təntənəli mərasim bu gün keçirilir. Bunun səbəbləri yəqin ki, sizə bəllidir. İlk növbədə, yeni hərbi mükafatlar hazırlanmalı idi, onlar yox idi. Onların dizaynı hazırlanmalı idi, onların hazırlanması təşkil edilməli idi. Bu, vaxt apardı. Eyni zamanda, pandemiyaya görə qapalı yerlərdə belə mərasimlərin keçirilməsi mümkün deyil və hava şəraiti də uyğun olmalı idi. Bir də ki, Hərbi Qənimətlər Parkı hazır olmalı idi. Mən istəyirdim ki, biz parkın açılışı günündə görüşək, bu yüksək mükafatlar sizə təqdim edilsin və parkın ilk ziyarətçiləri siz olasınız. Bu bir qədər vaxt apardı. Nəhayət, bu gün bu mərasim keçirilir. Sizə Ali Baş Komandan kimi, dərin təşəkkürümü bildirmək istəyirəm. Siz xalqımızın üzünü ağ etmisiniz, dünya azərbaycanlılarının üzünü ağ etmisiniz. Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün türk dünyası bizim qələbəmizlə fəxr edir. Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır.

Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə!

Yaşasın Azərbaycan!

* * *

**Gündüz Səfərli** (*mayor*): Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan! Bu gün

mən və döyüşçü yoldaşlarım həyatımızın ən xoşbəxt, qürurlu anlarını yaşayırıq. Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Müzəffər Ali Baş Komandanımızın rəhbərlik etdiyi rəşadətli, qalib Azərbaycan Ordusunun əsgəri, zabiti olmaq həqiqətən də qürurvericidir. «Dəmir yumruq» əməliyyatı ilə başlayan Vətən müharibəsində biz qalib gəldik. Bu Qələbə dövlətimizin və ordumuzun qələbəsidir. Bu Qələbə xalqımızın birliyinin, vətənpərvərliyinin, həmrəyliyinin qələbəsidir. Bu Qələbə, cənab Prezident, şəxsən Sizin, Müzəffər Ali Baş Komandanımızın qələbəsidir.

Yaxşı yadımdadır, aprel döyüşlərindən sonra Lələtəpə döyüşçüləri ilə görüşdə bir daha Ermənistanın hərbi-siyasi rəhbərliyinə xəbərdarlıq etmişdiniz ki, Ermənistan silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, Lələtəpə əməliyyatı təkrarlana bilər. Lakin Ermənistan riyakar, məkrli, hiyləgər niyyətindən, əməlindən yenə də əl çəkmədi. Odur ki, Azərbaycan işğal edilmiş tarixi torpaqlarımızın azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa olunması üçün «Dəmir yumruq» əməliyyatı ilə Vətən müharibəsinə qalxdı.

Cənab Ali Baş Komandan, biz döyüşlərə qələbə əzmi, böyük ruh yüksəkliyi ilə gedirdik. Yaxşı bilirdik ki, böyük Zəfər hər birimizin iradəsindən, şücaətindən, qəhrəmanlığından çox asılıdır. Bizi döyüşdən-döyüşə aparan Heydər Əliyev ənənələrinə sadiqliyimiz, Müzəffər Ali Baş Komandanın qətiyyəti, mübarizliyi, Vətənimizə olan böyük sevgimiz ümum-

xalq şüarına çevrilmiş «Qarabağ Azərbaycandır!» sözləri və arxamızda dağ kimi dayanmış qədirbilən xalqımızın birliyidir. Yaxşı bilirdik ki, döyüşlərdə şəhid olsaq, intiqamımız alınacaq, qanımız yerdə qalmayacaq, ailələrimiz dövlətimizin diqqət və qayğısı ilə əhatə olunacaq. Bu diqqət və qayğıya görə bir daha Sizə minnətdarıq, cənab Prezident.

Məni yüksək fəxri ada – «Vətən müharibəsi qəhrəmanı» adına layiq görmüsünüz. Bu, böyük etimad, eləcə də böyük məsuliyyətdir. Bir daha qarşınızda söz verib and içirəm ki, bundan sonra da ulu öndər Heydər Əliyevin ənənələrinə sadiq olacaq, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətənimə, dövlətimə, xalqıma sədaqətlə xidmət edəcəyəm.

Diqqətinizə görə çox sağ olun.

**Nurlan Məmmədov** (*kapitan*): Cənab Ali Baş Komandan, məruzə edirəm ki, işğal altında qalmış ərazilərimizin azad edilməsi ilə əlaqədar Sizin əmrinizi, hər bir hərbi qulluqçu kimi, biz – Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlıları da səbirsizliklə gözləyirdik. 44 günlük Vətən müharibəsində qazanılmış Qələbədə iştirakımla şərəf və qürur duyuram. Vətən torpağının hər qarışı uğrunda döyüşmək bizə də nəsib oldu və sonda şanlı Qələbə əldə edildi, Azərbaycanın tarixinə şanlı bir salnamə kimi həkk olundu. Biz bu müharibədə Qələbəni şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına qazandıq. Hər dəfə döyüşə atılanda bizi bir amal, bir məqsəd gücləndirirdi – qısa müddət ərzində düşmənə sarsıdıcı zərbə vurub torpaqlarımızı düşmən tapdağından azad edək. Və-

tən naminə qəhrəmanlıq göstərən, Vətəni həyatı, sağlamlığı bahasına müdafiə edən döyüşçü yoldaşlarımız həmişə bizim ürəyimizdə və yaddaşımızdadırlar. Onlar heç vaxt unudulmayacaqlar!

Bu gün böyük azadlıq missiyasını yerinə yetirən bir qrup hərbi qulluqçumuz dövlətin orden və medalları ilə təltif olunur. Mənim xidmət etdiyim bölmə Füzuli, Şuşa, Kəlbəcər və Xocavənd istiqamətlərində gedən döyüşlərdə və bu rayonların azad olunmasında yaxından iştirak etmişdir. Həmin döyüşlərdə iştirakım dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş və mən «Qarabağ» ordeni ilə təltif olunmuşam.

Cənab Ali Baş Komandan, icazə verin, bu ali diqqətinizə görə Sizə dərin təşəkkürümü bildirim. Müharibədə ağır döyüşlərə atılarkən, Vətən torpağının hər qarışını azad edərkən Siz Müzəffər Ali Baş Komandanın döyüş əmrini, qat-qat artan mənəvi dəstəyini hiss etmişik. Əmin ola bilərsiniz ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları qəhrəman Azərbaycan Ordusu ilə çiyin-çiyinə bundan sonra da Vətənin azadlığı və suverenliyi, xalqımızın təhlükəsizliyi naminə yüksək döyüş qabiliyyəti və möhkəm iradə nümayiş etdirəcək. Bu yolda canımızı belə, əsirgəməyəcəyik. Diqqətinizə görə sağ olun.

**Ramazan Hudulov** (*kapitan*): Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan!

Azərbaycan tarixinin şanlı səhifələrindən olan 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbə ümummilli liderimiz Heydər Əliyevin arzusudur, vəsiyyətidir. Siz Şuşa işğaldan azad olunan gün ulu öndərimizin məzarını, Şəhidlər xiya-

banını ziyarət edərkən demişdiniz: «Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim». Bəli, cənab Prezident, ulu öndərimiz Heydər Əliyev istəyirdi ki, müstəqil Azərbaycanın güclü ordusu olsun, peşəkar hərbçilərimiz olsun. Onlar bütün dünyaya göstərsinlər ki, azərbaycanlılar suda da, quruda da, səmada da düşmənlərimizi məhv etməyə qadirdirlər. Elə bu məqsədlə də ulu öndərimiz düz 50 il bundan əvvəl indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratdı.

Cənab Prezident, Siz vaxtilə demişdiniz ki, müasir, mütəşəkkil ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. İndi isə mən rəşadətli, qalib bir ordunun şəxsi heyəti adından böyük qürur hissi ilə deyirəm: Azərbaycan Ordusunun, qalib ordunun səviyyəsinin yüksəldilməsi, ordumuzun bütün güclü dünya orduları sırasında yer alması şəxsən Sizin, Müzəffər Ali Baş Komandanımızın adı ilə bağlıdır. Bu müharibədə digər amillərlə yanaşı, ulu öndərimizin azərbaycançılıq məfkurəsi də qələbə çaldı, cənab Prezident.

Azərbaycan monoetnik dövlət olan Ermənistandan fərqli bir dövlətdir, tolerant bir ölkədir. Burada bir çox xalqların nümayəndələri – türklər, ləzgilər, avarlar, talışlar, ruslar, yəhudilər, udilər, tatlar və digər xalqların nümayəndələri mehriban bir ailənin üzvü kimi yaşayırlar. Mən avar xalqının nümayəndəsiyəm. Mən Azərbaycan vətəndaşıyam. Bizim bir adımız var, biz azərbaycanlıyıq! Azərbaycanlı olmağımızla hər birimiz həmişə fəxr etmişik, bu gün də fəxr edirik. Bu birlik, bu dostluq, bu qar-

daşlıq Qələbəyə gedən yolda daha da möhkəmləndi, daha da bərkidi.

Cənab Prezident, mən Xocavənd, Füzuli uğrunda döyüşlərdə, Qarabağımızın tacı olan Şuşa şəhərinədək döyüş yolu keçmişəm. Daşaltı uğrunda gedən ölüm-qalım savaşında tabor komandirimiz ağır yaralandıqdan sonra ekstremal vəziyyətdə tabor komandiri kimi, çətin, məsuliyyətli vəzifənin ağırlığını öz üzərimə götürərək, qarşımıza qoyulmuş mühüm döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsinə nail olmuşuq.

Siz bütün xidmətlərimi nəzərə alaraq, məni ən yüksək fəxri ada – «Vətən müharibəsi qəhrəmanı» adına layiq görmüsünüz. Sizi əmin edirəm ki, bu ali etimadı bundan sonra da Vətənimizə, dövlətimizə, millətimizə, öz doğma Azərbaycanımıza sədaqətli xidmətimlə doğruldacağam. Diqqətinizə görə təşəkkür edirəm, sağ olun.

**Babək Ələkbərov** (*polkovnik*): Möhtərəm Prezident, cənab Ali Baş Komandan! Döyüş meydanında göstərdiyimiz şücaət nəticəsində torpaqlarımızın işğaldan azad olunması ilə yekunlaşan Vətən müharibəsi Ali Baş Komandanlığınız altında Zəfər təntənəsi kimi qeyd edilir. Azərbaycan tarixinin ən böyük sərkərdəsi kimi gördüyünüz işlər qalibiyyətimizi yekunlaşdırmışdır.

Cənab Ali Baş Komandan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hər bir hərbi qulluqçusu kimi, biz sərhədçilər də Sizin hücum əmrinizi gözləyirdik. Düşmənin növbəti təxribatlarına cavab olaraq, Sizin Müzəffər Ali Baş Komandanlığınız ilə

Dövlət Sərhəd Xidmətinin qarşısına qoyduğunuz tapşırıqlar uğurlu icra olundu. Azərbaycan–İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının, eləcə də Hadrut qəsəbəsinin, Şuşa şəhərinin azad olunmasında Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları şücaət və qəhrəmanlıq göstərmişlər. Ermənistanla dövlət sərhədi boyu olan ərazilərimizdə və yüksəkliklərdə Azərbaycanın üçrəngli bayrağı, müzəffər bayrağı, Zəfər bayrağı dalğalanmaqdadır.

Xüsusi qeyd etmək istəyirəm ki, İkinci Qarabağ müharibəsi dövründə ən sürətli əməliyyat kimi yadda qalmış hücumda 24 saat ərzində 105 kilometr ərazini işğaldan azad edərək, düşmənə ağır zərbələr endirmişik. Dövlət sərhədində Bartaz, Şükürataz, Qızıldaş kimi mühüm yüksəkliklər işğaldan azad edilibdir. Dövlət Sərhəd Xidmətinin «Harop», «Quzğun» və «Hermes» kimi pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin 290 texnikası məhv edilib. Özümü çox xoşbəxt hesab edirəm ki, qədim Xudafərin körpüsünün və Zəngilan şəhərinin işğaldan azad olunmasını, cənab Ali Baş Komandan, Sizə məruzə etmək şərəfi mənə nəsib olubdur. Vətən müharibəsindəki xidmətlərimizi qiymətləndirərək, bizi yüksək dövlət mükafatı ilə təltif etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizi əmin edirik ki, bütün Azərbaycan sərhədlərinin mühafizəyə götürülməsi kimi çətin və şərəfli tapşırığın öhdəsindən bundan sonra da əzmkarlıqla gə-

ləcəyik. Qürurluyam ki, mən qalib Ali Baş Komandanın, qalib dövlətin, qalib xalqın zabitiyəm.

Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!

**İlham Əliyev:** Əziz hərbçilər, sizi həm Qələbə, həm də yüksək mükafatlar münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

*Sonda xatirə şəkli çəkdirildi.*

## ADA UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ «CƏNUBİ QAFQAZA YENİ BAXIŞ: MÜNAQİŞƏDƏN SONRA İNKİŞAF VƏ ƏMƏKDAŞLIQ» ADLI BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK

*13 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də ADA Universitetində keçirilmiş «Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq» adlı beynəlxalq konfransda iştirak etmişdir.*

*Dünyanın aparıcı «beyin mərkəzləri»nin nümayəndələrinin iştirak etdiyi konfransı ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev açdı.*

**Hafiz Paşayev:** Zati-aliləri cənab Prezident! Hörmətli konfrans iştirakçıları! Bu gün bizim konfransda iştirakına və regionun gələcəyi ilə bağlı baxışını bizimlə paylaşmaq istəyinə görə Prezident İlham Əliyevə bütün iştirakçılar adından təşəkkürümü bildirməkdən şərəf duyuram.

Bizim universitet Prezident İlham Əliyev tərəfindən təsis edilib və o hər zaman ölkədə təhsil sahəsində islahatların tərəfdarı olub. Onun Azərbaycanda müasir universitetlə bağlı baxışı və həmin universitetin elm və siyasətlə bağlı müzakirələrin aparılması üçün beynəlxalq platformaya çevrilməsi

bugünkü tədbirə tam uyğundur. Çünki ADA Universiteti bu konfransın əsas təşkilatçılarındandır.

Cənab Prezident, Sizi universitetimizdə salamlayır, fürsətdən istifadə edib Sizi professor, müəllim və tələbə heyəti adından Qarabağ müharibəsində mühüm Qələbə münasibətilə təbrik etmək istəyirəm. Bu Qələbə nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqları işğaldan azad edildi və ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Biz 30 il ərzində bu günlərin həsrətində idik. Sizin liderliyiniz və həyatlarını qurban vermiş qəhrəmanlarımızın sayəsində Azərbaycan xalqı bu Zəfər sevincini yaşamışdır.

Hörmətli tədbir iştirakçıları, biz bu müzakirələri Sizin Ağdama, Qarabağın azad olunmuş rayonlarından birinə səfərinizdən sonra keçiririk. Orada Siz dağıntıların və Ermənistanın işğalının qorxunc nəticələrinin şahidi oldunuz. Müharibə başa çatıb və indi Cənubi Qafqaz üçün inkişaf və əməkdaşlığa hesablanmış yeni baxışın formalaşmasına ehtiyac var ki, Qarabağın dünyanın ən gözəl bölgələrindən birinə çevrilməsi mümkün olsun. Bizim universitetin professor və müəllim heyəti siyasətlə bağlı müxtəlif toplantıların keçirilməsində iştirak etmiş və hökumətimizə yenidən qurulma işlərində yardım etmək məqsədilə qaçqın və məcburi köçkünlərin doğma yurdlarına geri dönmələri mövzusunda rəy sorğusu təşkil etmişdir. Sizin töhfəniz və ideyalarınız bizim işimiz üçün faydalı olacaq. Sizə Bakıya səfəriniz və konfransımızda iştirakınıza görə təşəkkürümüzü bildiririk.

Cənab Prezident, bizə vaxt ayırdığınıza görə bir daha təşəkkür edir və böyük şərəf hissi ilə sözü Sizə verirəm.

**İ l h a m Ə l i y e v**: Sağ olun. Əvvəlcə, ADA Universiteti və onun rektoru Hafiz Paşayevə belə bir tədbirin təşkilinə görə təşəkkürümü bildirmək istəyirəm. Şadam ki, nisbətən qısa bir zamanda ADA Universiteti Azərbaycanın aparıcı universitetlərindən birinə çevrilib və geniş beynəlxalq əlaqələrə malikdir. Həmçinin mən tədbir iştirakçılarına da minnətdarlığımı bildirirəm. Təsəvvür edə bilərsiniz ki, müharibədən sonrakı vəziyyət olduqca həssasdır. Atəşkəsə əməl olunsa da, münaqişədən sonrakı inkişafla bağlı çoxsaylı suallar var və bu konfransın mövzusu da münaqişədən sonra inkişaf və əməkdaşlıqdır.

Bir daha bütün iştirakçılara təşəkkür edirəm. Biz bunu yalnız regionda cərəyan edən hadisələrə marağın deyil, eyni zamanda, 30 il ərzində Ermənistanın işğalından əziyyət çəkən Azərbaycan xalqı ilə həmrəyliyinizin əlaməti hesab edirik. Münaqişədən sonrakı inkişaf mövzusuna toxunmazdan əvvəl başa düşülməlidir ki, bizim torpaqlarımız 30 ilə yaxın işğal altında olub. Biz ailə üzvlərini itirmiş, özlərinin doğma yurdlarında yaşamaqla bağlı fundamental hüquqlardan məhrum edilmiş insanların taleyini bir kənara qoya bilmərik. Biz Ermənistan ordusu tərəfindən törədilmiş vəhşilikləri unuda bilmərik. Biz heç vaxt Ermənistan və qondarma «Dağlıq Qarabağ rejimi»nin rəhbərliyi tərəfindən törədilmiş Xocalı soyqırımını və günahsız qurbanların xatirəsini unutmayacağıq. Bu səbəbdən həmin yaddaşın

bizimlə qalacağını anlamaq olduqca vacibdir. Bu yaddaş qəlblərimizdə yaşayacaq. Eyni zamanda, biz gələcəyə baxmalıyıq. İşğaldan azad olunmuş ərazilərdəki dağıntıların miqyası bizim ən pis gözləntimizdən də qorxuncdur. Bizim şəhər və kəndlərimizdə ermənilər tərəfindən nələrin törədildiyi haqqında təsəvvürümüz var idi. Vaxtaşırı videomateriallar təqdim olunurdu, o torpaqlara səfər edə bilən xarici nümayəndələr tərəfindən məlumatlar verilirdi. Yeri gəlmişkən, bəlkə bilirsiniz ki, ovaxtkı Dağlıq Qarabağa qanunsuz səfər edən əcnəbilər, sizin səfər etdiyiniz ərazilərə gəlmək hüququndan məhrum idilər. Onlar keçmiş Dağlıq Qarabağ inzibati vilayətinin ətrafında yerləşən Ağdam, Füzuli və digər rayonlara səfər etmək hüququndan məhrum idilər. Səbəb ondan ibarət idi ki, Ermənistan hökuməti onların həmin ərazilərdə olan dağıntıların, işğalın, azərbaycanlılara qarşı olan nifrətin nəticəsinin şahidi olmasını istəmirdi. Aydındır ki, həmin ərazilər Birinci Qarabağ müharibəsi dayandıqdan sonra viran qoyulmuşdu, çünki müharibə gedə-gedə şəhər və kəndləri dağıtmaq mümkün olmazdı. Onlar bunu biləkdən, Azərbaycan mədəniyyətinin izini itirmək, bu torpaqları bizim yaddaşımızdan silmək və həmin ərazilərin mənşəyini dəyişdirmək məqsədilə ediblər. Beləliklə, burada Azərbaycan xalqının hissləri başa düşülməlidir. Biz artıq həmin torpaqlara qayıdaraq, işğalçı erməni qüvvələrinin bizim tarixi və dini abidələrimizi, şəhər və kəndlərimizi necə viran etdiyinin şahidiyik. Bu isə münaqişədən sonrakı dövrdə addımlarımızın planlaşdırılması baxımından mü-

hüm amildir. Siz hansı hadisələrin baş verdiyini yaxşı bilirsiniz. Siz proseslə maraqlanan şəxslərsiniz və burada 30 illik işğalla bağlı geniş danışmağa ehtiyac duymuram. Mən burada çıxışımı dayandırmaq və müzakirələrə daha çox vaxt ayırmaq istəyirəm. Bir daha iştirakınıza görə sağ olun.

**Hikmət Hacıyev** (*Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri*): Sağ olun, cənab Prezident. İcazənizlə, tədbirimizin sual-cavab hissəsinə keçmək istərdik. Burada 10 nəfərdən çox iştirakçı söz almaq arzusunu ifadə edib. Söz ATƏT-in Minsk qrupunun sabiq həmsədri, beynəlxalq ekspert Metyu Brayzəyə verilir.

**Metyu Brayzə** (*ABŞ-ın Atlantika Şurasının böyük elmi işçisi, beynəlxalq ekspert*): **Təşəkkür edirəm, cənab Prezident, bu gün Sizinlə birlikdə olmaq mənim üçün şərəfdir. Sizi bu yeni dünyada görməkdən çox şadam. Çıxışınızda qeyd etdiyiniz son məqama – Ermənistan və Azərbaycanda insanların yanaşması məsələsinə toxunmaq istəyirəm. Azərbaycan innovasiya, texnologiya və taktika ilə yanaşı, misilsiz cəsarət nəticəsində həlledici Qələbə qazanmışdır. Bəziləri bəlkə də bunu dərk eləmir, ancaq Siz təmkinli şəkildə müharibə apardınız. Qarşı tərəfin mülki infrastrukturuna zərər və mülki vətəndaşlar arasında itki minimal səviyyədə olmuşdur. Siz müharibənin hərbi fazasını Şuşadakı Qələbənizdən sonra dayandırmaqla strateji baxış nümayiş etdirdiniz. Müharibə zamanı vurğulanan hədəflər əslində illər boyu aparılmış danışıqların, ilkin razılaşmaların 2009-cu**

**ildə razılaşdırılmış baza prinsipləri ilə uzlaşırdı. Yeganə istisna Dağlıq Qarabağın hüquqi statusu ilə bağlıdır. Onun da səbəbi odur ki, Ermənistan münaqişənin dinc yolla həllini qəbul etmədi və nəticədə müharibədə məğlub oldu. Mənim sualım belədir: Ermənistan dərk edirmi ki, Siz müharibəni təmkinli qaydada aparmısınız və bu, bir müddətdən sonra xalqlar arasında hansısa barışıqla nəticələnə bilər? İkinci sualım isə tədbirin sonunda bizimlə fotoşəkil çəkdirmək istəyiniz varmı?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, çəkdirərik. Çıxışınıza görə təşəkkür edirəm. Siz danışıqlar prosesində birbaşa iştirak edən şəxs olmusunuz, bizim və Ermənistanın mövqeyinin nədən ibarət olduğunu yaxşı bilirsiniz. Azərbaycanın mövqeyi hər zaman konstruktiv olub. Sizin keçmiş həmkarlarınız – Minsk qrupunun Fransadan və Rusiyadan olan həmsədrləri ilə görüşlər zamanı qeyd olunurdu ki, Azərbaycan münaqişənin tezliklə həllinin tərəfdarı idi, çünki əziyyət çəkən tərəf də biz idik. Danışıqlar zamanı məndə güclü bir hiss var idi və mən bunu sizlərə deyirdim ki, Ermənistan münaqişənin həllini istəmir və bunun üçün əlindən gələni edir. Biz torpaqları azad edəndən sonra orada yüz milyonlarla dollar hesabına başa gəlmiş nəhəng istehkamlar, minalanmış sahələr və müdafiə sədlərinin qurulduğunun şahidi olduq. Aydındır ki, onlar bunu torpaqlarımızı əbədi işğal altında saxlamaq üçün etmişlər. Onların taktikası danışıqlarda iştirak etmək, müəyyən məsələlərə razılıq vermək, digərlərini qəbul etməyərək, prosesin imitasiyası ilə məşğul olmaqdan, həlledici

qərar verməyə gəldikdə isə geriyə addım atmaqdan ibarət idi. Mən burada əvvəlki hökuməti nəzərdə tuturam. Bu, Fransada Rambuye görüşündə baş vermişdi. 2009-cu ildə Ermənistan Dağlıq Qarabağın ətrafında olan rayonların Azərbaycana qaytarılmasını və «statusun» gələcək danışıqlar predmeti olmasını nəzərdə tutan münaqişənin həlli formulasını rədd etdi. Yəni məsələ bu yerdə idi və siz bunu çox yaxşı bilirsiniz.

Bizim müharibə zamanı davranışımıza gəldikdə, artıq müharibənin ilk günlərindən bəlli idi ki, Azərbaycan yalnız XXI əsrin müharibəsini deyil, eyni zamanda, yeni mənəvi qaydalar əsasında döyüş aparır. Mənim hərbçilərimizə verdiyim ilk əmrlərdən biri ləyaqətlə, təmkinlə davranmaları və mülki vətəndaşlara zərər verməməyə maksimum çalışmaqla bağlı idi. Bunun nəticəsində Ermənistan tərəfinin mülki vətəndaşlar arasında itkiləri 40 nəfərdən az oldu. Biz ərazilərimizi azad edirdik və bu ərazilərin bir hissəsində qanunsuz məskunlaşma aparılmışdı.

Beləliklə, bizim hücum əməliyyatlarımız və texniki vasitələrimizin yeganə hədəfi hərbi hədəflər idi. Həmin 40 nəfər mülki ermənінin böyük bir hissəsi də hərbi əməliyyatlarda iştirak edənlər idi. Bu mülki vətəndaşlar hərbi hissələrə çağırılmış və əməliyyatlara cəlb olunmuşdular. Ermənilər tərəfindən tərk edilmiş mülki vətəndaşlara olan münasibətimiz də bizim humanist siyasətimizin və ordumuzun humanist davranışının təzahürüdür. Məsələn, Hadrut bölgəsində bir neçə yaşlı insan tərk edilmişdi. Bizim hərbçilər oraya gəldikdə bu insanlar qorxu içərisin-

də idi. Həmin ermənilər keçmişdə azərbaycanlılar arasında yaşadıqlarına görə Azərbaycan dilində səlis danışırdılar. Onlar bizim xəstəxanaya aparıldılar. Daha sonra biz Qırmızı Xaç Komitəsinin iştirakı ilə onları təhvil vermək istəyəndə Ermənistan imtina etdi. Yaşlı insanların birinin səhhəti pis idi və onlar dedilər ki, biz onu qəbul etmirik. Beləliklə, həmin şəxs Qırmızı Xaç Komitəsinin iştirakı ilə Azərbaycanda xəstəxanaya yerləşdirildi.

O ki qaldı bizim müharibə zamanı davranışımız Ermənistan tərəfindən düzgün qiymətləndirilirmi sualına, mənim cavabım xeyrdir və bu çox təəssüf doğuran haldır. Biz münaqişədən sonrakı inkişafdan danışırıq və gələcək barışığa apara biləcək müəyyən elementlər üzərində diqqətimizi cəmləşdirməliyik. Lakin Ermənistanda uzun müddət ərzində Azərbaycana qarşı o qədər demonizasiya siyasəti, uydurmalar, azərbaycanlıları düşmən, Azərbaycanın isə sanki Ermənistanı və Qarabağı işğal edən formada təqdimatı hökm sürüb ki, cəmiyyətin bunun əksini dərk etməsi üçün vaxt tələb olunacaq. Yalnız müharibə zamanı deyil, biz müharibədən sonra da eyni davranış nümayiş etdirdik. Biz 1500-dən çox erməni əsgərinin cəsədini Ermənistana təhvil vermişik. Biz Rusiya sülhməramlıları ilə birlikdə axtarış əməliyyatlarında iştirak edirik. Onu da deməliyəm ki, Birinci Qarabağ müharibəsində bizim 4000 hərbçimiz itkin düşüb və bir cəsəd belə, bizə qaytarılmayıb. Budur aramızda olan fərq. Biz dəmir yolumuz vasitəsilə Rusiya sülhməramlı qüvvələrinə maneəsiz nəqliyyat və logistika dəstəyini təmin edirik. Onlar

dəmir yolu vasitəsilə yüklərini Bərdəyə daşıyır. Bu yüklərin hava yolu ilə İrəvana, oradan isə 5-6 saat avtomaşınlarla Laçın dəhlizindən daşınmasından daha tez və ucuz başa gəlir. Mən digər çoxsaylı nümunələr sadalaya bilərəm. Biz Rusiya ərazisində təmir işlərinin aparılması ilə əlaqədar «Qazprom» şirkətinə Azərbaycan üzərindən Ermənistana təbii qazın nəqlinə icazə vermişik. Biz yox da deyə bilərdik, ancaq biz buna icazə verdik. Bu da bir göstəricidir, bir jestdir. Biz Zəngilan və Qubadlı rayonlarının ərazisində ermənilərə 21 kilometr uzunluğunda yolumuzdan istifadə etməyə icazə veririk. Həmin yol Azərbaycan ərazisindədir və əvvəllər ermənilər tərəfindən istifadə edilib. Biz buna mane olmadıq, ancaq müharibə dövründə işğal altında saxladıqları ərazilərdə bizə bir metr irəli hərəkət etməyə icazə verirdilərmi? Xeyr. Yəni bütün bunlar birtərəfli qaydada atılmış addımlardır. Bu təkcə jest deyil, bu, müharibə səhifəsini çevirməklə bağlı düşünülmüş siyasətdir. Giriş nitqimdə ermənilərin bizə qarşı törətdiklərini heç vaxt unutmayacağımızı qeyd etməklə yanaşı, bildirmək istəyirəm ki, həm də gələcəyə baxmalıyıq. Hesab edirəm ki, burada biz Ermənistanın vətəndaş cəmiyyətinin daha fəal olmasını gözləyirik. Çünki bu gün Ermənistanda nə hökumət, nə də müxalifət Azərbaycan haqqında nəinki müsbət, heç neytral fikir söyləmək iqtidarında deyil. Bu azərbaycanofobiya konsepti, onilliklər ərzində azərbaycanlılara qarşı nifrətin aşılanması əslində erməniləri hüquqlarından məhrum edib. Ancaq hesab edirəm ki, onlar özlərində cəsarət tap-

malı, erməni xalqına həqiqəti söyləməlidirlər. Müharibə artıq tarixdə qalıb, münaqişə həll edilib və biz gələcəyə baxmalıyıq.

**M a y k l R e y n o l d z** (*ABŞ-ın Prinston Universitetinin dosenti*): **Cənab Prezident, ötən əsrin 90-cı illərinin sonunda Azərbaycanda belə bir fikir var idi ki, vətəndaş cəmiyyəti və QHT-lər münaqişə başa çatdıqdan sonra etimadın gücləndirilməsi baxımından işlər görə bilər. Siz qeyd etdiniz ki, münaqişə başa çatıb. Bu mənada vətəndaş cəmiyyətləri sülhün möhkəmləndirilməsi və regionda yeni baxışla bağlı hansı rol oynaya bilər? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, onlar mühüm rol oynaya bilərlər. Xüsusilə də mənim Ermənistanın siyasi seqmentindən gözləntilərim haqqında fikirlərim fonunda. Burada barışıq məqsədilə addımların atılması üçün vətəndaş cəmiyyətinin fəaliyyəti ilə bağlı geniş imkanlar mövcuddur. Sizin də bununla bağlı bəlkə məlumatınız var – Ermənistan vətəndaş cəmiyyətinin çox azsaylı nümayəndələri var ki, Azərbaycanla sülh barəsində danışsın. Belə fikir söyləyənlər isə ictimai təqiblərə, bəzən fiziki hücumlara məruz qalırlar. Onlara xəyanətkar deyilir və erməni siyasətçiləri onları türk adlandırırlar. Bu isə onların siyasi jarqon dilində yəqin ki, təhqir deməkdir. Yəni siyasətçilər onlara hədə-qorxu gəlirlər. Biz hətta münaqişə dövründə vətəndaş cəmiyyəti nümayəndələri arasında körpü yaratmağa cəhdlər etmişik. İki dəfə belə bir nümayəndə heyəti Ermənistanda və Qarabağda səfərdə olub. Onlar da Bakıya səfər ediblər. Lakin vətəndaş cəmiyyətinin nümayəndələri,

jurnalistlər və parlament üzvlərinin ikinci səfərindən sonra erməni tərəfi bunu dayandırdı. Mən Ermənistanın ozamankı prezidenti Sarkisyandan soruşanda ki, bunu niyə dayandırdınız, cavab verə bilmədi. Sonra məlum oldu ki, onlar müəyyən yaxınlaşma, müəyyən əməkdaşlıq elementlərinin yarana biləcəyindən qorxdular. Yəni onlar hər zaman buna mane olurdular. Ancaq indi fərqli vəziyyətdədirlər. Biz mesajlarımızı Ermənistan cəmiyyətinə çatdırmaq iqtidarında olmalıyıq. Bu baxımdan resurslar məhduddur. Ermənistanda ictimai mühitə hökumət tərəfindən ciddi nəzarət edilir və dediyim kimi, Azərbaycanla bağlı deyilən istənilən müsbət söz xəyanət hesab olunur. Bu səbəbdən, beynəlxalq təşkilatlar, xüsusilə də münaqişədən sonrakı dövrdə barışıq və münasibətlərin normallaşdırılması, habelə etimad quruculuğu tədbirləri sahəsində təcrübəsi olanlar daha fəal ola bilərlər. Bu işdə QHT-lərin rolu böyük ola bilər və Azərbaycan bu məsələdə QHT-lərlə çalışmağa hazırdır.

**Karlo Frappi** (*İtaliya Beynəlxalq Siyasi Araşdırmalar İnstitutunun kiçik elmi işçisi*): **Təşəkkür edirəm, cənab Prezident, iştirakımdan şərəf duyuram. Mənim sualım yenidən qurulma ilə bağlıdır. Azərbaycanın tərəfdaşları bu işdə Sizə necə kömək edə bilərlər? İtaliya–Azərbaycan münasibətlərini xüsusi qeyd etmək istəyirəm. 2020-ci il münasibətlərimiz üçün mühüm il olubdur. Mən «Cənub Qaz Dəhlizi»nin, nəhayət, istifadəyə verilməsini nəzərdə tuturam. Ancaq zənnimcə, burada söhbət daha geniş təmasların nəticəsindən gedir. Sizin ötən ilin fevralında İtaliyaya dövlət səfəriniz dönüş nöqtəsi oldu. Səfər zamanı**

**«Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə»nin imzalanması ilə İtaliya ilk dəfə Azərbaycanın ərazi bütövlüyünə sadiqliyini vurğuladı. Bu, İtaliyanın ötən illər ərzində apardığı siyasətdən və Avropa İttifaqına üzv olan bəzi dostlarımızın siyasətindən uzaqlaşması demək idi. Həmin öhdəlik müharibədən sonra da rəsmi olaraq yenidən vurğulandı. İtaliyanın yüksəkrütbəli rəsmilərindən ibarət nümayəndə heyətinin azad olunmuş ərazilərə səfərindən sonra, cənab Prezident, Siz qeyd etdiniz ki, Azərbaycan yenidən qurulma işlərində İtaliya ilə sıx əməkdaşlıq etmək əzmindədir. Mənim sualım belədir: hazırda vəziyyət necədir və gələcəklə bağlı gözləntilər nədən ibarətdir? İtaliya təkcə yenidən qurulma prosesində deyil, barışıq mövzusunda da necə kömək edə bilər? Sağ olun.**

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. İkitərəfli tərəfdaşlığımızla bağlı sizin dediklərinizlə tamamilə razıyam. İtaliya bizim yaxın dostumuz və tərəfdaşımızdır. Mən ötən il İtaliyaya dövlət səfərimi yaxşı xatırlayıram. Bildiyiniz kimi, ondan öncə İtaliyanın Prezidenti cənab Mattarella Azərbaycana dövlət səfərinə gəlmişdi. Mənim səfərim strateji dialoqun davamı idi. Qeyd etdiyiniz kimi, biz strateji tərəfdaşlıqla bağlı sənəd imzaladıq. Bu, ikinci belə bir sənəd idi. Birincisi bir neçə il ondan öncə imzalanmışdı. Bu bizim qarşılıqlı sadiqliyimizi nümayiş etdirir.

Qeyd etdiyiniz kimi, biz İtaliyaya münaqişənin həlli ilə bağlı birmənalı və ədalətli yanaşmaya görə minnətdarıq. Biz bilirik ki, bu mövqeni aydın ifadə etmək o qədər də asan məsələ deyil, xüsusilə də Av-

ropa İttifaqı ailəsində Ermənistanın güclü tərəfdarları vardır. Onlar hər zaman münaqişə qurbanı ilə işğalçı qüvvələri eyni tərəziyə qoymağa çalışıblar. Yəni mövqeniz bu əməkdaşlığın vacib əlaməti olub. Onu da deyə bilərəm ki, biz artıq Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalamışıq və zənnimcə, onları bu işə İtaliya ilə olan təcrübəmiz həvəsləndirib.

Bizim siyasi əlaqələrimiz əladır. Biz güclü əməkdaşlığı davam etdiririk. Bu əməkdaşlıq müharibə zamanı və müharibədən sonrakı dövrdə sınaqdan keçib və qeyd etdiyiniz kimi, İtaliya nümayəndə heyətinin azad olunmuş ərazilərə səfəri tərəfimizdən dəstəyin növbəti əlaməti hesab edilmişdir. Yenidən qurulma ilə bağlı planlaşdırmanın ilk günlərindən biz İtaliya şirkətlərini dəvət etdik. Bu dəvət İtaliyanın ölkəmizdəki səfirliyi vasitəsilə edildi. Yeri gəlmişkən, artıq fəaliyyət müddətini başa vurmuş səfiriniz İtaliyanın maraqlarının və İtaliya işgüzar dairələrinin ölkəmizdə təşviqi baxımından olduqca fəal idi. O, Azərbaycanın yaxın dostu idi. Beləliklə, biz İtaliyanın ölkəmizdəki səfirliyinə müraciət edərək, italyan şirkətləri ilə bağlı tövsiyələr verməyi xahiş etdik. Bizim əvvəlki illərdə təmaslarımız olub, çünki italyan şirkətləri ölkəmizdə böyük layihələr icra edib ki, bura neft-kimya, neft emalı, tikinti və memarlıq layihələri daxildir. İşə artıq start verilib və biz italyan şirkətlərinin iştirakını genişləndirmək arzusundayıq.

Mən bildirmişdim ki, müharibədən sonra biz dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bu,

təbii haldır, çünki müharibə bizim üçün kimin kim olduğunun aydın göstəricisi idi. Əlbəttə, bizim bu və ya digər ölkənin mövqeyi ilə bağlı müəyyən ehtimallarımız var idi, ancaq 100 faiz əminlik yox idi və burada müharibə hər şeyi aydın göstərdi. İtalyan şirkətlərinin artıq dəvət edildiyi sahələrə gəldikdə, biz muzey və müharibə memoriallarının yaradılması işinə italyan şirkətini cəlb etmişik. Biz təkcə Bakıda deyil, digər şəhərlərdə, o cümlədən azad olunmuş ərazilərdə də Zəfər muzeyləri və müharibə memorialları yaradacağıq. Bu bir sahədir.

İtalyan şirkətlərini dəvət etdiyimiz digər sahə enerji istehsalıdır. Müharibədən sonra nəinki təmaslar qurulub, hətta ilkin sənədlər də imzalanıb. Azad olunmuş ərazilərdə enerji istehsalı üçün nəhəng potensial var, xüsusilə də söhbət yenilənən enerji mənbələrindən – su, Günəş və küləkdən əldə olunan enerjidən gedir. Dediyim kimi, ilkin sənədlər artıq imzalanıb. Biz azad olunmuş ərazilərdə İtaliyanın kənd təsərrüfatının inkişafı təcrübəsindən də faydalanmaq niyyətindəyik, çünki həmin ərazilər münbit torpağa malikdir və orada maksimum məhsuldarlıq əldə etmək olar. Deyə bilərəm ki, hazırda azərbaycanlı həmkarları ilə fəaliyyətə başlamış xarici şirkətlər Türkiyə, İtaliya və Böyük Britaniyadandır.

Əlbəttə, biz yenidən qurulmanın ilkin mərhələsindəyik. Yenidən qurulma başlanıb, infrastruktur layihələri icra olunur, ancaq gələcək üçün nəhəng potensial var və digər ölkələrdən də yeni şirkətlər işə başlayacaq. Biz bütün dostlarımızın yenidən qurulma işlərində iştirakını və bu imkanlardan faydalanması-

nı arzulayırıq. Ölkə, hökumət və xalq olaraq biz yaxşılığı unutmuruq. Biz bu yaxşılığı hər zaman qəlbimizdə saxlayır və bunun qarşılığında buna bərabər yaxşılıq etməyə çalışırıq. İtaliya ilə dostluq münasibətlərimizi, güclü siyasi əlaqələri, italyan şirkətlərinin böyük təcrübəsini – əminəm, siz də mənimlə razılaşarsınız ki, İtaliya dünya mədəniyyətinin mərkəzlərindən biridir – bizim dini və tarixi abidələrimizin bərpası planlarını nəzərə alsaq, burada geniş və çoxşaxəli əməkdaşlıq imkanları olacaqdır.

**N i g a r   G ö k s ə l** (*Beynəlxalq Böhran Qrupunun Türkiyə nümayəndəliyi*): **Cənab Prezident, dünən biz Ağdamda olduq, böyük miqyasda fiziki dağıntının şahidi olduq, eyni zamanda, parçalanmış həyatların faciəsini, insanlara dəyən ziyanı təsəvvür edə bilirik. Mən hesab edirəm ki, yenidən qurulma ilə yanaşı, Ağdamın yerli sakinləri öz evlərinə qayıdanda onların yaxınlıqdakı erməni kəndləri ilə qarşılıqlı əlaqədə ola bilmələri üçün etimadın yaranması müəyyən vaxt və səy tələb edəcək. Mənə maraqlıdır, Siz bu etimadın yenidən yaranması üçün onların, inşallah, bir gün yanaşı, sülhməramlılar olmadan yaşaya bilməsi üçün Ermənistan tərəfindən, eləcə də Qarabağdakı ermənilərdən hansı addımları gözləyirsiniz? Mən həmçinin daha geniş planda bilmək istərdim, Siz yaxın və ortamüddətli perspektivdə Türkiyənin Ermənistanla sərhədini açmasının həm regional inteqrasiya baxımından, həm də cəmiyyətdə geniş şəkildə müşahidə etdiyimiz türkofobiyanın azalması baxımından faydalı olacağını düşünürsünüzmü? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Sözsüz ki, azərbaycanlıların və ermənilərin gələcəkdə necə qarşılıqlı əlaqədə olacağını proqnozlaşdırmaq çətindir. Düşünürəm ki, bu, əhəmiyyətli dərəcədə siyasətçilərin iradəsindən və siyasi müdrikliyindən asılı olacaqdır. Çünki körpü yaratmağa çalışmaq üçün burada və İrəvanda bizim daha fəal olmağımıza ehtiyac vardır. Əlbəttə, əgər Ermənistan bunu istəyirsə. Biz onların niyyətlərinin nə olduğunu bilmirik. Onlar heç vaxt bu barədə ətraflı məlumat verməyiblər. Mən artıq dəfələrlə açıq şəkildə bildirmişəm ki, biz münaqişə səhifəsini bağlanmış hesab edirik. Biz hətta Ermənistanla mümkün sülh razılaşması barədə danışa bilərik və mən bunu bir neçə dəfə demişəm. Bizim planlarımız budur. Lakin biz Ermənistan tərəfindən belə mesajlar almamışıq. Ermənistanın baş naziri susur, Ermənistanın xarici işlər naziri çox aqressivdir, amma indi Ermənistan elə vəziyyətdə deyil ki, Azərbaycana qarşı aqressiv olmağı özünə rəva görsün. Onlar müharibə vaxtı nə baş verdiyini xatırlamalıdırlar. Ermənistan müxalifəti hazırda faktiki olaraq, isterikadadır və azərbaycanofobiya, türkofobiya onların əsas – bu hər zaman çox mühüm olub – lakin indi zənnimcə, yeganə amilinə çevrilib. Mən əminəm ki, onlar öz seçki kampaniyalarını azərbaycanofobiya, türkofobiya, revanşizm hissləri üzərində quracaqlar. Ona görə də biz bu qarşılıqlı fəaliyyəti birtərəfli qaydada qura bilmərik. Bizim mövqemiz aydındır. Biz buna hazırıq. Bu, asan olmayacaq. Ağdam və digər ərazilərə qayıdacaq keçmiş qaçqınlar ermənilərin onların torpaqlarına, əzizlərinin qəbirlərinə, dini

abidələrinə nə etdiyini görəcəklər. Onlar nə hiss edəcəklər? Mən proqnozlaşdıra bilərəm. Mən müharibə vaxtı təmas xəttinə yaxınlaşanda, Ağdamı yalnız binoklla görə biləndə və bütün işğal olunmuş ərazilərə gedəndə eyni hissi keçirmişəm. Bəli, mən Prezidentəm və vəzifəmə uyğun davranmalıyam. Lakin biz hamımız insanıq, hisslərimiz var. Biz onları gizlədə bilərik, onlara nəzarət edə bilərik, lakin bəzən bu çox çətin olur. Mən keçmiş azərbaycanlı qaçqınların nə hiss edəcəyini proqnozlaşdıra bilərəm. Lakin Prezident olaraq, gələcəyə baxan bir şəxs olaraq, əgər Ermənistan bizə müsbət işarələr versə, biz bu əlaqələri qura bilmək üçün hər şeyi edərik. Bizim tərəfimizdən birtərəfli qaydada edilənlər, mən artıq qeyd etmişəm, bunun aydın göstəricisidir. Mənə inanın ki, biz bunların heç birinin olmasına imkan verməyə bilərdik və heç kim bizi məcbur edə bilməzdi. Biz bunu düşünülmüş şəkildə etmişik. Bu, birinci. İkinci suala gəlincə, biz Türkiyəyə münasibətdə siyasətlərinin yenidən nəzərdən keçirilməsi ilə bağlı Ermənistan isteblişmentində bəzi işarələr və bəzi zəif fikirlər görürük. Hətta münaqişə zamanı mən dəfələrlə bu barədə danışaraq demişəm ki, tamamilə qəbuledilməz və qəribədir ki, Ermənistan kimi kiçik, yoxsul və zəif ölkənin Türkiyə kimi böyük və güclü ölkəyə qarşı ərazi iddiaları vardır. Onlar öz ideoloji doqmalarına o qədər tabedirlər və türkofobiya dövlət siyasəti olduğu üçün onlar hətta reallıq hissini itiriblər. Bildiyimə görə, Türkiyə hökuməti addımlarını çox konstruktiv şəkildə planlaşdırır. Lakin onlar adekvat cavab almalıdırlar. Ermənistan

ilk olaraq nə etməlidir? Onlar Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməli, öz konstitusiyalarını yenidən yazmalıdırlar. Onlar yeni Konstitusiya qəbul etməlidirlər. Onlar bunu planlaşdırırlar, lakin bu, hökumətin siyasi gündəliyi üçündür. Hökumət öz siyasi mövqeyini gücləndirmək istəyir. Lakin düşünürəm ki, onlara yaxşı məsləhət verə bilərəm. Öz konstitusiyalarından Türkiyəyə qarşı ərazi iddialarını çıxarsınlar. Mən bilmirəm, hansı ölkənin Konstitusiyasında digər ölkəyə qarşı ərazi iddiaları vardır. Zənnimcə, bu, nadir haldır və hər kəs başa düşməlidir ki, tarix boyunca çoxsaylı müharibələr olub və onların soyqırımı ilə bağlı saxta tarixinin reallıqla heç bir əlaqəsi yoxdur. Bu, müharibə idi, elə bir vəziyyət idi ki, insanlar bir-birilə savaşırdılar, ölkələr bir-birilə savaşırdı, lakin sonra barışıq oldu. Yeri gəlmişkən, həmin dövrdə Ermənistanın nəinki Osmanlı imperiyası ilə çətinlikləri var idi, onların digər qonşuları ilə də çətinlikləri var idi. Niyə onlar haqsız hücumları üçün yalnız Türkiyəni seçdilər? Türkiyə hökuməti bu məsələlərlə qərəzsiz, obyektiv şəkildə məşğul olmaq üçün tarixçilərdən ibarət birgə qrupların yaradılmasını açıq şəkildə dəfələrlə təklif edib. Lakin onlar imtina ediblər. Niyə? Çünki onların siyasi dividendlər qazanmaq üçün bu saxta tarixə ehtiyacları var. Onlar bəzi ölkələrdən müdafiə, müəyyən yardım əldə etmək üçün bu saxta hekayədən istifadə edirlər. Beləliklə, mənim mövqem bundan ibarətdir. Eyni zamanda, nə əlavə edə bilərəm. Əlbəttə, mən Türkiyənin adından danışa bilmərəm, lakin deyə bildiyim sirr deyil. Bildiyiniz kimi, bu gün

biz kommunikasiyanın açılmasını, xüsusilə Zəngəzur dəhlizini müzakirə edirik və Zəngəzur dəhlizi Türkiyənin razılığı və onların iştirakı olmadan açıla bilməz. Baxmayaraq ki, Türkiyə Azərbaycan, Ermənistan və Rusiya Baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupunda iştirak etmir, Türkiyə müzakirələrlə bağlı bizim tərəfimizdən məlumatlandırılır və əgər Ermənistan kommunikasiyalarla bağlı çətinliklərə son qoymaq istəyirsə, onlar tranzit ölkə olmaq üçün hər hansı imkana malik olmaq istəyirlərsə, yalnız Türkiyə onları bununla təmin edə bilər. Bildiyimə görə, Türkiyə hökuməti buna hazırdır. Beləliklə, top Ermənistan tərəfdədir. Onların yaxşı həkimlərə ehtiyacı var. Mən dəfələrlə demişəm, onlar zəhərləniblər. Bu zəhər əsasən onların Fransanın cənubunda, Kaliforniyada, Krasnodar diyarında və bəzi başqa paytaxtlarda çox sakit və gözəl yerlərdə oturub öz həyatlarından zövq alan diasporasından gəlir. Onlar istəyirlər ki, keçmiş Dağlıq Qarabağda və Ermənistanda olan ermənilər onların girovları, alətləri olsun, onlar da bəzi iddialı və şovinist ideyaları ilə məşğul ola bilsinlər. Erməni cəmiyyətinin dəmir pərdəni qaldırmağa ehtiyacı var, əgər mən bu analogiyalarla danışa bilərəmsə, onlar dəmir pərdə arxasında yaşayırlar və bu zəhərli ideyaların təsiri altındadırlar. Bu işdə onlara kömək etməyə hazırıq.

**Stanislav Pritçin** (*Rusiyanın Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun böyük elmi işçisi*): **Cənab Prezident, bu gün Sizinlə birlikdə olmaq böyük şərəfdir. Vaxt ayırdığınıza görə çox sağ olun. Mənim sualım Azərbaycanın gələcəyi**

**ilə bağlıdır. Hər kəs bilir ki, bir neçə aydan sonra Azərbaycan müstəqilliyinin 30 illiyini qeyd edəcək və həmin vaxta qədər Azərbaycan bəlkə də müstəqilliyinin, ərazi bütövlüyünün bərpasının əsas məsələsini, əsas məqsədini həll edib. Zənnimcə, indi növbəti 30 il üçün uzunmüddətli məqsədlər müəyyənləşdirmək vaxtıdır. Bununla əlaqədar, Sizdən soruşmaq istərdim, Azərbaycanın gələcəyi ilə bağlı baxışınız necədir? Azərbaycan dövlət olaraq, gələcək üçün hansı məqsədlər müəyyənləşdirib? On, iyirmi ildən sonra ümumi daxili məhsul, iqtisadiyyatın inkişafı, strategiya baxımından, ümumiyyətlə, dövlət olaraq, Azərbaycanı necə görürsünüz? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Bu suallara cavab vermək üçün bizim bəlkə də bir neçə saatlıq xüsusi sessiyaya ehtiyacımız vardır. Lakin mən çox qısa cavab verməyə çalışacağam. Biz Azərbaycan üçün ortamüddətli və uzunmüddətli inkişaf strategiyasını faktiki olaraq, müharibədən əvvəl işləyib hazırlamışdıq. Əlbəttə, ərazilərin işğaldan azad edilməsi əlavə imkanlar verir. Çünki ərazilərin bərpası çoxlu resurs tələb edir. Lakin bu resurslar Azərbaycanda sərf olunacaq. Onlar biznesi stimullaşdıracaq, iqtisadiyyatımızın tikinti sektorunu stimullaşdıracaq, yeni iş yerləri yaradacaq, imkanlar yaradacaq, kənd təsərrüfatına əlavə dəyər qatacaq. Bu səbəbdən də, indi bizim müəyyən mənada iki inkişaf proqramımız vardır. Birincisi, bizim hər il qəbul etdiyimiz illik inkişaf proqramı və həmçinin 2030-cu ilədək inkişaf proqramı. İkincisi, Qarabağın bərpası üçün inkişaf proqramıdır ki, bu, başlanğıc mərhələsindədir. Ha-

zırda bizim hökumət strukturlarımız ikisi arasında birləşmə və ya koordinasiya üzərində işləyir ki, eyni məqsəd üçün iki dəfə xərc çəkilməsin. Bu məqsədlə, biz işğaldan azad edilmiş ərazilərdə ta-mamilə yeni idarəçilik modelini təqdim edirik. Prezident hakimiyyətinin, Prezident Administrasiyasının fərqli idarəçilik modeli olacaq və inkişafa çox müasir yanaşma olacaq, təkcə bərpa zamanı deyil, həm də bərpadan sonra. Hazırda biz Ermənistan tərəfindən qanunsuz istismar olunmuş bütün resurslarımızı qiymətləndiririk. Həmin ərazilərdə mədənçilik üçün böyük potensial vardır. Yeri gəlmişkən, biz işğaldan azad edilmiş ərazilərdə mis və qızıl resurslarımızı qanunsuz şəkildə istismar etmiş bəzi «iş adamlarına» qarşı artıq qanuni prosedurlara başlamışıq. Bərpa olunan enerji, xüsusilə külək enerjisi üçün nəhəng potensial vardır. İşğaldan azad edilmiş ərazilərin bəzi yerlərində, məsələn, Laçında, Kəlbəcərdə külək enerjisi üçün nəhəng potensial vardır. Cəbrayılda, Zəngilanda Günəş enerjisi və su üçün nəhəng potensial vardır. Laçın və Kəlbəcəri azad edəndən sonra biz əsas su ehtiyatlarımıza çıxış əldə etdik. Çünki Qarabağdakı erməni əhalisinin istifadə etdiyi su ehtiyatlarımızın əksər hissəsi öz mənbəyini oradan alır. Hazırda biz ermənilərin müharibə bitəndən sonra Kəlbəcəri tərk edənədək dağıtdığı 12 su-elektrik stansiyasının bərpası prosesindəyik. Beləliklə, 15 gün ərzində onlar 12 su-elektrik stansiyasını dağıdıblar. Bu da onların hisslərini və siyasətini nümayiş etdirir. Sözsüz ki, biz həmin ərazilərdə xüsusi yaşayış standartları yaratmaq istəyirik, çünki oraya qayıdacaq

insanlar 30 il əziyyət çəkiblər. Onların layiqli həyata ehtiyacları var. Ona görə də, «ağıllı kənd» üzrə ilk pilot layihəyə artıq başlanılıb, şəhər planlaşdırılmasına başlanılıb. Beləliklə, Qarabağ iqtisadiyyatımızın qeyri-enerji sektorunda, həmçinin nəqliyyatda böyük həcmdə ümumi daxili məhsul istehsal edəcək. Üç hava limanı ilə bağlı proses artıq başlanıb. Bir hava limanında işlər artıq başlanılıb. Dəmir yolu əlaqələri – yerləşmə və qonşulara yaxınlığını nəzərə alaraq, Zəngilan mühüm nəqliyyat və logistik hab ola bilər.

Azərbaycanın qalan hissəsinə gəlincə, əsas strategiyamız iqtisadiyyatın qeyri-enerji sektorunu inkişaf etdirməkdir. Həyata keçirdiyimiz islahatlar yaxşı nəticələr verir. Biz bu nəticələri əsasən yaxşı idarəçilikdə görürük. Bu üç ayda biz planlaşdırdığımızdan daha çox vergi və gömrük rüsumu toplamışıq, profisit təxminən 400–500 milyon manatdır. Büdcəmizdə neftin bir barrelinə görə 40 dollar nəzərdə tutulub. Əgər bu, bir barrelə görə 30 dollar olsa belə, Azərbaycan əhalisi bunu hiss etməyəcək. Beləliklə, sənayeləşmə, qeyri-enerji sektoruna daha çox investisiyanın cəlb olunması, biznes imkanları. Siz yəqin ki, eşitmisiniz, aparıcı reytinq agentlikləri bizim reytinqimizi yaxşılaşdırıb. Dünya Bankının «Doing Business» hesabatında biz 28-ci yerdəyik. Biznes mühiti yaxşılaşır. Bizim əhali çox savadlıdır. Gənc nəsil ideyalarla çıxış edir, bu, gələcəyə ümiddir. Müharibə vaxtı dediyim kimi, müharibənin ən böyük yükü mən hakimiyyətə gələndə uşaq olanların çiyinlərinə düşüb. Beləliklə, biz gənc nəslin inki-

şafına kömək etməyə nail olduq. Enerji ehtiyatlarını və iqtisadiyyatımızı əlavə təchizat mənbələri ilə təmin edəcək bütün əsas neft və qaz kəmərlərinin tamamlanmasını nəzərə alaraq, biz xarici yardımdan asılı deyilik. Bizim xarici borcumuz ümumi daxili məhsulun təxminən 18 faizinə bərabərdir. Mən qarşıya onu ümumi daxili məhsulda 10 faizədək azaltmaq hədəfi qoymuşam. Bu, dünyada ən yaxşı nəticələrdən biri olacaq. Bizdə yoxsulluq səviyyəsi çox aşağıdır, təxminən 5 faiz. Mən bu vəzifəyə gələndə bu, 49 faiz idi. Biz faktiki olaraq, hiss edirik ki, strateji baxışla bağlı bütün planlarımızı həyata keçirmək iqtidarında olacağıq. Lakin bunun üçün bizim Azərbaycanın daxilində artıq 28 ildir olan sabitliklə yanaşı, sərhədlərimizin hüdudlarından kənarda sabitliyə ehtiyacımız vardır. Əsas işlərimizdən biri riskləri minimuma endirmək üçün atacağımız addımlarımız olacaq. Biz «Qoşulmama Hərəkatı»nın sədri öhdəliklərini böyük uğurla həyata keçirmişik. Bizim regionda beynəlxalq səylərimiz yeni əməkdaşlıq formatlarının yaranmasına gətirib çıxardı. Türkiyə–Rusiya, Türkiyə–İran, Gürcüstan–Türkiyə, Rusiya–İran üçtərəfli əməkdaşlıq formatları vardır. Bu da sabitlik və proqnozlaşdırılmaya töhfədir. Ermənistan tərəfindən qisas cəhdləri riski sıfır olmalıdır. Əgər onlar bunu etsələr, dediyim kimi, biz sülh istəyirik, lakin biz onları tamamilə məhv edərik. Onları tamamilə məhv edərik və indi dediklərimi unutmağa qoymarıq.

**S v a n t e  K o r n e l** (*onlayn*) (*İsveçin Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru*): **Çox sağ olun, hörmətli cənab Prezident. Əvvəla, icazə verin, Sizi**

**və Azərbaycan xalqını Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə təbrik edim. Aydındır ki, bu tarixi nailiyyət Qafqaz regionunu və onun sərhədlərini aşaraq siyasəti dəyişdi. Ən önəmlisi, hesab edirəm ki, bu nailiyyət dünyaya Azərbaycanın bacarıqlarını və Azərbaycan dövlətçiliyinin qətiyyətini nümayiş etdirdi. Azərbaycanın böyük güclər arasında real və ya təsəvvürdə olan geosiyasi oyunların bir obyekti olmadığı, tam əksinə, öz hüququ olan bir güc olduğu sübuta yetirildi. Əlavə edərdim ki, biz bu tendensiyanı o regionda müşahidə edirik, harada ki, Azərbaycanla birlikdə, Özbəkistan və Qazaxıstan kimi bir neçə dövlət real tərəflərə çevrilir. Bunun aydın olduğunu nəzərə alaraq, cənab Prezident, sualım ondan ibarətdir ki, bu, Azərbaycanın xarici siyasətinə, onun ətraf ölkələrlə, o cümlədən regional güclərlə, həmçinin şərqə doğru Mərkəzi Asiyada yerləşən və bir çox maraqları paylaşdığınız ölkələrlə münasibətlərinizə necə təsir göstərəcək? Təşəkkür edirəm.**

**İlham Əliyev:** Şərhlərinizə və ərazi bütövlüyünün bərpası ilə bağlı təbriklərinizə görə təşəkkür edirəm. Siz tamamilə haqlısınız. Əminəm ki, biz beynəlxalq birliyin bir çox üzvlərinə məlum olmayan bacarığımızı nümayiş etdirdik. Əslində bütün bu illər ərzində biz sakit bir mühitdə hazırlığımızı görürdük. Biz nəyisə gizlətmirdik, xeyr. Bizim etdiyimiz hər bir şey açıq şəkildə edilmişdir. Lakin biz özümüzü təşviq etməyə, təqdimatlar keçirməyə, PR aparmağa cəhd göstərmirdik. Biz ölkə üçün, xalqımız üçün doğru olanı edirdik və bir çox sosial məsələləri həll edirdik, qaçqınları yenidən məskun-

laşdırırdıq. Birinci Qarabağ müharibəsində qətlə yetirilənlərin ailələri üçün yaxşı şəraiti təmin edirdik, iqtisadiyyatı gücləndirirdik, həyata keçirilməsi asan olmayan nəhəng transmilli enerji layihələrini icra edirdik.

Beləliklə, biz ölkəni gücləndirmək və onu həqiqətən, müstəqil etmək üçün hər bir şeyi edirdik. Ona görə mən bu vəzifəyə gələndə iqtisadi müstəqillik gündəliyimdə duran bir nömrəli hədəf idi. Çox qısa müddət ərzində biz Beynəlxalq Valyuta Fonduna olan bütün borclarımızı ödədik. Bundan sonra isə bizim mühüm islahatları həyata keçirmək üçün çoxlu imkanlarımız oldu. Biz müstəqil iqtisadiyyat qura bildik. Artıq dediyim kimi, biz hər hansı bir xarici yardımdan, kreditdən asılı deyilik. Bu da siyasi müstəqilliyə, kimin nə dediyindən və necə reaksiya göstərməsindən asılı olmayaraq, ölkələrlə münasibət qurmaq bacarığımıza gətirib çıxardı. Bilirik, bəzi ölkələrlə təmaslarımız bəzi böyük güclərin xoşuna gəlmir. Lakin bu bizim problemimiz deyil. Biz Azərbaycanın, ölkəmizin marağında olanları, onun necə gücləndirilməsi ilə bağlı olanları, xalqımızın marağına uyğun olanları və bu vəziyyətdə daha çox təhlükəsizliyin necə təmin olunması ilə bağlı olanları edirik. Müharibədə göstərilənlər bizim hərbi bacarığımız da daxil olmaqla, beynəlxalq ekspertlərə məlum idi. Çünki biz olanlarımızı paradlarda bir neçə dəfə nümayiş etdirmişdik. Ola bilsin, biz özümüzdə olan hər bir şeyi nümayiş etdirmirdik, lakin hesab edirəm, müharibə göstərdi ki, nəyisə sürpriz kimi saxlamaq doğru addım idi. Biz açıq şəkildə qüdrətli

ordu qururuq. Dövlət büdcəmizin ən böyük hissəsi hərbi quruculuğa sərf edilib. Mən Ermənistanın bunu sülh yolu ilə etmədiyi təqdirdə, ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyimizi gizlətmirdim. Beləliklə, müharibə sanki bizim bacarığımızın konsentrasiya olunmuş şəkildə həyata keçirilməsi idi. Biz heç vaxt özümüzü həddindən artıq qiymətləndirməmişik. Biz heç vaxt Azərbaycanın aparıcı ölkələrin gündəliyində bir nömrəli və ya onuncu məsələ olduğunu düşünməmişik, xeyr, onların başqa məsələləri var. Biz bunu normal qəbul edirik. Çünki nəhəng güclər bizi nə qədər az xatırlasa və ya haqqımızda az düşünsə, bu bizim üçün bir o qədər də yaxşıdır. İndi nə baş verəcək və nə baş verir məsələsinə gəldikdə, qonşu ölkələrlə münasibətlər çox uğurla inkişaf edir. Müharibə bir daha nümayiş etdirdi ki – mən bunun təfərrüatlarına dərindən varmaq istəmirəm – bizi qonşularımızın davranışı və ya hərəkətləri əsasən, qane edir.

Əlbəttə, biz müharibənin ilk günündən son gününə qədər çox güclü siyasi və mənəvi dəstəyə görə qardaş Türkiyəyə minnətdarıq. Lakin digər üç qonşumuza gəldikdə, bizim əsas hədəfimiz onların bitərəf qalması idi. Bu da bəzi ölkələrdə müəyyən dərəcədə, digər ölkələrdə isə nisbətən yüksək dərəcədə baş verdi. Lakin buna baxmayaraq, mən bunun təfərrüatlarına dərindən varmaq istəmirəm. Müharibədən sonrakı vəziyyət onu da nümayiş etdirir ki, indi bizim qonşularımız regional inkişafla bağlı baxışlarımızı paylaşırlar. Yeri gəlmişkən, biz bunu artıq qonşu ölkələrlə müzakirə etmişik. Region necə inkişaf etməlidir,

nəqliyyat, logistika ilə bağlı hansı layihələr olmalıdır, enerji əməkdaşlığı, ticarət və sairə. Beləliklə, bizdə heç bir fikir ayrılığı yoxdur. Doğrudur, Ermənistan hələ açıq şəkildə öz siyasətini bəyan etməyib, lakin onların de-fakto etdikləri də qənaətbəxşdir. Mən hökuməti nəzərdə tuturam. Xəzər dənizinin o tayında olan qonşularımızla münasibətlər uğurla inkişaf edir və onların hər biri ilə bizim konkret əməkdaşlıq istiqamətimiz vardır. Ən böyük hissə nəqliyyatla əlaqəlidir. Çünki Azərbaycan Türkiyə ilə dəmir yolu bağlantısı, dəniz limanı və avtomagistrallar kimi bütün nəqliyyat və logistika layihələrini tamamladıqdan sonra artıq önəmli nəqliyyat qovşağına çevrilib. Açıq dənizə çıxışımızın olmamasına baxmayaraq, biz Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərində fəal iştirak edirik. İndi isə bu layihələrə daha çox ölkələr cəlb olunur. Odur ki, Xəzər dənizinin o biri tayındakı qonşularımızla əməkdaşlığın əsas sahəsi nəqliyyatdır, lakin əməkdaşlıq təkcə bundan ibarət deyil. Biz qarşılıqlı ticarətin həcminin necə artırılması, qarşılıqlı investisiyaların yatırılması üçün daha yaxşı imkanların necə təmin olunması üzərində çox yaxından çalışırıq.

**Xalid Teymur Əkrəm** (*Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru*): **Çox sağ olun, cənab Prezident. Mən ilk növbədə, Pakistan xalqı və dövləti adından bu Qələbə münasibətilə Sizi təbrik etmək istəyirəm. Pakistan xalqı Sizinlə çox qürur duyur. Siz Pakistanda məşhur bir şəxsə çevrilmisiniz. Çünki hər gün Siz Pakistandakı qəzetlərdəsiniz. İndi hətta Pakistanın müxtəlif bö-**

**yük universitetlərinin beynəlxalq əlaqələr fakültələrində Qarabağ müharibəsini və Azərbaycanın uğurunu öyrənirlər. Beləliklə, Pakistanda biz Sizinlə və Azərbaycan xalqı ilə çox qürur duyuruq. Sualıma gəldikdə isə, cənab Prezident, sonuncu 44 günlük müharibə zamanı Azərbaycan yalnız öz ərazisində savaşaraq, işğal olunmuş torpaqlarda Ermənistanın hərbi mövqelərini və hərbi texnikasını hədəfə alırdı. Azərbaycan Ermənistanın mütəmadi olaraq törətdiyi müharibə cinayətləri ilə də üzləşmişdi. Ermənistan 44 günlük müharibədə qəsdən əhalinin sıx yaşadığı yerləri və Azərbaycanın mülki vətəndaşlarını hədəfə alırdı. Biz Gəncə, Tərtər, Bərdə və digər şəhərlərə atılmış ballistik raketləri xatırlayırıq. Bu yaxınlarda biz mediada «İsgəndər-M» ballistik raketinin qalıqlarını gördük. Bu raket Şuşada tapılmışdır və Ermənistan tərəfindən atılmışdır. Bundan əvvəl Ermənistanın baş naziri tərəfindən qeyd olunmuşdu ki, Ermənistan müharibə zamanı «İsgəndər-M» raketini Azərbaycana atıbdır. Bu ballistik raket çox təhlükəlidir və o həmçinin nüvə silahını da daşıya bilər. Bununla bağlı Sizin fikriniz nədir və bu əmələ görə beynəlxalq birlik nə tədbir görməlidir?**

**İ l h a m Ə l i y e v:** Təbriklərinizə görə çox sağ olun. Pakistana təşəkkür edirəm. Mən müharibə zamanı davamlı dəstəyə görə Pakistan xalqına minnətdarlığımı çatdırmağınızı sizdən xahiş etmək istəyirəm. Pakistan qarşıdurmanın ilk günlərindən Azərbaycana açıq şəkildə dəstək verən ölkələrin sırasında olubdur. Son günlərə kimi Pakistan həmişə bizim tərəfimizdə olubdur. Biz ərazi bütövlüyümüzlə bağlı

məsələlərdə çox ardıcıl yanaşmalarına görə Pakistan hökumətinə və xalqına olduqca minnətdarıq. Ola bilsin ki, tədbir iştirakçılarının bir çoxları bunu bilmir, lakin Pakistan təcavüz və işğala görə Ermənistanla diplomatik əlaqələr qurmayan çox azsaylı ölkələrdəndir. Pakistan kimi çox az sayda ölkə var. Odur ki, biz buna görə həmişə minnətdarıq və bu da qardaşlığımızın həqiqi əlamətidir. Yəqin müharibə zamanı bizim şəhərlərimizdə çox sayda Türkiyə və Pakistan bayraqlarının dalğalandığını bilirsiniz. Əlbəttə ki, biz bizi kimin dəstəklədiyini deyirdik və bu da bizim xalqımızın qəlbindən gələnlər idi.

Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinə gəldikdə, bu, birinci dəfə baş vermir. Onlar Birinci Qarabağ savaşı zamanı da müharibə cinayətlərini törədiblər, lakin o vaxt fərqli informasiya mühiti var idi. Bir çox dəhşətli barbarlıq əməlləri sənədləşdirilməmişdi və ya sənədləşdirildiyi təqdirdə beynəlxalq auditoriyaya çatdırılmamışdı. Buna görə də onlar öz müharibə cinayətlərini gizlətməyə nail olmuşdular. Həmin vaxt təkcə Xocalıdan söhbət getmirdi. Kəlbəcərdə Ağdaban kəndi kimi bir çox başqa kəndlər də var idi. Dünyada bir çox insanın bu haqda məlumatı yoxdur, lakin burada da eyni hadisələr baş vermişdi. Onlar günahsız insanları qətlə yetirib yandırırdılar. Bir çox başqa kəndlər də erməni barbarlığının qurbanı olmuşdur. İkinci Qarabağ müharibəsi zamanı, sizin də dediyiniz kimi, onların bizim şəhər və kəndləri necə bombalaması beynəlxalq birliyin gözü önündə idi. Təkcə ballistik raketlərlə deyil. Onlar bizi artil-

leriya və minaatanlarla hər gün bombalayırdılar. Kiçik Tərtər şəhərinə 16 min bomba atılıbdır. Onlar hətta dəfn mərasimini bombalayaraq, bir ailəni qətlə yetiriblər. Onlar Bərdəni, Naftalanı bombalayırdılar. Naftalanda 5 nəfərdən ibarət ailəni öldürmüşdülər. Onlar qəsdən bizim şəhər və kəndlərimizə hücum edir və düşünürdülər ki, bunu etməklə bizi dayandıracaqlar. Biz eynisini etmədik. Biz heç vaxt heç bir kənd və ya şəhərə zərbə endirməmişik. Biz yalnız Xankəndidə yerləşən hərbi obyektlərə zərbələr endirmişik, çünki onlar hərbi obyektlər idi. Gecə vaxtı Gəncə şəhərinə qarşı ballistik raketdən istifadə onların barbarlığını açıq-aydın nümayiş etdirir. Çünki bu ballistik raketin hədəfi var idi. Onun yaşayış yerinə düşməsi təsadüf deyil. Bu, insanların gecə yatdığı vaxt həyata keçirilmiş, hədəfə alınmış hücum idi və bu, bir dəfə yox, bir neçə dəfə baş vermişdir. Bundan sonra onlar nə etdilər? Dedilər ki, bunu onlar etməyiblər. Rəsmi olaraq dedilər ki, bunu ermənilər etməyib. Onda bunu kim edib? Kim? Biz özümüz? Siz yəqin bilirsiniz ki, onlar hətta Xocalı soyqırımına görə günahı bizim üstümüzə atmaq istəyirdilər. Onlar hekayələr uydurur və beynəlxalq birliyi inandırmağa çalışırdılar ki, azərbaycanlılar özləri Xocalıda günahsız insanları qətlə yetiriblər. Onlar «Toçka-U» və «Elbrus» raketləri ilə bağlı da eynisini ediblər. Onlar hətta Bakıdan 100 kilometr məsafədə yerləşən Xızıya zərbə endirmişdilər. Onlar Bakıya çatmaq istəyirdilər. Onlar Qəbələyə hücum edirdilər. Qəbələ münaqişə zonasından çox uzaqda yerləşir. Beləliklə, Bərdə, Ağdam, Ağcabədi, Füzu-

li, Goranboy, Naftalan, Xızı, Qəbələ. Onların etdikləri budur. Orada hərbi qurğular yox idi. Əlbəttə ki, «İsgəndər» hücumu ilə bağlı xəbər bizi təəccübləndirdi. Ermənistanın baş naziri «İsgəndər»dən istifadə etdiklərini, lakin onun yalnız 10 faizinin partladığını deyəndə hər kəs gülürdü. Yəqin ki, o, çatdırmaq istədiyi mesajı düzgün çatdıra bilməmişdi. Fevralın sonunda mənə sual veriləndə dedim ki, mən onların bunu etmədiklərini deməmişəm. Mən dedim ki, biz onu aşkar etməmişik. Bu, ayrı-ayrı şeylərdi. Həmin vaxt biz onu hələ də aşkar etməmişdik. Lakin Paşinyan bunu dedikdən sonra, sabiq prezident Sarkisyan «İsgəndər»in atıldığını və raketi bizim boru kəmərlərimizə atmadığından təəssüfləndiyini dedi. Bilirsiniz, bu müharibə canisi, əli Xocalı qurbanlarının qanına bulaşmış Sarkisyan Paşinyanı boru kəmərlərinə zərbə endirmədiyinə görə günahlandırırdı. Sonra Ermənistan ordusunun sabiq baş qərargah rəisi Movsesyan da – mən onun adını xatırlamıram – onların bu raketdən istifadə etdiyini demişdi. Sonra onlar «İsgəndər» raketinin necə buraxılması ilə bağlı videogörüntünü yayımladılar. Mən onu tapmaq üçün göstəriş verdim və biz bu raketi tapdıq. Nəyə görə biz onu əvvəl tapmadıq? Mən bilmirəm, çünki Şuşada qar var idi. Müharibədən sonra qar yağmağa başladı. Mən yanvar və fevral aylarında orada olanda qar var idi. Qar əridikdən sonra raket tapıldı. Onun tapılmasından sonra baş verənlər isə çox qəribədir. Ermənistan ordusunun baş qərargah rəisi dedi ki, o bu məsələ ilə bağlı heç bir şərh verə bilməz. Biz bunu necə başa düşmə-

liyik? Bəli, yoxsa, xeyr kimi? Yəqin ki, bəli kimi. Çünki cavab «xeyr» olsaydı, o deyərdi ki, xeyr, biz bunu etməmişik. Əgər o, «mən şərh verə bilmərəm» deyibsə, bu o deməkdir ki, bəli, bunu onlar ediblər. Ermənistanın sabiq müdafiə naziri də şərh verdi ki, bu müharibə sirri olduğu üçün bunu deyə bilməz. Siz bu insanların səviyyəsini görürsünüz? Bilirsiniz, bu insanlar hərbi əməliyyatlarla bağlı qərar qəbul edən insanlar idi. Bunun müharibə sirri olduğunu demək, bəli, bunu onlar ediblər anlamına gəlir. Lakin əfsuslar olsun ki, biz Rusiyadan da heç bir cavab almadıq. Çünki sizin də bildiyiniz kimi, Paşinyan raketdən istifadə etdiyini söyləyəndə Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi demişdi ki, yox, Ermənistan istifadə etməyib. Paşinyan Ermənistanın baş naziridir. O deyir ki, biz raketdən istifadə etmişik. Rusiya Müdafiə Nazirliyinin rəsmisi isə onların raketdən istifadə etmədiyini söyləyir. Bu nə deməkdir? Bu, Rusiya Müdafiə Nazirliyinin Ermənistan müdafiə nazirliyinə nəzarət etməsi deməkdir? Bu, cənab Konaşenkovun nə dediyi anlama gəlirmi? O, «Ermənistan raketdən istifadə etməyib, bütün «İsgəndər» raketləri anbardadır» deyəndə, onlar bunu haradan bilirlər? Onlar Ermənistanın anbarlarına nəzarət edirlər? Əgər onlar erməni anbarlarını idarə edirlərsə, onda bu raket kimin sərəncamındadır? Sonra cənab Putinin mətbuat katibi cənab Peskov bəyanat verdi. O, «İsgəndər»dən istifadə edilmədiyini dedi. «İsgəndər» buradadır, siz gedib baxa bilərsiniz, 15 dəqiqəlik bir yoldur. Mən onu dünən Hərbi Qənimətlər Parkında

özüm gördüm. Bu, sadə «İsgəndər» deyil, bu, «İsgəndər-M»dir. Hansı ki, Ermənistan ordusu buna heç vaxt malik ola bilməzdi. Mən sizə daha çoxunu deyə bilərəm, çünki biz uzun müddət idi ki, gözləyirdik. Mən bunu Azərbaycan xalqından gizlədə bilmədiyim həssas məsələ olduğu üçün sizə də deyə bilərəm. Mən aprelin 1-də cənab Putinlə telefon söhbətim zamanı bu məsələni qaldırmışdım. Bu telefon söhbəti ilə bağlı yayılmış rəsmi məlumata daxil deyildi, çünki biz telefon söhbəti ilə bağlı məlumatı onlar verdiyi kimi vermişdik. Siz onları müqayisə edə bilərsiniz. Lakin mən bu sualı verdim. Mən dedim ki, biz cavabı bilməliyik. Azərbaycan xalqı nəyin baş verdiyi ilə bağlı cavabı bilməlidir. Artıq iki həftə keçib.

Aprelin 4-də bizim Müdafiə Nazirliyimiz Rusiya Müdafiə Nazirliyinə bu məsələ ilə bağlı rəsmi məktub ünvanlayaraq, foto, video və digər materialları təqdim edərək, onlardan cavab istəyib. Bu raketlər nə raketləridir və nə baş verib? Artıq 9 gün keçib, heç bir cavab yoxdur. Bir qrup Azərbaycan jurnalisti Rusiyanın Azərbaycandakı səfirliyinə məktub yazıb və bu məktub açıq xarakter daşıyır. Yəqin ki, siz onu görmüsünüz. Heç bir cavab verilməyib. «İsgəndər» buradadır, «İsgəndər-M», hansı ki, heç bir yerə ixrac olunmamalı idi, Şuşaya necə gətirilib? Haradan atılıb? Kim onu atıb? Biz cavabları gözləyirik. Sizə bir şey də deyə bilərəm. Bəzi suallara bizim artıq cavablarımız var. Lakin biz Ermənistandan rəsmi cavab gözləyirik, çünki bu raketlər Ermənistan ərazisindən buraxılıb. Biz onların dəqiqliklə haradan atıldığını bilirik. Bu suallar cavab-

landırılmalıdır. Bu, ciddi məsələdir. Bu, adi bir raket deyil. Bu raket buraxılıb və onlardan neçəsi haradan və nə zaman buraxılıb, biz onları da bilirik. Bizə, Azərbaycan xalqına bu suallara cavablar lazımdır.

**Dennis Summut** (*onlayn*) (*Böyük Britaniyanın LINKS təşkilatının direktoru*): **Cənab Prezident, bu səhər bizimlə birlikdə olduğunuz və suallara belə ətraflı cavab verdiyiniz üçün çox sağ olun. Müharibə həmişə qurbanlar tələb edir. 44 günlük müharibə hər iki tərəfdə minlərlə insanın ölümü ilə nəticələnmişdir. Lakin biz həm də bilirik ki, bu müharibə nəticəsində yüz minlərlə qaçqın və məcburi köçkünün doğma evlərinə qayıtmaq imkanı yaranıbdır. Bu bizim hamımızın bildiyi bir şeydir. Müharibə və onun nəticələri regional əməkdaşlıq üçün bir neçə perspektivə yol açıb. Lakin Siz də çıxışınızda qeyd etdiyiniz kimi, bəzi həll olunmamış məsələlər vardır. Mən iki sual vermək istəyirəm. Birincisi, Siz dəfələrlə Qarabağ münaqişəsinin artıq bitdiyini demisiniz. Bu, Azərbaycanın Ermənistanın nəzarəti altında qalan Dağlıq Qarabağın digər hissələrini ələ keçirmək üçün gücdən imtina etməsi anlamına gəlirmi? İkinci sual 10 noyabr tarixli üçtərəfli Bəyanatla bağlıdır. Bu bəyanatın mühüm əhəmiyyət kəsb etməsi və Cənubi Qafqazda dinamikanı dəyişdirmək üçün potensiala malik olması ilə bağlı hamımız razılaşırıq. Lakin bu, üçtərəfli bəyanat olaraq qalır. Azərbaycan bu üçtərəfli bəyanatın ona müəyyən mənada qlobal və beynəlxalq legitimlik verəcək və bütün tərəflərin onun müddəalarına əməl edəcəklərini təmin edəcək BMT-nin Təh-**

**lükəsizlik Şurasının qətnaməsinə daxil edilməsi fikrini nəzərdən keçirirmi?**

**İ l h a m Ə l i y e v:** Mən 10 noyabr tarixli Bəyanatın mühüm əhəmiyyət kəsb etməsi ilə tamamilə razıyam. Bu bəyanat əslində bütün vacib elementləri əhatə edir və həmçinin Dağlıq Qarabağ münaqişəsinin yekunlaşdığını da göstərir. Səmimi desəm, biz bu bəyanatın beynəlxalq legitimləşdirilməsi haqqında düşünməmişik. Bizə bu məsələ ilə bağlı nə Rusiya, nə də Ermənistan tərəfi müraciət etməyib. Yəni biz belə bir məsələni nəzərdən keçirməmişik. Biz bəyanatın imzalandığını və rusiyalı sülhməramlıların orada olduğunu, bəyanatın tamamilə icra olunduğunu düşündük. Ən önəmlisi onun hazırda icra olunmasıdır və bu bəyanatın əksər hissələri artıq icra olunub. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə gəlincə, biz 1993-cü ildə qəbul olunmuş qətnamələrlə nə baş verdiyini bilirik. Onlar kağız üzərində qalmışdı və biz döyüş meydanında doğru olanı etməsəydik, bir otuz il də kağız üzərində qalardı. Buna görə də belə bir şey bizim əlimizdə olanlara əlavə nə verəcək? Bizim bəyanatımız var. Azərbaycan bütün müddəaları icra edir. Ermənistan işğal olunmuş qalan ərazilərin qaytarılması ilə bağlı bəndləri icra etməyə məcbur edildi. Rusiya isə sülhməramlı xidmətlərini təmin edir. O ki qaldı indi ermənilərin məskunlaşdığı Qarabağ ərazilərini ələ keçirmək üçün gücün tətbiqi ilə bağlı suala, xeyr, bizim belə planlarımız yoxdur. Mən dedim ki, Dağlıq Qarabağ müharibəsi bitib. O öz həllini tapıb. Rusiyalı sülhməramlıların nəzarət et-

diyi ərazilərdə yaşayan erməniləri biz öz vətəndaşlarımız hesab edirik.

Humanitar yardım, logistik dəstəklə bağlı indiyə kimi etdiklərimiz bu niyyətləri nümayiş etdirir. Mən sizə hətta daha çoxunu deyə bilərəm. Bu gün suyun idarəçiliyi ilə əlaqədar məsələlərlə bağlı müəyyən mütəxəssislər səviyyəsində artıq təmaslar vardır. Çünki uzun illər, 30 il ərzində biz separatçılar tərəfindən idarə olunan iki su anbarına görə Tərtər çayının suyundan məhrum olmuşduq. Bu su anbarlarından biri azad edilib və indi bizim Tərtər çayının suyuna tam çıxışımız vardır. Rusiya sülhməramlılarının nəzarəti altında yaşayanların isə indi müəyyən mənada bizimlə su əməkdaşlığına daha çox ehtiyacları vardır. Beləliklə, bu proses başlanıb. Bu baxımdan da Azərbaycan konstruktiv davranır. Lakin dediyim kimi, əgər Ermənistan Azərbaycana qarşı hansısa bir düşmənçilik xarakterli əməliyyat planlaşdırarsa və bunu görəriksə – biz indi Ermənistanda və hər yerdə bizə lazım olanları görürük – əgər Azərbaycan xalqına və ya ərazi bütövlüyümüzə qarşı bir faiz risk təhlükəsinin olduğunu görəriksə, biz özümüzü müdafiə etmək üçün bütün vasitələrdən istifadə edəcəyik. Lakin bizi buna təhrik etmədikləri halda, biz heç vaxt gələcəkdə hər hansı bir düşmənçilik xarakterli əməliyyatlara başlamayacağıq.

**George Gvimradze** (*Gürcüstanın Strateji Tədqiqatlar Mərkəzinin böyük elmi işçisi, ictimai yayımçı*): **Bu görüş üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm, cənab Prezident. Mən təşkilatçılara Sizə sual vermək məqsədilə məni buraya dəvət et-**

**dikləri üçün minnətdarlığımı bildirirəm. İcazə verin, regional əməkdaşlığa qayıdaq.**

**Müharibə bitəndən sonra Türkiyə Prezidenti Ərdoğan Bakını ziyarət etmiş və bir daha 3+3 formatı kimi məlum olan regional əməkdaşlığı qeyd etmişdir. Bu əməkdaşlıq 10 ildən çoxdur ki, mövcuddur. Hesab edirəm ki, o bu məsələnin qaldırılması üçün düzgün vaxtın olduğunu düşünürdü. Mən diqqətinizi bu əməkdaşlığa və bu əməkdaşlığın perspektivlərinə, xüsusilə bu formatın bir potensial iştirakçısına yönəltmək istəyirəm. Mən Gürcüstanı nəzərdə tuturam. Siz əvvəl qeyd etmişdiniz ki, region ölkələrindən olan həmkarlarınızla regional əməkdaşlıq perspektivlərini müzakirə etmisiniz. Sizcə Gürcüstanın bir tərəfdən, Rusiya ilə çox mürəkkəb münasibətlərinin olması, digər tərəfdən isə, Qərbə inteqrasiya etmək arzularını nəzərə alaraq, Gürcüstan bu növ layihələrdə, əməkdaşlıqda nə dərəcədə iştirak edə bilər? Biz bilirik ki, regional güclərin Qərblə münasibətləri pisləşməkdə davam edir.**

**İlham Əliyev:** Mən əslində dünən bu məsələni Gürcüstanın Baş Naziri ilə müzakirə etməli idim. Lakin, əfsuslar olsun ki, o, koronavirusa yoluxub. Mən ona möhkəm cansağlığı və tezliklə sağalmağı arzulayıram. Onun səfəri aprelin 12-nə nəzərdə tutulmuşdu. Lakin, əlbəttə ki, o, koronavirusa yoluxduqdan sonra səfər təxirə salındı. Buna görə mənim onunla bu məsələ ilə bağlı birbaşa danışmaq fürsətim olmayıb. Lakin sağalan kimi biz onun səfərini gözləyəcəyik. Ancaq digər qonşularla, Prezident Ərdoğanla, Prezident Putinlə mən bunu açıq şəkildə müzakirə etmişəm və Azərbaycan ilə İran rəsmiləri

arasında da çox yüksək səviyyədə müzakirələr olub. Mən bizim yanaşmamızda heç bir fərqin olmadığını görürəm. Azərbaycan, Türkiyə, Rusiya, İran regional əməkdaşlıqla bağlı eyni yanaşmanı bölüşür və indi əsas diqqət nəqliyyat sahəsinə yönəlibdir. Çünki bu vəziyyətdə uduzan tərəf yoxdur. Bundan hamı udur.

Ermənistan da səssiz olaraq qoşulub, lakin açıqlamalarda onlar qoşulmadıqlarını deyirlər. Onlar bu xəstəliyi, azərbaycanofobiya və türkofobiyanı müalicə etməlidirlər. Beləliklə, bu əməkdaşlığın ölkələr üçün hansı üstünlüklərinin olması çox aydındır. Hesab edirəm ki, Ermənistan da bu üstünlüyün böyük bir payını əldə edən ölkə olacaq, çünki bu gün onların Rusiya ilə dəmir yolu bağlantısı yoxdur, İranla dəmir yolu bağlantısı yoxdur. Ermənistandan İrana dəmir yolunu inşa etmək üçün bir qeyri-real plan var idi. Lakin düşünürəm ki, onlar hesablamalar aparıb bunun 3 milyard dollara başa gələcəyini anladılar. Yaxşı layihədir, lakin onun pulunu kim ödəyəcək? Bu sualdır. Beləliklə, onlar bu layihədən artıq vaz keçdilər.

Hesab edirəm ki, Gürcüstan üçün Rusiya dəmir yolları ilə bağlantı yaratmaq baxımından istənilən imkan real deyil və siz bunun səbəbini məndən yaxşı bilirsiniz. Azərbaycan ərazisindən də bu, mümkün deyildi. Beləliklə, əgər bu layihə baş tutsa, Ermənistanın dəmir yolu ilə Rusiyaya, İrana və potensial olaraq Türkiyəyə çıxışı olacaq. Bu, əlbəttə ki, ölkənin inkişafı üçün əlavə imkanlar yaradacaq. Azərbaycan Zəngəzur dəhlizi vasitəsilə öz dəmir yolunu Naxçıvan və Türkiyə ilə birləşdirəcək. Buna

baxmayaraq, Türkiyə ilə bizim artıq Gürcüstan ərazisindən bağlantımız var – Bakı–Tbilisi–Qars. Rusiyanın Azərbaycan, Ermənistan ərazilərindən Türkiyə ilə əlavə bağlantısı olacaq. İranın da Ermənistanla bağlantısı olacaq. Bu, İrandan Rusiyaya Cənub–Şimal nəqliyyat dəhlizinin də bir hissəsi ola bilər. Çünki siz də yəqin bilirsiniz ki, İran ərazisində dəmir yolunun sonuncu seqmenti olan Astara–Rəşt tikilməyib. Orada işlər gedir. Lakin biz Ermənistanla sərhədimizə dəmir yolu bağlantısını növbəti iki ilə, maksimum iki il yarıma inşa etməyi planlaşdırırıq. Bu, dəqiq tikiləcək. Çünki biz artıq büdcə ayırmışıq və işlər başlanıb. Bu işlər və Zəngəzurun da 40 kilometri bitənə kimi. Lakin bu, Rusiya dəmir yolu tərəfindən həyata keçirilməlidir. Buna da səbəb odur ki, Ermənistan dəmir yolları Rusiya dəmir yolları şirkətinə məxsusdur. Bizə artıq onların bunu etməyi planlaşdırdıqları ilə bağlı məlumat verilib. Beləliklə, bu, Ermənistan, Naxçıvan, Zəngilan və sair ərazilərdən keçən Cənub–Şimal dəhlizidir. Bunlar açıq-aydın üstünlüklərdir və biz bu istiqamətlərdə çalışmalıyıq.

Gürcüstanın ehtiyat etməsi ilə bağlı eşitmişəm, mən bu haqda heç nə söyləyə bilmərəm. Mən Baş Nazirlə danışmalıyam, onun mövqeyini dinləməliyəm. Lakin bizim üçün Gürcüstan təkcə strateji tərəfdaş deyil, həm də qardaş və çox yaxın ölkədir. Bu gün Gürcüstan və Azərbaycan Avropanın enerji təhlükəsizliyi üçün çox önəmli rol oynayır.

Beləliklə, hesab edirəm ki, əməkdaşlığın müvafiq formatını tapa bilərik, bizim niyyətimiz belədir.

Qərb ölkələri və bəzi regional ölkələr arasında gərginliklərə gəldikdə, bu, yeni bir şey deyil. Münasibətlərin pisləşməsi, tənəzzül dövrləri həmişə olub, lakin bizim regionda bu, daimi xarakter daşıyır. Odur ki, biz buna alışmışıq. Düşünmürəm ki, bu növ anlaşılmazlıq və ya qarşıdurmalar, yaxud da nəsə bizim planlarımıza ciddi zərbə vursun. Biz hamımız bəzi Qərb tərəfdaşlarımızın Bakı–Tbilisi–Qarsın inşasına qarşı çıxış etdiyini və Ermənistanı bu layihəyə cəlb etmək üçün cəhd etdiklərini yaxşı xatırlayırıq. Burada məqsəd yolun Gürcüstandan yox, Ermənistan ərazisindən keçməsinə nail olmaq idi. Mən Azərbaycan Dövlət Neft Şirkətində işləyəndə Qərb tərəfdaşlarının boru kəmərinin Gürcüstan ərazisindən yox, Ermənistan ərazisindən keçməsini təşviq etdiyini xatırlayıram. Bütün bunlara şahid olmuşam və bu proseslərdə iştirak etmişəm. Bu kəmərin inşasının necə çətin ərsəyə gəlməsinin də şahidiyəm. Çünki buna görə Dünya Bankı bir il ərzində maliyyələşməni dayandırmışdı. Lakin bu nəyisə dəyişdi? Xeyr. İndi də heç nəyi dəyişməyəcək. Buna görə hesab edirəm ki, bu layihəni dəstəkləməyənlər qoy dəstəkləməsinlər. Bizim buna etirazımız yoxdur. Lakin hesab etmirəm ki, hər hansı bir müdaxilə, qarşımızı almaq cəhdləri uğur qazanacaq. Buna görə bütün tərəddüd edənləri bu prosesin iştirakçıları olmağa dəvət edirəm, çünki bu, Avropaya əlavə dəhliz ola bilər və əslində Türkiyə ərazisindən Avropaya gedəcək. Hər kəs bundan faydalanacaq. Bakı–Tbilisi–Qarsa qarşı çıxış edənlər bu gün bizə ona görə minnətdardırlar. Hesab edirəm ki,

bu da onun kimi olacaq. Lakin biz bu məsələ ilə bağlı Gürcüstanın ehtiyat etdiyi istənilən məsələni nəzərə alacağıq.

**M a y k l  R e y n o l d z** (*ABŞ-ın Prinston Universitetinin dosenti*): **Cənab Prezident, bizimlə görüşə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm. Azərbaycanın və regionun gələcəyini müzakirə etmək üçün yaradılmış imkana görə öz adımdan və həmkarlarım adından Sizə təşəkkür edirəm. Əlavə edim ki, mən Sizin Azərbaycan gənclərinə inamınızı bölüşürəm. ADA Universiteti daxil olmaqla, ölkənizdəki gənclər məndə böyük təəssürat yaratdı. Ümid edirəm ki, biz Azərbaycanda təhsil ocaqları ilə əlaqələrimizi inkişaf etdirməkdə davam edəcəyik. Azərbaycanlı gənclərin keyfiyyətlərini, gənclər üçün yaradılmış imkanları və müharibədən sonrakı dövrü nəzərə alaraq, mən səmimi olaraq ölkənizin gələcəyi ilə bağlı nikbinəm. Sualıma gəldikdə, mən ərazi məsələsinə qayıtmaq istərdim. Cavablarınızın birində Siz bu məsələyə toxundunuz. Əlbəttə, Siz bunu hamıdan yaxşı bilirsiniz, ancaq kənar müşahidəçi kimi qeyd edə bilərəm ki, Ermənistan və Azərbaycan arasında gərginliyin başlıca səbəbi Ermənistanın ərazi iddiaları olmuşdur. Bir daha xronologiyanı qeyd edim: ilk olaraq, Ermənistan Dağlıq Qarabağla bağlı ərazi iddiası irəli sürür, sonra ətraf rayonlara iddia edir, daha sonra Azərbaycanı yeni ərazilərin işğalı ilə hədələyir və nəhayət, ötən ilin avqustunda Türkiyənin şərq hissəsi ilə bağlı iddialar irəli sürür. Bu, bir xülyadır və məsuliyyətsiz, olduqca təxribatçı davranışdır. Mən buna ağılsızlıqdan başqa ad verə bilmərəm. Müharibə zamanı bəzi azər-**

**baycanlılar İrəvanı və bugünkü Ermənistan Respublikasının digər bölgələrini tarixi Azərbaycan torpaqları adlandırmışlar. Tarixçi olaraq bilirəm ki, bu fikir tarixi həqiqətə əsaslanır. Bunu da anlayıram ki, münaqişə kontekstində bir tərəf – Ermənistan böyük ərazilərlə bağlı ağlasığmaz iddialar irəli sürəndə qarşı tərəfdə olan azərbaycanlılar da belə bir xatırlatmalar edir ki, bizim də deyəcəyimiz sözümüz var. Məsələyə Ermənistanın perspektivindən yanaşmaq istərdim.**

**Qeyd edim ki, ölkə özü kiçikdir, əhalisi azdır və öz ərazisini məskunlaşdırmaqda belə, çətinliklə üzləşir. Bu fonda böyük ərazilərlə bağlı iddialar, əlbəttə ki, ciddi suallar doğurur. Onların tarixini və ölkədə hazırkı vəziyyəti nəzərə alaraq, sual vermək istərdim. Azərbaycan hazırkı Ermənistan ərazisinin bir hissəsinin tarixən Azərbaycana məxsus olması və həmin ərazilərin bir gün Azərbaycan tərəfindən geri qaytarıla biləcəyi ilə bağlı iddialardan çəkinəcəkmi?**

**İ l h a m  Ə l i y e v:** Təhlilinizə görə təşəkkür edirəm. Sizin fikirlərinizi bölüşürəm, Türkiyə və qonşu dövlətlərə qarşı ərazi iddialarının irəli sürülməsi ilə bağlı, hesab edirəm ki, düzgün ifadə tapmısınız – ağılsızlıq. Yəni XXI əsrdə olduqca məhdud imkanlara malik, əhalisinin normal yaşayış standartlarını güclə təmin edən bir ölkə özündən ərazi baxımından 10 dəfə böyük və özündən 100 dəfə qüdrətli ölkəyə qarşı ərazi iddiası irəli sürür. Ancaq bu, yenə də onların psixologiyası ilə bağlıdır. Onlar hesab edirlər ki, bütün dünya onlara hər şeyi borcludur.

Həmin psixologiya isə onları hazırkı alçaldıcı vəziyyətə salmışdır. Lakin yenə də hesab edirlər ki,

hər kəs onlara kömək etməlidir. Bəlkə də məlumatınız var, rəsmi Ermənistan hakimiyyəti bağlı qapılar arxasında müzakirələr zamanı Avropa İttifaqını onlara lazımi dəstəyi verməməkdə ittiham edib. KTMT-yə, NATO-ya qarşı yaradılmış təşkilata üzv olan Ermənistan NATO-nu onlara kömək etməməkdə ittiham edir. Onlar Rusiyanı da günahlandırırlar ki, onlara yardım etməyib. Onlar özlərindən başqa, hər kəsi ittiham edirlər. Onlar problemin məhz onlarda olduğunu dərk edə bilmirlər. Ermənistana olan ən böyük təhlükə özlərinin psixologiyasıdır. Bu dəyişməlidir və bəlkə o zaman bizim onlara verdiyimiz çox ağrılı dərs reallığı dərk etmək üçün dönüş nöqtəsi olacaq. Onlar anlamalıdırlar ki, əgər sən özünü müstəqil ölkə adlandırırsansa, o zaman xalqının qüruru sənin əlindədir və sən xalqını müdafiə etməlisən. Bu gün Rusiya və Belarus arasında ittifaq dövlətləri münasibətləri var. Bildiyim qədər bu gün Ermənistanda bəziləri bu haqda danışırlar. O zaman bayraqlarını endirsinlər, başqa ölkənin quberniyasına çevrilsinlər və həmin ölkə onları qorusun. Bu sizin dediklərinizə əlavədir. Bəli, onlar Dağlıq Qarabağı müstəqil dövlət adlandırdılar, növbəti mərhələdə yeni xəritələr çap etdilər və bütün ətraf rayonlarımızı Dağlıq Qarabağ adlandırmağa başladılar. Şəhər və kəndlərimizin adları dəyişdirildi və nəhayət, bizi yeni ərazilər uğrunda yeni müharibə ilə hədələməyə başladılar. Bunu deyən onların Tonoyan soyadlı müdafiə naziri idi. O, bəyan etmişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır. Biz köhnə tor-

paqlar uğrunda yeni müharibənin necə olduğunu onlara göstərdik. Tonoyan isə işdən qovuldu. Bu bizimlə bu tərzdə danışa biləcəyini hesab edən hər kəsə dərsdir. Biz müharibə zamanı lazım olanı etdik. Biz düzgün hesab etdiyimiz həddə qədər getdik və lazım olandan artığını etmədik. Anlayıram ki, bəzi azərbaycanlıların Ermənistan ərazisinin bir hissəsinin qədim Azərbaycan torpağı olması fikrini səsləndirdiklərini çox diplomatik şəkildə təqdim etdiniz. Yəqin ki, siz burada məni nəzərdə tutursunuz. Mən bunu başa düşürəm və olduqca nəzakətli davranışınıza görə təşəkkür edirəm. Bu sualı verdiyinizə görə də sizə təşəkkür edirəm. Çünki bu mövzu da Ermənistanda siyasi manipulyasiya məqsədlərində istifadə edilir. Yəni guya mənim ərazi iddialarım var. Xeyr, bu belə deyil və mən bunu ictimai şəkildə bəyan edirəm. Lakin eyni zamanda, biz tarixi bilməliyik. Mən gənc nəsillə bağlı dediklərinizlə də razılaşıram ki, bəzən gənc nəsil tarixi bilmir. Hətta bizim nəslə belə, saxta tarix öyrədilib. Mən məktəbdə təhsil alarkən bizə qəhrəman kimi təqdim edilənlər əslində cinayətkarlar idi. Məsələn, Azərbaycan xalqını qətlə yetirən 26 Bakı komissarı. Bizi öyrədirdilər ki, onlar qəhrəman idilər və vətənimizi xilas etmişdilər. Əslində isə Şaumyan və digərləri cinayətkar idilər. Onlar burada qırğınlar törədib, azərbaycanlıları qətlə yetiriblər. Belə nümunələr çoxdur. Beləliklə, biz bu nəslin reallıqlardan bixəbər olmasını istəmirik. Mən deyəndə ki, Zəngəzur qədim Azərbaycan torpağıdır, bu həqiqətdir. Zəngəzur 1920-ci ildə Ermənistana verilibdir – 101 il əvvəl. Ondan əv-

vəl o torpaq bizə məxsus idi. Onların bu gün Sevan adlandırdığı Göyçə gölünün ətrafında azərbaycanlılar yaşayıblar. Bu da bir həqiqətdir. XX əsrin əvvəllərindəki xəritələrə baxsanız Sevan deyil, Göyçəni taparsınız. İrəvanla bağlı da məsələ eynidir. Onlar İrəvanın tarixi hissəsini məhv ediblər. Bunlar hamısı faktlardır. Azərbaycanlılar orada yaşayıblar, o cümlədən mənim ulu babalarım. Lakin bu faktlar bizim ərazi iddiasında olmağımız anlamına gəlməməlidir. Bilmirəm bunu eşitmisiniz, yoxsa yox, mən demişəm ki, biz oraya qayıdacağıq. Ancaq mən deməmişəm ki, biz oraya tank üzərində qayıdacağıq. Biz Zəngəzur dəhlizinə qayıdıb orada yoldan istifadə edəcəyiksə, niyə biz İrəvana qayıtmayaq? Hesab edirəm ki, vaxtı gələndə biz bunu da edəcəyik. Bir daha bu suala görə təşəkkür edirəm. Bu sual məsələyə aydınlıq gətirməyə və öz mövqemi ortaya qoymağa imkan yaratdı. Biz tariximizi yadda saxlayacağıq, ancaq Ermənistan da daxil olmaqla, heç bir ölkəyə qarşı ərazi iddiamız yoxdur.

**Yulian Çifu** (*Rumıniyanın Münaqişələrin Qarşısının Alınması və Erkən Xəbərdarlıq Mərkəzinin doktoru*): **Çox təşəkkür edirəm, cənab Prezident. Mən yenidən Bakıda olmağıma şadam. Mənim iki sualım var. Birinci sual, Avropa İttifaqı, xüsusilə də Rumıniya regionda, o cümlədən çoxmillətli və çoxkonfessiyalı Dağlıq Qarabağ bölgəsində yenidən qurulma işlərində, eləcə də institusional inteqrasiya və barışıq sahəsində Azərbaycana necə yardımçı ola bilər? İkinci sualım: təsəvvür edək ki, Azərbaycan Naxçıvana dəhliz əldə edib, Ermənistan Azərbaycan–Tür-**

**kiyə nəqliyyat dəhlizinə inteqrasiya olunub, Rusiya sülhməramlıları Qarabağın şimal hissəsindən çıxarılıb və Azərbaycan Laçın dəhlizi ərazisində dövlət sərhədinə nəzarəti üzərinə götürüb. Belə olan halda, Siz Dağlıq Qarabağı 5 il bundan sonra necə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Avropa İttifaqı necə kömək edə bilər sualınıza gəldikdə, səmimi deyim ki, bilmirəm. Bizə yenidən qurulmaya dəstək verməklə bağlı Avropa İttifaqından istək ifadə edilməyib. Yəni biz azad olunmuş ərazilərdə planlaşdırdığımız işləri öz vəsaitimiz hesabına həyata keçiririk. Biz heç bir beynəlxalq təşkilat və ya dövlətdən yardımla bağlı hər hansı mesaj almamışıq. Onlar yardım edərlərsə, biz buna görə minnətdar olarıq. Yox, etməzlərsə, biz istənilən halda bu işləri görməliyik və həmin əraziləri bərpa edəcəyik. Əlbəttə, artıq qeyd etdiyim kimi, Avropa İttifaqı məkanından olan şirkətlər orada işləyir. Bu, müqavilə üzrə şirkətlər səviyyəsində əməkdaşlıqdır, investisiyalardan söhbət getmir.

Beş ildən sonra nələrin baş verə biləcəyi sualınıza gəldikdə, proqnoz vermək çətindir. Biz özümüzün nə edəcəyimizi proqnozlaşdıra bilərik. Biz «Yol Xəritəsi»ni tam yekunlaşdırmamışıq, ancaq, ümumiyyətlə, bilirik ki, hansı işlər görüləcək. Qarşıdan gələn 3 il ərzində biz bütün əsas infrastruktur layihələrini – dəmir yolu, avtomobil yolları, elektrik enerjisi istehsalı və su təchizatı layihələrini başa çatdıracağıq və tikinti işlərinin fəal fazasında olacağıq. Biz işləri düzgün planlaşdırmalı və aparmalıyıq. Bütün şəhər və kəndlərin bərpası üçün zəruri master-planlar ol-

malıdır. Çünki oraya qayıdacaq insanlar lazımi yaşayış şəraiti ilə təmin edilməlidir. Onlar dövlətdən asılı olmamalıdır. Həmin ərazilərdə münbit torpaqlar və kifayət qədər su ehtiyatları mövcuddur. Biz orada yaşayacaq vətəndaşlarımızın maliyyə cəhətdən müstəqil olmasını istəyirik. Dediyim kimi, tikinti işlərinin fəal mərhələsində olacağıq və hesab edirəm ki, həmin vaxta qədər Zəngəzur dəhlizi mütləq istifadəyə veriləcəkdir. Biz hədəf kimi iki, iki il yarım müddət müəyyən etmişik. Mehri bölgəsindən keçən 40 kilometrlik yolun inşası bundan çox vaxt apara bilməz. Əlbəttə, bunlar əlaqələndirmə şəraitində və Ermənistan tərəfindən süni maneələr yaradılmadığı təqdirdə baş tuta bilər.

Rusiya sülhməramlıları bölgəni tərk etdikdən sonra nə olacaq sualına gəldikdə, bu gün Tovuz, Qazax və Ağstafa rayonları ərazisində Azərbaycan və Ermənistan arasında dövlət sərhədi mövcuddur. Orada sülhməramlılar yoxdur və heç nə baş vermir. Sizə deyim ki, Azərbaycan Sərhəd Xidmətinin əsgərləri bu gün Ermənistan kəndlərinin 5 metrliyində, Qubadlının məşhur Şurnuxu kəndində dayanır. Ermənilər kəndin onlara məxsus olduğunu iddia edirdilər, lakin xəritəyə baxdıqda onun Azərbaycan ərazisində yerləşdiyi müəyyən olundu. Biz oraya Sərhəd Xidmətinin nümayəndələrini göndərdik və mən onlara göstəriş verdim ki, orada xətt boyu yerləşsinlər, xətti keçməsinlər və həmin kənddə yaşayan ermənilərlə işləri olmasın. Hətta həmin Şurnuxu kəndinin bir hissəsini tərk etməli olan ermənilərə vaxt verdik. Bu gün deyə bilərəm ki, Ermənistan ordusu məhv edilib. O, möv-

cud deyil. O cümlədən Ermənistanın sərhəd xidməti. Yəni həmin o kəndin tam nəzarətə götürülməsində bizə heç kəs mane ola bilməz. Biz bunu edirikmi? Xeyr. Belə bir planımız varmı? Xeyr. Bu, gələcəkdə nəyin baş verə biləcəyinə cavabdır. Bu məsələ bizim iradəmizi nümayiş etdirir. Eyni vəziyyət Ermənistanın Qafan şəhərini İrəvanla birləşdirən 21 kilometrlik yolda mövcuddur. Yol bizim ərazimizdən keçir. Bəli, biz oraya sərhəd xidmətimizi yerləşdirmişik. Biz hətta «Azərbaycana xoş gəlmisiniz!» lövhəsini də quraşdırmışıq. Bilmirəm, nəyə görə həmin lövhə erməniləri bu dərəcədə qıcıqlandırdı. Biz sadəcə, onları ərazimizdə salamlamaq istəyirdik. Ora bizim ərazidir. Ancaq onlar lövhəni atəşə tutdular və biz bu hərəkətə cavab verməli olduq. Yəni onlar bu yoldan istifadə edirmi? Bəli. Onları sülhməramlılar qoruyurmu? Xeyr. Yalnız iki yerdə postlar qurulub. Biz bu yolu kəsə bilərikmi? Bəli. Bunu edirikmi? Xeyr. Əlbəttə, Ermənistan hazırda davrandığı kimi özünü aparsa, onlar bu gün tamamilə ruhdan düşmüş, təşkilatlanmamış vəziyyətdədirlər. Ordu yoxdur. Revanş haqqında düşünməyə əsas belə, yoxdur. Mən bu haqda danışmışam – Ermənistan ordusunun modernləşdirilməsi ilə bağlı Rusiya ilə danışıqlar aparması bizi narahat edir. Bu narahatlıq Rusiya rəsmilərinə çatdırılıb. Nə üçün müasirləşdirilir onların ordusu? Revanşla bağlı istənilən imkan lazımsız gərginliyə səbəb olacaq. Beləliklə, vəziyyət indiki kimi davam etsə, qonşuluqda yaşamaqla bağlı hər hansı bir problem olmayacaq. Mən dəfələrlə Gürcüstanı misal kimi qeyd etmişəm. Orada azərbay-

canlılar və ermənilər bəzən eyni bölgədə deyil, hətta eyni kənddə yaşayırlar və heç nə baş vermir.

**B r e n d a  Ş a f f e r** *(onlayn)* (*İsrailin Hayfa Universitetinin professoru*): **Cənab Prezident, təşəkkür edirəm. Ədalətin bərpası münasibətilə Sizi təbrik edir və şəhid ailələrinə Ramazan ayını rahat keçirməyi diləyirəm. Azərbaycan müasir, geniş imkanlara malik ordu qurmağa müvəffəq olub. İkinci Ermənistan–Azərbaycan müharibəsi XXI əsrin müharibəsi kimi öyrənilir. Azərbaycan yüksək bacarıqlı xüsusi təyinatlı qüvvələrə malik olduğunu nümayiş etdirdi. Müasir texnologiyalara sahib olmaq hər şey demək deyil. Onlar uğurla döyüş tapşırıqlarına inteqrasiya edilməlidir. Keçən əsrin 90-cı illərində mən Azərbaycanda olmuşam və o zaman insanları cəbhəyə göndərmək müşkül məsələ idi. Bu müharibədə könüllülər növbələrdə dayanırdı və onlar geri qaytarılırdı. Mənim sualım belədir – müasir ordu quruculuğu sahəsində nələr öyrənildi, Azərbaycan cəmiyyətində nələr dəyişdi ki, orduya belə bir güclü dəstək yarandı? Belə bir təsəvvür var ki, müharibə 2020-ci ilin payızında başlandı. Ancaq bundan öncə Ermənistanın yeni ərazilər uğrunda yeni müharibə doktrinası əsasında Tovuz döyüşləri baş verdi. Bunu müharibənin birinci fazası hesab edənlər var. Payızda baş verənlər isə hadisələrin davamı hesab olunur. Buna münasibətinizi öyrənmək istərdim.**

**İ l h a m  Ə l i y e v:** Təbriklərinizə görə sağ olun. Siz uzun illərdir ki, Azərbaycanı yaxşı tanıyırsınız. Sizin kifayət qədər məlumatınız, müqayisə etmək

imkanınız var. Birinci və İkinci Qarabağ müharibələri arasında fərqi tamamilə doğru qeyd etdiniz.

İnsanlar növbələrdə dayanırdı. Biz qismən səfərbərlik elan etmişdik və buraya müəyyən yaş kateqoriyasına aid vətəndaşlar daxil idi. Həmin meyara cavab verməyən vətəndaşlarımız isə gileylənir, məktublar yazırdılar ki, məni niyə aparmırlar? Mən də gedib döyüşmək, Vətənimizi qorumaq istəyirəm. Hesab edirəm ki, bu bizim Qələbəmizi şərtləndirən əsas amil idi. Əlbəttə, biz güclü ordu qurmuşuq, təlimlər keçirirdik, müasir silahlar əldə etmişdik ki, bu da müharibədə bizə Qələbə qazanmağa və əsgərlərimizin həyatını qorumağa kömək etdi. Bu silahlar olmasaydı, itkilərimizin sayı daha çox olardı. Ermənistan ordusu ilə müqayisədə bizim itkilərimiz 2,5–3 dəfə az olub. Nəzərə alın ki, biz əks-hücum əməliyyatı həyat keçirirdik və düzənlikdən yüksəkliklər istiqamətində hərəkət edirdik. Əsas amil o idi ki, həmin əraziləri hətta görməyən gənclər sanki özlərinin doğma yurdları uğrunda döyüşürdülər. Biz Azərbaycanda yaşayan bütün millətlərin birliyinin şahidi olduq. Bu da bizim ən böyük sərvətlərimizdən biridir. Bir çox hallarda multikulturalizm və mədəni müxtəliflik mövzusunda beynəlxalq tədbirlər zamanı mən həmişə qeyd edirdim ki, Azərbaycanın ən böyük sərvətlərindən biri multikultural və multikonfessional cəmiyyətin olmasıdır. Bu müharibədə bütün millətlərin, etnik qrupların nümayəndələri son damla qanlarına qədər döyüşürdülər. Onlar Vətən uğrunda döyüşürdülər. Azərbaycanda müxtəlif etnik qruplardan ibarət xalqımızın Vətən sevgisi, vahid dil və dövlətçilik naminə

güclü konsolidasiyası baş verdi. Mən bundan fərəhləndim və bu gün də fəxr edirəm ki, biz belə vətəndaşlar tərbiyə etmişik.

Döyüşlərdə iştirak edən və şəhid olan bir çox insan mən 2003-cü ildə Prezident seçiləndə uşaq idi. Ancaq Qarabağ hər zaman bütün gündəliklərin bir nömrəli məsələsi idi. Bütün tədbirlərdə – sülh və müharibə, sosial-iqtisadi inkişaf mövzularındakı tədbirlərdə Qarabağ hər zaman mənim çıxışlarımda prioritet təşkil edirdi. Bu, artıq yeni Azərbaycandır. Ermənilər bizi yaxşı tanımırdılar. Onlar 1992-ci ilin Azərbaycanı ilə döyüşəcəklərini zənn edirdilər. Azərbaycan isə fərqli idi, insanlarımız fərqli idi, cəmiyyət fərqli idi, ruh yüksəkliyi başqa idi.

Mən bunu dəqiq bilirəm, onlar, onların əvvəlki rəhbərləri hesab edirdilər ki, biz bunları unudacağıq. Zaman keçəcək, hər kəs yorulacaq və heç kəs müharibə istəmir. Beynəlxalq mediada da belə spekulyasiyalar var idi ki, Azərbaycan müharibə etməyəcək, çünki ölkə inkişaf edir, Prezident Əliyev qeyri-müəyyən üstünlük naminə riskə getməyəcək. Ancaq onlar bizim daxilimizdə, qəlbimizdə nələrin olduğunu başa düşə bilmədilər. Başa düşmədilər ki, bizim üçün Qarabağ sadəcə, torpaq demək deyil. O bizim ləyaqətimiz, taleyimiz və qanımızdır. Beləliklə, biz qəhrəmanlıq və cəsarət nümayiş etdirdik, axıra qədər getdik və bizi heç kəs dayandıra bilməzdi. Bilirsiniz ki, müxtəlif istiqamətlərdən bizi dayandırmaq üçün çoxlu cəhdlər oldu. Ancaq biz sona qədər getdik.

İyul ayında baş verənlər Paşinyanın növbəti təxribatı idi. Çünki Paşinyan bu hərbi cinayətkar qru-

pun üzvü hesab edilmirdi. Ermənistanın keçmiş rəhbərləri onu orduda xidmət etməmiş, zəif, cəsarəti olmayan insan kimi təqdim edirdilər. Bu səbəbdən o, hərbi qələbə əldə etmək arzusunda idi, xüsusilə də onun hakimiyyətə gəlməsindən bir ay keçmiş Naxçıvan istiqamətində məğlub olmasından sonra. Ancaq o məsələdə onu günahlandırmaq olmaz, çünki o, hakimiyyətə yeni gəlmişdi. Ona hərbi qələbə lazım idi. Biz dəqiq bilirik ki, onlar Lələtəpəni geri qaytarmağı planlaşdırırdılar. O ərazini ki, biz 2016-cı ildəki döyüşlər nəticəsində azad etmişdik. O çalışırdı nümayiş etdirsin ki, bəli, əvvəlki Sarkisyan hakimiyyəti həmin əraziləri itirdi və ali baş komandan «cəsur» Paşinyan o torpaqları geri qaytardı. Yeri gəlmişkən, indi özləri müharibəni daha yaxşı dərk edəndən sonra məqalələr çap edir və bəyanatlar verirlər ki, Lələtəpəni qaytarmaq cəhdi ciddi canlı qüvvə itkisi ilə nəticələndi. Əslində isə Ermənistan ordusunun bir hissəsi məhz orada tamamilə məhv edilmişdi. İyul ayında onlar Tovuz istiqamətində əraziləri işğal etmək istəyirdilər. Bu, aydın idi, amma onlar bizi ittiham edirdilər ki, guya iki hərbçimiz UAZ avtomaşını ilə onların mövqelərinə hücum etmişdir. Bu, gülünc məsələ idi. Biz 44 günlük müharibədə ordumuzun kimlərdən və nədən ibarət olduğunu nümayiş etdirdik. Biz həmin əraziləri zəbt etmək istəsəydik, bunu edərdik. Bu, birincisi. İkincisi isə, Ermənistanın ərazisi bizim nəyimizə lazımdır? Nə üçün biz Ermənistana fürsət verməliyik ki, o, KTMT-yə hərbi yardımla bağlı müraciət etsin? Biz ağlımızı itirmişik? Xeyr. Onlar istəyirdilər ki, torpaqları zəbt etsinlər, daha

sonra isə Paşinyan gəlsin desin ki, mən məğlubedilməz ordunun böyük komandanıyam və gəlib Tovuzda dayanmışam. Bu idi onların istəyi. Biz onları oradan geri atdıq və deyə bilərəm ki, irəliyə də gedə bilərdik. Onlar bizim generalımızı, zabitlərimizi qətlə yetirdilər. Biz qisas almalı idik. Mən isə ordumuzu dayandırdım. Biz sərhədi keçmədik, sadəcə, onları geri oturtduq və burada dayandıq. Halbuki Tovuzun dağlıq hissəsində Ermənistan qoşunları yox idi. Biz rahatlıqla kilometrlər boyu irəliləyə bilərdik. Mən dedim ki, xeyr, bunun vaxtı deyil. Daha sonra avqust ayında Goranboy istiqamətində növbəti təxribata əl atdılar, bizim mövqelərə sızmaq üçün qrup göndərdilər və həmin dəstənin başçısı tərəfimizdən yaxalandı. Nəhayət, sentyabr ayı gəldi. Bu bir daha yanlış hesablamanın, özləri haqqında olduğundan daha böyük təsəvvürdə olmağın, Azərbaycanın imkanlarını isə lazımi qədər qiymətləndirməməyin nəticəsidir. Onlar ölümcül xətaya yol verdilər və indi onun acısını çəkirlər.

**A m a n d a P o l** (*onlayn*)(*Belçikanın Avropa Siyasəti Mərkəzi*): **Təşəkkür edirəm, Prezident Əliyev. Bu gün Sizinlə ünsiyyətdə olmaq böyük məmnuniyyətdir. Belçikadan Sizə Avropa İttifaqı barədə sual vermək istəyirəm. Müharibə dövründə Azərbaycanda bir çoxları Avropa İttifaqının yanaşmasını tənqid edirdi. Avropa İttifaqı müharibədən sonrakı dövrdə etimadını və nüfuzunu necə bərpa edə bilər?**

**İ l h a m Ə l i y e v:** Səmimi danışsaq, mən münaqişə dövründə Avropa İttifaqının ciddi tənqid olunduğunu görməmişəm. Nə mən özüm, nə də qurum-

larımızdan heç biri Avropa İttifaqını tənqid etməmişik. Avropa İttifaqı Şurasının prezidenti müharibə vaxtı mənə telefonla zəng etdi. O, baş verənlərlə bağlı narahatlığını ifadə etdi, biz müzakirə apardıq, mən onu vəziyyətlə bağlı məlumatlandırdım. Bəli, Avropa İttifaqının bəzi aparıcı üzv dövlətləri ilə bağlı tənqidlər var idi. Lakin onlar müharibə vaxtı Avropa İttifaqının üzv dövləti kimi deyil, dövlət olaraq davrandılar. Ona görə də, Avropa İttifaqına gəlincə, indi Avropa İttifaqını kömək etmədiyinə görə tənqid edən Ermənistandır. Lakin Avropa İttifaqının necə kömək edə bilməsi böyük sual doğurur. Avropa İttifaqı oraya qoşunlarını göndərməli idi, ya necə? Mən bilmirəm.

Münaqişədən sonrakı inkişafda Avropa İttifaqının roluna gəlincə, mən artıq demişəm, biz Avropa İttifaqından yenidən qurulma, qaçqınların yerləşdirilməsi ilə bağlı bizə necə kömək etmək istədiklərinə və ya planlaşdırdıqlarına dair – əgər istəyirlərsə və ya planlaşdırırlarsa – heç bir mesaj almamışıq. Bu, təkcə maliyyə resursları baxımından deyil, həm də metodologiya baxımından bizim üçün böyük iş olacaq. Biz heç vaxt belə vəziyyətə düşməmişik ki, yerlə yeksan edilmiş əraziləri bərpa etməli olaq. Bunu necə planlaşdırmaq, hansı addımlar atmaq, addımları hansı ardıcıllıqla atmaqla bağlı məsləhət verən müəyyən beynəlxalq təcrübə ola bilər.

Əlbəttə, beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı hər hansı təchizat və ya kömək nəzərdə tutsa, biz minnətdar olarıq. Bundan əlavə, sizə deyə bilərəm ki, pandemiya ilə əlaqədar bizim Av-

ropa İttifaqı ilə yeni razılaşma ilə bağlı danışıqlarımız bir qədər dondurulubdur. Mən artıq açıq şəkildə bildirmişəm ki, COVID bu və ya digər dərəcədə bitən kimi, vəziyyət daha sabit olan kimi, biz danışıqlara yenidən başlayacağıq. Bu razılaşmanın böyük hissəsi artıq razılaşdırılıb, cəmi 7-8 faizi razılaşdırılmalıdır. Ona görə də biz Avropa İttifaqı ilə sıx əməkdaşlığımızı davam etdirməyi planlaşdırırıq. Hətta müharibə zamanı və müharibədən sonra bizə hücum edən Avropa İttifaqının üzv dövlətlərinin bəziləri artıq münasibətlərində dəyişikliklər edib. Sizə deyə bilərəm ki, müharibədən sonra Avropa İttifaqına cəmi bir üzv ölkə var ki, onun Xarici İşlər naziri özünə Azərbaycan barədə çox uyğun olmayan fikirlər söyləməyi rəva görüb. Biz, demək olar ki, səssiz qaldıq. Yalnız bizim Xarici İşlər Nazirliyimiz cavab verdi, çünki biz bu ölkədən çox «qorxurduq». Mən sizə də bizə amansızcasına hücum edən bu ölkədən çox «qorxmağı» məsləhət görürəm. Mən bütün rəsmi şəxslərimizə dedim ki, səssiz qalsınlar, əks halda onlar gəlib bizi «işğal edərlər». Bilirsiniz bu hansı ölkədir? Bu ölkə Lüksemburq adlanır. Sadəcə, müqayisə üçün sizə deyə bilərəm ki, bizim azad etdiyimiz ərazilər dörd Lüksemburq ərazisinə bərabərdir. Ona görə də Lüksemburqun Xarici İşlər naziri yaxşı olardı öz qayğısına qalsın və bu eyhamlara son qoysun. Lakin bundan başqa, müharibədən sonra mənfi heç nə baş verməyib. Biz ümid edirik ki, Avropa İttifaqı bizim böyük tərəfdaşımız olmağa davam edəcək. Əvvəl də qeyd etdiyim kimi, Avropa İttifa-

qının 9 üzvü ilə bizim strateji tərəfdaşlıq üzrə əməkdaşlıq formatımız vardır.

**Hikmət Hacıyev:** Təşəkkür edirik, cənab Prezident. Amanda Pol bizim siyahımızda sonuncu çıxışçı idi. Dəyərli və qiymətli vaxtınızı bizimlə birgə keçirdiyinizə görə bütün qrupumuz adından Sizə ən səmimi minnətdarlığımızı və hörmətimizi çatdırmaq istərdim. Siz bizimlə təlimatları, baxışları və fikirləri bölüşdünüz və buna əsaslanaraq, səfir Hafiz Paşayevlə birlikdə biz müzakirələrimizə davam edəcəyik.

Biz həmçinin gözəl Bakı bulvarında Hərbi Qənimətlər Muzeyinə baş çəkməyi səbirsizliklə gözləyirik. Təşəkkür edirik, cənab Prezident.

**İlham Əliyev:** Çox sağ olun. Mən soruşmaq istərdim, bəlkə başqa kiminsə sualı var? Çünki elə görünə bilər ki, sanki Hikmətdə çıxışçıların siyahısı var, bir qədər sovet üslubuna bənzəyir. Ola bilsin ki, kimsə əlavə etmək istəyir.

**Hikmət Hacıyev:** Cənab Prezident, bu, açıq proses idi və biz onlardan siyahıya adlarını yazdırmağı xahiş etmişdik.

**Türkiyəli iştirakçı: Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm. Səxavətiniz sayəsində bir neçə kəlmə demək və Sizə qısa sual vermək imkanım oldu. Öncə erməni mifologiyasını dağıdan və Azərbaycanın ərazi bütövlüyü ilə yanaşı, həm də Azərbaycanın psixologiyasını bərpa edən böyük Qələbəniz münasibətilə təbrik mesajlarına qoşulduğumu bildirmək istərdim. Bu Qələbə psixologiyanı yüksəltdi. Bu isə çox vacibdir. Əvvəlki**

**müzakirələrimizdə təklif etdiyim kimi, ekspertlər, akademiklər üçün məsələnin bütöv psixoloji və sosioloji tərəflərinə baxmaq yaxşı ideya olardı. Yəni Ermənistan kimi ölkədə siyasi quruculuğa təsir edən xəyali psixologiyanın feyk siyasi mədəniyyətin yaradılmasında rolu necədir? Biz, əlbəttə, bunu 1922-ci ildə Yunanıstanın nümunəsində, böyük Türk Zəfərindən sonra görmüşük. Onlar çox böyük travmalardan keçdilər. Bu travmaların öhdəsindən gəlmək həmin ölkələr üçün asan deyil. Lakin bilirsiniz, sonda, bu və ya digər yolla hadisələrin gedişatı, faktlar bunu formalaşdıranda, qeyd etdiyim məsələ reallığa çevrilir. Düşünürəm ki, bu çox yaxşı ideya olacaq. Ünvanlamaq istədiyim digər sual Azərbaycanın ərazi bütövlüyünün bərpası haqqındadır. Müharibə bunu təmin etdi. Lakin hələ problemli də olmasa, müəyyən məqamlar mövcuddur. O qədər də kiçik olmayan həmin ərazilərdə, Qarabağ bölgəsinin bəzi hissələrində Azərbaycanın suverenliyinin bərpa edilməsi ilə bağlı Sizdə cədvəl varmı? Rusiya sülhməramlıları və digərləri ilə razılaşdırdığınız cədvəl mövcuddurmu? Yoxsa Azərbaycanın suverenliyini mərhələli yanaşma qaydasında, proseslərin gedişatı ərzində həll etməyi düşünürsünüz? Sonda yenə də Sizi Türkiyədə və region boyu bizə xoşbəxtlik bəxş edən böyük Qələbəniz münasibətilə təbrik edirəm.**

**İlham Əliyev:** Təbriklərinizə, dəstəyinizə görə təşəkkür edirəm. Biz Türkiyənin, sözsüz ki, ölkənin liderinin, Prezidentin, yüksəkrütbəli rəsmilərin, QHT-lərin, medianın, bütün türk cəmiyyətinin dəstəyini hiss etdik. Bu, yekdil, çox güclü dəstək idi və

biz buna görə çox minnətdarıq. Düşünürəm ki, Ermənistanın yeni reallığa uyğunlaşması vaxt tələb edəcək. Onlar psixoloji cəhətdən buna hazır deyillər. Çünki artıq qeyd etdiyim kimi, onlarla manipulyasiya ediblər, onların beyinlərini yuyublar. Onlar özləri üçün heç vaxt sahib olmadıqları saxta tarix yaradıblar. Mən çox dərinə getmək istəmirəm, amma həmin tarixi qəhrəmanlar belə, onların özlərini göstərdiyi millətə məxsus deyillər. Onların XX əsr tarixi tamamilə saxta tarixdir. Onlar bir-birini inandırmağa çalışıblar və bəlkə də onların ən böyük problemi odur ki, onlar heç vaxt olmayan bir şeyə və nəyi əldə edəcəklərinə dair planlara bir-birini inandırmağa nail olublar. Əks halda, müharibədən əvvəl onlar yüksək səviyyədə, prezident, baş nazir səviyyəsində Sevr razılaşması haqqında danışmazdılar. Onlar Türkiyəyə qarşı ərazi iddiaları barədə danışırdılar. Bu barədə danışmaq və bunu planlaşdırmaq üçün ağılsız olmaq lazımdır. Xatırlayıram ki, bir neçə il bundan əvvəl gənc ermənilərlə görüşdə ovaxtkı cinayətkar prezident Sarkisyandan soruşulanda ki, biz Türkiyədə qədim torpağımıza nə vaxt qayıdacağıq, o dedi ki, bizim nəsil bu qələbəni qazandı, bunu etmək sizin öhdənizə düşür. İndi Sarkisyan haradadır? O, Qarabağdan qaçdı. O, müharibə zamanı orada idi. O oraya gəldi, lakin sonra müharibə qəhrəmanı hesab olunan Köçəryanla birlikdə qaçdı. Onlar qorxaqdırlar. Birinci Qarabağ müharibəsində ayağını itirmiş sabiq müdafiə naziri Ohanyan biz gəlməmişdən cəmi bir neçə gün əvvəl Şuşadan qaçmasaydı, Şuşada başını itirə bilərdi.

Onların psixologiyası budur. Onları elə böyüdüblər ki, guya onlar dünyanın ən böyük millətidir, hərtərəfli dəstəyə layiqdirlər, hər kəs onlara borcludur, amma heç kim bilmir ki, nəyə görə. Onlar şəxsi və korporativ üstünlüklər əldə etmək üçün saxta tarixlərindən istifadə edirdilər. İndi hamı başa düşəndə ki, onların ordusu mövcud deyil, onların 10 min fərarisi var – 10 min, «məğlubedilməz ordu» – onların bütün qavrayışı dəyişib. Siz tamamilə haqlısınız, bu travmadır, psixoloji travma. Lakin kim cavabdehdir? Özləri. Təkcə hakimiyyətdə olanlar deyil, bütün cəmiyyət cavabdehdir. Onlar gözlərini açmalı, başa düşməlidirlər ki, bu mühitdə yaşamalı olacaqlar. Onlar Türkiyə ilə münasibətlərin qurulmasında Türkiyədən daha çox maraqlıdırlar və maraqlı olmalıdırlar. Türkiyə sərhədi həmişəlik bağlı saxlayaraq yaşaya bilər. Bu, Ermənistan üçün vacibdir. Biz həmişə belə yaşaya bilərik. Məsələn, biz Zəngəzur dəhlizindən danışırıqsa, bəli, onun Naxçıvanla əlaqəsi olacaq. Məgər indi bizim əlaqəmiz yoxdur? Bəli, var. Bu onlar üçün olacaq və onlar bu dəyişikliyi etməlidirlər. Lakin məndən soruşsanız ki, Ermənistanda siyasi dairədə vəziyyətə real baxacaq kimsə varmı? Xeyr. Hətta əgər belə bir şəxs varsa, o bunu heç vaxt açıq şəkildə etməyəcək. Çünki dərhal hücuma məruz qalacaq. Dərhal tənqidə məruz qalacaq. Onu öz dillərində təhqir olaraq türk adlandıracaqlar. Onu xain adlandıracaqlar və s.

Suverenliyin cədvəlinə gəlincə, mən artıq demişəm ki, Dağlıq Qarabağ münaqişəsi başa çatıb. Hazırda Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında

yaşayan ermənilər i, əvvəl qeyd etdiyim kimi, biz Azərbaycan vətəndaşları hesab edirik. Bu regionun reinteqrasiyası zaman məsələsidir. Biz çox tələsməyəcəyik. Biz doğru olanı etmişik. Zənnimcə, bu insanlar özləri başa düşəcəklər ki, qonşuları ilə normal münasibətlərin olması onlar üçün daha yaxşıdır. Hətta indi həmin ərazilərə bütün logistik dəstəyin Bərdə və Ağdamdan getdiyi bir vaxtda, daha çox aydın olur ki, bu, Azərbaycana inteqrasiya olmuş regiondur. 100 il əvvəl Laçın dəhlizi mövcud deyildi. Keçən əsrin 30-cu illərinədək Laçın və Kəlbəcərdə yol yox idi. İnsanlar yalnız atla gedə bilirdilər. Əlbəttə, bu regionun Ermənistanla əlaqəsi də yox idi. O, Azərbaycanın qalan hissəsinə iqtisadi, sosial cəhətdən, hər cəhətdən tam inteqrasiya olmuşdu və bu belə də olacaq. Bu reallıqdır. Biz hazırıq. Hazırda Azərbaycanda minlərlə erməni yaşayır. Mən müharibə vaxtı dediyim kimi, Ermənistanın sabiq müdafiə nazirinin bacısı Azərbaycanda yaşayır. O müdafiə naziri olanda və bizim əraziləri işğal altında saxlayanda bacısı Azərbaycanda yaşayırdı və heç kim onu barmaqla göstərmirdi. Bu bizim mədəniyyətimiz, bizim siyasətimizdir. Qarabağ regionunun tam inteqrasiyası labüddür. Bu, baş verəcək. Lakin biz bunu vaxtında və maksimum səbrlə etməliyik.

**Vəli Xaliqi** (*İranın Tehrandakı İran–Avrasiya Tədqiqatları İnstitutu*): **Təşəkkür edirəm, cənab Prezident. Azərbaycan Füzuli, Cəbrayıl və Zəngilan rayonlarını uğurla geri almasından sonra İranla həmin ərazidə olan 138 kilometrlik sərhəd xəttini bərpa etdi. De-fakto erməni dövləti de-yure Azərbaycan Res-**

**publikası ilə əvəz edildi. İndi biz sərhəd idarəçiliyi, Xudafərin su anbarı və su-elektrik stansiyasının reallaşdırılması da daxil olmaqla, müxtəlif məsələlərlə bağlı bir-birimizlə işləyə bilərik. Bu hadisələr müsbətdir. Lakin digər tərəfdən, Naxçıvandan Azərbaycan Respublikasına dəhlizin açılması ilə bağlı çoxsaylı suallar mövcuddur. Azərbaycan və Türkiyə rəsmiləri dəfələrlə bu dəhlizin, xüsusilə Ermənistan–Azərbaycan sərhədini kəsməyəcəyini söyləyiblər. Çox sayda iranlı ekspertlər bu dəhliz barədə narahatdırlar. Sual bundan ibarətdir: bu dəhlizin real eni nə qədər olacaq? Bu dəhliz yalnız Naxçıvan ilə Azərbaycan vətəndaşları arasında bağlantı yaradacaq? Yəni daxili dəhlizmi olacaq? Yoxsa bu, beynəlxalq dəhliz olacaq? Bu dəhliz insanların keçməsi və malların ötürülməsi ilə məhdudlaşacaq, yoxsa hərbi təchizatlar da ötürülə biləcək? Bu suallar o faktdan yaranır ki, həm İran və Azərbaycan arasında 750 kilometrlik sərhəd, həm də İran və Ermənistan arasında 38 kilometrlik sərhəd bizim üçün vacibdir. Cənab Prezident, bunu aydınlaşdıracağınıza ümid edirəm və dostyana yuxarıda qeyd edilmiş sualları cavablandırardınız ki, mən də bu cavabları İrandakı dostlarıma çatdırım. Xoş münasibətiniz və qonaqpərvərliyiniz üçün təşəkkür edirəm.**

**İlham Əliyev:** Siz çox mühüm məsələni qeyd etdiniz və mən mövqemizə aydınlıq gətirmək istəyirəm. Sözsüz ki, mən yalnız Azərbaycan adından danışa bilərəm. Çünki söhbət dəhlizdən gedirsə, bir neçə ölkə vardır. Ona görə də bununla bağlı konsensus olmalıdır. Lakin İranla bərpa edilmiş bu sərhəd yeni imkanlar açır. Siz Xudafərin su anbarı

və bəndini xatırlatdınız. Bildiyiniz kimi, mənim İrana səfərlərimdən birində biz bununla bağlı İranla saziş imzaladıq. Əfsuslar olsun ki, Azərbaycanda bizi tənqid edənlərdən bəziləri buna görə Azərbaycanı günahlandırmağa çalışırdılar, deyirdilər ki, niyə Azərbaycan bu sazişi imzalayıb, çünki Azərbaycan vəziyyətə nəzarət etmirdi.

Lakin onlar başa düşə bilmirdilər ki, bu sazişin imzalanması ilə İran bir daha bu ərazini Azərbaycanın suveren ərazisi hesab etdiyini nümayiş etdirdi, baxmayaraq ki, İran çoxsaylı sənədlərdə bizim ərazi bütövlüyümüzə güclü dəstək veribdir. Bu, siyasi tərəfidir. Praktiki nöqteyi-nəzərdən, bu gün biz sərhədə nəzarət etdiyimiz bir vaxtda Xudafərin bəndi həm də bir növ, bizim birgə sərvətimizdir. Mən artıq sizə deyə bilərəm ki, biz 200 meqavatlıq su-elektrik stansiyasının qurulması ilə bağlı İran tərəfi ilə əməkdaşlığa başlamışıq. Bu, iki hissəyə ayrılacaq. Azərbaycan investisiyaların ödənilməsi metodologiyası ilə bağlı artıq İranla razılığa gəlib. Çünki hər şey İran tərəfindən edilib. Ona görə də biz geri ödəməli və öz payımızı masaya qoymalıyıq. Bu da razılaşdırılıb.

Sərhədlə bağlı narahatlıqlara gəlincə, düşünürəm ki, bu narahatlıqlar tamamilə əsassızdır. Postmüharibə dövrünün əvvəlində belə narahatlıqlar var idi. Lakin bilirsiniz ki, yüksəkrütbəli nümayəndə heyətləri, Xarici İşlər naziri, Xarici İşlər nazirinin müavini Azərbaycana səfər etdilər və biz, şəxsən mən onların hər ikisi ilə – cənab Zərif və cənab Əraqçı ilə bununla bağlı fikirlərimizi geniş şəkildə müzakirə etdik.

Düşünürəm ki, bununla bağlı ortaq məxrəcə gəldik. Bilirəm ki, bundan sonra onlar Rusiyaya və Türkiyəyə də səfərlər edərək, eyni məsələləri müzakirə ediblər və bizdə tam konsensus vardır. İran bu layihəyə güclü dəstək verir. Bundan əlavə, İran 3+3 əməkdaşlıq formatına güclü dəstək verir ki, hazırda faktiki olaraq, əsas məsələ budur. Bu heç bir halda İranı Ermənistandan ayırmayacaq. Bu, müəyyən mənada dəmir yolu əlaqəsi, magistral əlaqəsi olacaq. Bizim sərhədimizdə çoxlu dəmir yolu əlaqəsi, magistral əlaqəsi var. Bu o demək deyil ki, bu kiminsə maraqlarına ziyan vuracaq. Əksinə, bu, İrana Naxçıvan dəmir yolu vasitəsilə Yerasxa, oradan Ermənistana getməyə və dəmir yolu əlaqəsinə sahib olmağa imkan verəcək. Ona görə də düşünürəm ki, İran hökuməti bu layihəni tam şəkildə dəstəkləyir. Düşünürəm ki, həm də İranın «beyin mərkəzləri», vətəndaş cəmiyyəti və siyasətçilərinin həqiqəti bilməsi üçün də yaxşı olacaq. Malların və sərnişinlərin daşınmasına gəlincə, bu, zaman məsələsidir. Artıq bir neçə dəfə Azərbaycan–Ermənistan–Rusiya birgə İşçi qrupunda Baş Nazir müavinləri səviyyəsində müzakirələr keçirilib. Bizim üçtərəfli bəyanatda da bir müddəa var ki, Ermənistan ərazisində təhlükəsizlik Rusiya Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti tərəfindən təmin olunacaq.

Bildiyiniz kimi, onlar Ermənistanın İran və Türkiyə ilə sərhədinə nəzarət edirlər. Ona görə də İran üçün bu, yenilik olmayacaq. Yəni yenə ruslar olacaqlar. İranlılar Ermənistanla sərhədi keçəndə ilk gördükləri Rusiya sərhəd təhlükəsizliyi qüvvələri ola-

caq. Dəhlizlə bağlı vəziyyət də eyni olacaq. Bu heç bir çətinlik yaratmayacaq. Hərbi və ya mülki yüklərə gəldikdə, bilirsiniz ki, bu gün biz İran ərazisi vasitəsilə mövcud xətlərlə Naxçıvana hərbi yüklər göndəririk. Niyə bu yolla olmasın? Bunun heç bir fərqi olmayacaq. Bundan əlavə, müharibə artıq bitib və bizim bu barədə düşünməyə ehtiyacımız yoxdur. Sülh barədə düşünməliyik.

**Stiven Klayn** (*İsrailin Tel-Əviv Universiteti*): **Sabahınız xeyir, bizə vaxt ayırdığınıza görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mənim iki sualım var: birincisi, mesajla bağlıdır. Siz Azərbaycan cəmiyyətində həmrəylik haqqında danışdınız. Hesab edirəm ki, biz bu həmrəyliyi görürük. Biz ölkə ərazisində Azərbaycan dilində üzərində «Şuşa bizimdir!», «Qarabağ bizimdir!» yazılan şüarları görürük. Mən böyük həştəqlə «Ermənistana inanmayın» şüarını görmüşəm. Bu vacibdir. Mən İsrail nöqteyi-nəzərindən bunu başa düşürəm. Biz də bunu yaşamışıq, insanlara ünvanlanan mesajları. Mesajlar Qarabağa böyük bir sadiqlik yaratdı. Eyni zamanda, Sizin təsəvvür edə biləcəyiniz kimi, mən ermənilərə qarşı düşmən münasibət bəsləyən azərbaycanlılarla da danışmışam və onların buna haqqı var. Lakin bu da ermənilərin təhlükəsizliyinə, xüsusilə Dağlıq Qarabağdakıların təhlükəsizliyinə təsir edir. Biz bilirik, Siz emosional addımlar ata bilərsiniz, Dağlıq Qarabağda Azərbaycan ərazilərində etdiyiniz jestlər müsbət jest kimi edilib, lakin bunun zamanı düzgün olmayanda bu, emosional olaraq onlara təsir edə bilər. Çünki onlar hələ də Sizin dediyiniz travma ilə yaşayır. Sualım ondan ibarətdir ki,**

**Qarabağ Azərbaycanın nəzarətinə keçəndən sonra bu mesajlar necə dəyişir? Bu lövhələrin yanında «Şuşa bizimdir!», «Qarabağ Azərbaycandır!» və daha nələr yazılacaq? Azərbaycanlıların ermənilərə qarşı düşmən münasibəti bəsləməmələri üçün, Dağlıq Qarabağ ermənilərinin isə Azərbaycan daxilində özlərini daha da təhlükəsiz hiss etmələri üçün növbəti mesajlar nədən ibarət olacaq? İkinci sualım qadınların vəziyyəti ilə bağlıdır. İqtisadi araşdırmalara görə, qadınların vəziyyəti iqtisadi inkişafa və sülhə çox bağlıdır, lakin bu boşluğun aradan qaldırılması çətin olur. Böyük müxtəlifliyi təmin etmək üçün qadınların vəziyyətinin daha da yaxşılaşdırılmasında hökumətin rolunu nədə görürsünüz? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** İkinci sualdan başlayacağam. Çünki qadınlar həmişə prioritet məsələdir. Hesab edirəm ki, həyatımızın müxtəlif seqmentlərində Azərbaycanda qadınların rolu kifayət qədər yüksəkdir. Qadınlara hörmət Azərbaycan xalqının tarixi ənənəsidir. Bildiyiniz kimi, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri qadınlara səsvermə hüququ vermək idi. Bu, 1918-ci ildə baş vermişdir. Qadınların həmin zaman emansipasiyası prioritetlərdən biri olmuşdur. Hesab edirəm ki, bu gün nailiyyətlər açıq-aydındır. Mənim üçün bəzən Azərbaycanın qadınların kifayət qədər hüquqları olmayan və ya qadın hüquqlarının pisləşdiyi, yaxud burada bir növ, diskriminasiyaya uğradığı bir ölkə kimi qavranılması qəribədir. Bu heç də belə deyil. Burada qadınların az olması faktı bizim qonaqlarımızın toplaşması ilə əlaqəlidir. Bura indi

sizin masanızdır. Lakin Azərbaycanda qadınların çox yüksək vəzifələri var və bunu siz özünüz də bilirsiniz. Milli Məclisin Sədri və hətta bundan da yüksək vəzifələr qadınlar tərəfindən tutulur. Yenidən qurulmaya gəldikdə, əlbəttə ki, biz onlara arxalanırıq. Çünki Azərbaycanda qadınlar, adətən, təhsil və səhiyyə sektorlarında işləyirlər. Bu da işğaldan azad edilmiş ərazilərdə prioritet olacaq. Birinci növbədə, biz xəstəxanaları, məktəbləri inşa etməyi planlaşdırırıq. Buna görə də qadınlar üçün normal, yaxşı iş yerləri təmin olunacaqdır.

Şüarlar və lövhələrə gəldikdə, bilirsiniz ki, «Qarabağ Azərbaycandır!» ifadəsini mən Soçidə Valday konfransında demişəm. Çünki Qarabağda aksiyada iştirak edərkən Ermənistanın baş naziri Paşinyan «Qarabağ Ermənistandır və nöqtə» demişdi. Bu, danışıqların sonu idi. Bu, əvvəla, səhv idi, həqiqət deyildi. İkincisi, bu onun verdiyi əvvəlki bəyanatlarla ziddiyyət təşkil edirdi. O, Qarabağın müstəqil ölkə olduğunu deyirdi. Necə ola bilər ki, o həm Ermənistanındır, eyni zamanda, müstəqil ölkədir? Bu, cənab Paşinyana ünvanlanmış bir sualdır. Yəqin ki, indi ona bu sualı verməyə artıq ehtiyac yoxdur. Canlı yayımlanan konfransda danışmaq imkanım olanda mən bunu dedim. Mən bunu Bakıda deyə bilərdim və ola bilsin, bir çox insan bunu eşitməzdi. Lakin mən bunu Rusiya televiziyası ilə canlı yayımlanan konfransda dedim: «Qarabağ Azərbaycandır və nida işarəsi!». Bu, dərhal həştəqə və ya şüara çevrildi. Bu, bütün bəyanatlarımda bizim qələbəmizin əsas şüarı idi və məhz buna görə bu şüarı biz hər yerdə görürük. Yə-

qin ki, bu belə davam edəcək. Çünki bu həqiqətdir: Qarabağ Azərbaycandır! Yeni lövhələrlə bağlı, mən artıq biri haqqında dedim. Biz Ermənistanın öz yolu hesab etdiyi yoldakı bir lövhədə «Azərbaycana xoş gəlmisiniz!» yazmışıq. Bu da onları qıcıqlandırır. Bilmirəm nə yazaq. Biz «Qarabağ Azərbaycandır!» yazanda bu onların xoşuna gəlmir, biz «Azərbaycana xoş gəlmisiniz!» yazanda da bu onların xoşuna gəlmir. Yəqin ki, siyasətçilərin yanında və beynəlxalq birlikdə dediyim kimi, özlərinə bələdçi tapmaq və özlərini yeni reallıqlara uyğunlaşdırmaq məqsədilə yaxşı müalicə almaq üçün onlara bu posttravma dövrü lazımdır. Lakin müharibə zamanı və müharibədən sonra biz düşmənçilik xarakterli ritorikaya tamamilə yol verməmişdik. Mənim Azərbaycan xalqına ünvanladığım şərhlərimdə, bəyanatlarımda və mesajlarda həmişə Ermənistanın bizə vaxt cədvəli verməli olduğunu və bu halda müharibəni dayandıracağımızı deyirdim. Bu da baş verdi. Biz yanlış olanı etmədik, yalnız müvafiq olanı etdik və bunu vaxtında etdik.

**Ç a ğ r ı  A r h a n** (*Türkiyənin İstanbul Altınbaş Universitetinin rektoru, Türkiyə Təhlükəsizlik və Xarici Siyasət Məsələləri üzrə Prezident Şurasının üzvü*): **Mən də Sizi Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi və bu Qələbəni qazanmış Azərbaycan xalqının hər bir nümayəndəsini şəxsən təbrik etmək istəyirəm. Siz dediniz ki, azərbaycanlılar Azərbaycan şəhərlərində Azərbaycan bayraqları ilə yanaşı, Türkiyə bayraqlarını da dalğalandırırdılar. Əminəm ki, bu 44 günlük müharibə zamanı Türkiyənin hər bir şəhə-**

**rində Azərbaycan bayraqlarının olduğunu da bilirsiniz. Biz Qələbəni Türkiyədə olan Azərbaycan vətəndaşları kimi qeyd edirdik. Türkiyə və Azərbaycan arasında bu yüksək əməkdaşlıq dövrü onu göstərdi ki, «Bir millət – iki dövlət» ifadəsi sadəcə, bir ritorika deyil, həm də reallıqdır. Biz bu məqamlarda ümummilli lider mərhum Heydər Əliyevin xatirəsini anırıq. Çox qısa bir sual vermək istəyirəm. Cari hadisələrin inkişafından, cari vəziyyətdən və regionda dinamikaya ehtiyac duyulduqdan sonra Siz hələ də Minsk qrupuna ehtiyacın olduğunu və belə bir qrup olarsa, bu qrupun funksiyasının nədən ibarət olacağını düşünürsünüzmü? Yeni funksiyalar olacaqmı, onlar mövcud olan funksiyalarını yeniləmədilərmi? Bu 25–30 il fəaliyyət göstərən qrupun indi məqsədi nədir? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Xoş sözlərinizə, təbriklərə görə təşəkkür edirəm. Biz Qələbəmizin Türkiyədə hamımızın qələbəsi kimi qəbul olunduğunu bilirik və belə güclü qardaş dəstəyinə görə çox minnətdarıq. Dediyim kimi, Türkiyə cəmiyyətinin bütün seqmentlərindən, adi insanlardan, bizə əlavə güc verən hər kəsdən bu həmrəyliyi və dəstəyi hiss edirdik.

Minsk qrupuna gəldikdə, müharibədən sonra mən Minsk qrupunun həmsədrləri ilə görüşmüşdüm. Onların gələcəyini necə gördüyümlə bağlı mənə sual verdiklərində onlardan mənə bəzi təkliflər təqdim etmələrini xahiş etdim. Çünki Minsk qrupu həmişə təklif verən qrup idi. Əlbəttə, Azərbaycanın və Ermənistanın mövqeyi əsasında. Lakin masa üzərində olan prinsiplər və mövzular onlar tərəfindən işlənib hazırlanmışdı. Əlbəttə ki, Minsk qrupunun tərkibi və daxili

münasibətlər həmişə onların prioriteti olub. Əvvəla, biz həmsədrlərin – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın mövqeyinin nədən ibarət olduğunu bilməliyik. Onlar Minsk qrupunun gələcək fəaliyyətini necə görürlər? Çünki bu quruma həmsədrlik edən onlardır. Bu da bizim mövqemizdir. Münaqişə öz həllini tapdıqdan sonra münaqişənin həllinə kömək etməli olan qrupun fəaliyyətinə yer varmı? Bilmirəm. Eyni zamanda, mən bizə artıq Minsk qrupu lazım deyil, çıxın gedin də deyə bilmirəm. Xeyr. Nəyə görə bunu deyim ki? Buna görə mən onlara diplomatik şəkildə düşünməyi və kreativlik göstərməyi xahiş etdim. Onlar bu 29 il ərzində çox kreativ olublar. Bir az da kreativlik göstərsinlər. Lakin hesab edirəm ki, ciddi danışsaq, onların postmünaqişə vəziyyətində öz rolunu oynaya biləcəyi bəzi sahələr ola bilər. Münaqişəni həll etməli olan bir qrup olaraq yox. Burada mən Minsk qrupunun bəzi nümayəndələri ilə tamamilə razı deyiləm. Onlar münaqişənin həll edilməli olduğunu deyirlər. Münaqişə artıq həll olunub. Əgər mən münaqişənin həll edildiyini deyirəmsə, bu onun həll olunduğu deməkdir. Əgər Ermənistan münaqişənin həll olunmadığını deyirsə, onda mən Ermənistan tərəfindən münaqişənin həllini necə gördüklərini, bizim nələr etməli olduğumuzu soruşa bilərəm. Beləliklə, onların özlərinin nəsə düşünmələrini, kreativ olmalarını, dəstək verməli olduqlarını hesab edirəm. Bu kövrək sülhə zərbə vura biləcək bir şey etməməlidirlər. Ermənistana qeyri-real vədlər verməməlidirlər, neytral, qərəzsiz bu vəziyyəti bağlamağa çalışmalıdırlar. Ermənistanla gələcək sülh razılaşması

haqqında danışanda, yəni əgər Ermənistan belə bir variantı nəzərdən keçirərsə, bu halda beynəlxalq tərəflər üçün çoxlu imkanlar ola bilər. Demarkasiya, delimitasiya, qarşılıqlı əlaqə məsələləri var. Biz beynəlxalq birliyin bir hissəsiyik, biz ATƏT-in üzvüyük və ATƏT-in regionda çox xüsusi rolu vardır.

Buna görə mən onların faydalı ola biləcəyini düşünürəm. Lakin onlar bizə çoxdandır səfər etmir. Ümid edirəm ki, onlar tezliklə müəyyən təkliflərlə gələcəklər və biz də, əlbəttə ki, bu təklifləri lazımi diqqət verərək, nəzərdən keçirəcəyik.

**Taras Kuzio** (*Kiyev-Mohyla Akademiyası Milli Universitetinin professoru*): **Ukraynadan da Sizin ərazilərin azad olunması münasibətilə təbriklər var. Azərbaycanı birmənalı dəstəkləyən tək Türkiyə deyil, eləcə də Ukrayna bütün siyasi mənbələrdə və media orqanlarında bunu bəyan edib və bu, olduqca mühümdür. Sualı verməzdən öncə bir zarafatı bölüşmək istəyirəm. Bu çox maraqlı fikir mübadiləsini dinləyərkən ağlıma belə bir sual gəldi: görəsən, erməni kəşfiyyatı son 10 və ya 20 il ərzində tətilə çıxmışdı? Yaxud onlar «Google»dan istifadə etməyi bacarmırdılar? Bəlkə də, «Yandex» «Google» qədər yaxşı deyil, nə bilim? Lakin mənim ciddi olaraq sualım, ola bilsin ki, bu sual hələ də səsləndirilməyib və əvvəlki Minsk qrupuna dair sualla uzlaşır. Minsk qrupu ilə bağlı problem odur ki, ABŞ regionda yox idi. Hər iki Prezidentin dövründə. Yəni bu, siyasi partiya məsələsi deyil. İki fərqli partiya. Fransızlar da qərəzli idi. Noyabrda Fransa parlamentinin hər iki palatası Dağlıq Qarabağın müstəqilliyinin lehinə səs vermişdi. Odur ki,**

**Fransa Azərbaycan məsələsində separatizmi dəstəkləyir, lakin eyni zamanda, Minsk qrupunda Ukraynanın şərq bölgəsi olan Donbas məsələsində Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini iddia edir. Çox qəribə ziddiyyətli və çoxvektorlu xarici siyasət yürüdür. Yeni ABŞ administrasiyasından bu regionda nə görmək istərdiniz? Minsk qrupundan daha geniş miqyasda soruşuram. Azərbaycan Prezidenti ABŞ-ı daha fəal iştirakçı qismində görmək istəyirmi? ABŞ-ın geri qayıtmağının vaxtıdırmı? Təşəkkür edirəm.**

**İlham Əliyev:** Əvvəlcə, təbrikinizə görə sağ olun. Azərbaycanı dəstəkləyən Ukraynadakı dostlarımıza bizim minnətdarlığımızı çatdırın. Müharibə zamanı biz həssaslıqla dünya ölkələrinin baş verənlərə necə reaksiya göstərdiklərini izləyirdik. Odur ki, Ukrayna cəmiyyətinin güclü mövqeyi tərəfimizdən yüksək qiymətləndirilir. O ki qaldı suala, sizinlə tamamilə razıyam. Bəli, Fransa separatçıların tərəfində idi və bu həqiqətdir. Müharibə zamanı bir neçə dəfə bu barədə açıq fikirlərimi bildirmişdim və bu, əlbəttə ki, qeyri-münasib idi. Yəqin bir çoxlarınız bilmirsiniz, ona görə mən Fransanın necə Minsk qrupunun həmsədrinə çevrildiyinə dair tarixçəni sizin diqqətinizə çatdırım. Fransa heç də əvvəldən Minsk qrupunun həmsədri deyildi. Fransa Prezident Şirakın xahişi ilə Minsk qrupunun həmsədri oldu. O çox təkid edirdi və mərhum atamdan dəfələrlə bunu xahiş etmişdi. Mənim mərhum Prezident Şirakla bir çox görüşlərimdə o da mənə eyni tarixçəni, atamı Fransanın Minsk qrupunun həmsədri olması üçün necə inandırdığına dair danışırdı.

Deyirdi ki, Sizin atanız buna etiraz edirdi və açıq şəkildə «xeyr» deyirdi və bildirirdi ki, bizim şəxsinizə qarşı heç bir iddiamız yoxdur, lakin sizin çox güclü erməni diasporanız var və bu diaspora sizin qərar qəbuletmə prosesinizə təsir edəcək, siz nəticədə Ermənistanın tərəfində olacaqsınız. Prezident Şirak onu inandırmış və vəd etmişdi ki, belə olmayacaq, Fransa bitərəf olacaq və ondan sonra atam razılığını vermişdi. Razılığını verməsəydi, Fransa orada olmayacaqdı. Bu, əhvalatdan bixəbər olan bəzi fransız siyasətçilər üçün bir xatırlatmadır. Sizə deyim ki, Fransa ilə yaxın əməkdaşlığımızın bütün müddəti ərzində bu bitərəflik və qərəzsizlik təmin olunurdu. Müxtəlif bitərəflik səviyyələrində, hətta onu da deyə bilərəm ki, Prezident Oland aprelin 24-ü Ermənistanda mərasimdə iştirak edərkən, elə həmin gün o, təyyarə ilə Bakıya gəlmişdi. Mən o zaman Prezident Ərdoğanla Çanakkalada Çanakkala Zəfərinin ildönümündə idim və elə alındı ki, mən Bakıya Prezident Olanddan sonra gəldim. O məndən əvvəl Bakıya gəldi və biz növbəti gün səhər görüşdük. Mən o hadisəni bu günə kimi çox yüksək qiymətləndirirəm. Mən o hadisəni Minsk qrupunun həmsədri olan bir siyasətçinin, dövlət xadiminin, məsuliyyətli bir şəxsin davranış əlaməti kimi görürəm. O, aydın başa düşürdü ki, Ermənistana bu münasibətlə səfər edirsə, Azərbaycana gəlib bizə öz ehtiramını göstərməsə, tarazlı və bitərəf davranmasa, bu, Azərbaycanda olduqca qeyri-populyar hərəkət kimi qarşılanacaq. Əfsuslar olsun ki, bu diplomatik təcrübə müharibə zamanı və hətta ondan əvvəl itirilmişdi. Hətta müharibədən

əvvəl. Fransa tərəfindən Ermənistan və Azərbaycan barədə tarazlaşdırılmamış yanaşma təkcə müharibə zamanı deyildi. Müharibədən əvvəl də belə idi. Bunun bir çox göstəriciləri var, sizin vaxtınızı çox almaq istəmirəm. Müharibə zamanı baş verənlər tamamilə qəribə idi və təəssüf ki, olanlar oldu. Bu bizim planlarımızı dayandırdımı? Xeyr. Onlar bizim iradəmizə təsir edə bildilərmi? Xeyr. Bu, yanlış hesablama idi. Mən açıq danışmaq istəyirəm. Böyük ölkələr bəzən bəzi başqa ölkələr haqqında dediklərinin dərhal icra olunmasına alışıblar. Onlar buna adət ediblər. Bu, pis vərdişdir. Onlar bu pis vərdişi atmalıdırlar. Bu, siqaret çəkmək kimidir, siz buna aludə olursunuz. Müharibə zamanı mənə deyilənlərin heç biri, yəni durdurmaq, artıq azad edilmiş əraziləri geri qaytarmaqla bağlı sözlərin heç biri yerinə yetirilmədi. Lakin müharibədən sonra vəziyyət dəyişdi. Fransadan nümayəndə heyətləri, mesajlar gəldi, münasibətlərin normallaşdırılması ilə bağlı təkliflər var idi. Mən münasibətlərimizdə heç bir səhv etmədiyimizi deyirdim. Biz həmişə əməkdaşlığa sadiq idik. Lakin olanlar oldu. Sizin Fransanın Ukraynanın ərazi bütövlüyünü güclü dəstəklədiyini, lakin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmədiyini deməyiniz düzdür. Mən bunun necə adlandırıldığını bilirəm, lakin kobudluq etmək istəmirəm.

ABŞ-ın nə edə biləcəyi ilə bağlı. Siz özünüz qeydinizin əvvəlində ABŞ-ın olmadığını dediniz. ABŞ yox idi, biz də problemi həll etdik. Mən ABŞ-ın burada olmalı olduğunu demirəm, lakin yeni administrasiyadan bizə heç bir mesaj daxil olmadı. Admi-

nistrasiya yanvardan formalaşıb, bu gün apreldir. Cənab Blinken Paşinyana zəng edib, onların nə danışdıqlarını bilmirəm. Yenə də tarazlıq qorunmamışdır. Mən cənab Blinkendən zəng gözlədiyimizi demirəm. Lakin bu, həmsədr ölkədir, onlar tarazlı şəkildə davranmalıdırlar. Biz regionumuzla bağlı məsələdə ABŞ hökumətinin mövqeyinin nədən ibarət olduğunu bilmirik. Prezident Bayden Novruz bayramı münasibətilə mənə məktub ünvanlamışdır. Bunun üçün ona minnətdaram. Lakin bu sadəcə, təbrik mesajı idi. Mən bu tip mesajların başqa ölkələrə də ünvanlandığını bilirəm. Bu qədər.

**Əhməd Uysal** (*Türkiyənin Yaxın Şərq Araşdırmaları Mərkəzinin direktoru, professor*): Təşəkkür edirəm, cənab Prezident. Sizi bir daha təbrik etmək istəyirəm, Sizinlə qürur duyuruq. Dünən Ağdamda olan dağıntıları müşahidə etdik. Sanki savaşsız müharibə zonasında idik. Onların etdikləri yeganə şey çala qazmaq olub. Heç bir tikinti-quruculuq işləri aparılmayıb. Çox kədərli idi. Evləri, məscidləri dağıdıblar. Əlbəttə, Sizin icazənizlə, Beynəlxalq Qarabağ Forumunun keçirilməsini təklif etmək istərdim. Bu da bir çox türk turistlərini, akademikləri və biznesmenləri cəlb edərdi. Təşəkkür edirəm.

**İlham Əliyev:** Yaxşı fikirdir. Hesab edirəm, ADA Universiteti bunun üzərində işləyə bilər. Mən bu ideyanı tamamilə dəstəkləyirəm. Tədbirlər burada, işğaldan azad edilmiş ərazilərdə keçirilə bilər. Ağdamda gördükləriniz, demək olar ki, hər yerdədir. Füzulidə vəziyyət bundan da pisdir. Çünki Füzulidə binalar yoxdur. Ağdamda yarıuçulmuş məs-

cidi iki səbəbdən saxlamışdılar. Birincisi, o, məsafəni ölçmək üçün bir oriyentir idi. İkincisi də o, müşahidə nöqtəsi idi. Onlar bizim bu istiqamətdən hücuma keçməyimizi gözləyirdilər. Bizim əraziləri işğaldan azad etdiyimiz yola baxsanız, görəcəksiniz – biz birbaşa Ağdama getməmişik. Onlar bizi orada gözləyirdilər, onların çox möhkəm müdafiə sədləri var idi. Çoxlu itkilər ola bilərdi. Bizim Ağdama yolumuz açıq olmuşdur və Ağdam Şuşadan sonra gəlirdi. Biz ora digər istiqamətdən getməyi planlaşdırırdıq. Ermənistanın baş naziri noyabrın 10-da kapitulyasiya aktına imza atmadığı təqdirdə onların 20 min itkisinin ola biləcəyini demişdi. Rəqəmlərdən əmin deyiləm. Ağdamda 20 min əsgər var idisə, onda niyə döyüşmürdülər? İşğal etdikləri əraziləri əldən verdikləri bir vaxt nəyə görə Ağdamda 20 min əsgər saxlayırdılar? Füzulidə, ümumiyyətlə, heç bir bina yoxdur. Qubadlıda hərbi anbar kimi istifadə etdikləri iki-üç bina saxlamışdılar. Zəngilanda bir qəsəbə salmışdılar. İnsanları məskunlaşdırmaq istəyirdilər, lakin onların insan resursları yox idi. Şuşaya nə etdiklərini də sizə deyə bilərəm. Onlar həmişə Şuşanın erməni şəhəri olduğunu deyiblər. Ora nisbətən yeni şəhərdir, 1752-ci ildə Ağdam rayonundan gələn Pənahəli xan tərəfindən salınmışdır. O özünü müdafiə etmək üçün bu ərazini bir qala kimi seçmişdi. Çünki ona müxtəlif yerlərdən hücumlar olurdu. 1805-ci ildə İbrahim xan Rusiya ilə Kürəkçay müqaviləsini imzalayana qədər Pənahəli xan, onun övladları və nəvələri Şuşaya hökmdarlıq etmişlər. O elə bilir ki, həyatını xilas edir, lakin bir ildən sonra İbrahimxəlil və

onun ailəsi öldürülmüşlər. Biz bu tarixi bilməliyik. Kürəkçay müqaviləsinə və onu imzaladıqdan sonra Qarabağ hökmdarına qarşı nə baş verdiyinə baxmağı sizdən xahiş edirəm.

Deyirlər ki, Şuşa erməni şəhəridir, lakin onun vəziyyəti çox pis idi. Oraya birinci dəfə gələndə tamamilə təəccüblənmişdim. Hər şey dağıdılmışdır. Heç bir bina tikilməmişdir. Yalnız Ermənistan və qondarma Qarabağ rejiminin rəhbərləri üçün sovet vaxtında sanatori olan ərazidə iki villa tikilmişdir. Sizə bundan artığını da deyə bilərəm. Hadruta və erməni qəsəbələri olan ərazilərə girəndə, ola bilsin, son 20 il ərzində belə yoxsulluğu heç yerdə görməmişdim. Diasporadan toplanmış pullarla onlar nə etmişlər? Hər il Kaliforniyada, Fransada, Rusiyada on milyonlarla dollar toplanılan marafonlar təşkil olunurdu. Lakin onları görmək olmurdu. Beləliklə, biz Şuşanı bərpa etməliyik və bərpa edəcəyik də. Qarabağ forumu yaxşı fikirdir. Bu təşəbbüsünüz üçün çox sağ olun.

**Daniel Pommier Vinçelli** (*Roma Sapienza Universiteti*): **Təşəkkür edirəm, cənab Prezident. Ərazi bütövlüyünüzü bərpa etməyiniz münasibətilə Sizi təbrik edirəm. Düşünürəm ki, bu, siyasi lider üçün ömründə bir dəfə baş verən nailiyyətdir. Şəxsən Sizi təbrik edirəm. Mən soruşmaq istəyirəm, Sizcə, məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıtmaqlarına icazə veriləcəkmi?**

**Bilirəm ki, bu, vaxt tələb edən uzun prosesdir. Lakin zənnimcə, qayıdış prosesi ilə bağlı ümumi məlumatları verə bilərsiniz. Təşəkkür edirəm.**

**İ l h a m  Ə l i y e v:** Biz onları mümkün qədər tez qaytarmaq istəyirik. Onlar bu qədər gözləyiblər. Lakin ən böyük problem minalardır. Ermənistan bizə minaların xəritəsini verməyib, baxmayaraq ki, biz xəritənin onlarda olduğunu bilirik. Müharibə bitəndən sonra bizim hərbçilərdən başqa, təkcə mülki şəxslər arasında 100-dən çox itkimiz var. 100-dən çox insanın 20-dən çoxu minalardan həlak olub. Bu daha bir müharibə cinayətidir. Çünki müharibə bitib. Niyə siz bizə minaların xəritəsini vermirsiniz ki, biz həmin əraziləri təmizləyə bilək? Ona görə də minaların təmizlənməsi ilə bağlı çox işlər görülməlidir. Minaların təmizlənməsi çox uzun bir prosesdir, bu, vaxt tələb edir. Çünki bizdə kifayət qədər ixtisaslı kadr yoxdur. Hazırda biz treninq təşkil edirik və həmçinin avadanlıq alırıq. İkinci mühüm məsələ – ona artıq start verilib – dəymiş ziyanın hesablanmasıdır. Çünki biz Ermənistanı törətdikləri dağıntılara görə beynəlxalq hüquqi təsisatlarda məhkəməyə verməyi planlaşdırırıq. Bu səbəbdən biz bütün dağıntıları sənədləşdiririk. Hər bir tikili üçün xüsusi pasportlar yaradırıq ki, bu, hüquqi prosedur üçün sənəd olacaq. Əlbəttə ki, infrastruktur layihələri. Çünki biz insanları heç nə olmayan yerə göndərə bilmərik. Orada layiqli yaşayış standartları olmalıdır. Biz artıq layihələrə başlamışıq. Mən onlardan bəzilərinin adını çəkə bilərəm.

Məsələn, Füzulidən Şuşaya, Şuşadan Cəbrayıla, Horadizdən Zəngilana, Bərdədən Ağdama avtomagistralların tikintisinə artıq başlanılıb. Bunların hamısı ilə bağlı proses artıq gedir. Büdcə təsdiqlənib. Elektrik enerjisi istehsalı, xətlər, Şuşaya xətt artıq

çəkilib. Şuşada elektrik stansiyası tezliklə açılacaq. Qeyd etdiyim kimi, maksimum 2 ilə bütün Qarabağ elektrik enerjisi ilə təchiz olunacaq. Su təchizatı, su kəmərləri yoxdur. İnsanlar oraya getsələr nə yeyəcəklər, nə içəcəklər, kənd təsərrüfatı ilə necə məşğul olacaqlar? Biz düzgün planlaşdırmalıyıq. Əlbəttə ki, şəhərsalma, çünki hər şey yerlə yeksan edilib. Ona görə də yeni şəhərsalma layihələri olacaq. Hazırda bununla da bağlı proses gedir. Biz dərhal başlamışıq və bizim təsdiqləyəcəyimiz ilk şəhərsalma layihəsi Ağdam və həmçinin digər şəhərlərdir. Biz Zəngilanda kəndlərdən birində pilot layihəyə başlamışıq – «ağıllı kənd». Düşünürəm ki, bərpa işlərinə, ola bilsin, gələn ay, ola bilsin, iyunda başlanılacaq. Ümidvaram ki, ilin sonunadək bu pilot layihə artıq həyata keçiriləcək. Eyni zamanda, mən müxtəlif ölkələrdən olan tərəfdaşlarımızla təmaslarım zamanı bizə şəhərsalma, kəndlərin tikintisi ilə bağlı ideyalar verə biləcək şirkətləri cəlb etmək üçün bu məsələni qaldırmışam. Biz bu şirkətləri bizimlə işləməyə dəvət etmək istəyirik, çünki bizim tikinti imkanlarımız bu əraziləri bərpa etmək üçün yetərli deyil. Dediyim kimi, biz dörd Lüksemburq bərpa etməliyik. Bu, ciddi işdir. Bu səbəbdən, köçkünlərin hamısının nə vaxt qayıdacağını demək çətindir. Amma onlar mərhələli şəkildə qayıdacaqlar. Böyük ehtimal ki, qayıdış infrastruktura yaxın olan kəndlərdən başlayacaq. Məsələn, Ağdam, Füzuli, Cəbrayılda elektrik və su xətlərini çəkmək daha asandır. Yavaş-yavaş biz davam edəcəyik. Eyni zamanda, biz hazırda Laçında hava limanının inşasını planlaşdırırıq. Çünki Laçına getmək asan deyil. Oranı

inşa etmək üçün yük təyyarələrinə ehtiyac vardır. Həmçinin Kəlbəcərə də yol çəkilir. Mövcud yol indi Rusiya sülhməramlılarının nəzarəti altındadır. Bu yoldan istifadə edirik, ancaq bəzən nə vaxt və necə olacağı bilinmir. İndi biz çoxlu tunellər inşa etməliyik, çünki dağların hündürlüyü 3500 metrə çatır və burada əvvəllər yol olmayıb. Beləliklə, dəqiq nə vaxt olacağını demək mənim üçün çətindir. Ancaq ümidvaram ki, gələn ildən etibarən, mərhələli şəkildə köçkünlərin ilk qrupu yerləşdirilməlidir.

**Xalid Teymur Əkrəm** (*Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru*): Mən protokoldan kənara çıxıb bir söz demək istəyirəm. Biz Sizin «Facebook» səhifəniz vasitəsilə bu konfransı Pakistanda da canlı yayımlayırıq. Çox sayda gənc bu konfransı izləyir. Onlar mənə yazırlar ki, Sizin liderliyiniz təkcə azərbaycanlı gənclər üçün yox, eləcə də pakistanlı gənclər üçün motivasiya mənbəyidir. Onlar məndən xahiş edirlər ki, bütün iştirakçılardan cənab Prezidentin şərəfinə xüsusi alqış istəyim.

**İlham Əliyev:** Çox sağ olun. Gördüyümüz işlərlə bağlı, şəhərlərin əvvəlki görünüşü və dağıntılarla bağlı ilk nüsxə artıq sizə təqdim olunub. Bununla bağlı çoxlu kitablar olacaq. Bu, ilk nüsxədir. Bu, artıq paylanılıb. Bu kitabı ilk əldə edənlər sizsiniz. Bir daha bizimlə olduğunuz və suallarınız üçün təşəkkür edirəm.

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ QEYRİ-RƏSMİ GÖRÜŞ

*13 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə ölkəmizə işgüzar səfərə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında aprelin 13-də qeyri-rəsmi görüş keçirilmişdir.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*14 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə aprelin 14-də təkbətək görüşü olmuşdur.*

*Azərbaycan Prezidenti İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Aleksandr Qriqoryeviç, Sizi yenidən görməyimə şadam. Dünən bizim qeyri-rəsmi formatda ünsiyyət saxlamaq, ikitərəfli gündəliyə aid məsələlərin geniş spektrini, regional problemləri müzakirə etmək imkanımız oldu. Bu gün dialoqumuzu davam etdiririk. Ölkələrimiz arasında münasibətlərin inkişafına görə çox şadam. Sizinlə biz əlaqələrimizə elə dinamizm gətirmişik ki, bütün istiqamətlər üzrə inkişaf olduğunu, razılaşdırdığımız məsələlərin praktiki həllini görürük. Qarşılıqlı səfərlərimiz müntəzəm xarakter daşıyır.

Mən Belarusa səfərlərimi, Sizin Azərbaycana səfərlərinizi yaddaşımda təzələmişəm. Bütün bunlar ölkələrimiz arasında sıx qarşılıqlı siyasi əlaqə, yüksək səviyyədə etimad olduğunu və nəticəyə hədəf-

lənməyimizi göstərir. Odur ki, qarşılıqlı iqtisadi fəaliyyət çərçivəsində yaxşı nəticələr görürük. Keçən il pandemiyaya baxmayaraq, bizim əmtəə dövriyyəmiz artıb, Azərbaycandan Belarusa ixrac da artıb. Ona görə bu gün sənaye kooperasiyası ilə bağlı məsələləri də daha ətraflı müzakirə edəcəyik. Sizinlə birgə qərarımıza əsasən, artıq çoxdandır ki, Gəncədəki sənaye müəssisəsi fəaliyyət göstərir.

Qarabağın bərpası ilə bağlı məsələləri də Sizinlə müzakirə etmək istərdim. Belarus şirkətlərinin öz ölkənizdə aqrosənaye komplekslərinin yaradılması təcrübəsi bizə məlumdur. Buna görə də işğaldan azad edilmiş ərazilərin bərpası baxımından bu mövzu, əlbəttə, xüsusi yer tutur.

Sevindirici haldır ki, biz iştirak etdiyimiz beynəlxalq strukturlarda bundan sonra da bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Yəni bizim münasibətlərimiz hər hansı problemlərdən tamamilə uzaqdır. Bizim müntəzəm əlaqələrimiz sadəcə, görülmüş işlərə yekun vurmağa, növbəti addımları ölçüb-biçməyə və iki dost, iki tərəfdaş kimi irəliləməyə imkan verir. Bir daha xoş gəlmisiniz, Sizi yenidən Bakıda görməyimə şadam.

**Aleksandr Lukaşenko:** Sağ olun, İlham Heydər oğlu. Bütün bu pandemiya və sair ilə bağlı hadisələr fonunda bizim görüşümüz, ola bilsin, müəyyən dərəcədə refren kimi səslənəcək. Lakin həqiqi dostlar vaxtında həyata keçirilməli olacaq tədbirləri ləngitmirlər. Biz də belə edirik və heç bir pandemiya buna mane ola bilməz.

Siz çox düzgün dediniz ki, bizim siyasət, iqtisadiyyat sahələrində konkret istiqamətlər baxımından münasibətlərimiz olduqca çoxşaxəlidir, çox düzgündür və onlara heç nə xələl gətirmir. Biz heç kəsə mane olmuruq və heç kəs də bizə mane ola bilməz. Ona görə ki, əgər sən bir işi görmək istəyirsənsə, buna mane olmaq çətindir.

Həqiqətən, Azərbaycan öz milli arzusuna çatmaq yolunda böyük addım atıb. Lakin bu, yalnız ilk addımdır. Dünən biz bu barədə xeyli danışdıq. Mən çox şadam. Amma qarşıda hələ çox işlər var, işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası üçün çox ağır işlər, dinc işlər görülməlidir. Bilməlisiniz ki, Belarusda sizin etibarlı dostlarınız var. Siz bizim imkanlarımızı bilirsiniz. Bu gün biz onları nazirlər və mütəxəssislərlə bir daha müzakirə edəcəyik. Əgər razılığa gəlsək – bizdə həmişə belə olub – biz razılaşmaları həmişə reallaşdırırıq və bu gün əmtəə dövriyyəsinin yarım milyarda çatması buna sübutdur. Ümumiyyətlə, Siz Prezident vəzifəsinə gələnə qədər belə hallar olmayıb. Ona görə də, bu, dinamika baxımından yaxşı nəticədir.

Siyasi münasibətlərimizə gəldikdə isə bizə nəyinsə çatışmadığını və ya hansısa mənfi amil olduğunu demək çətindir. Bizdə belə amillər yoxdur. Bizim münasibətlərimiz əladır və mən buna görə həmişə fəxr edirəm. Biz hələ Sovet İttifaqı dövründən bütün istiqamətlər üzrə ən səmimi münasibətləri bərpa etmişik. Xüsusən çətin vaxtlarda, elə indi də Belarusa karbohidrogen xammalı tədarükündə göstərdiyiniz dəstəyə görə Sizə minnətdaram. Bu gün səhər düşündüm ki,

bəlkə biz münasibətlərimizi məhz bu həssas sahədə dərinləşdirmək məsələsinə baxmalıyıq, ona görə ki, Belarus iqtisadi, siyasi hadisələrin mərkəzində yerləşir. Lakin bununla belə, həll edilə bilməyən məsələ yoxdur. Sağ olun ki, indicə dediyim kimi, Azərbaycan üçün çox gərgin bir dövrdə bu məsələləri müzakirə etmək üçün vaxt tapmısınız.

* * *

*Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə aprelin 14-də Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında baytarlıq sahəsində anlaşma və əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimov və Belarusun Kənd Təsərrüfatı və Ərzaq naziri İvan Krupko imzaladılar.*

*«Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Belarus Respublikasının «Milli Turizm Agentliyi» Dövlət qurumu arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

*«Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Belarus Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq məsələlərinə dair Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

# BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko aprelin 14-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Aleksandr Qriqoryeviç, Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Sizin səfəriniz ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etməsi üçün çox böyük əhəmiyyətə malikdir. Səfər dünən başlanıb. Dünən biz ətraflı söhbət apardıq, ikitərəfli gündəliyə aid praktiki olaraq, bütün məsələləri, habelə regional problemləri müzakirə etdik. Mən Dağlıq Qarabağ münaqişəsi həll ediləndən sonra yaranmış vəziyyət barədə Aleksandr Qriqoryeviçi məlumatlandırdım. Müzakirə etdiyimiz bütün

məsələlər barədə tam qarşılıqlı anlaşma vardır. Bu gün danışıqlar davam etdi. Biz Xarici İşlər nazirlərinin, habelə nümayəndə heyəti üzvlərinin iştirakı ilə geniş tərkibdə ətraflı söhbət apardıq. Bizim münasibətlərimiz artıq zamanın sınağından çıxıb. Bu münasibətlərin çox yaxşı tarixi vardır. Biz qarşılıqlı əlaqələrimizin bütün dövrlərində həmişə münasibətlərimizin inkişafı ilə bağlı məsələləri həll etmişik. Bizim aramızda heç vaxt həll edilməmiş və ya hansısa operativ müdaxilə tələb edən məsələlər olmayıb. Biz hədəflərimizi çox dəqiq müəyyən etmişik, icraçılara konkret tapşırıqlar vermişik və qarşıya qoyulmuş məsələlərin reallaşdırılmasına nəzarət etmişik. Bundan ötrü müntəzəm görüşlər keçirmişik və keçiririk. Mən dəfələrlə Belarusa, Aleksandr Qriqoryeviç isə Azərbaycana səfər edib. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və yenə də belə olacaq. Pandemiya ilə əlaqədar bir qədər fasilə yaranıb, lakin vəziyyət imkan verən kimi, biz Aleksandr Qriqoryeviçi salamlamağa çox şadıq. Azərbaycana səfər etməsi barədə dəvətimizi qəbul etdiyi üçün ona təşəkkürümü bildirirəm.

Siyasi baxımdan müntəzəm surətdə həm dövlət başçıları, həm də xarici siyasət idarələrinin başçıları səviyyəsində məsləhətləşmələr aparılır. Biz fəal əməkdaşlıq edirik, beynəlxalq strukturlarda bir-birimizi dəstəkləyirik və gələcəkdə də belə edəcəyik. Bu gün hökumətlərarası birgə komissiyaların həmsədrləri və nümayəndə heyətlərinin üzvləri görülmüş işlər barədə məruzə etdilər. Nazirlər və nümayəndə heyətlərinin üzvləri dünən görüşüblər.

Beləliklə, dünənki gün həm də münasibətlərimizin daha da möhkəmləndirilməsi məsələlərinə həsr edildi, əmtəə dövriyyəsinin şaxələndirilməsi və artırılması çərçivəsində gələcək əməkdaşlığın konkret istiqamətləri müəyyən edildi. Ötən il əmtəə dövriyyəsi xeyli artıb, lakin bu, əsas etibarilə Belarusa xam neftin çatdırılması hesabına mümkün olubdur.

Bu ilin birinci rübündə xam neftin çatdırılması daha böyük həcmdə davam edib və düşünürəm ki, keçənilki həcmi əhəmiyyətli dərəcədə üstələyəcəyik. Marşrut artıq testlənib, layihə qarşılıqlı faydalıdır. Təbii ki, biz bu sahədə əməkdaşlığı genişləndirmək, məhz energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini nəzərdən keçirmək niyyətindəyik, yəni Belarusun neftayırma zavodlarına təkcə xam neft çatdırmaqla kifayətlənməyəcəyik.

Biz Qarabağda işğaldan azad olunmuş ərazilərin bərpasında bir sıra istiqamətlər üzrə – həm şəhərsalma, həm infrastrukturun yaradılması, həm kənd təsərrüfatının inkişafı sahələrində Belarus şirkətlərinin gələcək iştirakı ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Biz dünən də, bu gün də Belarusun aqroşəhərciklər yaradılması sahəsində təcrübəsini geniş müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə məlumat verdim ki, Qarabağ «yaşıl enerji» zonası elan edilib və birinci «ağıllı kənd» layihəsi praktiki olaraq, həyata keçirilməyə hazırdır. Əlbəttə, bu sahədə Belarusun təcrübəsi nəzərə alınmaqla bu istiqamətdə işləmək çox maraqlı olardı. Mən daha sonra dedim ki, biz ərazilərin bərpası işlərinə yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Belarus da Azərbay-

can üçün belə ölkədir. Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq işləyir. Ümidvarıq ki, dördüncü ölkə Belarus olacaq. Biz bu sahədə məsləhətləşmələri davam etdirmək üçün Azərbaycan hökuməti üzvlərinin Belarusa səfərləri barədə artıq razılıq əldə etmişik.

Sənaye kooperasiyası bizim münasibətlərin çox böyük seqmentidir. Hökumətlərarası birgə Komissiyanın həmsədrləri layihələrin uğurla həyata keçirilməsi barədə bizə məruzə ediblər. Aleksandr Qriqoryeviç ilə biz bu layihəni Belarus traktorlarının yığılmasından başladıq, sonra başqa istehsalatlara – avtomobillər, yük maşınları, kombaynlar, avtobuslar və bizim «Yaşıl Qarabağ zonası» konsepsiyası çərçivəsində işimizə çox yarayacaq elektrobuslar istehsalını da nəzərdə tuturuq. Alternativ enerji mənbələri yaradılmasında Belarus şirkətlərinin iştirakı ilə bağlı məsələləri də müzakirə etdik. Bir sözlə, görüləsi işlər çoxdur. Mən bu gün də, dünən də qonaqlara dedim ki, erməni işğalından azad edilmiş ərazilərin sahəsi Lüksemburqdan dörd dəfə böyükdür. İşin həcmini təsəvvür edə bilərsiniz. Bu ərazidə hər şey dağıdılıb.

Bizim hazırladığımız ilk nəşrin bir nüsxəsini Aleksandr Qriqoryeviçə təqdim etdim. Həmin nəşrdə bizim azad etdiyimiz şəhərlərin işğaldan əvvəlki fotoşəkilləri və erməni işğalçıları tərəfindən həmin torpaqlarda törədilmiş vandalizmin və barbarlığın fotoşəkilləri vardır.

Hesab edirəm ki, münaqişədən sonrakı inkişafla bağlı vəziyyət bütövlükdə müsbət səciyyələndirilə bilər. Mən münaqişədən sonrakı vəziyyətin inkişa-

fına bizim yanaşmamız və təsəvvürümüz barədə Aleksandr Qriqoryeviçi məlumatlandırdım. Şübhəsiz, Azərbaycanın mövqeyini bildirim ki, biz belə hesab edirik və reallıq da belədir ki, Dağlıq Qarabağ münaqişəsi nizamlanıb. Azərbaycan onu müstəqil surətdə nizamlayıb, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirib. Bu qətnamələr 27 il ərzində kağız üzərində qalıb və təəssüf ki, onların implementasiyası mexanizmi işə salınmayıb. Minsk qrupunun həmsədr ölkələrinin erməni tərəfinə müraciətlə işğala son qoymaq çağırışları da yerinə yetirilməyib. Həmsədrlərin status-kvonun qəbuledilməzliyi barədə bəyanatları erməni tərəfindən eşidilməyib.

Ermənistanın başına gələnlərin təqsirkarı məhz 20 il ərzində ölkəni uçuruma aparan Ermənistan rəhbərliyidir. İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun alçaldıcı məğlubiyyəti və tamamilə darmadağın edilməsi ilə başa çatdı. Bunun əsas təqsirkarları Ermənistanda bundan əvvəl hakimiyyətdə olanlardır. Biz tarixin bu səhifəsini çevirmək istəyirik, biz etimad tədbirlərinin möhkəmləndirilməsinə və bu gün həm Azərbaycan–Ermənistan–Rusiya Baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli İşçi qrupu çərçivəsində, həm də qonşu ölkələr – Türkiyə və İran ilə bizim məsləhətləşmələrimiz çərçivəsində müzakirə edilən nəqliyyat-logistika layihələrinə istiqamətlənmişik. Beləliklə, Zəngəzur dəhlizi reallığa çevrilir. Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik.

Əlbəttə, Belarus bizim dostumuz, sınaqdan çıxmış tərəfdaşımızdır. Təbii ki, biz onun təkcə işğal-

dan azad edilmiş ərazilərin bərpasında fəal iştirakına yox, həm də Ermənistanın tərəfdaşı, Ermənistanla bərabər Avrasiya İqtisadi Birliyinin və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü, eləcə də Azərbaycanın yaxın dostu, dünyada nüfuzlu ölkə kimi fəal iştirakına ümid bəsləyirik. Əlbəttə, mən əminəm ki, o, gələcəkdə Ermənistan ilə Azərbaycan arasında əlaqələrin nizamlanmasında mühüm rol oynaya bilər.

Mən Aleksandr Qriqoryeviçə onu da dedim ki, Minsk şəhəri ilə bağlı bir format artıq keçmişdə qalıb. Minsk qrupu mövcuddur, lakin münaqişə nizamlanıb. Minsk qrupunun nə ilə məşğul olacağı bizə hələ məlum deyil. Biz onlardan kreativ ideyalar gözləyirik. Bizim Xarici İşlər naziri mənə bu gün məruzə etdi ki, Minsk qrupunun fəaliyyəti ilə bağlı mənim dünənki şərhimdən sonra həmin qrup bəyanat verib. Təbii ki, mən o bəyanatla tanış olacağam. Lakin necə deyərlər, ümidvaram ki, Minsk şəhəri ilə bağlı bütün başqa formatlar sülh yolu ilə nizamlanacaq. Biz Ermənistanla münaqişəni, demək olar, 30 il müddətində sülh yolu ilə nizamlamaq istədik. Danışıqlar prosesinə sadiq olmağımız da bizim niyyətlərimizə dəlalət edir. Buna görə də münaqişənin hərbi-siyasi yolla nizamlanmasında təqsirkar, əlbəttə, işğalçı ölkədir. Əgər onlar müharibədən əvvəl və hətta müharibə dövründə də bizim ərazilərimizi tərk etmək barədə mənim çağırışlarıma, israrlı tələblərimə qulaq assaydılar, müharibənin nəticələri Ermənistan üçün bu dərəcədə ağrılı olmazdı. Bütün təqsirlər onlardadır. Biz ədaləti, o cümlədən

tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdik və BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik.

Beləliklə, Aleksandr Qriqoryeviç, Sizi bir daha ürəkdən salamlayıram. Sizin rəhbərliyinizlə qardaş Belarus xalqına yeni uğurlar, yeni zəfərlər diləmək istəyirəm. Siz öz ölkənizi inkişaf, tərəqqi yolu ilə inamla irəli aparır, sabitliyi təmin edirsiniz. Biz də dostlarınız kimi, həmişə Sizin yanınızdayıq və həmişə Sizin yanınızda olacağıq.

Bir daha xoş gəlmisiniz və Sizə xoş əhval-ruhiyyə arzu edirəm. Düşünürəm ki, bu gün komandalarımıza verdiyimiz impulslar bizi daha genişmiqyaslı əməkdaşlığa aparacaq. Sağ olun.

**Belarus Prezidenti Aleksandr Lukaşenkonun bəyanatı**

Hörmətli İlham Heydər oğlu! Belarus xalqının ünvanına, mənim ünvanıma dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Həqiqətən, Prezidentlə biz dünən və bu gün münasibətlərimizi hərtərəfli təftiş etdik, həll etməli olduğumuz məsələləri nəzərdən keçirdik. Həm Azərbaycan tərəfindən, həm də Belarus tərəfindən bizim nazirlər çox yaxşı işləyiblər. Bu gün həmsədrlər görülmüş işlər barədə məruzə etdilər. Bugünkü dialoqumuzdan sonra bu iş hələ davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu səfər müddətində bizim dövlət nümayəndə heyətini əhatə edən ənənəvi dostluq şəraitinə görə səmimi təşəkkürümü

bildirirəm. Bu dialoqun gedişində biz Belarus ilə Azərbaycan arasında münasibətlərin strateji xarakterini bir daha təsdiq etdik və qeyd etdik ki, beynəlxalq gündəlik barədə bizim aramızda praktiki olaraq, heç bir fikir ayrılığı yoxdur. Dünyada vəziyyəti dəyərləndirmələrimiz tamamilə üst-üstə düşür, dünya iqtisadiyyatında böhran, pandemiya və ən başlıcası, perspektiv üçün birmənalı olmayan proqnozlar şəraitində gələcək birgə fəaliyyət barədə aydınlıq var. Biz sabah, birisi gün nələr olacağını bilmirik. Son vaxtlar bizim münasibətlərimizdə əhəmiyyətli irəliləyişlər olub. Mən dostumla görüşlərimizin açıq və səmimi şəraitini çox yüksək qiymətləndirirəm. Bizdə həmişə belə olub. Qeyd edildi ki, biz müntəzəm olaraq bir-birimizin dövlətlərinə səfər edirik. Mən buraya beşinci dəfədir gəlmişəm. İlham Heydər oğlu bu və ya digər məsələlərin həlli üçün beş dəfə Belarusda rəsmi səfərdə olub. Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatların tamamilə dayandırılması barədə razılaşmaları səmimi-qəlbdən alqışlayırıq. Bu mühüm siyasi qərar regionda möhkəm sülhün təməli olmalıdır.

*Belarus Prezidenti Aleksandr Lukaşenko Qələbə münasibətilə dövlət başçımıza artıq təbriklərini çatdırdığını dedi, 30 il davam edən bu dəhşətli faciənin bitməsinin Azərbaycan və Ermənistan xalqları üçün önəmini vurğuladı:*

– Mənim mövqemi bütün dünya bilir, Azərbaycan və erməni xalqları da bilirlər. Mən həmişə həyatı əsas götürmüşəm. İlham Heydər oğlu həmişə şahid olub, hələ onun atası Heydər Əliyev ilə görüşlərdə bu ba-

rədə söhbət düşəndə mən sual edirdim: indi Qarabağda yaşayan insanlar daim zülm altında yaşadıqlarına görə xoşbəxtdirlərmi? Orada onlara yaxşıdırmı? Bir də ki, orada sovet dövründə olanların ondabir hissəsi, bəlkə də daha az hissəsi qalıb. Dözülməz həyatdır. Deməli, bu problemi necəsə həll etmək lazımdır. Mən həmişə açıq danışmışam, bəzən tənqid atəşinə məruz qalmışam, amma bu problemi necə həll etməyin lazım olması barədə öz mövqemi bildirmişəm. İlham Heydər oğlu tam səmimi və açıq şəkildə dedi ki, biz problemi sülh yolu ilə həll etmək istəyirdik. Mən bütün bunların şahidi və tərəfdarı olmuşam. Bu gün isə mən həqiqətən, həm Azərbaycan xalqını, həm də Ermənistan xalqını onların tarixində bu kədərli, ən azı kədərli dövrün başa çatması münasibətilə təbrik etmək istəyirəm. Əhsən Prezidentə! O dedi ki, biz tarixin bu səhifəsini çevirmək istəyirik. Mənim mövqem, mənim arzum budur. Allah eləsin, bu bəla sovuşsun. Ermənistan və Azərbaycan xalqlarının qəlbində kin-küdurət izləri qalmasın. Mən əminəm ki, dostum və qardaşım erməniləri əsla sıxışdırmayacaq, onlarla hesabı çürütmək, qisas almaq fikrinə düşməyəcək. O, savadlı, mədəni insandır. Mən həmişə deyirəm ki, sovet dövründə o bizim Sovet İttifaqının ən yaxşı ali məktəbini – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. O, postsovet məkanındakı prezidentlər arasında ən savadlı, ən mədəni insandır. Mən həmişə bu barədə də açıq danışmışam. Yəni mən həmin suala cavab vermişəm, mən hər iki xalqı təbrik etmişəm. Bu problemin həllində onun çox böyük rolunu qeyd etmək istəyirəm.

Dünən İlham Heydər oğlu ilə söhbətdə dediyimiz kimi, indi onun necə hisslər keçirdiyini düz duymuşam. Düşünmək olardı ki, bəli, qələbə qazanılıb, məsələ həll edilib, vəssalam. Amma ertəsi gün yuxudan oyandım və fikirləşdim ki, bu, yalnız ilk addımdır. Sahəsi Lüksemburqdan 4 dəfə böyük və ya Livanın sahəsinə bərabər, hər halda, Livandan kiçik olmayan bu ərazilərdə hələ nə qədər iş görülməlidir! Bu daha uzunmüddətli və çox çətin epopeya olacaq. Çox istərdim ki, bu, sülh epopeyası olsun.

*Belarusun dövlət başçısı Azərbaycanın qarşısında bundan sonra da görüləcək işlərin çox olduğunu qeyd etdi:*

– Mən bunları ona görə deyirəm ki, dünən İlham Heydər oğluna da demişəm, siz bilməlisiniz, belaruslar Prezident tərəfindən alqışlanan müəyyən mövqe tutublar, biz bundan sonra da özümüzü konstruktiv aparacağıq. Azərbaycan rəhbərliyi də bilməlidir ki, belaruslar etibarlı dostlar və etibarlı insanlardır. Bizim razılığa gəldiyimiz bütün məsələlər reallaşacaq. Mən nazirlərə kişi kimi demişəm ki, hər kəs buradan müəyyən həcmdə işlə getməlidir. Belarus naziri burada özünə iş tapmalıdır. Xüsusən ona görə ki, Prezident belaruslar üçün, onların bu son dərəcədə zəngin ölkədə işləmələri üçün qapıları geniş açıb. Bu gün mən açıq etiraf etməliyəm ki, yaxşı mənada heyrətlənmişəm ki, Azərbaycan təkcə, məsələn, İkinci dünya müharibəsi illərində Sovet İttifaqını xilas etmiş çox böyük qaz və neft ehtiyatları demək deyil. Mən tarixdən yaxşı bilirəm. Faşistlər Bakı neftinə ona görə can atırdılar ki, bizim ordumuzu bu neftdən

ayırsınlar, onda işimiz bitərdi. Lakin sən demə, Azərbaycanın dəmir filizi ehtiyatları, müxtəlif hesablamalara görə həcmi 15 milyard dollara qədər olan böyük qızıl filizi ehtiyatları da varmış. Ona görə bu çox zəngin, perspektivli ölkədir, onun böyük gələcəyi vardır.

Allaha şükür, hər şey bitib. Sadəcə, sağ olun ki, bitirdiniz və əminəm ki, Siz tarixin bu səhifəsini çevirəcəksiniz. Azərbaycan məsələyə belə yanaşmaqla, Azərbaycanda yaşayan ermənilərin boyunlarını əyməyə hazırlaşmır, axı onlar təkcə Qarabağda deyil, başqa yerlərdə də yaşayırlar. Azərbaycanlılardan kimlərinsə erməniləri təhqir etməsi barədə məlumatlar əsassızdır, mən belə nümunələr görməmişəm. Siz bizi haraya çağırsanız hər cür kömək göstərəcəyik. Biz öz variantlarımızı təklif edəcəyik.

*Belarus Prezidenti əlaqələrimizin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rolunu xüsusi qeyd edərək, eyni zamanda, onun işğaldan azad olunmuş ərazilərimizin bərpası və ölkəmizdə pandemiyaya qarşı mübarizədə fəaliyyətini yüksək qiymətləndirdi:*

– Əlbəttə, ticari-iqtisadi sahədə əməkdaşlıq, kooperasiyanın daha yüksək mərhələsinə keçid, müştərək müəssisələr, texnologiyanın verilməsi və burada Azərbaycana lazım olan, lakin ənənəvi sovet dövründə və indi də malik olmadıqları istehsalatlar yaradılması barədə danışdıq. Buyurun, biz burada, xüsusən işğaldan azad olunmuş və bərpa ediləcək ərazilərdə birgə müəssisələr yaratmağa hazırıq.

*Bu baxımdan Belarus Prezidenti ölkəsinin Azərbaycan ilə birgə, çiyin-çiyinə və məsuliyyətlə fəaliyyət göstərməyə hazır olduğunu vurğulayaraq bildirdi:*

– Pandemiya və postpandemiya şəraitində vəziyyətin təhlilinə xeyli vaxt sərf etdik. Biz sabahdan etibarən Belarus əhalisinin kütləvi peyvəndlənməsinə başlayacağıq. Vaksinlər özümüzünküdür, Rusiya Federasiyasının «Sputnik V» texnologiyası əsasında yaradılıb. Biz ölkədə yarım milyon doza vaksin istehsal edəcəyik. Bu qədər vaksini özümüz istifadə edə bilməyəcəyik. Bu vaksini Azərbaycanla bölüşməyə hazırıq. Sənaye, kənd təsərrüfatı, ağac emalı, informasiya texnologiyaları, səhiyyə, turizm sahələrində kooperasiya əlaqələrinin inkişafı üçün böyük potensial vardır. Bizdə daha çox sayda gənclərin təhsil alması üçün nə lazımdırsa edəcəyik. Vaxt gələcək, biz Azərbaycanın təcrübəsini öyrənəcəyik. Yaxşı ali məktəblər çoxdur, lap çoxdur. Yeri gəlmişkən, bildiyimə görə, Sizin oğlunuz da Bakıda orta məktəbi bitirib və indi ali məktəbdə oxuyur.

**İlham Əliyev:** Bakıda ali məktəbi bitirib, orduda xidmət edib.

**Aleksandr Lukaşenko:** Bunu bilirik, bu onun başucalığıdır.

**İlham Əliyev:** Bakıda oxuyub.

**Aleksandr Lukaşenko:** Bəli, Bakıda oxuyub. Yaxşı ali məktəblər var, əgər Prezident öz uşağını Bakıdakı ali məktəbdə oxudursa, deməli, bu, dəyərli ali məktəbdir. Vaxtilə biz də bunu qeyd etmişik. Elmi-texniki sahədə qarşılıqlı əlaqələrimizi dərinləş-

dirmək üçün yaxşı perspektivlər görünür. Hərbi-sənaye kompleksinə gəldikdə isə Belarusun keçmiş Müdafiə naziri, indiki səfir buradadır. O, sərhədlərdən başlamış, ta bizim istehsal etdiyimiz müasir vasitələrə qədər hər şeyi bilir. O, istənilən məsələni həll edə bilər və nazirlər də eşitdilər, səfirin istənilən tələbi hərbi-sənaye kompleksi sahəsində reallaşdırılacaq, bizim bacardığımız və Azərbaycandakı dostlarımıza lazım olan bütün istiqamətlər üzrə.

İlham Heydər oğlu, pandemiyaya baxmayaraq, bu gün görüşməyimizə görə Sizə təşəkkür edirəm. Biz razılaşdıq ki, danışıqlarımızı davam etdirəcəyik və bizim hökumətin üzvləri televizor vasitəsilə deyil, bir-birinin yanına gəlməklə səfər mübadiləsi aparacaqlar. Sizi Belarusa dəvət etmək istəyirəm, indi növbə Sizindir. Sizi gözləyəcəyik. Xüsusən ona görə ki, dünən biz Sizin Belarusa səfərinizin əsas bəndlərini, Belarus ərazisində gedəcəyiniz ayrı-ayrı yerləri və müəssisələri nəzərdə tutduq.

İlham Heydər oğlu, bir daha vurğulamaq istəyirəm, Siz bunu bilirsiniz, istəyirəm ki, ölkə rəhbərləri, Azərbaycanın digər rəhbərləri və xalq bilsin ki, biz həmişə Sizin və ölkənizin etibarlı dostları olmuşuq və dostlar kimi qalacağıq. Sağ olun.

## CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR GELLEHƏ

Hörmətli cənab Prezident!

Cibuti Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Cibutini ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Sizin Bakıda keçirilmiş «Qoşulmama Hərəkatı»nın XVIII Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana səfərinizi, Sizinlə görüşümüzü xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, Azərbaycan–Cibuti əlaqələrinin daha da genişləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təsisatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Cibuti xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2021-ci il*

## PİRŞAĞIDA START VERİLMİŞ YENİDƏN QURULMA VƏ TƏMİR-BƏRPA İŞLƏRİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*16 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 16-da Bakının Pirşağı qəsəbəsində yenidən qurulma və təmir-bərpa işlərinin təməlqoyma mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyevin göstərişinə əsasən, 2019-cu ildən Bakı şəhəri və Abşeron rayonunun qəsəbələrində xüsusi abadlaşdırılma işlərinə başlanılıb. Balaxanı qəsəbəsinin timsalında uğurlu təcrübənin şahidi olmuşuq. Bibiheybət, Novxanı, Əmircan, Ramana qəsəbələrində də bu proses davam edir.*

*Artıq Pirşağı da mahiyyətcə qədim, formaca yeni simasını qazanacaq. Həyata keçirilən tədbirlərin əsas məqsədi buradakı insanların daha yaxşı şəraitdə yaşaması, özlərini daha rahat hiss etmələridir. Pirşağı tarixən iqlim terapiyası üçün əlverişli zona hesab olunub. Yekunda ekoloji vəziyyətin də yaxşılaşdırılması hədəf kimi qarşıya qoyulubdur.*

*Qəsəbədə abadlıq işləri həm mövcud binalar üzərində, həm də açıq məkanlarda aparılacaq. Mərkəzi hissədə məscidin qarşısında Şərq bağçılıq ənənələrinə uyğun parkın salınması nəzərdə tutulur. Ənənəvi*

*«Çar-bağ» (Cahar-bağ) prinsipi ilə salınacaq parkın mərkəzində su hövzəsi yerləşdirilib və ondan dörd istiqamətdə yollar ayrılır.*

*Pirşağıda abadlaşdırılma işləri məşğulluğun təminatına da müsbət təsir göstərir. Prosesdə iştirak edənlərin böyük əksəriyyəti məhz yerli sakinlərdən ibarətdir. Yeni siması ilə postpandemiya dövründə cəlbedici turizm məkanlarından birinə çevrilməyə hədəflənən Pirşağıda tələbata uyğun məhsulların istehsalı da istisna edilmir.*

**İlham Əliyev**: Burada həmişə yaxşı şanı üzümü var idi – ağ şanı, qara şanı.

**Bünyad Qasımov** (*«Bakı Abadlıq Xidməti» MMC-nin müdiri*): 50 min ting əkmişik, davam etdiririk.

**İlham Əliyev:** Həmin sortdan?

**Bünyad Qasımov:** Hazırda 4 sort əkilib, ağ şanı da var, qara şanı da.

**İlham Əliyev:** Çox şirin idi, bal kimi. Abadlaşdırılma zamanı tarixi abidələrin bərpası və aşkarlanması əsas məqsədlərdəndir. Pirşağıda bu mənada bərpa-konservasiya olunacaq abidələrdən biri Hacı Şahverdi hamamıdır. Bu hamam XIX əsrdə Pirşağı qəsəbəsinin sakini Hacı Şahverdi tərəfindən inşa olunub. Yerli əhali arasında o, «Qum hamamı» kimi tanınır.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Hacı Şahverdi hamamı ilə tanış oldular.*

*Dövlət başçısı və xanımı qəsəbədə ağac əkdilər.*

*Prezident İlham Əliyev Pirşağı qəsəbəsində yenidən qurulma və təmir-bərpa işlərinin təməlini qoydu.*

*Bu il Mərdəkan, Buzovna və Maştağa qəsəbələrinin də bu prosesə qoşulacağı gözlənilir.*

*Sonra dövlət başçısı və xanımı qəsəbə ilə tanış oldular.*

*Bakı şəhəri və Abşeron rayonunun qəsəbələrində həyata keçirilən bu layihələr həm tarixilik, həm də mövcud reallıqlar baxımından xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə, yerli memarlıq məktəbinin üslubları və özünəməxsus rəng çalarları yenidən canlandırılır və gələcək nəsillərə ötürülür. Postmüharibə və mövcud pandemiya reallığından baxdıqda isə iqtisadi gücümüzün böyük dərəcədə artdığı, hətta qlobal çağırışlara rəğmən, heç bir sosial layihənin ixtisar olunmadığı aydın görünür.*

*Pirşağı qəsəbəsində yenidən qurulma işlərinin layihəsindən danışan Bünyad Qasımov bildirdi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birgə müsabiqə elan edilib. Bu qəsəbədə yenidən qurulma tədbirlərinin konseptual layihəsini hazırlamaq üçün 20-dən artıq iş toplanılıb. Sözsüz ki, qəsəbənin öz xüsusiyyətləri, buranın ab-havası, Abşeronun mədəniyyəti və digər amillər nəzərə alınacaqdır.*

## SURAXANIDA «AZƏRENERJİ» ASC-nin YENİDƏN QURULMUŞ «HÖVSAN» YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİ

*19 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Bakının Suraxanı rayonunda «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulmuş 220/110/10 kilovoltluq «Hövsan» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısına yenidən qurulmuş «Hövsan» yarımstansiyası barədə məlumat verildi.*

*Bildirildi ki, 45 il əvvəl tikilmiş «Hövsan» yarımstansiyası müasir səviyyədə yenidən qurulub, buradakı avadanlıqlar yeniləri ilə əvəz olunub. Yarımstansiya «Şimal» Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin ötürülmə keyfiyyətinin artırılmasında, «Abşeron», «Böyükşor», «Suraxanı», «Ramana», «Əhmədli», «Qala», «Zığ» yarımstansiyaları ilə əlaqələnməklə, Bakı və Abşeron yarımadasının, xüsusən də Suraxanı, Günəşli, Əhmədli ərazilərinin elektrik enerji təchizatında mühüm rol oynayır.*

*Energetika sektorunun müasir tələblər səviyyəsində inkişafı, vətəndaşların enerji resurslarına əlçatanlığının və məmnunluğunun təmin olunması Prezident İlham Əliyevin sosial-iqtisadi siyasət kursunun*

*prioritet hədəfləri sırasındadır. Postkonflikt dövründə isə işğaldan azad edilmiş ərazilərdə gedən bərpa-quruculuq işləri dövlət başçısının xüsusi diqqətindədir.*

**İlham Əliyev:** Qarabağda işlər necə gedir?

**Baba Rzayev** (*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti*): Çox gözəl gedir, Şuşa hazırdır. Açılışa da hazırdır. Mən məruzə etmişdim ki, 2 nömrəli xətt hazırdır.

**İlham Əliyev:** Bilirəm, xətti çəkmisiniz.

**Baba Rzayev:** Şükürbəyli də, Şuşa da hazırdır. Füzuli yarımstansiyasının xətti hazırdır, ay yarıma da özü hazır olacaq.

**İlham Əliyev:** Bəs ermənilərin dağıtdıqları su-elektrik stansiyalarının vəziyyəti necədir? İşlər gedir orada?

**Baba Rzayev:** Cənab Prezident, «Suqovuşan-1»i və «Suqovuşan-2»ni bir həftəyə Sizin ali diqqətinizə təqdim edəcəyəm, işə salmışıq, test gedir.

**İlham Əliyev:** Bəs Kəlbəcər rayonunda?

**Baba Rzayev:** Orada araşdırmalar gedib, ancaq hələ müəyyənləşdirməmişik. Yol məsələsi, oraya avadanlıqların daşınması bir az çətinlik törədir. Lakin yarımstansiyanın tikintisi gedir.

**İlham Əliyev:** İndi hava şəraiti yaxşılaşıb. Yəqin ki, may ayından oraya getmək daha asan olacaq.

**Baba Rzayev:** Biz oraya Daşkəsəndən, Murovdan təxminən 200 dirəkli xətt çəkəcəyik, onun artıq 100-ü qoyulub. Ən ağır yeri keçmişik.

**İ l h a m Ə l i y e v:** Bəs orada, azad edilmiş torpaqlarda xidmət edən hərbçilərin elektrik təchizatı normaldır?

**B a b a R z a y e v:** Hər yerə verilib.

**İ l h a m Ə l i y e v:** Şuşada da gecə-gündüz heç bir problem yoxdur?

**B a b a R z a y e v:** Xeyr, yoxdur, gecə-gündüz.

*Son 3 ilə qədər Bakı və Abşeron yarımadasında sistem əhəmiyyətli 220 kilovoltluq 5 yarımstansiya fəaliyyət göstərirdi ki, onların da 4-ü istismar müddətini başa vurmuşdu. Son iki ildə isə yeni «Böyükşor» yarımstansiya tikilib və beləliklə, 220 kilovoltluq yarımstansiyaların sayı 6-ya çatdırılıb. Eyni zamanda, istismar müddətini bitirmiş sistem əhəmiyyətli 220 kilovoltluq 4 yarımstansiyanın 3-ü – «Müşfiq», «Xırdalan» və «Hövsan» yarımstansiyaları yenidən qurulub, «Nizami» yarımstansiyasında isə işlər yaxın vaxtlarda başa çatdırılacaq.*

*Prezident İlham Əliyev «Hövsan» yarımstansiyasını işə saldı. Dövlət başçısına yenidən qurulmuş 110/35/6 kilovoltluq «Maştağa» yarımstansiyası barədə də məlumat verildi. Bildirildi ki, 1949-cu ildə tikilmiş yarımstansiyanın istismar müddəti bitdiyi üçün potensial qəza mənbəyinə çevrilmişdi. Qısa zamanda görülmüş işlər sayəsində yarımstansiyanın əvvəlki gücü geri qaytarılıb, tam yenidən qurularaq, etibarlılığı və dayanıqlılığı artırılıb, istehlakçıların fasiləsiz və keyfiyyətli enerji təchizatına zəmin yaradılıbdır. Yenidən qurulmuş «Maştağa» yarımstansiyası Maştağa, Buzovna, Bilgəh, Nardaran qəsəbələrini, Savalan, Albalılıq yaşayış massivlərini, dənizkə-*

*narı sanatori, xəstəxana, hotellər və digər obyektlər də daxil olmaqla, Sabunçu və Xəzər rayonlarının 150 min nəfərə çatan əhalisinin elektrik enerjisi ilə etibarlı təminatına imkan verəcəkdir.*

*Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə «Maştağa» yarımstansiyasını işə saldı.*

## HACIQABUL RAYONUNA SƏFƏR

*20 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabul rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin Hacıqabul şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov rayonda görülmüş işlər barədə dövlət başçısına məlumat verdi.*

### Hacıqabul Sənaye Məhəlləsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabul Sənaye Məhəlləsinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı əvvəlcə sənaye məhəlləsində yerləşən «Azərmaş» zavodu ilə tanış oldu.*

*Məlumat verildi ki, bu müəssisə 1500 ədəd yük və xüsusi təyinatlı avtomobil istehsal etmək imkanına malikdir.*

**İlham Əliyev:** Bunların qiyməti neçəyədir?

**Emin Axundov** (*Maşın və Avadanlıq İstehsalçıları Assosiasiyasının İdarə Heyətinin sədri*): Cənab

Prezident, 17 min manatdan başlayır, 130 min manatadək.

**İlham Əliyev**: Birinci mərhələdə nə vaxt maşınların istehsalı nəzərdə tutulur?

**Emin Axundov**: Yaxın zamanlarda – bir ay, ay yarım ərzində.

**İlham Əliyev**: Yəni dərhal?

**Emin Axundov**: Bəli.

*Bu zavod gələcəkdə daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac potensialını artırmağı da hədəfləyir.*

*Dövlət başçısı müəssisəni işə saldı.*

*Müəssisə Hacıqabul rayonunda 100 nəfərdən çox insanın məşğulluğunu təmin edəcək. Bu zavodda Özbəkistan və Rusiya ilə birgə layihələr icra olunacaq. Beləliklə, bu müəssisənin istifadəyə verilməsi rayonun iqtisadi inkişafı üçün böyük təkan olmaqla yanaşı, ölkəmizdə avtomobil sənayesinin formalaşmasında mühüm rol oynayacaq.*

*Hacıqabul Sənaye Məhəlləsində yaradılmış müəssisələrdən biri də «Elberg» tikinti materialları üçün avadanlıqların istehsalı zavodudur. Bu müəssisə Azərbaycanda ilk təcrübədir.*

*Zavodla tanış olan dövlət başçısı müəssisəni işə saldı.*

*Məlumat verildi ki, burada tikinti materialları – gips, əhəng, kərpic, alçipan və digər inşaat materialları istehsal edən zavodların layihələndirilməsi və quraşdırılması həyata keçiriləcək.*

**İlham Əliyev:** Qarabağ zonasında da sənaye parkları olacaq. İndi İqtisadiyyat Nazirliyi bu məsələnin üzərində işləyir. Qarabağ zonasında mütləq

belə müəssisələr yaradılmalıdır ki, həm insanları işlə təmin edək, həm də ki, bu zonanın potensialından maksimum dərəcədə istifadə edək.

*Müəssisə il ərzində iki zavodu «açar-təhvil» prinsipi ilə qurmaq imkanına malikdir. Fəaliyyətə başlaması ilə ölkədə istehsal avadanlıqları və qurğularına olan tələbatı qismən ödəməklə yanaşı, yeni ixrac imkanları da yaranacaq.*

**Elxan Bəşirov** (*sahibkar*): İlk növbədə, Hacıqabulda iş yerləri açmaq üçün burada istehsalat sahəsi yaratmaq istədik. Bizim işimiz tikinti materialları istehsal etməkdir. Burada xammal olmadığı üçün tikinti materialları istehsal edən zavodlar hazırlamağı qərara aldıq. Bu layihə Azərbaycanda ilk dəfədir ki, reallaşdırılır. Biz «açar-təhvil» prinsipi ilə işləyəcəyik. Belə təcrübə dünyada da vardır.

*Sonra Prezident İlham Əliyev «Uyusal Ambalaj» plastik su qabları istehsalı müəssisəsinin açılışını etdi.*

*Müəssisədə il ərzində müxtəlif ölçülü 350 min ədəd su qabı istehsal olunacaq. Azərbaycanda 15 ildir fəaliyyət göstərən şirkət artıq məhsullarını Hacıqabul Sənaye Məhəlləsində istehsal edəcək.*

*Məhsulun keyfiyyəti və qiyməti məsələsinə gəldikdə isə Cəngiz Aygör bildirdi ki, qablar Azərbaycanda su istehsal edən müəssisələrə satılacaq. Artıq xarici bazardan məhsul almağa ehtiyac olmayacaq. Yerli istehsal qiymətlərə də təsir edəcək. Keyfiyyət və qiymət sahəsində də üstünlüklər vardır.*

*Hacıqabul Sənaye Məhəlləsinin digər rezidenti «Plasstech» zavodudur. Müəssisə ildə 600–900 ton yüngül tara istehsal etmək gücündədir.*

**İ l h a m Ə l i y e v:** Tələbat nə qədərdir?

**S a h i b k a r:** Bizdə tələbat təxminən 500 tondur. Ölkədə tələbat böyükdür.

**İ l h a m Ə l i y e v:** Bizdə tara istehsal edən bir şirkət var. Mən onların müəssisələrində də olmuşam.

*Dövlət başçısı müəssisəni işə saldı. Bu taralardan kənd təsərrüfatı məhsullarının daşınması və qablaşdırılması zamanı istifadə olunur.*

*Sənaye məhəlləsində istifadəyə verilən müəssisələrdən biri isə gübrə istehsalı ilə məşğul olan «Az-Agromila» müəssisəsidir.*

*Müəssisədə ildə 600 min ton gübrə istehsal olunacaq.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Sənaye məhəlləsini seçərkən sahibkarların ən çox diqqət yetirdiyi məsələ məkanın coğrafi və infrastruktur baxımından əlverişli olmasıdır.*

*Sahibkar Ramazan Karaşahir qeyd etdi ki, müəssisəni yaradarkən Hacıqabul Sənaye Məhəlləsinin Ələt Ticarət Limanına yaxın məsafədə yerləşməsi amili nəzərə alınıb. Müəssisədə orqanik tərkibli gübrələr istehsal olunur.*

*Hacıqabul Sənaye Məhəlləsində ümumilikdə müxtəlif istehsal sahələri üzrə 10 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına 44–45 milyon manat investisiya cəlb olunub. Sənaye məhəlləsində mövcud layihələr üzrə 364 iş yerinin yaradılması nəzərdə tutulub.*

*İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirdi ki, ölkəmizdə sənayeləşmə artıq iri şəhərlərlə yanaşı, regionları da əhatə edir. Fəaliyyətdə olan sənaye mə-*

*həllələrinə indiyədək 73 milyon manatdan çox sərmayə yatırılıb, 286 iş yeri açılıbdır. Rezidentlər 96 milyon manatdan çox məhsul satışını həyata keçiriblər.*

## Hacıqabul–Muğan avtomobil yolunun yenidən qurulmadan sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabul–Muğan avtomobil yolunun yenidən qurulmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına uzunluğu 11,5 kilometr olan yolun texniki göstəriciləri barədə məlumat verildi.*

*Bildirildi ki, yolun yenidən qurulması 32 min nəfərin yaşadığı 2 yaşayış məntəqəsi arasında əlaqəni gücləndirəcək. Eyni zamanda, əhalinin həm Bakı–Ələt–Qazax–Gürcüstan ilə dövlət sərhədi yoluna, həm də Hacıqabul–Şirvan yolu vasitəsilə digər şəhər və rayonlara rahat çıxışını təmin edəcək.*

*Ölkəmizdə yollar yeniləndikcə, kənd təsərrüfatı, turizm və digər sahələrdə də inkişaf baş verir, bölgələrdə iqtisadi canlanma müşahidə olunur.*

## Meyniman kəndi ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabul rayonunun Meyniman kəndi ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanış olmuşdur.*

*Dövlət başçısı əkin sahəsində pambıq səpininə start verilməsi prosesini izlədi.*

**İlham Əliyev:** 6 il bundan əvvəl mən bu məsələ ilə maraqlananda pambıqçılıq, demək olar ki, batırdı, cəmi 30–35 min ton yığılmışdı. Keçən il isə 336 min ton, 10 dəfə çox.

*2015-ci ildən dövlət başçısının kənd təsərrüfatının bir çox sahələrinə xüsusi yanaşmasının şahidi olduq. Nəticədə məhsuldarlıq dəfələrlə artdı, xüsusi stimullaşdırıcı tədbirlər görüldü. Faktların müqayisəli təhlili onu deməyə əsas verir ki, Azərbaycan üçün ənənəvi sayılan pambıqçılıq dirçəlib. Ölkədə hər hektardan məhsuldarlığın 30 sentnerdən yuxarı olduğu cəmi 3 il qeydə alınıb. Konseptual yanaşmanın tətbiq olunduğu 2015-ci ildə bu rəqəm 2 dəfə aşağı idi. Görülmüş kompleks tədbirlər artıq tarixi maksimuma yenidən çatmağı şərtləndirib. Ötən il hər hektardan məhsuldarlıq 33,6 sentner təşkil edibdir.*

*Sonra fermer Elşən Xəlilovun pambıq tarlasında səpinə start verildi.*

*Bu il Hacıqabulda 300 hektar sahədə pambıq əkini aparılacaq. Artıq əkinlə bağlı tədarükçü şirkət 34 fermerlə müvafiq müqavilələr imzalayıb, onlar lazımi texnika və toxumla təmin ediliblər.*

**İlham Əliyev**: Deməli, indi 2600 manat alacaqsan.

**Elşən Xəlilov**: Bəli, orada hər kiloqrama da 10 manat.

**İlham Əliyev:** Alış qiyməti də artıb?

**Elşən Xəlilov:** Bəli.

**İ l h a m Ə l i y e v:** Ona görə dövlət hər şeyi edib. Belə müasir texnika, bu traktorlar hamısı bizdə istehsal olunur?

**E l ş ə n X ə l i l o v:** Bəli, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Kombaynlar da ən qabaqcıl texnologiyalar əsasında hazırlanıb.

*Azərbaycan pambıqçılığın inkişafı üçün mövcud dəstək mexanizmləri sırasına aqrotexniki dəstək, yəni fermerlərin toxum, gübrə, pestisid, herbisid, dərmansəpən maşınlar, kultivasiya işini həyata keçirən texnika ilə təminatı, dövlət xətti ilə ölkəyə kifayət qədər ən müasir pambıqyığan kombaynların gətirilməsi, satışa yardım – tədarükçü şirkətlərin müqavilə əsasında məhsulun hər tonunu sortdan asılı olaraq 550–650 manata satın alması, subsidiyaların ayrılması daxildir. Dövlət fermerlərə pambıq sahəsinin hər hektarına görə 260 manat, təhvil verilən pambığın hər tonuna görə 100 manat subsidiya ödəyir. Subsidiyalar pambıqçıların «Fermer kartı»na köçürülür.*

## «Agro Dairy» MMC aqroparkının təqdimatı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabul rayonunda «Agro Dairy» Məhdud Məsuliyyətli Cəmiyyətin aqroparkının təqdimatı mərasimində iştirak etmişdir.*

*Kənd təsərrüfatının ən müasir texnologiyalar və elmi əsaslar üzərində inkişafı dövlət başçısının aqrar siyasətinin mərkəzində duran məsələlərdən biridir.*

*Aqroparkların yaradılması və fəaliyyəti məhz bu prinsiplərlə həyata keçirilir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «Agro Dairy» MMC regionlarda kənd təsərrüfatı infrastrukturunun yaxşılaşdırılması, müasir texnika və innovasiyaların tətbiqi ilə yüksək məhsuldarlığa malik keyfiyyətli məhsul əldə etmək məqsədilə layihələr həyata keçirir. Onlardan Samux rayonunun Qaraağaclı kəndi ərazisində ümumi sahəsi 2698 hektar, Tovuz rayonunun Ceyrançöl ərazisində 7000 hektar və Padarçöl (Hacıqabul, Şamaxı) ərazisində 5000 hektar olan sahələrdə intensiv bitkiçilik təsərrüfatı yaradılıb, yeni ərazilər əkin dövriyyəsinə cəlb edilibdir.*

**«Agro Dairy»nin n ü m a y ə n d ə s i:** Sizin tapşırığınıza əsasən, keçən ildən biz təcrübəmizi digərləri ilə bölüşürük.

**İ l h a m Ə l i y e v:** Bəli, mən demişdim ki, bu təcrübəni başqa təsərrüfatlara da ötürün. Edirsiniz onu?

**«Agro Dairy»nin n ü m a y ə n d ə s i:** Bəli, cənab Prezident, edirik. Keçən ilin oktyabrında biz Hacıqabulda təlim mərkəzi tikdik və payız əkinindən əvvəl fermerləri dəvət etdik, özümüz onları gətirdik və onlara təlim keçdik. Hazırda yazlıq əkinlərin başlanması ilə əlaqədar biz təlimləri yenidən təşkil etmişik.

*«Agro Dairy» MMC-nin Aqronomlar Şurasının rəhbəri Kristof Hartiq işğaldan azad edilmiş Ağdam və Füzulidə olduqlarını bildirdi. O bu rayonların torpağının münbit olduğunu qeyd edərək, diqqətə çatdırdı ki, ermənilər torpağı pis vəziyyətə salıblar*

*və orada torpağın vəziyyətini yaxşılaşdırmaq üçün müəyyən işlər görülməlidir.*

*Aqroparkda növbəli əkin sistemi, intensiv aqrotexnologiyalar tətbiq edilir, təkrar əkin həyata keçirilir. Nəticədə ildə iki dəfə yüksəkkeyfiyyətli məhsul almaq mümkün olur. İqtisadiyyat Nazirliyi tərəfindən «Agro Dairy» MMC-yə taxıl və yem bitkilərinin istehsalı layihəsi üzrə investisiya təşviqi sənədi verilib. Bu sənədlə MMC 23,4 milyon manat məbləğində ƏDV-dən və gömrük rüsumlarından azad edilib.*

*Müəssisə, həmçinin toxumçuluqla məşğul olur və bu sahədə fəaliyyətini «seleksiyaçı–toxumçu–əmtəəlik məhsul istehsalçısı» prinsipinə əsaslanaraq həyata keçirir. Toxum emalında yeniliklərə gəldikdə isə, «Plug & Play» texnologiyasının ölkəmizdə tətbiqinə başlanılıb. Layihələrin uğurlu icrası ilə toxum idxalından asılılığın azalacağı gözlənilir.*

## 110/35/10 kilovoltluq «Qarasu» yarımstansiyasının istismara verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabulda 110/35/10 kilovoltluq «Qarasu» yarımstansiyasının istismara verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına yarımstansiyada yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, yarımstansiyanın istismara verilməsi ilə ümumilikdə 10 mindən çox əhalinin elektrik enerjisi təchizatı daha da yaxşılaşdırılıb. Yarımstansiya-*

*da quraşdırılmış müasir tipli eleqaz və vakuum açarları, mikroprosessor tipli rele mühafizə sistemi, Komplekt Transformator Məntəqələri və nəzarət-avtomatika qurğularının elementləri birləşdirilərək, vahid «Ağıllı Şəbəkələrin İdarəetmə Mərkəzi»nə qoşulub.*

*Diqqətə çatdırıldı ki, idarəetmə mərkəzi sayəsində «Qarasu» yarımstansiyasından başlayaraq, sayğaclara qədər elektrik şəbəkəsi onlayn rejimdə izlənilir, balansa nəzarət olunur, yarana biləcək problemlərin aradan qaldırılması üçün operativ məlumatların toplanılması, emal edilməsi, informasiya sistemlərinin monitorinqi və təhlili sayəsində qabaqlayıcı tədbirlər görülür.*

*Prezident İlham Əliyev «Qarasu» yarımstansiyasını işə saldı.*

*Regionların inkişafı proqramlarının vacib tərkib hissələrindən biri əhalinin və bölgələrdə yaradılan sənaye müəssisələrinin keyfiyyətli, fasiləsiz elektrik enerjisi ilə təminatıdır. «Qarasu» yarımstansiyası vasitəsilə Hacıqabul rayonu ərazisində yerləşən sənaye obyektlərinin, ən əsası, 250 min hektar əkin sahəsinin suvarma sistemlərinin enerji təchizatı həyata keçirilir.*

## «Azərsun Şamaxı Aqropark»ın açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabulda «Azərsun Şamaxı Aqropark»ın açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına aqroparkla bağlı məlumat verildi.*

*Bildirildi ki, müəssisə 2 hissədən – əkin sahələri və heyvandarlıq kompleksindən ibarətdir. Heyvandarlıq kompleksində 2000 baş südçülük istiqamətli olmaqla, 5000 baş iribuynuzlu heyvan saxlanılır. Gündəlik süd istehsalı 50 tondur. Müəssisə gələn ildən etibarən 1000 baş damazlıq düyə yetişdirməyi hədəfləyir. Kompleksdə Azərbaycanda ilk dəfə embrion köçürülməsi həyata keçirilib.*

*Aqroparka məxsus 4200 hektar əkin sahəsində buğda, arpa, şəkər çuğunduru, qarğıdalı, yonca və müxtəlif növ tərəvəzlər əkilir. Aqropark yaradılarkən müasir suvarma sisteminin quraşdırılması nəzərə alınıb. Suvarma üçün ümumi tutumu 2,6 milyon kubmetr olan iki süni göl yaradılıb. Ərazidə ən müasir texnologiyaların tətbiqi ilə suvarma sistemi qurulub. Ümumilikdə 77 milyon manat sərmayənin yatırıldığı aqroparkda 200 nəfər daimi işlə təmin olunub. Bundan əlavə, mövsümdə işçilərin sayı 500 nəfərə çatır.*

*Prezident İlham Əliyev aqroparkın heyvandarlıq kompleksi və süni göl ilə tanış oldu.*

## AZƏRBAYCAN TELEVİZİYASINA MÜSAHİBƏ

*Hacıqabul*

*20 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Azərbaycan Televiziyasına müsahibə vermişdir.*

**Müxbir:** Xoş gördük Sizi, Cənab Prezident. Bu gün Hacıqabul rayonuna səfər etdiniz, bir sıra sosial obyektlərin açılışında iştirak etdiniz. Səfər təəssüratlarınız haqqında istərdik məlumat verəsiniz.

**İlham Əliyev:** Təəssüratlar çox müsbətdir. Hacıqabul rayonunda həyata keçirdiyimiz işlərin nəticələrini görürük. Vaxtilə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir. Bu proqram çərçivəsində, o cümlədən Hacıqabul rayonunda böyük işlər görülübdür. Bütün ölkə üzrə böyük işlər görülübdür. Hacıqabulda bu işlər artıq son mərhələdədir. İnfrastruktur layihələrinə gəldikdə deyə bilərəm ki, Hacıqabulda qazlaşdırılmanın səviyyəsi 100 faizə çatıbdır. Rayon tam qazlaşdırılıb. Elektrik enerjisi ilə təchizat xeyli yaxşılaşıb və bu gün artıq yeni yarımstansiyanın açılışı da bunu göstərir. Çünki tələbat artıb. İçməli su layihəsi hələ 2013-cü ildə icra edilibdir və Hacıqabul

şəhəri içməli su ilə təmin olunub. Kənd yollarının çəkilişinə gəldikdə isə, bu yolların 75 faizi yenidən çəkilib. Eyni zamanda, rayonda bir çox sosial layihələr icra edilib. Xəstəxana, mədəniyyət obyektləri, 22 məktəb tikilib və ya əsaslı şəkildə təmir edilib. Yəni bütün bunlar insanlar üçün gözəl şərait yaradır. İnsanların yaşayış səviyyəsi yaxşılaşıb. Biznes üçün şərait yaxşılaşıb.

Bütövlükdə bu gün açılışında iştirak etdiyim obyektlər rayonun gələcək iqtisadi potensialını xeyli dərəcədə gücləndirəcəkdir.

**S u a l: Cənab Prezident, bu gün Siz iki aqroparkın fəaliyyəti ilə tanış oldunuz. Bu aqroparkların fəaliyyətini necə qiymətləndirirsiniz? Qeyri-neft sektorunun inkişafında bunun rolunu necə dəyərləndirirsiniz?**

**C a v a b:** Bu, əlbəttə, Azərbaycanda kənd təsərrüfatı sahəsində aparılan islahatların tərkib hissəsidir. Böyük aqroparkların yaradılmasının əsas məqsədi ərzaq təhlükəsizliyini təmin etməkdir. Təbii ki, eyni zamanda, kiçik fermer təsərrüfatlarının inkişafı ilə bağlı praktiki işlər görülür. Bu iki istiqamət üzrə kənd təsərrüfatı inkişaf edir.

Aqroparkların üstünlüyü ondan ibarətdir ki, burada daha bol məhsul yetişdirilir və məhsuldarlıq da daha yüksəkdir. Bu təbiidir, çünki burada ən müasir aqrotexniki tədbirlər tətbiq olunur.

Hacıqabul əhali baxımından o qədər də böyük rayon deyil, 77 min əhalisi var. Ancaq burada iki böyük aqropark fəaliyyət göstərir və yüzlərlə yerli sakin bu aqroparklarda işlə təmin edilibdir. Misal üçün, torpağın münbitliyi baxımından Hacıqabul

ölkəmizin ən qabaqcıl rayonlarından deyil. Torpağın keyfiyyəti digər rayonlarla müqayisədə daha aşağıdır. Buna baxmayaraq, məhz Hacıqabulda bu aqroparkların yaradılması bizim siyasətimizin uğurlu olmasından xəbər verir. Çünki ən ağır yerlərdən biri də Hacıqabuldur. Mənə bu gün hər iki aqroparkda verilən məlumata görə, suvarılan sahələrdə minlərlə hektar pivot altındadır. Burada taxılçılıqdan məhsuldarlıq hektardan 60 sentnerdir, yəni 6 ton. Müqayisə üçün deyə bilərəm ki, Hacıqabul rayonunda məhsuldarlıq hektardan 30 sentnerdir. Ölkə üzrə təqribən 30 sentnerdən bir qədər çoxdur. Ancaq iri fermer təsərrüfatlarında məhsuldarlıq 60 sentnerdir, iki dəfə çoxdur.

Əgər bu yanaşma bizim bütün böyük təsərrüfatlarımızda və eyni zamanda, kiçik fermer təsərrüfatlarında tətbiq olunarsa, onda biz ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı işlərimizi tamamlamış olacağıq.

Burada eyni zamanda, digər məhsullar da yetişdirilir. Bu təsərrüfatda, bu aqroparkda eyni zamanda, heyvandarlıq da inkişaf etdirilir. 2000 baş cins inək gətirilibdir. Onların sayı getdikcə 5000-ə çatacaq. Burada sağılan süd yaxınlıqda yerləşən Kürdəmir Süd zavoduna göndərilir. Beləliklə, süddə daxili təminat daha yüksək faizlərə çatacaq və ümid edirəm ki, yaxın bir neçə il ərzində Azərbaycan özünü süddə tam təmin edəcək.

Bütövlükdə 50-yə yaxın aqroparkın yaradılması nəzərdə tutulur. Onlardan bir çoxu artıq fəaliyyətdədir. Ümumi investisiya qoyuluşu iki milyard ma-

natdan çoxdur. Əgər biz bu işləri özəl sektorla birlikdə görməsəydik, bu investisiyaları heç kim qoymazdı. Çünki dövlət həm güzəştli şərtlərlə müəyyən məbləğdə kreditlər verir, eyni zamanda, infrastruktur layihələri həyata keçirir və özəl sektor üçün şərait yaradır. Özəl sektor isə bu vəsaiti təşkil edir. Son bir neçə il ərzində kənd təsərrüfatına qoyulan iki milyard manat çox böyük vəsaitdir. Bu aqroparklar – «Aqro Dairy» və «Azərsun» aqroparkları son 4-5 il ərzində yaradılıbdır. Bütün ölkə üzrə aqroparklarda çalışanların sayı 7000-i ötüb. Bunlar kənddə yaşayan insanlar üçün iş yerləridir.

Biz daxili istehsalı və qeyri-neft sektorunu stimullaşdırırıq. Mən həm «Aqro Dairy»da, həm də burada – «Azərsun» aqroparkında onları idarə edən şəxslərə tövsiyə etdim ki, azad olunmuş torpaqlarda, Qarabağda buna oxşar təsərrüfatlar yaradılsın və bu istiqamətdə ilkin addımlar atılmaqdadır.

Bu gün burada Hacıqabul Sənaye Məhəlləsinin də inkişafı ilə bağlı əlavə göstərişlər verildi. Əlavə 5 müəssisə yaradılacaq. 2017-ci ildə mənim sərəncamımla yaradılmış bu sənaye məhəlləsi artıq 5 müəssisəyə sahibdir. Onların açılışı bu gün oldu. Bu müəssisələrə də on milyonlarla manat sərmayə qoyulub. Bu da dövlət tərəfindən irəli sürülmüş təşəbbüsdür. Biz sahəni müəyyən etdik, infrastruktur layihələrini icra etdik, bütün kommunikasiyaları çəkdik, hətta anqarları da dövlət hesabına inşa etdik. Sahibkar da gəlib burada öz sərmayəsini qoyur və müasir səviyyəli məhsullar istehsal olunur. Bu məhsullar da daxili tələbatı təmin edəcəkdir.

Bu müəssisələrin arasında ən böyüyü Avtomobil zavodudur. Artıq avtomobil sənayesi Azərbaycanda inkişaf edir və biz bu sahədə bir neçə ölkə ilə bərabər çalışırıq. Növbəti mərhələdə lokallaşmanı daha da artırmaq gündəlikdə duran məsələlərdən biridir və biz buna da nail olacağıq.

Baxın, əhali baxımından o qədər də böyük olmayan Hacıqabul rayonunda həm sənaye, həm kənd təsərrüfatı müasir üsullarla inkişaf edir, məhsuldarlıq yüksəlir, insanlar işlə təmin edilir. Beləliklə, bizim gördüyümüz işlər öz praktiki nəticələrini verməkdədir.

**S u a l: Cənab Prezident, işğaldan azad olunmuş ərazilərdə aqroparkların yaradılacağını qeyd etdiniz. Ümumiyyətlə, orada görülən işlər haqqında nə deyə bilərsiniz?**

**C a v a b:** İndiki mərhələdə orada müxtəlif istiqamətlər üzrə işlər görülür, minalardan təmizləmə prosesi gedir. Burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir. Halbuki biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Sadəcə olaraq, bu xəritələri verməmək Ermənistanın növbəti hərbi cinayətidir. Müharibə başa çatandan sonra mina xəritələri verilmədiyi üçün 100-dən çox ancaq mülki vətəndaş yaralanıb və həlak olub. Bu istiqamətdə işlər davam etdiriləcək. Yeni avadanlıqlar alınır, Minatəmizləmə Agentliyinin ştat vahidlərinin artırılması ilə bağlı sərəncam verilib. Çalışacağıq bütün gücümüzü maksimum səfərbər edək ki, minatəmizləmə işləri sürətlə getsin. Eyni zamanda, həm Türkiyədən, həm Rusiya-

dan bu sahədə kömək göstərən hərbçilər də bu işlərlə məşğuldurlar. Mənim göstərişimlə Azərbaycan Müdafiə Nazirliyində bir neçə istehkamçı tabor yaradılıb ki, onlar da bu işlərdə fəal iştirak edirlər və bu günə qədər ən böyük sahəni məhz Müdafiə Nazirliyi təmizləyibdir.

Bununla paralel olaraq, əsas infrastruktur layihələrinə start verilib. Bu haqda mən dəfələrlə Azərbaycan ictimaiyyətini məlumatlandırmışam. Azad edilmiş ərazinin elektrik təchizatı hesab edirəm ki, bu ilin sonuna qədər başa çatacaq. Həm xətlər çəkilir, həm də yeni yarımstansiyalar tikilir. Şuşa şəhəri indi elektrik enerjisi ilə tam təmin edilib və hazırda Daşkəsəndən Kəlbəcərə yeni ötürücü xətlər inşa edilir. Bu çox ağır bir işdir. Çünki bu infrastruktur layihəsi Murov dağlarından keçməlidir. Orada dağların hündürlüyü 3500 metrə çatır və hələ ki, hava şəraiti o qədər də münasib deyil, qar əriməyib.

Yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə işlər gedir. İlk növbədə, Füzuli–Şuşa yolu, Zəfər yolu, magistral yolumuz, eyni zamanda, yaxın gələcəkdə Horadiz–Zəngilan avtomobil yolunun təməli qoyulacaq. Füzuli–Hadrut, Füzuli–Cəbrayıl, Bərdə–Ağdam, Göygöl–Toğanalı–Kəlbəcər avtomobil yollarının tikintisi artıq başlanılıb və bununla paralel olaraq, Bərdə–Ağdam və Horadiz–Zəngilan–Ağbənd dəmir yolu infrastrukturu da yaradılmaqdadır. Bu yol Zəngəzur dəhlizinə gəlib çatacaq və artıq cədvəl üzrə işlər gedir.

Bu işlərlə paralel olaraq, vurulmuş ziyanın hesablanması prosesi davam etdirilir, xarici mütəxəs-

sislər cəlb edilib. Bildiyiniz kimi, bizim planlarımız Ermənistanı beynəlxalq məhkəmələrə verməkdir.

Bunu biz təbii ki, edəcəyik və xarici mütəxəssislər bu sahədə bizə kömək göstərəcəklər. Bizim təbii sərvətlərimizdən qanunsuz istifadə etmiş Ermənistan və onun xarici tərəfdaşları da beynəlxalq məhkəmə ilə üzləşəcəklər. Çünki qızıl yataqlarımızın, mis yataqlarımızın, digər təbii sərvətlərimizin ermənilər tərəfindən talanması, qanunsuz istismarı beynəlxalq cinayət hesab olunur və bu istiqamətdə də hüquqi prosedurlara start verilib. Xarici tərəfdaşlar artıq bu işlərə cəlb olunublar.

Bildiyiniz kimi, birinci pilot layihə Zəngilan rayonunda icra ediləcək – «Ağıllı kənd» layihəsi. Bu layihə üç kəndi – 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edəcək və yəqin ki, yaxın gələcəkdə bu layihənin təməli də qoyulacaq. Zəngilanda olarkən mənə bu layihə ilə bağlı məruzə edildi və indi təməlqoyma mərasimi üçün hazırlıq işləri aparılır. Ümid edirəm ki, gələn il artıq bu ilk pilot layihə icra ediləcək və beləliklə, keçmiş köçkünlərin birinci qrupu öz doğma torpaqlarına qayıdacaqdır.

Bütün şəhərlərin baş planları hazırlanır. Hesab edirəm ki, bu, ilk növbədə, Ağdam şəhərini əhatə edəcək. Ümid edirəm ki, may ayının sonuna qədər Ağdam şəhərinin baş planının ilkin versiyası təqdim olunacaq, ondan sonra Ağdam rayonunun ictimaiyyəti ilə birlikdə müzakirə ediləcək. Digər şəhərlərimizin də baş planları hazırlanır.

Kəndlərin bərpasına gəldikdə, burada da biz işlərimizi mərhələlərə bölməliyik. İlk növbədə, biz

mövcud infrastruktura yaxın olan kəndləri bərpa etməliyik. Bu da təbiidir, çünki həm vaxt, həm səmərəlilik baxımından bu daha məqsədəuyğundur. Ona görə Ağdam, Füzuli, Cəbrayıl rayonlarının keçmiş təmas xəttinə yaxın olan kəndlərinin bərpası ilə bağlı müvafiq göstərişlər verilib.

Xaricdən bir çox təkliflər gəlməkdədir, bir çox xarici tərəfdaşlarımız Qarabağın bərpası işində fəal iştirak etmək istəyirlər. Biz də, əlbəttə ki, bunu alqışlayırıq. Təbii ki, bütün təkliflər təhlil ediləcək və müzakirə olunacaq. Biz bu işləri maksimum səmərə ilə görməliyik ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlar üçün ən gözəl şərait yaradılsın.

Bildiyiniz kimi, Füzuli Beynəlxalq Hava Limanının tikintisi sürətlə gedir və yaxın gələcəkdə Zəngilan rayonunda yeni hava limanının tikintisinə start veriləcəkdir. Üçüncü hava limanı Laçın rayonu ərazisində inşa ediləcək. Bu, bir qədər sonra baş verəcək. O bölgədə hələ ki, qar əriməyib. Hava limanı üçün nəzərdə tutulan yerdə indi praktiki işlərin görülməsi mümkünsüzdür. Gözləyirik, yəqin ki, may–iyun aylarında artıq bu istiqamətdə də işlərə start veriləcək.

Gördüyünüz kimi, biz bütün istiqamətlər üzrə dərhal işlərə başlamışıq. Müharibə başa çatandan dərhal sonra bütün bu işlərə start verilib. Çox böyük həcmli bir işdir. Çünki mən demişəm, bir daha demək istəyirəm, azad edilmiş torpaqların ərazisi dörd Lüksemburqa bərabərdir. Yəni bu, təsəvvür üçün kifayət qədər aydın mənzərədir. Dörd Lüksemburq boyda ərazini biz sıfırdan tikməliyik, qurmalıyıq. Çünki mənfur düşmən torpaqlarda hər şe-

yi, bütün binaları dağıdıb. İndi bunu bütün xarici qonaqlar da görürlər. Öz gözləri ilə erməni vəhşiliyini görürlər. Bu, misli görünməmiş vəhşilikdir. Dünya tarixində bir çox müharibələr olub. Ancaq bu qədər qəddarlıq, bu qədər düşmənçilik, məncə, dünya müharibə tarixində olmayıb. Hətta İkinci dünya müharibəsi ilə müqayisə etsək, o vaxt belə vəhşiliyə yol verilmirdi, dini abidələr dağıdılmırdı. Bütün bunları biz yaxşı bilirik. Erməni faşizmi bütün ölkələrdə olmuş faşizmlərin ən eybəcəridir, ən qəddar faşizmdir. Biz bu müharibədə təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, həm də erməni faşizmini məhv etmişik. Bu bizim tarixi missiyamızdır – təkcə Azərbaycan xalqı qarşısında yox, dünya qarşısında. Erməni faşizmi məhv edilib. Onu məhv edən Azərbaycan xalqı olubdur. Bu gün Ermənistanda bəzi revanşist qüvvələr baş qaldıranda bilməlidirlər ki, onların başı lazım olarsa, istənilən zaman əziləcəkdir. Biz imkan verə bilmərik ki, erməni faşizmi yenə baş qaldırsın. Biz imkan verə bilmərik ki, Ermənistan yenə də öz ordusunu o vəziyyətə gətirib çatdırsın ki, bizə hansısa bir təhdid olsun. Biz əgər mümkün olan təhdidi təsbit etsək, dərhal onu məhv edəcəyik. Bunu hər kəs bilməlidir – həm Ermənistan, həm də onun havadarları. Çünki bu, milli müdafiədir, milli təhlükəsizlik məsələsidir. Bununla paralel olaraq, biz əməkdaşlığa da hazırıq – baxmayaraq ki, Ermənistan azərbaycanlılara qarşı dövlət səviyyəsində soyqırımı törədibdir. Baxmayaraq ki, bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, biz gələcəyə baxmalıyıq. Biz erməni vəhşiliyini heç vaxt unutmayacağıq. Bu gün

Ermənistanda böyük hay-haraya səbəb olan Hərbi Qənimətlər Parkının yaradılmasının əsas məqsədi odur ki, Azərbaycan xalqı bu vəhşiliyi heç vaxt unutmasın. Biz heç vaxt unutmamalıyıq. Biz bunu heç vaxt bağışlamayacağıq. Bunu hər kəs bilsin. Amma bununla paralel olaraq, biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq. Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq.

Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə, Azərbaycan xalqı 101 il əvvəl əlimizdən alınmış Zəngəzura qayıdacaqdır.

**S u a l: Cənab Prezident, Hərbi Qənimətlər Parkının açılışında Siz Azərbaycan ərazisinə atılmış «İsgəndər-M» raketi barədə danışdınız və dediniz ki, bununla bağlı Rusiyadan cavab gözləyirsiniz. Bununla bağlı bir cavab verildimi?**

**C a v a b:** Bu sözləri deyəndən sonra ertəsi gün Rusiya Müdafiə Nazirliyi Azərbaycan Müdafiə Nazirliyinin məktubuna cavab göndərmişdir. Mən bu cavabla tanış oldum. Azərbaycan xalqına hər şeyi olduğu kimi deməliyəm. Çünki bu çox ciddi məsə-

lədir. Bu, sıradan olan məsələ deyil. Ona görə burada hər hansı bir məxfiliyə yol verməк olmaz. Cavabda göstərilmişdir ki, Rusiya tərəfi ballistik raketlərin buraxılmasını müəyyən etməmişdir.

Bu əslində bizim məktubumuza olan tam cavab deyil. Çünki bizim məktubumuzda əsas sual ondan ibarət idi ki, ixrac üçün qadağan edilmiş və ölümcül «İsgəndər-M» raketləri Ermənistanın əlinə necə düşüb? Axı bu, mümkün deyil. Bunun iki yolu var: ya qaçaqmalçılıq yolu ilə, ya da ki, beynəlxalq normaları, qaydaları pozmaq yolu ilə. Çünki Ermənistan ordusunda ancaq «İsgəndər-E», yəni eksport – ixrac variantı ola bilər. Onların arasında böyük fərq var. «İsgəndər-E» raketlərinin atəş məsafəsi 280 kilometrdir. «İsgəndər-M» raketləri daha uzaqmənzilli raketlərdir. Burada məsafə 500 kilometrdir. Yəni Ermənistan ordusunda «İsgəndər-M» raketləri ola bilməzdi. Bunun ancaq iki yolu var. Başqa yolu ola bilməz. Çünki heç bir başqa ölkədə bu raketlər yoxdur. Bax, bu suala bizə cavab verilməlidir. Biz bu cavabı gözləyirik, Azərbaycan xalqı gözləyir. Biz bir çox məsələləri özümüz üçün aydın etmişik. Biz bilirik bu raketlər nə vaxt və nə üçün atılıb. Ancaq bizə rəsmi cavab verilməlidir, bu raketləri bizə atan Ermənistandan və Rusiyadan. Bu raket sistemləri ya Ermənistana verilib, yaxud da ki, qanunsuz yollarla Rusiyadan oğurlanaraq çıxarılıb. Bu suallara cavab yoxdur. Əlbəttə ki, bu, xoşagələn vəziyyət deyil. Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq əlaqələri var. Rusiya sülhməramlı qüvvələri Azərbaycanın razılığı ilə bizim torpağımıza – Qarabağa,

Xankəndiyə və ətraf yerlərə gətiriliblər. Biz hesab edirdik ki, bu yeni əməkdaşlıq formatı bizim əlaqələrimizi möhkəmləndirəcək. Əslində möhkəmləndirməlidir. Ancaq «İsgəndər-M» raketlərinin Şuşa şəhərində tapılması və bu məsələ ilə bağlı bu günə qədər bizə tam cavabın verilməməsi, əlbəttə ki, Azərbaycan xalqında və Azərbaycan rəhbərliyində haqlı olaraq təəssüf və təəccüb hissi oyadır. Biz ümid edirik ki, bu məsələyə aydınlıq gətiriləcək. Strateji tərəfdaşlar arasında münasibətlər səmimi olmalıdır. Azərbaycan bütün strateji tərəfdaşlarla həmişə səmimi olub, həmişə öz sözünün üstündə durub, öz sözünü yerinə yetiribdir. Üçtərəfli bəyanat da Azərbaycan tərəfindən tam icra edilibdir.

Biz ümid edirik ki, «İsgəndər-M» raketləri ilə bağlı məsələyə aydınlıq gətiriləcək. Çünki onlar Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Bunu inkar etmək sadəcə olaraq, mümkün deyil. Hər halda, biz öz prinsipial mövqemizi bundan sonra da nümayiş etdirəcəyik. Azərbaycan xalqı bütün vacib məsələlərlə bağlı dolğun məlumat alacaq, necə ki, bu günə qədər alıb. Necə ki, Ermənistandan fərqli olaraq, bu müharibə dövründə mən tam həqiqəti demişəm. İndi isə Ermənistan rəhbərləri susurlar. Onlara sual veriləndə ki, siz «İsgəndər-M» raketlərindən istifadə etmisiniz? Susurlar. Ağızlarına su alıblar. Halbuki biz bilirik ki, necə atılıb, nə vaxt atılıb və daha çox şey bilirik.

Bir halda ki, Rusiya mətbuatında «İsgəndər-M» raketləri ilə bağlı cəfəng versiyalar irəli sürülür, bir şey də deyə bilərəm. Mən bunu sadəcə olaraq, təsa-

düfi versiyalar hesab etmirəm. Çünki hətta o versiyalarda da – düzdür, bu, mətbu orqanlar tərəfindən irəli sürülüb – hər halda, biz hansısa sistemli yanaşma görürük. Guya ki, Azərbaycan Türkiyə ilə birlikdə bu «İsgəndər-M» raketlərinin qalıqlarını Suriyadan gətiribdir və Şuşaya qoyubdur. Bu bizə qarşı açıq ittihamdır. Bizi nədə ittiham edirlər, saxtakarlıqda? Bir adam deyə bilər ki, Azərbaycan nə vaxtsa saxtakarlıq edib? Yox. Biz yüzlərlə saxta faktlarla üzləşmişik, riyakar faktlarla üzləşmişik, vədlərin yerinə yetirilməməsi faktları ilə üzləşmişik. Biz heç vaxt belə saxtakarlığa yol verməmişik. Biz bunu nə üçün edək? Bunun məqsədi nədir? Biz indi noyabrın 10-da imzalanmış Bəyanatın icrası ilə məşğuluq. Bölgədə sülhün əbədi olmasını istəyirik. Biz təhlükəsizlik tədbirlərini gücləndiririk. Nə üçün biz bu təxribatı törədək? Bizi bunda ittiham edənin gərək bir faiz vicdanı olsun. Ona görə istərdim ki, bu məsələyə aydınlıq gətirim.

O ki qaldı qaçaqmalçılıq versiyasına, bu araşdırılmalıdır. Çünki müharibə dövründə qaçaqmalçılıqla Rusiyadan Ermənistana külli miqdarda silahlar göndərilmişdir. Rusiya tərəfi ən yüksək səviyyədə və bütün səviyyələrdə, aidiyyəti qurumlar səviyyəsində bu məsələ ilə bağlı Azərbaycan tərəfindən məlumatlandırılıbdır. Hətta biz beynəlxalq aviasiya təşkilatı olan ICAO-ya rəsmi məktublar göndərmişik. O məktublarda deyilir ki, biz dəqiq bilirik – reyslərin nömrələrini də vermişik, yazmışıq – bu təyyarələrlə, sərnişin təyyarələri ilə Rusiyadan Ermənistana silahlar gətirilir. Silahların növlərini də gös-

tərmişik. Baxmayaraq ki, müharibə dövründə dəfələrlə belə məktublar göndərilib, ancaq ICAO-dan heç bir cavab gəlməyibdir.

Amma biz dəqiq bilirik ki, erməni silah alverçisi David Qalustyan Rusiyada oturub Rusiya hərbi zavodlarından qanunsuz yollarla silahları alıb sərnişin təyyarələri ilə göndərib. O silahların pulunu Rusiyada fəaliyyət göstərən erməni oliqarxları ödəyiblər – Obramyan və Karapetyan. Bu cinayətdir. Onlar buna görə cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Bu silahlar müxtəlif qaçaqmalçılıq yolları ilə Ermənistana göndərilibdir. Biz onu da Rusiya tərəfinə bildirmişik ki, David Qalustyan Ermənistanın keçmiş müdafiə naziri Tonoyanın biznes şərikidir. Onlar bunu qanunsuz qazanc kimi edirdilər. Acı məğlubiyyətdən sonra Ermənistanın müdafiə naziri, hansı ki, Azərbaycanı yeni müharibə ilə hədələyirdi, vəzifədən çıxarıldı. Onun biznes şəriklərindən biri David Qalustyan həbs olundu. Ermənistanda indi istintaq aparılır. Əgər istintaq ədalətli aparılarsa, dediyim bütün faktlar üzə çıxacaq. Bizdə faktlar var. Lazım olarsa, biz bu faktları açıqlamağa hazırıq. Mənim dediyim faktlardır. Qaçaqmalçılıq olub. Sərnişin təyyarələri ilə silah daşınıb. Bu, qanunazidd əməldir. Rusiyada yaşayan erməni oliqarxlar – həmin bu Karapetyan ilə Abramyan bir yük təyyarəsi alıblar. Çünki Ermənistanda yük təyyarəsi yox idi. Silahları daşımaq mümkün deyildi. Müharibə dövründə bir yük təyyarəsi alıblar. O yük təyyarəsi ilə silahları qanunsuz olaraq Ermənistana aparıblar. Yəni biz çox şeyləri bilirik, lazım olan vaxtda və

məqamda bəzi şeyləri açıqlayırıq. Bugünkü məlumat Azərbaycan ictimaiyyətinə ilk dəfədir ki, çatdırılır. Belə məlumatlar bizdə çoxdur. Hesab edirəm ki, bütün tərəfdaşlar bizimlə səmimi davranmalıdırlar. Çünki səmimiyyət və dostluq qarşılıqlı olmalıdır.

**M ü x b i r:** Çox sağ olun, cənab Prezident.

## QOBUSTANDA PALÇIQ VULKANLARI TURİZM KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*22 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 22-də Abşeron rayonunun Qobustan kəndi ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin təməlqoyma mərasimində iştirak etmişlər.*

*Palçıq Vulkanları Turizm Kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılacaq. Bura «Qılınc» palçıq vulkanlarının ərazisi kimi tanınır. Bu yerin turizm imkanları qiymətləndirildikdən sonra burada turizm kompleksinin yaradılması qərara alınıb. Beləliklə, «Regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi icra olunur.*

*Azərbaycan dünyada palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsindəki məlum 1700-dək palçıq vulkanından 700-ü ölkəmizdə – əsasən Abşeron yarımadası, Şamaxı–Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelaqındadır. Onlardan 350-si aktiv vulkandır.*

*Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlət başçısına və xanımına kompleks barədə məlumat verdi.*

**İ l h a m Ə l i y e v:** Buraya gələn qonaq, turist nə görəcək?

**F u a d N a ğ ı y e v:** Konsepsiya ondan ibarətdir ki, kompleksin binası yuxarıdan krater kimi görünəcək. Eyni zamanda, burada emalatxana da fəaliyyət göstərəcək. Uşaqlar üçün dərslər keçəcəyik. Sərgi zalı və kafe də olacaq.

*«Qılınc» palçıq vulkanlarının yerləşdiyi ərazidə turizm kompleksinin yaradılmasının bir sıra üstünlükləri vardır. Yaxınlıqda yerləşən və dünyanın ən böyük vulkanlarından olan «Torağay»a və digər vulkanlara mənzərənin açılması, burada turistlərə gəzinti üçün əlverişli şərait yaradan 3 müxtəlif vulkan qrupunun olması, Qobustan qoruğunun yaxınlığında yerləşməsi kimi amillər buranın turistik önəmini daha da artırır.*

*Dövlət başçısı Palçıq Vulkanları Turizm Kompleksinin təməlini qoydu.*

*Sahəsi 12 hektar olan kompleksdə kvadrotsikl ərazisi, piyada yürüş yolları, ziplayn və baxış qülləsi, avtodayanacaq, suvenir dükanı, eləcə də müalicəvi vannalar nəzərdə tutulur.*

*Əraziyə gedən yol infrastrukturunun qurulması üçün Qobustan qoruğundan «Qılınc» və ətraf ərazilərdəki vulkanlara gediş-gəlişi təmin edəcək, eləcə də Bakı–Qobustan–Palçıq vulkanları turizm klasterinin yaranması ilə nəticələnəcək 20 kilometrlik yolun çəkilişi planlaşdırılır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva vulkanların yerləşdiyi ərazini gəzdilər.*

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*24 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında aprelin 24-də telefon danışığı olmuşdur.*

*Telefon danışığı əsnasında dövlət başçıları ABŞ Prezidenti Co Baydenin qondarma «erməni soyqırımı» ilə əlaqədar verdiyi bəyanatı qınadılar.*

*Bu qərarın yanlış olduğunu qeyd edən Prezident İlham Əliyev onu tarixi səhv adlandırdı.*

*Dövlət başçımız Azərbaycanın bu bəyanatı qəbuledilməz hesab etdiyini vurğuladı.*

*Söhbət zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu bildirdi. Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd etdi.*

*Prezident Rəcəb Tayyib Ərdoğan dəstəyə və ifadə etdiyi mövqeyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O da Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırdı.*

*Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafından məmnunluqlarını ifadə etdilər.*

## BMT-nin «ASİYA VƏ SAKİT OKEAN HÖVZƏSİNDƏ REGİONAL ƏMƏKDAŞLIQ VASİTƏSİLƏ BÖHRANLARDAN SONRA DAHA GÜCLÜ İNKİŞAFIN TƏMİN OLUNMASI» MÖVZUSUNA HƏSR EDİLMİŞ 77-ci SESSİYASINDA VİDEOFORMATDA ÇIXIŞ

*26 aprel 2021-ci il*

*BMT-nin qərargahı Tailandda yerləşən Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının «Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması» mövzusuna həsr edilmiş 77-ci sessiyası aprelin 26-da öz işinə başlamışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı sessiyanın Asiya və Sakit okean regionu ölkələrinin dövlət və hökumət başçılarının çıxışları seqmentində təqdim olunmuşdur.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli BMT Baş katibinin müavini!

İlk növbədə, məni BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında çıxış etmək üçün dəvət etdiyinizə görə təşəkkür

edirəm. Azərbaycan Asiya və Sakit okean hövzəsi ölkələri ilə münasibətlərə böyük əhəmiyyət verir.

COVID-19 pandemiyası dünya ölkələrini yeni çağırışlarla üz-üzə qoymuşdur. Azərbaycan hökuməti ilk günlərdən pandemiya ilə mübarizə istiqamətində zəruri addımlar atmışdır. Koronavirusun iqtisadiyyata təsirinin azaldılması, özəl sektorun dəstəklənməsi, makroiqtisadi və maliyyə dayanıqlığının təmin olunması məqsədilə geniş sosial-iqtisadi paket təqdim edilmişdir.

Biz yanvar ayından etibarən vaksinasiyaya başlamışıq. Bu günədək 1,4 milyon vaksin istifadə olunubdur ki, bu da əhalimizin 14 faizini təşkil edir.

Lakin yalnız milli səviyyədə həyata keçirilən səylər dünyada pandemiyanın aradan qaldırılması üçün kifayət etmir.

Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətin səfərbər edilməsi səylərinin önündə gedir. Azərbaycan «Qoşulmama Hərəkatı»nın sədri qismində 2020-ci ilin may ayında «Qoşulmama Hərəkatı»nın koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısının təşəbbüskarı olmuş və onu uğurla keçirmişdir. Bizim təşəbbüsümüzlə ötən ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilmişdir.

Vaksin millətçiliyi, vaksinlərin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ədalətsiz bölgüsü bizi dərindən narahat edir. Dünyada mövcud vaksinlərin 53 faizi 30-dan çox zəngin dövlət tərəfindən sifariş edilib.

Azərbaycan həm «Qoşulmama Hərəkatı»nın sədri kimi, həm də milli səviyyədə dünyada vaksinlərin ədalətli bölgüsü, vaksinlərin inkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələr üçün əlçatanlığının təmin edilməsi istiqamətində mübarizəsini davam etdirəcəkdir.

Bu yaxınlarda BMT-nin İnsan Hüquqları Şurası Azərbaycan tərəfindən «Qoşulmama Hərəkatı» adından irəli sürülmüş, ölkələrin vaksinlərə bərabər çıxışı ilə bağlı qətnaməni yekdilliklə qəbul etmişdir.

Azərbaycan koronavirusla bağlı əksəriyyətinin ən az inkişaf etmiş olduğu 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir.

Ötən il Azərbaycan ərazisinin 20 faizinin 30 ilə yaxın Ermənistan tərəfindən işğalına son qoymuşdur. İşğal nəticəsində 1 milyondan çox azərbaycanlı doğma torpaqlarından didərgin salınmışdır. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək, qadınlar və uşaqlar da daxil olmaqla, 613 nəfər günahsız dinc sakini qətlə yetirmişdir. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınmışdır.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin həmin qətnamələr heç vaxt Ermənistan tərəfindən icra edilməmişdir. Mən ikili standartlara yol verilməməsi üçün tərəfdaş ölkələri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin təklif edilməsi və hazırlanması səylərinə qoşulmağa dəvət edirəm. Biz Təhlükəsizlik Şurasının bəzi qətnamələrinin bir neçə gün ərzində icra edildiyinin şa-

hidi olmuşuq. Azərbaycana gəldikdə isə həmin qətnamələr 27 il ərzində yerinə yetirilməmiş qaldı. Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə Ermənistanın əməl edəcəyinə dair heç bir ümid yox idi. Bütün bu illər ərzində Ermənistana qarşı heç bir təzyiq olmamış və sanksiyalar tətbiq edilməmişdir.

Əksinə, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycanı «yeni torpaqlar uğrunda yeni müharibə» ilə hədələyirdi. 2020-ci ilin iyul ayında Ermənistan dövlət sərhədində hərbi təxribat törətmişdir. Avqust ayında isə Ermənistanın diversiya qrupu təmas xəttini keçməyə cəhd etmişdir.

Sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrimizi və dinc sakinlərimizi ağır artilleriya atəşinə tutaraq, Azərbaycana qarşı irimiqyaslı hərbi təcavüzə başladı. Azərbaycan öz vətəndaşlarını qorumaq üçün əks-hücum əməliyyatına başlamaq məcburiyyətində qaldı. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini və beynəlxalq hüququn norma və prinsiplərini icra etdi, tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etdi.

44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tamamilə darmadağın olundu. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur edildi. Beləliklə, Ermənistan–Azərbaycan münaqişəsi sona çatdı. Münaqişə tarixdə qaldı.

İşğal dövründə Azərbaycanın bütün şəhər və kəndləri yerlə yeksan edilibdir. Xarici mütəxəssislər Ağdam şəhərini «Qafqazın Xirosiması» adlandırırlar. Ermənistan qəsdən mədəni və dini abidələrimizi vandalizmə

məruz qoyaraq, təhqir və qarət edibdir. 60-dan çox məscid Ermənistan tərəfindən dağıdılıb. Məscidlər inək və donuzların saxlanılma yerlərinə çevrilibdir.

Hazırda qarşımızda işğaldan azad olunmuş ərazilərdə tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi nəhəng vəzifə dayanır. Yenidən qurulma prosesi çərçivəsində «ağıllı şəhər», «ağıllı kənd» və «yaşıl enerji» konsepsiyalarından istifadə olunacaq. Mən dost ölkələrdən olan şirkətləri işğaldan azad olunmuş, Lüksemburqdan dörd dəfə böyük olan ərazidə irimiqyaslı yenidən qurulma işlərinə dəvət edirəm.

Bu yaxınlarda mən növbəti 10 il üçün sosial-iqtisadi inkişafla bağlı milli prioriteti müəyyən etmişəm ki, buraya rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış, təmiz ətraf mühit və «yaşıl artım» ölkəsi də daxildir.

Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır. Azərbaycan Şərq–Qərb, Şimal–Cənub, Şimal–Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə veribdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq–Qərb dəhlizinin tərkib hissəsi olacaq Zəngəzur nəqliyyat dəhlizi üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi, mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm.

Diqqətinizə görə sağ olun.

## CƏBRAYIL VƏ ZƏNGİLAN RAYONLARINA SƏFƏR

*26 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva aprelin 26-da Cəbrayıl və Zəngilan rayonlarına səfərə gəlmişlər.*

*Dövlət başçısı, xanımı və qızı Cəbrayıl rayonunun girişində «Cəbrayıla xoş gəlmişsiniz!» sözləri yazılmış lövhənin qarşısına gəldilər.*

**İlham Əliyev:** Cəbrayıl rayonuna gəlmişik. Vaxtilə Cəbrayıl rayonunun girişində ucaldılmış lövhəni biz indi yenidən qurduq və eyni formada, eyni dizaynla. Biz «Cəbrayıla xoş gəlmişsiniz!» lövhəsini bərpa etdik. Sovet vaxtında bu abidə – əgər belə demək mümkündürsə – qoyulmuşdur, ucaldılmışdır və işğal dövründə tamamilə sökülmüş, paslanmışdır. Onun paslanmış görüntüləri artıq mətbuatda da var. Ona görə tarixi ədaləti bərpa edərək, Cəbrayıl rayonunun girişində yerləşən bu «Xoş gəlmişsiniz!» lövhəsini, abidəni biz yenidən bərpa etdik. Azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bütün şəhərləri, kəndləri bərpa edəcəyik.

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Cəbrayıl rayonunda*

*Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak etdilər.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

**Elçin Quliyev**: Xoş gəldiniz, cənab Prezident!

**İlham Əliyev:** Salam.

**Elçin Quliyev:** Salam. Yaddaş daşı yazılmışdır gəlişiniz münasibətilə, cənab Prezident, işğaldan azad olunmuş ərazilərdə. Məruzə edirəm ki, verdiyiniz göstərişlərin icrası üzrə işğaldan azad edilmiş ərazilərdə tikinti-təmir işlərimiz davam edir. Göstərilən ərazidə köhnədən bir bina qalmışdı. Tapşırıqlarınızın icrası ilə əlaqədar 5339 kvadratmetr ərazidə hərbi hissə yaradılıbdır, hazırkı vəziyyət gördüyünüz kimidir.

*Dövlət Sərhəd Xidmətinin hərbi arsenalı müasir silahlarla daha da zənginləşdirilir və silahlanmaya yeni pilotsuz uçuş aparatları da daxil edilir.*

*Prezident, Ali Baş Komandan İlham Əliyevə pilotsuz uçuş aparatları barədə məlumat verildi.*

**Elçin Quliyev:** Möhtərəm cənab Prezident, müharibə vaxtı «Harop»ların tətbiqi ilə əlaqədar çəkilişlər aparılmışdır. Sağ tərəfdə hazırda həmin çəkilişlər göstərilir, TOR sistemi.

**İlham Əliyev:** Yadımdadır, qarajın içində idi.

**Elçin Quliyev:** Elədir ki, var, cənab Prezident. Burada onların bir çox raket kompleksləri, S-300 sistemləri, SKAD raket kompleksləri vardı. Onlar Horadiz kəndi istiqamətində əks-hücum həmləsi etmək niyyətində olduqda isə «Harop»lar tərəfindən

2 saat ərzində onların 14 tankı məhv edildi. Bu çəkilişlərdə o tankların məhv edilməsi əks olunub. Təqribən 10-12 tankı da düşmən qoyub qaçmışdı.

**İlham Əliyev:** Onlar özləri də bunu etiraf edirlər.

**Elçin Quliyev:** Elədir ki, var, cənab Prezident. Bu, S-300-ün vurulması anı idi. «Harop»ların vurma qabiliyyəti 97 faizdir, cənab Prezident. Bu, ən yüksək göstəricidir.

**İlham Əliyev:** Bu, dağın başında idi.

**Elçin Quliyev:** Şükrataz dağının, cənab Prezident, hazırda ən yüksək nöqtədə Azərbaycan sərhədçiləri yerləşmişlər.

*Dövlət başçısına məlumat verildi ki, yeni hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün şərait vardır. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməklə, eyni zamanda, dövlət sərhədinin bərpası kimi çox mühüm bir missiyanı icra etdi. Silahlı Qüvvələrimizin tərkib hissəsi kimi, Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də yüksək peşəkarlıqla düşmənə sarsıdıcı zərbələr endirdi və onu torpaqlarımızdan qovdu.*

*Sonra Prezident İlham Əliyev yeni hərbi maşınlara baxış keçirdi və onlardan birini idarə etdi.*

**Elçin Quliyev:** Cənab Prezident, bu isə növbəti qayğınızın təzahürüdür. Bu maşınlar yeni alınıb və Sizin göstərişinizlə bizim çevik heyətimizə təqdim olunubdur. Möhtərəm cənab Prezident, Sizin verdiyiniz xüsusi göstərişin icrası üzrə 44 günlük Vətən müharibəsinin ən iti sürətli hücumu məhz bu ərazidən başlanmışdır.

*Dövlət başçısı hərbi hissənin idman zalında oldu.*

**İlham Əliyev:** Bunu çək. Bu ancaq isinmə hərəkətidir. Göstərirəm ki, şəxsi heyət mənim kimi məşğul olsun və 59 yaşında bunları edə bilsin. İndi gəl bunu çək. İdmançılar bilirlər ki, burada bir az qaydaları pozdum. Ancaq 59 yaşında 40 kiloqramla qaydaları pozmasan olmur.

*Hərbi hissədə yaradılmış şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşdü və çıxış etdi.*

### Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı

Əziz sərhədçilər, bu gün ölkəmizin həyatında əlamətdar bir gündür. Azərbaycan–İran sərhədində Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsi açılır. Bu açılışda mən iştirak edirəm və bu bir daha Sərhəd Xidmətinin işinə verdiyimiz diqqətin təzahürüdür.

Vətən müharibəsi dövründə Azərbaycan–İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilibdir. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülməyə başlanılıb. Bu hərbi hissənin fəaliyyətə başlaması bunun bariz nümunəsidir. Bütün sərhəd boyunca – həm Azərbaycan–İran, həm Azərbaycan–Ermənistan sərhədləri boyunca lazımi işlər aparılır.

Azərbaycan–İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan–İran əlaqələrinin

inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir. Hər iki ölkənin sərhəddən keçən vətəndaşları bundan faydalanırlar. Eyni zamanda, ildən-ilə artan yüklərin həcmi Azərbaycan–İran əlaqələrinin inkişafından xəbər verir. Buraya yaxın məsafədə yerləşən Xudafərin körpüsü Azərbaycan–İran dostluğunun rəmzidir. Xudafərin körpüsü Müstəqillik Günündə – keçən il oktyabrın 18-də düşməndən azad edilmişdir. Bu ərazinin düşməndən azad edilməsində sərhədçilər xüsusi rol oynamışlar. Azadlıq mübarizəmiz məhz bu istiqamətdən başlanmış və Vətən müharibəsi 44 gündən sonra ordumuzun, Silahlı Qüvvələrimizin Qələbəsi ilə nəticələnmişdir. Bu ərazidə şiddətli döyüşlər gedirdi, hər bir kənd uğrunda şiddətli döyüşlər gedirdi, biz şəhidlər verirdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. İtkilərə baxmayaraq, biz hər gün irəli gedirdik. 44 günlük müharibə dövründə bir gün belə, geriyə addım atmadıq. 44 gün ərzində hər bir gün Zəfər günü idi. 44 gün ərzində Ermənistanın bütün cəhdlərinə baxmayaraq, bir dənə də uğurlu əməliyyat keçirə bilməmişlər. Bax, bu istiqamətdə onlar əks-hücum əməliyyatı planlaşdırmışdılar və bunu həyata keçirməyə başlamışdılar. Amma bu onların sonunun başlanğıcı oldu. Çünki həmin əks-hücum əməliyyatı Azərbaycan Silahlı Qüvvələri tərəfindən tamamilə darmadağın edildi, düşmən böyük sayda itki verdi və düşmənin onlarla texnikası məhv edildi. Biz məhz bu

istiqamətdən – Füzuli–Cəbrayıl istiqamətindən bir çox müdafiə xətlərini keçərək, azadlığa yol açdıq.

Bu gün Müzəffər Azərbaycan Silahlı Qüvvələri qarşıda duran bütün vəzifələri icra edir. Eyni zamanda, sərhədçilərimiz hazırda işğaldan azad edilmiş ərazilərdə Azərbaycan–Ermənistan sərhədini də qoruyur. Bu sərhəd də bərpa edilib və sərhəd boyunca bütün lazımi infrastruktur işləri aparılır, bütün texnika səfərbər edilibdir. Bu sərhədin uzunluğu 500 kilometrə yaxındır. Bu sərhəd 30 ilə yaxın müddət ərzində işğalçı qüvvələrin əlində idi. Biz Vətən müharibəsində Qələbə qazanaraq, bu sərhədi də tam bərpa etdik, Zəngilan və Qubadlı rayonlarını, Laçın rayonunun bir hissəsini döyüşərək azad etdik. Laçın rayonunun böyük hissəsini və Kəlbəcər rayonunu düşmən artıq məcbur olub kapitulyasiya aktını imzalayaraq bizə qaytardı. Hazırda o ərazilərdə lazımi işlər aparılır.

Əfsuslar olsun ki, Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, ərazi iddiası irəli sürürlər. Onlara, bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. «Dəmir yumruq» düşmənin başını əzdi. Bu yaxınlarda Azərbaycan–Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilmiş hərbi təxribat sonuncu belə cəhd olma-lıdır. Biz təmkinlik göstərərək, bu təxribata cavab vermədik. Amma bu, sonuncu xəbərdarlıqdır. Əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən

yerindəcə məhv ediləcək. Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq. Hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib. Bizim Silahlı Qüvvələrimiz rəşadət, qəhrəmanlıq göstərərək, Vətən müharibəsində Zəfər çaldılar. Sərhədçilərin ümumi zəfərimizdə rolu çox böyükdür. Mən bunu qiymətləndirirəm. Təsadüfi deyil ki, bir çox hərbçilər dövlətimizin yüksək orden və medalları ilə təltif edilmişlər.

Sizi bir daha bu hərbi hissənin açılışı münasibətilə təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

*Dövlət başçısı sərhədçilərlə birgə foto çəkdirdi.*

* * *

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zəngilan rayonunun Ağalı kəndinə gəldilər.*

**İnam Kərimov** (*Kənd Təsərrüfatı naziri*): Cənab Prezident, Sizə fevral ayında məlumat təqdim ediləndən sonra, artıq intensiv işlərə başlanılıb, mobilizasiya edilib, ilkin söküntü işləri aparılıbdır.

**İlham Əliyev:** Burada nə olub?

**İnam Kərimov:** Otuza yaxın ev olub. Kəndarası yollar artıq çəkilməkdədir. Kəndin içində də bu işlər aparılır. Hazırda 110-a yaxın işçi çalışır. İşlərin intensiv getdiyi vaxtda təqribən 600–700-ə yaxın işçi çalışacaq.

**İlham Əliyev:** Kəndin bir hissəsi yolun o tərəfindədir?

**İnam Kərimov:** Bəli, bir hissəsi üst tərəfdə olub.

**İlham Əliyev:** Əsas hissə bura olub?

**İnam Kərimov:** Bəli, əsas hissə bura olub. Bura Birinci Ağalıdır.

*Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimizin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb.*

*Kənd Təsərrüfatı naziri İnam Kərimov dövlət başçısına və xanımına məlumat verdi ki, birinci «Ağıllı kənd» pilot layihəsi Zəngilanın Birinci, İkinci, Üçüncü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, «ağıllı kənd təsərrüfatı» və alternativ enerji sahələridir. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.*

*Dövlət başçısı xarici şirkət nümayəndələri ilə videoformatda söhbət etdi.*

**İlham Əliyev:** Salam.

**Türkiyə şirkətinin əməkdaşı:** Əleyküm salam, cənab Prezident.

**İ n a m  K ə r i m o v:** Onay bəy, buyurun.

**İ l h a m  Ə l i y e v:** Buyurun, söyləyin nədir bu qurğu?

**T ü r k i y ə  ş i r k ə t i n i n  ə m ə k d a ş ı:** «Bir millət – iki dövlət» can Azərbaycana Türkiyədən salamlar, cənab Prezident. Həqiqi sahibinə yenidən qovuşmuş bu torpaqlar uğrunda canını qurban vermiş bütün şəhidlərin xatirəsini uca tutduğunuz üçün Sizə təşəkkürlərimi bildirirəm, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

**T ü r k i y ə  ş i r k ə t i n i n  ə m ə k d a ş ı:** Cənab Prezident, yaradılacaq bu «ağıllı kənd»də apardığımız çoxistiqamətli təhlillər nəticəsində müəyyənləşdirdik ki, bu, dünyanın təbii dostu olan, bərpa edilən enerji qurğusu «Arximed» sistemidir. Bununla yanaşı, karbon dioksid emissiyası sertifikatına malik olan «Arximed» qurğusu «ağıllı kənd»in bütün daxili elektrik enerji ehtiyacını ödəyəcək və artıq qalan enerjini xaricə satmaq mümkün olacaqdır. Bununla bərabər, sistemdən çıxan isti suyu kənddəki evlərə və hotelə ötürəcəyik. Bu qurğu çox sürətlidir, yüksək məhsuldarlıqla işləyir. Heç bir səs-küy yaratmır, suyu oksigenləşdirir ki, bu da balıqlar və yaşıllıqlar üçün çox faydalıdır. Bu sistem Günəş enerjisi və digər alternativ enerjilərə nisbətən artıq, yəni 24 saat işlədiyi üçün daha çox enerjini daha az güclə əldə etməyə imkan verir. Bu layihə sadəcə, enerji istehsal etmək məqsədi daşımır, eyni zamanda, turizm infrastrukturu üçün şərait yaradır. Cənab Prezident, əlbəttə, Sizin dəstəyinizlə, bütün ehtiyaclarını öz daxili imkanları

hesabına ödəyə bilən bir «Ağıllı kənd» layihəsi yaratmağı planlaşdırırıq. Minnətdarlığımı bildirirəm.

**İlham Əliyev:** Təşəkkür edirəm. Mən çox şadam ki, birinci layihədə Türkiyə şirkəti iştirak edir. Bu təbiidir. Çünki qardaş ölkə olan Türkiyə bizim bütün bərpa işlərində fəal iştirak edəcək. Bildiyiniz kimi, artıq bir neçə Türkiyə şirkəti bərpa işlərində, infrastruktur layihələrində iştirak edir. Şadam ki, biz burada da – «yaşıl enerji» sahəsində də Türkiyə şirkətinin fəaliyyətini görürük. Əslində bu, azad edilmiş torpaqlarda inşa edilən birinci kənddir. Əlbəttə ki, bu kəndin çox böyük önəmi vardır. Çünki Böyük Qayıdış bu gün başlayır. Əmin olduğumu bildirmək istəyirəm ki, siz gələcək layihələrdə də iştirak edəcəksiniz.

**Türkiyə şirkətinin əməkdaşı:** İnşallah, cənab Prezident.

**İlham Əliyev:** Bir daha sizə uğurlar arzulayıram.

**Türkiyə şirkətinin əməkdaşı:** Təşəkkür edirəm, cənab Prezident.

**«Huawei–Azərbaycan» şirkətinin baş meneceri:** Salam, hörmətli cənab Prezident Əliyev. Mənim adım Deviddi. Mən «Huawey–Azərbaycan» şirkətinin baş meneceriyəm. Bizim «ağıllı kənd» rəqəmsal texnologiyamızı Sizə təqdim etmək mənim üçün böyük şərəfdir. Biz bu texnologiyadan Qarabağda yenidən qurulacaq ərazilərdə istifadə edəcəyik.

Əvvəlcə, mən böyük Zəfər münasibətilə, cənab Prezident, Sizə təbriklərimi və dərin ehtiramımı çatdırmaq istəyirəm. Dünya üzrə aparıcı İKT texnologi-

yaları şirkəti olaraq, biz bütün ən son qabaqcıl texnologiyalarımızı Qarabağda təqdim etməyə və gələcəkdə «ağıllı kənd»lərin inkişafında iştirak etməyə hazırıq. Aparıcı «ağıllı şəhər» və «ağıllı kənd» texnologiyalarının təchizatçısı kimi, şirkətimizin bu sahədə böyük təcrübəsi var və bizim 100-dən çox qlobal layihəmiz mövcuddur. Qarabağda «ağıllı kənd» üzrə qabaqcıl texnologiyaları təmin etmək üçün biz ən son məhsul və texnologiyaları təchiz edəcəyik. Biz Azərbaycanda ilk dəfə «Qiqabit AirPON» texnologiyasını istifadə edəcəyik. «AirPON» cihazı hazırda qarşınızdadır. Bu texnologiya fiberoptik xətlərin çəkilişini 10 kilometrdən 1 kilometrə qədər qısalda bilər. Beləliklə, biz şəbəkənin qurulmasını sürətləndirə və xərclərə qənaət edə bilərik. Biz «Ağıllı kənd» layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradaraq, «ağıllı tədris», «ağıllı səhiyyə» və «ağıllı kənd təsərrüfatı» sistemlərini həyata keçirəcəyik. Bu, tərəfimdən hazırlanmış qısa hesabatdır. Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Təşəkkür edirəm. Mən sizə uğurlar arzulayıram. Bu, Qarabağ regionunda ölkənin birinci layihəsidir. Mən şadam ki, Azərbaycanın yaxşı tərəfdaşı olan «Huawei» şirkəti bu layihədə iştirak edir. Xatırlayıram ki, Çinə səfərlərimin birində mən sizin Pekindəki mənzil-qərargahınızı ziyarət etmişdim və orada mənə sizin fəaliyyətinizlə bağlı təqdimat verilmişdi. Həmçinin Bakı ofisi ilə birbaşa əlaqə də yaradılmışdı. Bilirəm ki, Bakı ofisi çox uğurlu fəaliyyət göstərir və işğaldan azad olunmuş ərazilərdə çoxlu işlər olacaq. Çünki bu, yalnız bir kənd-

dir. Erməni təcavüzkarları tərəfindən dağıdılmış yüzlərlə kənd və şəhərlərimiz var. Bizə indi onları bərpa etmək lazımdır. Biz onları müasir standartlar, yaşayış standartları əsasında bərpa etməliyik. Beləliklə, mən sizə uğurlar arzulayıram və ümid edirəm ki, işğaldan azad olunmuş ərazilərin digər hissəsində işləmək üçün sizin başqa fürsətiniz olacaqdır.

**Baş menecer:** Təşəkkür edirəm, cənab Prezident. Biz əlimizdən gələni edəcəyik.

**İnam Kərimov:** Bu qurğu 100 meqabitə qədər kabelsiz internet paylayacaq. Bir də telefon antenası quraşdırılandan sonra kənd internetlə təmin oluna bilər.

**İtaliya şirkətinin əməkdaşı:** Salam, cənab Prezident, sabahınız xeyir. Necəsiniz?

**İlham Əliyev:** Sabahınız xeyir. Çox yaxşıyam, təşəkkür edirəm. Sizin layihəniz necə irəliləyir? Bu gün biz ona start veririk. Odur ki, tikintini başa çatdırandan sonra bizim yaxşı nəticələrimiz olmalıdır. Layihənin işlək vəziyyətə gətirilməsi üçün vaxt cədvəli necədir?

**İtaliya şirkətinin əməkdaşı:** Onlar süd ferması layihəsinin noyabr ayında istismara verilməsini istəyirdilər. Lakin ehtimal edirəm ki, fermanın daxilində yaşayış yerləri ilə birlikdə noyabr ayında bu, kifayət qədər tezdir. Lakin bunu biz nə qədər tez lazımdırsa edə bilərik. Bizim yenidən qurulma işlərini aparmaq üçün bacarığımız və tərəfdaşlarımız vardır.

**İlham Əliyev:** Çox yaxşı. Deməli, bu, noyabr və ya dekabr ola bilər. Bilirəm ki, planlamaq, təşkil etmək və icra etmək asan deyil, çünki biz bütün infra-

strukturu, 200-dən çox evi olan kəndi, qəsəbəni salmalıyıq. Çünki buraya yaşamağa gələn insanların iş yerlərinə və istehsalata ehtiyacı olacaq. Mən burada şəkillərə baxıram, onlar çox yaxşı görünür. Məşhur «motsarella» pendiri.

**İtaliya şirkətinin əməkdaşı:** Bəli, təşəkkür edirəm. Bizim evlər və fermalar üçün birgə modelimiz də var. Beləliklə, Siz insanları kənddə evlərlə təmin etməzdən əvvəl onları fermada işləmələri üçün tez bir şəkildə yerləşdirə bilərsiniz.

**İlham Əliyev:** Çox yaxşı, təşəkkür edirəm.

**İsrail şirkətinin əməkdaşı:** Sizə təqdimatımızı göstərə bilərikmi?

**İlham Əliyev:** Bəli, buyurun.

**İsrail şirkətinin əməkdaşı:** İlk növbədə, Sizin qarşınızda dayanmaqdan, Sizinlə görüşməkdən böyük qürur hissi keçirirəm. Bu imkana görə təşəkkür edirəm. Mən Sizi Qarabağ ərazilərinin işğaldan azad edilməsi münasibətilə təbrik etmək istəyirəm. Biz Sizin tərəfdaşınız olmaqdan həqiqətən də şadıq. İsrail Zəngilanda əvvəlcə, 300–400 başlıq camış ferması tikəcək, sonra biz onu 1000 başa çatdırmaq istəyirik. Şirkətimiz «ağıllı ferma»lar üzrə texnologiya ilə işləyir. Bizdə bütün fermanı məlumatların təhlili üzrə proqram təminatına birləşdirən ötürücülər var ki, bu da göründüyü kimi, mal-qaranın yemlənməsi, sağlamlığı və sağılması ilə əlaqədardır. Biz bunu «açar təslimi» layihəsi kimi həyata keçiririk. Buraya texniki-iqtisadi əsaslandırma, tikinti, planlaşdırma, komandanın hazırlanması və mal-qaranın idxalı daxildir. Qeyd etdiyim kimi, heyvanlar sensorlarla təchiz ediləcək. Biz

peyin emalı ilə də məşğul oluruq. Peyindən gübrə və bioqaz əldə edə bilirik. Fərqli variantlar vardır – tullantı sularının təmizlənməsi, Günəş enerjisi. Bu o deməkdir ki, böyük elektrik enerjisi infrastrukturu qurmadan böyük həcmdə elektrik enerjisi istehsal olunur. Belə bir ferma çox maraqlı olacaq.

Beləliklə, biz İsrailin sahib olduğu süd ferması texnologiyasında bilik və təcrübəmizi Azərbaycana, Qarabağ bölgəsinə gətirmək istəyirik. Bu imkana görə çox sağ olun. Biz sizinlə əməkdaşlıq etməyi səbirsizliklə gözləyirik.

**İlham Əliyev:** Təşəkkür edirəm. Mən bilirəm ki, İsraildə inəklər ən yüksəkkeyfiyyətli məhsul verir və orada inəkbaşına ən yüksək həcmdə süd alınır.

**İsrail şirkətinin əməkdaşı:** İsraildə elə fermalar var ki, hər inəkdən 40–45 litr süd alınır.

**İlham Əliyev:** Bilirəm.

**İsrail şirkətinin əməkdaşı:** Biz camışlarla da əlimizdən gələni etməyə çalışacağıq.

**İlham Əliyev:** Bəs hər camışdan orta hesabla nə qədər süd alınır?

**İsrail şirkətinin əməkdaşı:** Camışlarda bu, orta hesabla sağmal inəyin verdiyi məhsulun üçdəbiri qədərdir. Bu, bir camış başına gündə 8–12 litr arasındadır.

**İlham Əliyev:** Aydındır. Camışlar İsraildən idxal olunacaq?

**İnam Kərimov:** İtaliyadan.

**Layihə meneceri:** Salam, cənab Prezident. İlk növbədə, Sizi ərazilərinizin işğaldan azad edilməsi və suverenliyinizin bərpası ilə əlaqədar tarixi nai-

liyyətiniz münasibətilə təbrik edirəm. Bu, mühüm strateji bölgədə sabitlik və firavanlıq dövrü olacaq. Burada olmaq, Sizə İtaliya məhsulları və xidmətləri barədə məlumat vermək mənim üçün həqiqətən də şərəfdir. Mənim adım Cüzeppe Grisoliyadır və mən camış sağmalçılığı ilə bağlı layihə meneceriyəm. Bizim biznes ideyamız strateji regionda tam avadanlıqlarla təchiz edilmiş camış sağmalçılıq fermasının və ya yüksəkkeyfiyyətli «motsarella», «burrata» və digər növ camış pendirlərinin istehsalının həyata keçirilməsi ilə bağlıdır. Biz istehsal prosesinə öz təcrübə və biliyimizi gətiririk. Çünki, cənab Prezident, bildiyiniz kimi, camış «motsarella»sı bütün dünyada istehsal olunur, istənilən ölkə həmin keyfiyyətə və səviyyəyə çatmağa cəhd göstərir. Lakin «motsarella di buffalo» pendiri həmişə italyan məhsulu olaraq qalır. Südçülük sahəsində uğurun ən mühüm amili ondan ibarətdir ki, söhbət təkcə bizdə olan texnologiyadan, avadanlıqdan getmir, həm də pendir hazırlayanların əllərindən gedir. Çünki hər kəs bahalı avadanlıq ala bilər, amma yalnız bacarıqlı pendir hazırlayan bənzərsiz «motsarella» hazırlaya bilər. Bu səbəbdən də biz südçülük fermasını qurandan sonra tam təlim kursu keçəcəyik. Bu təlim sayəsində Azərbaycanda birinci nəsil bacarıqlı pendir hazırlayanlar yetişdiriləcək. Biz Azərbaycanda sadə keyfiyyətdə camış pendirinin istehsal olunmasını istəmirik. Bizim hədəfimiz yüksəkkeyfiyyətli südçülük sektorunun yaradılmasından ibarətdir ki, Azərbaycan da İtaliya kimi, mükəmməl «motsarella di buffalo» pendirlərinin istehsalçısı olsun. Bu sahədə gü-

zəştdən söhbət gedə bilməz, yalnız birinci səviyyəli istehsal ola bilər. Biz azərbaycanlı dostlarımızla əlimizdən gələni edəcəyik. Təşəkkür edirəm, cənab Prezident. Yaradılmış imkana görə çox sağ olun.

**İlham Əliyev:** Çox sağ olun. Bu, işğaldan azad edilmiş ərazilərdə ilk pilot layihədir. Ona görə də qeyd etmək istəyirəm ki, biz buna xüsusi diqqət yetiririk. Bu layihənin uğurlu icrası sözsüz ki, bizim əraziləri mümkün qədər tez bir zamanda dirçəltmək və bərpa etməklə bağlı güclü iradəmizi nümayiş etdirəcək. Müharibədən və Qələbəmizdən sonra dəfələrlə qeyd etdiyim kimi, bizimlə işləmək üçün dost ölkələrdən şirkətlər dəvət edəcəyik. Şadam ki, bu gün İsrail şirkəti, İtaliya şirkəti, Azərbaycanın iki dost ölkəsindən olan şirkətlər bu mühüm layihəyə qoşulur və bizim beynəlxalq əməkdaşlığımız var. Türkiyədən, Çindən, İsraildən, İtaliyadan olan şirkətlər var, hamısı dost ölkələrdir. Bu həqiqətən də yaxşı beynəlxalq əməkdaşlıqdır və mən əminəm ki, bu, sadəcə olaraq, ilk addımdır. Bu layihənin uğurlu icrası, sözsüz, bizə imkan verəcək ki, bu təcrübədən Qarabağın digər yerlərində də istifadə edək. Çünki biz yüzlərlə kənd, qəsəbə və şəhərləri bərpa etməliyik.

Ümid edirəm ki, siz bu məhsulları nümayiş etdirəcəksiniz və onların dadına baxacaqsınız.

**İsrail şirkətinin əməkdaşı:** Cənab Prezident, qarşımıza çətin vəzifə qoydunuz. Biz hazırıq.

**İlham Əliyev:** Çox sağ olun.

**İsrail şirkətinin əməkdaşı:** Çox sağ olun, cənab Prezident, gününüz uğurlu olsun.

## ZƏNGİLAN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*26 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva aprelin 26-da Zəngilan rayonunun Ağalı kənd sakinləri ilə görüşmüşlər.*

**İlham Əliyev:** Salam, gəlin yaxına, gəlin, yaxınlaşın.

**Sakin:** Ağalı kəndinə xoş gəlmisiniz!

**İlham Əliyev:** Çox sağ olun.

**Sakin:** Bu bizim kəndimizdir. Mən Ağalı kəndində, bu kənddə anadan olmuşam, burada boya-başa çatmışam. Atamın, anamın, həyat yoldaşımın, əmilərimin, dayılarımın məzarları bu qəbiristanlıqdadır. Həyat yoldaşımın məzarı o görünən ağacın yanındadır, iş başında həlak olubdur.

**İlham Əliyev:** Eviniz harada, hansı tərəfdə olub?

**Sakin:** Evimiz aşağıdadır, Böyük Ağalıda. Siz birinci dəfə maşınla keçəndə göstərirdiniz ki, bu ev kimindir, yəqin tanıyacaq. O, bacımın evidir. Çox sağ olun, çox şadam ki, Sizinlə, xanımınızla, qızınızla burada görüşürəm. Hamınızı bağrıma basıram, öpürəm.

**İlham Əliyev:** Sizi təbrik edirəm, Ağalıya qayıtmısınız.

**S a k i n:** Sağ olun, mən də Sizə cansağlığı, uzun ömür arzulayıram ki, bizi gətirib öz yerimizə çıxartdınız, torpağımızı gördük. Torpağımızı azad etmisiniz. Siz torpaqlarımızla bərabər, şəhidlərimizin qisasını almısınız, qazilərimiz var. Qazilərimizə Allahdan sağlıq, şəhidlərimizə rəhmət diləyirəm. Onların analarının qarşısında baş əyirəm. Sizin qarşınızda baş əyirəm ki, Ali Baş Komandan kimi, onları ətrafınıza toplayıb dünyada görünməyən 44 günlük müharibədə qalib gəlmisiniz. Birinci Qarabağ müharibəsində mənim dayımın oğlu, üzr istəyirəm, həm də kürəkənim 5 il 8 ay müharibədə iştirak etdi. 44 günlük müharibədə könüllü iştirak edən nəvəm qazidir. Allah Sizə cansağlığı versin, ömrünüz uzun olsun. Ağalı camaatı bu dəqiqə startda durub, hamımız bir nəfər kimi. Uşaqdan böyüyə hamı deyir ki, gedirik Ağalıya qurub-yaradaq. Ağalı camaatı zəhmətkeşdir. Mən 28 ildir şəhərdə yaşayıram.

**İ l h a m Ə l i y e v:** Harada, Bakıda yaşamısınız?

**S a k i n:** Bəli, Biləcəridə yaşayıram.

**İ l h a m Ə l i y e v:** Biləcəridə yataqxanada, yoxsa?

**S a k i n:** Xeyr, öz evimizdə yaşayırıq. Öz torpağımıza gəlməyə hazırıq. Bir arzum var, o gün olsun, bu layihə başa çatdırılsın, Ağalı camaatımız gəlsin kəndə yığışsın. Çünki camaatımız zəhmətkeş adamlardır, bərpa edəcəyik. Sizdən xahiş edirəm ki, ikinci dəfə bu kəndə gələndə mənim evimə gəlib bir stəkan çayımı içəsiniz.

**İ l h a m Ə l i y e v:** Yaxşı. Söz verirəm sizə. Mütləq gələcəyəm, açılışa da gələcəyəm və inşallah, yaxın

zamanlarda kənd yenidən qurulacaq. Bilirsiniz ki, birinci bərpa olunacaq kənd Ağalı kəndidir.

**S a k i n:** Bu kənd varlı kənd olub, kolxozu ilə. Mənim belə bir bayatım var:

Mən aşiqəm kəndə, gəl,
Mən gəlmişəm, sən də gəl.
Ermənilərin dağıtdığı kəndə baxıb,
Təzə tikilən texnikalı kəndə bax.

**İ l h a m Ə l i y e v:** Özü də bu kənd nümunəvi bir kənd olacaq.

**S a k i n:** Bəli, çox sağ olun. Çox şadam ki, Sizinlə burada görüşdüm. Canım mənim, hamınızı bağrıma basıram, öpürəm Sizi.

**İ l h a m Ə l i y e v:** Siz nə vaxt çıxmısınız Ağalıdan?

**S a k i n:** 1993-cü ildə çıxmışam və həmişə Siz yumruğunuzu göyə qaldıranda Sizinlə bərabər mən də qaldırmışam, yenə də qaldırıram və deyirəm: Qarabağ bizimdir! Ağalı bizimdir! Zəngilan bizimdir! Gənclərimiz Sizin arxanızdadırlar.

Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Ağalı kəndi oktyabrın 28-də işğalçılardan azad edilib. Bilirsiniz ki, burada Zəngilan uğrunda, bütün kəndlər uğrunda şiddətli döyüşlər gedib. Biz qan tökərək, bu torpaqları qaytardıq.

**S a k i n:** Bəli, nəvəm də burada döyüşlərdə iştirak edib.

**İ l h a m Ə l i y e v:** Düşmənləri qovduq və mən birinci dəfə buraya gələndə, dağıntıları görəndə və maşınla keçəndə dedim ki, görəsən bu ev kimindir? Çünki o evin bir hissəsi qalmışdı.

**S a k i n:** Bəli, indi də qalır, gördüm.

**İ l h a m Ə l i y e v:** Qanunsuz məskunlaşmışdılar, dedim ki, yəqin Ağalı camaatı tanıyar kimin evidir.

**S a k i n:** Bəli, mən qulaq asmışam.

**İ l h a m Ə l i y e v:** İndi isə yeni layihə ilə yəqin ki, tanış olmusunuz. Burada 200-dən çox ev, məktəb, uşaq bağçası, poliklinika tikiləcək, iş yerləri yaradılacaq. Bu gün mənə verilən təqdimatda göstərilir ki, böyük ferma – camış ferması yaradılacaq, pendir istehsal ediləcək, burada əkin sahələri nəzərdə tutulub, su-elektrik stansiyası olacaq, yəni bütün şərait olacaq. Burada yaşamaq üçün nə lazımdırsa olacaq. Burada tətbiq olunacaq texnologiyaların bir çoxu Azərbaycanda yoxdur. Bu, birinci layihədir, pilot layihədir və əminəm ki, maksimum gələn ilin əvvəlində bütün işlər hazır olacaq. Evlər tikilməlidir, kommunikasiyalar tikilməlidir, ondan sonra iş yerləri yaradılmalıdır, əkin yerləri olmalıdır və burada yaşayacaq insanların hər biri işlə təmin edilməlidir. Mən burada gəncləri də görürəm, onlar yəqin ki, müharibədən sonra dünyaya gəliblər, ya da ki, müharibədən əvvəl.

**S a k i n:** Bir yaşında, yeddi aylığında köçkün düşən uşaqlardır.

**İ l h a m Ə l i y e v:** Neçə yaşın var?

**S a k i n:** Möhtərəm cənab Prezident, mən Sizi kəndimizdə görməyimə çox məmnunam. Mən Zəngilanda doğulmuş ən son körpələrdənəm, buranı məcburi köçkün kimi tərk edəndə yeddi aylıq olmuşam. Bu gün, 28 ildən sonra ilk dəfədir ki, biz öz dədə-baba torpağımıza qədəm qoyuruq və sevindirici hal on-

dan ibarətdir ki, cənab Prezident, Sizinlə bir yerdə ayaq basırıq.

Cənab Prezident, biz Sizin siyasətinizi hər zaman dəstəkləmişik. Biz Sizin çıxışlarınızı hər zaman izləmişik, 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə həsr olunmuş hərbi paradda Sizin çıxışınızda bir ifadə bizim diqqətimizi çəkdi. Siz dediniz ki, Qarabağ əzəli Azərbaycan torpağıdır və tezliklə Şuşada dalğalanan Azərbaycan bayrağı nümayiş üçün Azadlıq meydanına gətiriləcək.

**İlham Əliyev:** Bəli.

**Sakin:** Cənab Prezident, biz 2020-ci ildə o möhtəşəm Qələbə paradında buna şahidlik etdik. Cənab Prezident, ümumiyyətlə, biz Zəngilan gəncləri daim öz dövlətinə, millətinə, Ali Baş Komandanına sadiq gənclərik. Zəngilan mühüm coğrafi-strateji əhəmiyyətə malik bir rayondur. Zəngilan bizim Naxçıvana keçid qapımızdır. Zəngilan bizim tarixi torpaqlarımız olan Zəngəzura giriş qapısıdır. Zəngilan burada bir çox yolların qovşağında yerləşir. Ümumiyyətlə, Zəngilanda kənd təsərrüfatının inkişafı üçün çox böyük potensial vardır. Zəngilanda münbit torpaqlar, bol su, təmiz hava vardır. Zəngilanda əkib-becərmək üçün hər cür şərait vardır.

**İlham Əliyev:** Zəngilanı görməyib, baxın, görün Zəngilanı necə sevir. Bax, budur Vətən sevgisi. Vətən sevgisi budur.

**Sakin:** Zəngilan bizim uşaqlıq nağıllarımızdır.

**Sakin:** Cənab Prezident, yeri gəlmişkən deyim ki, Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları bizim hər birimizin evində oldu. Bizimlə ayrıca sorğular

keçirildi, orada əhalinin yaş qrupu müəyyənləşdirildi, əhalinin əmək fəaliyyətinin istiqaməti müəyyən olundu. Sizi əmin edirəm ki, o sorğuda iştirak edən hər bir Zəngilan sakini Zəngilana qayıdacağını qeyd edib. Mən buna əminəm və Sizi də əmin edirəm. Çünki bura bizim dədə-baba yurdumuzdur. Mənim babam uzun illər burada kolxoz sədri işləyib, cənab Prezident. Atam daş ustası olub. Öz əlinin zəhməti ilə bu Ağalı kəndində 30-a yaxın ev inşa edib. Təəssüflər olsun ki, erməni vəhşiliyi nəticəsində o evlərdən heç bir əsər-əlamət yoxdur. Ancaq biz kədərlənmirik, əksinə, sevinirik ki, bu gün «ağıllı kənd» layihəsinə start verilir və ikiqat sevinirik ki, bu layihə məhz bizim kəndimizdən başlanır. Bunun üçün Sizə ikiqat təşəkkür edirik, cənab Prezident, var olun.

Cənab Prezident, biz həmişə oktyabr ayında hüznlə bir yerə toplaşırdıq, Zəngilanın işğal gününü qeyd edirdik. Amma bu ildən etibarən biz oktyabr ayında Qələbə gününü, bayram gününü qeyd edəcəyik. Əminəm ki, Siz də bizimlə bir yerdə Ağalı kəndində bayram şənliklərində iştirak edəcəksiniz. Var olun, cənab Prezident, təşəkkür edirəm.

**İlham Əliyev:** Mütləq. Bundan sonra oktyabr ayı zəngilanlılar üçün ancaq bayram ayı olacaq. Çünki həm Ağalı kəndi, həm Zəngilan şəhəri oktyabr ayında azad edildi. Bu gəncin sözlərinə qulaq asaraq bir daha görürük ki, Azərbaycan xalqının nə qədər güclü iradəsi və öz doğma torpağına bağlılığı var. Ermənilərin aləmində əsas ümidverici amil o idi ki, bizim camaat bu yerləri unudacaq, yaşlı camaat unudacaq, sonra vaxt keçəcək yaşlı camaat təbii olaraq,

həyatdan gedəcək. Gənclər, başqa şəraitdə böyüyən insanlar isə heç vaxt buraya qayıtmaq istəməyəcəklər. Bax, bu onların böyük səhvi idi. Çünki biz qəlbində güclü Vətən sevgisi olan bir gənc nəsil tərbiyə edib yetişdirdik. Hətta buranı görməyən hər bir gənc bir arzu ilə yaşayıb ki, qayıtsın öz doğma torpağına, ədalət bərpa olunsun və artıq biz bunu görürük. Ağalı kəndi heç bir il keçmədən yenidən qurulacaq – yəqin ki, siz maketlərdə görmüsünüz, layihə ilə tanış olmusunuz – dünyanın bəlkə də ən mütərəqqi kəndlərindən birinə çevriləcək.

**S a k i n:** Ona görə Sizə minnətdarıq, cənab Prezident, çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Siz də burada yaşamısınız?

**S a k i n:** Bəli, hazırda Sumqayıtda məskunlaşmışıq.

**S a k i n:** Mənim nəvəm Bakıda anadan olub. Ancaq hərbi xidmətini qurtarandan sonra özü gəlmişdi buraya. Gəlib Füzulinin kəndindən zəng etmişdi ki, məndən nigaran olmayın, amma Şuşada imiş. Yəni demək istəyirəm ki, o uşaq burada anadan olmasa da, buranın havası, buranın torpağı, danışdığımız nağıllar o uşağı çəkib buraya gətirdi. Şükür Allaha, sağ-salamatdır, Allah-taala qazilərimizə də şəfa versin. Mehriban xanım, Sizin sayənizdə qazilərimiz xaricdə müalicə alırlar, onlara köməklik göstərirsiniz.

**İ l h a m Ə l i y e v:** Zəngilan çox səfalı yerdir, gözəl yerdir. Dağları, çayları, meşələri.

**S a k i n:** Bizim kəndimizə dəyər verdiyinizə görə, cənab Prezident, Sizə çox minnətdarıq. Allah Sizdən razı olsun.

**S a k i n:** Allah Sizə cansağlığı versin. O körpə uşaq ki var, Siz bir ana kimi, ona qayğı göstərdiniz, Sizə minnətdarıq, çox sağ olun.

**M e h r i b a n Ə l i y e v a:** Çox sağ olun.

**S a k i n:** Bunlar hamımızın ürəyindən gələn sözlərimizdir.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Biz həmişə Sizin arxanızda durmuşuq.

**İ l h a m Ə l i y e v:** Gəlin indi birlikdə təməl daşını qoyaq. Böyük qayıdış bu gün başlayır.

**S a k i n:** İnşallah.

*Daha sonra Prezident İlham Əliyev Zəngilanın Birinci, İkinci, Üçüncü Ağalı kəndlərini əhatə edən birinci «Ağıllı kənd» layihəsinin təməlini qoydu.*

**İ l h a m Ə l i y e v:** «Ağalı kəndində «Ağıllı kənd» layihəsinin təməl daşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur. Qarabağ Azərbaycandır!». Bu yazı gilizdədir.

**S a k i n:** Qoy hamının burada zəhməti olsun.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, bu tarixdir.

**S a k i n:** Xeyirli, uğurlu olsun.

**İ l h a m Ə l i y e v:** Burada da abidə ucaldılacaq.

**S a k i n:** Cənab Prezident, buraya gəlməyən sakinlər də bizə tapşırdılar ki, Sizə təşəkkür edək. Çox sağ olun ki, bizim kəndə belə dəyər verdiniz.

**İ l h a m Ə l i y e v:** Sağ olun, məndən də onlara salam söyləyin.

Gələn ilin əvvəlində, inşallah, Ağalı kəndinin camaatı ilə bir də görüşəcəyik.

*Sonda xatirə şəkilləri çəkdirildi.*

* * *

*Daha sonra Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoydu.*

*Şübhəsiz ki, bu hava limanı bölgənin inkişafında mühüm rol oynayacaq.*

**İlham Əliyev**: Bu gün Zəngilan Beynəlxalq Hava Limanının təməl daşını qoyduq. Yaxın gələcəkdə Zəngilanda Beynəlxalq Hava Limanı inşa ediləcək. Bu hava limanının uçuş-enmə zolağı 3 kilometrə bərabər olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaq.

Azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilibdir. Artıq Füzuli Beynəlxalq Hava Limanının tikintisi uğurla gedir. Bu il Füzuli hava limanının uçuş-enmə zolağı istismara veriləcəkdir. Beləliklə, biz bu il ilk təyyarələri Füzulidə qəbul edə biləcəyik.

Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və Şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə, əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır.

Zəngilanda bu gün birinci kənd layihəsi artıq icra edilməyə başlandı. Ağalı kəndinin təməl daşı qoyuldu. Bu, Böyük Qayıdışın birinci addımıdır. Biz müharibədən bir neçə ay keçəndən sonra artıq bu işlərə də start verdik. İnfrastruktur işləri öz qaydasında davam edir. İndi birinci «Ağıllı kənd» layihəsi olan Ağalı kəndinin bərpasına start verildi. Ağalı kəndi, əslində üç kənd – Birinci, İkinci, Üçüncü Ağalı kəndləri oktyabrın 28-də işğalçılardan azad edilibdir. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu və bu nümunəvi kənd olacaqdır. Çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir. Həm tikiləcək evlər, ictimai binalar, sosial obyektlər, həm də iş yerləri, əkin sahələri müəyyən edilibdir. Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirmək üçün imkanlar verəcəkdir.

Böyük Qayıdış başlandı. Bu gün burada təməl daşını qoyduğum hava limanı dövlətimizin gücünü göstərir. Bir qədər bundan aralıda yeni Horadiz–Zəngilan avtomagistral yolunun təməli də qoyulacaq. Mövcud yola paralel olan 4–6 zolaqlı bu yol geniş imkanlar açacaq. Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti vardır. Bu hadisə münasibətilə zəngilanlıları və Azərbaycan xalqını təbrik edirəm.

* * *

*Sonra Prezident İlham Əliyev Zəngilan–Horadiz avtomobil yolunun təməlini qoydu.*

*İşğaldan azad olunmuş ərazilərdə dövlət başçısının tapşırığı ilə artıq bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilir. Bu layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. Bu baxımdan Zəngilan–Horadiz avtomobil yolu da strateji əhəmiyyəti ilə seçilir. Yolun ümumi uzunluğu 124 kilometrdir və 6 zolaqdan ibarət olacaqdır.*

**İlham Əliyev:** Zəngilan rayonunun təbiəti çox gözəldir. Yaşıl dağlar, meşələr, çaylar – cənnət kimi bir yerdir. Zəngilanı biz cənnətə çevirəcəyik. Adam baxdıqca baxmaq istəyir. Hər tərəf yaşıllıq. Gözəl təbiət, gözəl çay.

**Mehriban Əliyeva:** Bu hansı çaydır?

**İlham Əliyev:** Oxçuçay olmalıdır. Oxçuçay, Bəsitçay. Onu biz dəqiqləşdirərik. Burada çox güman ki, yarımstansiya inşa edilir. Polis məntəqəsi. Toxunulmamış təbiətdir. Gözəl mənzərə açılır. Əsas məsələ odur ki, şəhərlər, kəndlər bərpa olunarkən bu təbiətə toxunulmasın. Çox ciddi nəzarət olmalıdır ki, bizim təbiətimizə ziyan vurulmasın. Baxmayaraq ki, ermənilər bizim təbiətimizə də qəsd ediblər. 54 min hektar meşə zolaqlarını məhv ediblər. Kəsib aparıb satıblar. Amma biz bütün meşələri bərpa edəcəyik.

**Mehriban Əliyeva:** Bu, çinar ağaclarıdır?

**İlham Əliyev:** Bəli, çinar ağacıdır. Bu isə Bəsitçaydır. Zəngilanın gözəl təbiətinin bir hissəsi. Bəsitçay və qədim çinar ağacı. Gözəl Azərbaycanın

gözəl təbiəti. Bu torpaqları biz qaytarmışıq, düşmənin əlindən almışıq. Bundan sonra Azərbaycan xalqı əbədi bu torpaqlarda yaşayacaq.

Qarabağ Azərbaycandır!

* * *

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən bərpa olunacaq Zəngilan məscidinə gəldilər.*

**M e m a r:** Xoş gəlmisiniz, cənab Prezident!

**İ l h a m  Ə l i y e v:** Salam. Məlumat ver, hansı işlər görülür?

**M e m a r:** Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına uyğun olaraq, Fond tərəfindən təşkil olunmuş həm xarici, həm yerli ekspertlərdən ibarət olan komissiya məscidin mövcud binasını qiymətləndirmişdir. Həmçinin bir şeyi də qeyd etmək istəyirəm ki, məşhur Otelye Kummer Agentliyinin nümayəndələri buraya qısamüddətli missiya ilə gəlmiş və mövcud binanı qiymətləndirmişlər. Hazırda bizim tərəfimizdən mövcud binanın konservasiyası və bərpası ilə bağlı təkliflər hazırlanır, o cümlədən bu ərazidə yeni məscidin tikilməsi ilə bağlı təkliflərimizi və layihəni hazırlamışıq.

**İ l h a m  Ə l i y e v:** Yenidən? Qiymətləndirmə nə göstərir? Daşlar belə salamat daşlardır.

**M e m a r:** Biz təklif edərdik ki, daha geniş ərazidə yeni məscid tikilsin. Burada ümumi ərazi 50 sota yaxındır, cənab Prezident. Bu köhnə bina konservasiya olunandan sonra həmin məscid-kompleksin içində qalsın.

**İlham Əliyev:** Baxın, ola bilər ki, əgər bu daşlar, divarlar belə sağlamdırsa, bəlkə bunun üstünü bağlayaq, onu da etmək olar. Təkliflər hazır olanda.

**Mehriban Əliyeva:** Balaca məscid olub, yəqin ki, balaca da olmalıdır.

**İlham Əliyev:** Balaca, özü də birmərtəbəli olub, günbəz o qədər də böyük olmayıb.

**Mehriban Əliyeva:** Minarəsi də olmayıb.

**Memar:** 1988-ci ildə, sovet dönəmində həmin bina qiymətləndirilib.

**İlham Əliyev:** Şəkli olub? Yoxsa tapılmadı?

**Memar:** Sxemləri var.

**İlham Əliyev:** Sxemləri var o vaxtdan?

**Memar:** Bəli. 1988-ci ilin məlumatlarıdır.

**İlham Əliyev:** Belə olub. Faktiki olaraq, bunun bir divarını və dam örtüyünü uçurublar. Üst divar qalıb.

**Mehriban Əliyeva:** Onlar təkliflərdir?

**Memar:** İlkin təkliflərdir.

**İlham Əliyev:** Elə bu daşdan tikilib.

**Mehriban Əliyeva:** Həmin daşdan, içərisi də belə olmuşdu. Təkliflərdə əski divarlar içində qalır?

**Memar:** Bəli, kompleks kimi yaradılır.

**İlham Əliyev:** Bu divarlar içində qalır.

**Memar:** Bu, əlavə tikili idi. Sonradan tikilib, sovet dönəmində, ötən əsrin 30-cu illərində.

**İlham Əliyev:** Əsas bina orada olub?

**Memar:** Bəli, burada məktəb olub, sonra təsərrüfat məqsədləri ilə o binadan istifadə ediblər.

**İlham Əliyev:** Necə olub, elə də bərpa etmək lazımdır.

* * *

*Dövlət başçısı və xanımı məscidin divarına daş hördülər.*

**İlham Əliyev:** Zəngilan məscidi bərpa ediləcək. Bu məscid mənfur düşmən tərəfindən dağıdılıbdır. Müharibədən sonra Zəngilana səfər edərkən buraya da gəldim, mənzərə ilə tanış oldum və bildirdim ki, hər kəs bunu görməlidir. Bütün beynəlxalq təşkilatlar bu erməni vəhşiliyini görməlidir. Bir daha demək istəyirəm ki, bu gün ermənilərə havadarlıq edənlər gəlsinlər, görsünlər bizim məscidlərimizi nə günə qoyublar və təkcə bu məscidi deyil. Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülübdür.

Zəngilan rayonunda yarıdağılmış bəzi məscidlərdən tövlə kimi istifadə olunub, orada donuz saxlanılıb. O videokadrlar vardır. Ağdam məscidində donuz saxlanılıb və bu, bütün müsəlman aləminə qarşı cinayətdir, islam dininə qarşı cinayətdir. Bütün müsəlman dövlətləri bunu görməlidir və biz bu həqiqətləri bütün müsəlman ölkələrinin rəhbərlərinin diqqətinə çatdırırıq. Azad edilmiş torpaqlara bu gün gələn xarici qonaqlar erməni vəhşiliyini öz gözləri ilə görürlər. Bu yaxınlarda Azərbaycanda səfərdə olmuş İslam Əməkdaşlıq Təşkilatının baş katibi öz etiraz səsini ucaltdı. İSESKO-nun baş katibi azad edilmiş torpaqlarda oldu, dağıdılmış Ağdam məscidini gördü və erməni vəhşiliyi haqqında artıq bütün müsəlman ölkələrini məlumatlandırır. Biz də bu işdə fəal olmalıyıq. Bütün dövlət qurumlarına göstəriş verilib, ictimai təşkilatlardan xahiş

edilib ki, bütün beynəlxalq qurumlarda erməni vəhşiliyi haqqında məlumatlar verilsin – faktlarla, sübutlarla, şəkillərlə.

Ermənilər tərəfindən dağıdılmış və təhqir edilmiş bütün dini məbədlərimizin əvvəlki görüntüləri və işğaldan sonrakı görüntüləri tərtib edilir və dünya birliyinin diqqətinə çatdırılır. Bu gün ermənilərin mədəni irsi ilə əlaqədar öz narahatlıqlarını ifadə edən bəzi xarici nümayəndələr, bax, bunu görsünlər, Zəngilan məscidinin qalıqlarını görsünlər, Şuşa məscidlərinin qalıqlarını görsünlər və görsünlər ki, Ermənistan dövləti bizə qarşı mədəni soyqırımı da törədib. Biz isə bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik. Şuşa şəhərində artıq məscidlərin bərpasına start verilib. Ağdam Cümə məscidinin bərpası ilə əlaqədar hazırlıq işləri gedir. Bu gün Zəngilan şəhərində yerləşən məscidin də bərpası, konservasiyası işlərinə start verilir.

* * *

*Daha sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zəngilan rayonunun Mincivan qəsəbəsinə yola düşdülər.*

**İlham Əliyev:** Biz gedirik Mincivan qəsəbəsinə. Mincivan qəsəbəsi qədim yaşayış məntəqəsidir. Orada dəmir yolu stansiyası var idi. Birinci Qarabağ müharibəsindən sonra ermənilər bütün dəmir yolunu söküb aparmışlar. O relslərin bir hissəsini satmışdılar, bir hissəsindən isə tank əleyhinə istehkamlar qurmuşdular. Biz indi yenidən dəmir yolu çəkəcəyik. Bu işlərə start verildi. Mən bir müddət əvvəl

Horadiz qəsəbəsində Horadiz–Ağbənd dəmir yolunun təməl daşını qoydum. Bu dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcəkdir. Əslində Zəngilan rayonu coğrafi baxımdan Şərqi Zəngəzur mahalında yerləşir və Şərqi Zəngəzuru Qərbi Zəngəzurla birləşdirib Naxçıvana dəmir yolu açacağıq və həmçinin avtomobil yolu açılmalıdır.

Buranın da çox gözəl təbiəti vardır – uca dağlar, meşələr. Burada da şiddətli döyüşlər gedib, düşməni sərhədə qədər qovmuşuq, şəhidlər vermişik. Ağbənd qəsəbəsini – Ermənistan sərhədinə yaxın yerləşən o qəsəbəni azad edərək, düz Ermənistan sərhədinə çıxdıq. İndi bu sərhəddə möhkəmlənirik, burada da sərhəd zastavası fəaliyyət göstərir. Bütün sərhədimizi bərpa etmişik.

*Dövlət başçısı erməni işğalçıların viran qoyduğu Mincivan dəmir yolu stansiyası binasının yerləşdiyi əraziyə gəldi.*

**İlham Əliyev:** Bura Mincivan dəmir yolu vağzalı olub. Mənfur düşmən bu binanı da yerlə yeksan edib, dağıdıb, dəmir yolunu söküb, relsləri aparıb, satıb, əridib və tank əleyhinə istehkamların quraşdırılması üçün istifadə edib. Bu bina erməni faşizminin növbəti qurbanıdır, növbəti şahididir. Ermənilər bütün binalarımızı – ictimai binaları, evləri, məscidləri, muzeyləri dağıdıblar, söküblər, talayıblar, daşları oğurlayıb aparıblar, özləri üçün evlər tikiblər.

Biz onları buradan qovduq. Burada şiddətli döyüşlər gedib. Mincivan qəsəbəsi uğrunda şiddətli döyüşlər gedirdi. Bizim Silahlı Qüvvələrimiz burada

böyük qəhrəmanlıq göstərdi, düşməni buradan qovdu və Mincivan qəsəbəsini azad etdi. Bundan sonra Ermənistan sərhədinə qədər, Ağbənd qəsəbəsinə qədər uğurla irəliləyərək, düşməni torpağımızdan çıxartdı. İndi dəmir yolu yenidən qurulacaq, vağzal da həmçinin. Dəmir yolunun yenidən qurulması prosesinə start verilib. Horadizdən Ağbəndə qədər dəmir yolu çəkiləcək. Ondan sonra Zəngəzur dəhlizi ilə dəmir yolu Naxçıvan Muxtar Respublikasına qədər uzadılacaq. Zəngilan coğrafi nöqteyi-nəzərdən Şərqi Zəngəzur bölgəsinə aiddir və Şərqi Zəngəzurda yerləşir. Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcəkdir. Beləliklə, Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcəkdir.

## «BOEİNG COMMERCİAL AİRPLANES» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU STENLİ DİL İLƏ GÖRÜŞ

*28 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də «Boeing Commercial Airplanes» şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul etmişdir.*

**S t e n l i  D i l:** «Boeing» şirkəti adından Azərbaycanla əməkdaşlıq məsələsində liderliyinizə görə Sizə təşəkkürümü ifadə etmək istəyirəm.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm.

**S t e n l i  D i l:** Biz Azərbaycanla bağlı bütün işləri həyata keçirə bilmişik.

**İ l h a m  Ə l i y e v:** Bəli, artıq 20 ildən çoxdur.

**S t e n l i  D i l:** Bəli, 20 ildir ki, iş birliyi aparırıq.

*Prezident İlham Əliyev Azərbaycanın «Boeing» şirkəti ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi, bu əməkdaşlığın hava yollarımızın inkişafında rolundan danışdı. Dövlət başçısı işğaldan azad olunmuş ərazilərimizdə yeni hava limanlarının inşa olunduğunu dedi və bu baxımdan təyyarə parkımızın genişlənəcəyini vurğuladı.*

**İ l h a m  Ə l i y e v:** Sizin də bildiyiniz kimi, biz Azərbaycanda bir neçə hava limanı tikmişik və üç

əlavə hava limanı da işğaldan azad edilmiş ərazilərdə inşa olunacaq.

**Stenli Dil:** Bilirəm, bu çox vacibdir.

**İlham Əliyev:** İki gün bundan əvvəl onlardan birinin təməlini qoydum. Tikintisinə bir neçə ay bundan öncə başladığımız birinci hava limanı isə sentyabrda istismara veriləcək.

**Stenli Dil:** İşlər çox sürətlə gedir.

*Dövlət başçısı ölkəmizin yükdaşıma təyyarələri parkının potensialını da vurğuladı və bu sahədə də əməkdaşlıq üçün imkanları qeyd etdi.*

**İlham Əliyev:** Əminəm ki, bizim uğurlu əməkdaşlığımız davam edəcək. Həmçinin siz bizə yükdaşıma üçün təyyarə parkının inkişafında da kömək etmisiniz.

**Stenli Dil:** Bəli, bu çox vacibdir.

**İlham Əliyev:** Bəli, hesab edirəm ki, Azərbaycan yükdaşıma təyyarələri parkının potensialına görə aparıcı ölkələr sırasındadır.

**Stenli Dil:** Elədir ki var. 2020-ci ildə hava yolu ilə yükdaşımaları sahəsində ən yaxşı daşıyıcı olmaq şərəfinə nail olmağı, bu prosesin iyirmi il öncə başladığını və sizin bu sahədə artıq liderə çevrildiyinizi nəzərə alaraq, bu təqdirəlayiqdir.

**İlham Əliyev:** Bəli, hesab edirəm ki, bu, böyük nailiyyətdir. Çünki bizim regionda belə güclü yükdaşıma parkına o qədər də çox ölkə sahib deyil. Bu bizə kömək edir və əməkdaşlığa xidmət edir.

**Stenli Dil:** Yükdaşıma bacarığına nail olmaq strateji bir məsələdir.

## DÜNYA İQTİSADİ FORUMUNUN PREZİDENTİ BORGE BRENDE İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*28 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 28-də Dünya İqtisadi Forumu prezidentinin təşəbbüsü ilə forumun prezidenti Borge Brende ilə videokonfrans formatında görüşü olmuşdur.*

*Dünya İqtisadi Forumunun prezidenti Borge Brende forumun təsisçisi və icraçı sədri Klaus Şvabın salamlarını dövlət başçımıza çatdırdı.*

*Prezident İlham Əliyev Klaus Şvabın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədrinə çatdırmağı xahiş etdi.*

*Görüşdə ölkəmizlə Dünya İqtisadi Forumu arasında uzunmüddətli səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi, bu əməkdaşlıq çərçivəsində Azərbaycanın Dünya İqtisadi Forumunun bir sıra təşəbbüslərində fəal iştirak etdiyi qeyd olundu. Vurğulandı ki, Azərbaycan ilə Dünya İqtisadi Forumu ölkəmizdə qeyri-neft sektorunun inkişafı sahəsində də uğurla əməkdaşlıq edir.*

*Prezident İlham Əliyev Borge Brendeyə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən infra-*

*struktur layihələri, investisiyaların cəlb olunması barədə məlumat verdi. Dövlət başçısı bildirdi ki, həmin ərazilərdə yenidən qurulma prosesi gedir, qarşıda nəhəng iş durur və böyük bir ərazi tamamilə yenidən qurulacaq. Bildirildi ki, indi səylərin əsas istiqaməti ərazilərin yenidən qurulması olacaq və bu həmçinin ölkə iqtisadiyyatının qeyri-enerji sektoruna, xüsusilə tikinti sahəsinə təkan verəcək. İki gün əvvəl «ağıllı kənd» konsepsiyası ilə yenidən qurulacaq kəndlərin təməlinin qoyulduğunu vurğulayan dövlət başçısı işğaldan azad edilmiş əraziləri «yaşıl zona» elan etdiyini, həmin ərazilərdə «ağıllı şəhər», «ağıllı kənd» konsepsiyasından istifadə olunacağını, şəhərlər üçün baş planların hazırlandığını, enerji istehsalı, elektrik enerjisi, avtomagistrallar, dəmir yolları, hava limanları ilə bağlı infrastruktur layihələrinin həyata keçirildiyini dedi və bu sahədə Dünya İqtisadi Forumu ilə əməkdaşlığın perspektivlərinə toxundu.*

*Söhbət zamanı Azərbaycanda pandemiya ilə mübarizə sahəsində görülən tədbirlər də qeyd edildi, son günlərdə ölkədə sağalanların sayının artması müsbət amil kimi qiymətləndirildi. Azərbaycanda vaksinasiyaya başlanıldığı, əhalimizin 14 faizinin artıq peyvənd olunduğu bildirildi. Azərbaycanın 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərdiyi qeyd edildi, ölkəmizin milli səviyyədə və «Qoşulmama Hərəkatı»nın sədri kimi, qaldırdığı məsələlərdən birinin də dünyada vaksinlərin ədalətli bölgüsü ilə bağlı olduğu diqqətə çatdırıldı.*

*Görüşdə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı mərkəzləri şəbəkəsinin afilə edilmiş*

*Azərbaycan Mərkəzinin fəaliyyəti vurğulandı. Dövlət başçısı MDB regionunda ilk belə mərkəzin məhz Bakıda yaradılmasına görə minnətdarlığını bildirdi, iqtisadiyyatı şaxələndirmək və islahatları davam etdirmək üçün, eləcə də investisiyaları cəlb etmək baxımından mərkəzin rolunu qeyd etdi. Bildirildi ki, bu mərkəzin əsası 2020-ci ildə Davosda Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin niyyət məktubunu imzalaması ilə qoyulub. Mərkəzin fəaliyyətinin təşkili üçün Dünya İqtisadi Forumu ilə sıx əməkdaşlıq artıq təmin olunub. İlkin mərhələdə süni intellekt və rəqəmsal iqtisadiyyatla bağlı təhlillər aparılır.*

*Dövlət başçısı Borge Brendeni Azərbaycana səfərə və mərkəzin fəaliyyəti ilə tanış olmağa dəvət etdi.*

*İndi gənc nəslin təliminə çox böyük diqqət yetirdiyimizi, son illərdə bilikli insanların yeni nəslinin yetişdiyini deyən Prezident İlham Əliyev azərbaycanlı gənclərin təcrübəçi kimi, Dünya İqtisadi Forumunun təşəbbüs və proqramlarında iştirakına imkan yaradıldığına görə Borge Brendeyə təşəkkürünü bildirdi.*

*İnvestisiyaların cəlb edilməsi üçün ölkəmizdə yaxşı mühitin olduğunu deyən Borge Brende azərbaycanlı gənclərin Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi işinə töhfə verəcəklərinə əminliyini bildirdi.*

## ABŞ DÖVLƏT KATİBİ ENTONİ BLİNKEN İLƏ TELEFONLA GÖRÜŞ

*28 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə aprelin 28-də ABŞ-ın Dövlət katibi Entoni Blinken telefonla zəng etmişdir.*

*ABŞ-ın Dövlət katibi Azərbaycan–ABŞ ikitərəfli münasibətlərin inkişafına toxunaraq, əlaqələrin daha da möhkəmləndirilməsinin önəmini bildirdi, enerji təhlükəsizliyi, regional təhlükəsizlik sahələrində əməkdaşlığı qeyd edərək, «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla icra edilməsinin əhəmiyyətini vurğuladı, Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyada iştirakını yüksək qiymətləndirdi.*

*Telefon zənginə görə minnətdarlığını bildirən dövlət başçımız Azərbaycan–ABŞ əlaqələrinin zəngin tarixə malik olduğunu qeyd edərək, «Cənub Qaz Dəhlizi» layihəsinin icrasına verilən dəstəyə görə ABŞ Hökumətinə bir daha təşəkkür etdi. Regional təhlükəsizlik sahəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev Əfqanıstanda sülhməramlı missiyanın fəaliyyətə başladığı ilk mərhələdən Azərbaycanın oradakı iştirakının önəmini vurğuladı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan müharibəsindən sonrakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev bu məsələ ilə bağlı*

*Azərbaycanın mövqeyini çatdırdı, ölkəmizin ermənilər tərəfindən dağıdılmış ərazilərində bərpa işlərinin həyata keçirildiyini qeyd etdi.*

*Prezident İlham Əliyev eyni zamanda, regionda kommunikasiyaların açılmasının önəmini vurğuladı və uzunmüddətli sülhün təmin edilməsi ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev və ABŞ-ın Dövlət katibi ATƏT-in Minsk qrupunun gələcək fəaliyyəti ilə bağlı da fikir mübadiləsi apardılar.*

*Telefon danışığı zamanı tərəflər Azərbaycanda demokratik proseslərin inkişafı, insan haqlarının təmin olunması, siyasi plüralizmin qorunması və təmin edilməsinin önəmini vurğuladılar.*

*Entoni Blinken bu il də «Azadlığa Dəstək Aktı»na 907-ci düzəlişin müvəqqəti dayandırıldığını qeyd etdi.*

*Prezident İlham Əliyev bununla bağlı minnətdarlığını bildirdi.*

*Azərbaycan Prezidenti eyni zamanda, bu günlərdə ABŞ Prezidentinin qondarma «erməni soyqırımı» ilə bağlı bəyanatı ilə əlaqədar qeyd etdi ki, Türkiyə Azərbaycanın yaxın dostu və müttəfiqidir, postmüharibə dövründə bölgəmizdə çox önəmli və müsbət rol oynayır və ABŞ Prezidentinin bu açıqlaması Azərbaycan rəhbərliyi və ictimaiyyəti tərəfindən narahatlıqla qarşılanmışdır.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi – Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin multikultural dəyərlərə, tolerantlıq ənənələrinə və nümunəvi dövlət–din münasibətləri modelinə malik olan ölkəmizdə ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələri yüz illərdir ki, mehriban qonşuluq, dostluq və qardaşlıq mühitində vahid ailə kimi yaşayırlar. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, qarşılıqlı hörmətə və etimada əsaslanan birgəyaşayış mədəniyyətinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin əsas prioritetlərindən biridir.

Müasir dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımız, o cümlədən pravoslav xristianlar ölkədə gedən böyük quruculuq işlərində və respublikamızın sosial-mədəni həyatında fəal iştirak edirlər. Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında xristian həmvətənlərimizin xidmətlərini yüksək qiymətləndirirəm. İnanıram ki, onlar Azərbaycanın tərəqqisi və çiçək-

lənməsi naminə qüvvələrini səfərbər edərək, bundan sonra da əzmlə çalışacaqlar.

Pasxa bayramı paklığı, yeniliyi, dirçəlişi və xeyirxahlığı təcəssüm etdirir. Bu əziz gündə bir daha hər birinizə xoş bayram ovqatı, ailələrinizə əmin-amanlıq, xoşbəxtlik və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2021-ci il*

**İSRAİL DÖVLƏTİNİN
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB REUVEN RİVLİNƏ**

Hörmətli cənab Prezident!

Meron dağında keçirilən dini mərasim zamanı çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi son dərəcə sarsıtdı.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost İsrail xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2021-ci il*

## LİTVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ QABRİELİUS LANDSBERGİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 aprel 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Litva Respublikasının Xarici İşlər naziri Qabrielius Landsbergisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Litva ikitərəfli münasibətləri, regional təhlükəsizlik məsələləri müzakirə olundu. Dövlət başçısı 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycan torpaqlarının işğalı və postmüharibə dövründə yaranmış vəziyyətlə bağlı ölkəmizin mövqeyini çatdırdı.*

*Söhbət zamanı Azərbaycan Respublikası–Avropa İttifaqı əməkdaşlığı məsələləri müzakirə edildi və Azərbaycan Respublikası–Avropa İttifaqı arasında yeni saziş layihəsi üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvarlıq ifadə olundu.*

## SERBİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DRAQAN VLADİSAVLJEVİÇ İLƏ GÖRÜŞ

*3 may 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Draqan Vladisavljeviçin etimadnaməsini qəbul etmişdir.*

*Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**Draqan Vladisavljeviç:** Cənab Prezident, Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfir təyin olunmağımla bağlı etimadnaməni və sələfimin geri çağırılması məktubunu Sizə təqdim etməkdən şərəf hissi duyuram. İcazə verin, Sizə Prezidentimiz Aleksandr Vuçiçin səmimi salamlarını, Sizin və ölkənizin rifahı, inkişafı üçün xoş arzularını çatdırım. Cənab Prezident, qeyd etmək istəyirəm ki, Azərbaycanın həqiqi dostu və strateji tərəfdaşı olan Serbiyanı təmsil etməklə Azərbaycan Respublikasında xidmət etmək imkanına nail olmaq mənim üçün böyük şərəfdir.

Təşəkkür edirəm, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Xoş gəlmisiniz! Cənab səfir, sizi görməyə çox şadam. Ümid edirəm ki, Azərbaycanda çox mənalı vaxt keçirəcəksiniz. Həmçinin sizdən Prezident Vuçiçə ən xoş salamlarımı çatdırmağınızı xahiş edirəm. Bilirsiniz ki, biz çox fəal ünsiyyətdə oluruq və dəfələrlə görüşlərimiz olub. Hesab edirəm ki, prezidentlər arasında çox mehriban münasibətlər var və bu da ölkələr arasında münasibətlər üçün vacibdir. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı siz əməkdaşlığımızı irəli aparmaq üçün əlinizdən gələni edəcəksiniz. Bizim üçün Serbiya ilə əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. Sizin dediyiniz kimi, ölkələrimiz strateji tərəfdaşdır. Əməkdaşlıq sahələri indi bir çox istiqamətləri əhatə edir. Hesab edirəm ki, əsas diqqəti artıq böyük irəliləyiş əldə etdiyimiz sahələrə və fəal əməkdaşlığın ilkin mərhələlərində olduğumuz bəzi sahələrdə hansı işləri görə biləcəyimiz məsələsinə yetirməliyik.

Beynəlxalq təşkilatlarda tərəfdaşlığımıza gəldikdə, əminəm ki, biz bir-birimizi dəstəkləməyə, bir-birimizin maraqlarını müdafiə etməyə davam edəcəyik. Biz artıq bir sıra beynəlxalq təşkilatlarda çox yüksək səviyyəli həmrəylik nümayiş etdiririk. Bu vacibdir. Çünki bu həqiqətən də bizim əməkdaşlığın səmimi mahiyyətini əks etdirir.

İkitərəfli münasibətlərə gəldikdə, əlbəttə ki, çox yüksək səviyyəli siyasi təmasların olmasını nəzərə alaraq, biz iqtisadi inkişaf sahəsi üzərində diqqətimizi cəmləməliyik. Siz bilirsiniz ki, biz indi işğaldan azad olunmuş ərazilərdə yenidən qurulma işlərinin ilkin mərhələsindəyik. Ümidvaram ki, Serbiya şirkətləri

də dost ölkələrin şirkətləri kimi fəal olacaqlar, gələcəklər, onlara bizim planlarımızla bağlı ilkin məlumat təqdim olunacaq. Onlar dost ölkələrdən olan beynəlxalq şirkətlər komandasına qoşularaq, yenidən qurulmada iştirak edəcəklər. Düşünürəm ki, diqqəti cəmləşdirəcək çoxlu sahələr olacaq. Əminəm ki, Azərbaycanda görəcək işləriniz çox olacaq. Sizə vəzifələrinizi uğurla həyata keçirməyi arzulayıram.

**Draqan Vladisavljeviç:** Təşəkkür edirəm, cənab Prezident. Zati-aliləri möhtərəm Prezident, ilk növbədə, icazə verin, Azərbaycan Respublikasında olmaqdan və burada xidmət etmək imkanına sahib olmaqdan böyük şərəf duyduğumu bir daha təkrarlayım. Mənim təyinatım Serbiya Respublikasının Prezidenti cənab Aleksandr Vuçiçin şəxsi istəyi olub. Buraya gəlişimdən əvvəl bizim təkbətək görüşümüzdə Prezident Vuçiç məndən aşağıdakı mesajları Sizə çatdırmağımı xahiş etdi. İlk növbədə, Prezident Vuçiç Sizə ən səmimi salamlarını çatdırır və Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınız və ölkəniz üçün gördüyünüz hər bir işdə uğurlar arzulayır. Prezident Vuçiç şəxsən Sizinlə dostluğu və dövlətlərimiz arasındakı dostluğu yüksək qiymətləndirir. O, Serbiya Respublikasının dost Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü tam şəkildə dəstəklədiyini xüsusi vurğuladı, ölkələrimiz arasındakı mövcud strateji tərəfdaşlığı yüksək qiymətləndirdiyini və onu qoruyub saxlamaq, daha da gücləndirmək arzusunda olduğunu bildirdi. Prezident məndən dövlətlərimiz arasında əməkdaşlığın yüksək səviyyədə, həmçinin

yüksək siyasi səviyyədə daha da təşviq etdirilməsində yaxından iştirak etməyimi xahiş etdi.

Mən Prezident Vuçiçin Sizin Serbiyaya rəsmi səfər etməyinizlə bağlı dəvətini çatdırmaq istərdim. O qeyd etdi ki, həm rəsmi Bakının, həm də rəsmi Belqradın qarşısında «Qoşulmama Hərəkatı»nın və Belqradda keçirilmiş 1-ci sammitin 60-cı ildönümünün təşkili ilə bağlı fəal iş durur. O, hərəkatın təsisçisi olan dövlətlərin – Hindistan, Misir, İndoneziya və Qananın liderlərini və Hərəkatın sədri olaraq, Sizi bu münasibətlə dəvət etmək niyyətindədir. Siz Prezident Vuçiçlə birlikdə tədbirə ev sahibliyi edəcəksiniz. O vurğuladı ki, bu onun şəxsi təşəbbüsüdür və sammit sizin üçün, Azərbaycan Respublikası və Serbiya Respublikası üçün tarixi əhəmiyyət kəsb edəcək.

## TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ CAHİT BAĞÇI İLƏ GÖRÜŞ

*3 may 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Cahit Bağçının etimadnaməsini qəbul etmişdir.*

*Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Əminəm ki, Azərbaycanda günləriniz xoş keçəcək. Əslində Vətəninizdəsiniz və əminəm ki, burada özünüzü evinizdəki kimi hiss edəcəksiniz.

Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq. İkinci Qarabağ müharibəsi bunu bütün dünyaya bir daha göstərdi ki, Türkiyə, Azərbaycan bir yerdədir və əziz qardaşımın, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilk saatlardan bizi ruhlandırdı. Çünki müharibənin ilk saatlarından başlayaraq, Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək verdi. Bu mənəvi və siyasi dəstək müharibənin son gününə qədər göstərildi. İkinci Qarabağ müharibəsində Qələbəmiz bölgədə yeni bir reallıq yaratdı. Türkiyə və Azər-

baycan bölgədə öz imkanlarını genişləndirdi, bizim rolumuz, təsir imkanlarımız artdı və artacaqdır. Birgə həyata keçirdiyimiz bütün layihələr, təşəbbüslər bölgədə sabitliyin, sülhün təmin edilməsi üçün önəmli rol oynayır.

Bizim əlaqələrimiz haqqında saatlarla danışmaq olar, siz bütün bunları yaxşı bilirsiniz. Əlaqələrimizin təməlində xalqlarımızın qardaşlığı və liderlərin siyasi iradəsi dayanır. Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bundan sonra da bütün məsələlərdə bir-birini dəstəkləyəcək, bütün məsələlərdə bir-birinin yanında olacaq və öz əməli işləri, addımları ilə yaşadığımız bölgədə sülhün bərqərar olmasında səylərini davam etdirəcəkdir.

Mən əminəm ki, siz fəaliyyətiniz müddətində bu əlaqələrin daha da inkişaf etməsi üçün öz səylərinizi göstərəcəksiniz. Sizə uğurlar arzulayıram və «Azərbaycana – Vətəninizə xoş gəlmisiniz!» –deyirəm.

**Cahit Bağçı**: Xoş gördük, cənab Prezident. İlk növbədə, məni qəbul etdiyiniz üçün təşəkkür edirəm, zati-alinizi və hörmətli Mehriban xanımı salamlayıram.

Cənab Prezidentimizin Sizə salamları və ehtiramı var. Zəfəriniz mübarəkdir, təbrik edirik. İnşallah, mən fəaliyyət dönəmimdə əlaqələrimizin daha da inkişafına, daha da irəli aparılmasına səy göstərəcəyəm. Çox təşəkkür edirəm.

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.*

## QEYDLƏR

**1. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda şəhər. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilsə də, 1994-cü ildə keçirilən «Horadiz əməliyyatı» zamanı işğaldan azad edilib.

27 sentyabr 2020-ci ildə Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyat nəticəsində işğaldan tamamilə azad edilmişdir. – 5, 208, 254, 273, 297, 298, 303, 304.

**2. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dek-

retinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 5, 9, 10, 18, 19, 20–25, 33–38, 40, 46, 52, 53, 58, 103, 104, 110, 111, 122, 127, 129, 130, 136, 159, 206–209, 235, 236, 254, 261, 292, 294, 302.

**3. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 5, 36, 82, 130, 140, 152, 153, 170, 191, 206, 208, 209, 254–256, 272, 278, 284, 288, 291, 292, 294–298, 301, 302, 304.

**4. Füzuli**– Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildən ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 5–10,

36, 55, 81, 105, 127, 129, 133, 135, 161, 191, 206, 208, 209, 235, 245, 254, 256, 277, 294, 296.

**5. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 6, 13, 15, 16, 18, 19, 21, 22, 24, 25, 44, 227, 231, 232, 264, 265, 272, 278 , 288, 298–300, 302.

**6. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 5, 6, 13, 15, 16, 18, 19, 21, 22, 25, 272, 278, 288, 299, 302.

**7. Ağoğlan** (*Hadrut*) – Azərbaycan Respublikasının Xocavənd rayonu inzibati ərazi dairəsində qəsəbə. Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğal edilmişdir.

9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilmişdir. – 5, 6, 8–13, 36, 138, 207, 254.

**8. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 $km^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmidir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 5, 38, 54, 80, 81, 105, 122, 133, 135, 146–148, 161, 206, 208, 209, 245, 254–256, 270, 301, 302.

**9. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 6, 8, 9, 12,

36, 82, 105, 130, 152, 191, 208, 209, 254, 256, 272, 277.

**10. Birinci Qarabağ müharibəsi** – 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər, əsasən 1992-ci ildə başlanmışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 6, 39, 88, 100, 107, 139, 156, 160, 181, 189, 289, 302.

**11. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. Öncə ərazisi 4161 kv.km idi, sonralar bura müxtəlif ərazilər də daxil edilərək ərazisi 4400 kv.km-dək geniş-

ləndirilmişdir. 1988-ci ilə qədər burada 170 min əhali yaşayırdı.

DQMV inzibati ərazi vahidi kimi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilmişdir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başlamışdır.

Azərbaycan ordusunun 2020-ci il 27 sentyabrda başladığı əməliyyatların bir hissəsi keçmiş DQMV ərazilərində həyata keçirildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri düşmən işğalından azad edildi. Azərbaycan ordusunun keçmiş DQMV ərazilərində irəliləməsi Ermənistanı sülhə məcbur etdi. – 9, 10, 11, 15, 17, 22, 26, 32, 33, 35, 40, 51–54, 57–59, 64, 81, 88, 91, 95, 103, 109, 110, 113, 120, 126, 131, 133, 135, 137–139, 141, 146, 150–153, 165, 166, 174, 177, 182, 190, 195–198, 207, 209, 217, 219, 220, 225, 227, 252, 282, 284, 287, 292, 295, 296, 299.

**12. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 12, 55, 56, 150, 169, 170, 175, 176, 178, 190, 221, 258, 303, 304.

**13. Azıx mağarası** – Qarabağın Xocavənd rayonunun Azıx və Salakətin kəndləri arasında, Füzuli şəhərindən 14 km şimal-qərbdə, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən mağara kompleksi. Azıx mağarasının sahəsi 800 kv km-dir. Azıx mağarası Daş dövrü insanlarının yaşayış yeri kimi məşhurdur. Mağara 1960-cı ildə Məmmədəli Hüseynovun rəhbərliyi ilə AMEA-nın «Paleolit Arxeoloji Ekspedisiyası» tərəfindən aşkar olunmuşdur. Aparılmış tədqiqat işləri zamanı 10 mədəni təbəqə aşkarlanmışdır. 1968-ci ilin iyununda Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Azıx düşərgəsinin V təbəqəsinin IV horizontunda apardığı arxeoloji qazıntılar zamanı bir neçə daş məmulatı ilə birlikdə ibtidai insana məxsus çənə aşkar olunmuşdur. – 16, 17, 18.

**14. Məmmədəli Hüseynov,** Məmmədəli Murad oğlu (1922–1994) – Azərbaycanlı alim, paleontoloq, Azərbaycan paleontologiyası məktəbinin banisi, arxeoloq. Tarix elmlər doktoru, professor, Azıx paleolit düşərgəsinin ilk tədqiqatçısı. 1971–1994-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu Daş dövrü arxeologiyası şöbəsinə rəhbərlik etmişdir. O eyni zamanda, 1976–93-cü illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təşkil olunmuş Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri olmuşdur. Məmmədəli Hüseynovun rəhbərliyi altında 1956-cı ildə Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyində pa-

leolit arxeoloji ekspedisiyası təşkil olunmuşdur. Onun rəhbərliyi altında 1956–58-ci illərdə Qazax rayonu ərazisində olan Damcılı mağara düşərgəsində arxeoloji qazıntı işləri aparılmış və paleolit mədəniyyətinə aid zəngin maddi-mədəniyyət nümunələri tapılmışdır. Məmmədəli Hüseynov 1958-ci ildə Qazax rayonu ərazisində kəşfiyyat işləri aparmış və Daşsalahlı mustye düşərgəsini aşkar etmişdir. Daşsalahlı düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı mustye mədəniyyətinə aid zəngin elmi materiallar tapılmışdır. 1960-cı ildə o, Qarabağın Quruçay və Köndələnçay sahillərində arxeoloji kəşfiyyat işləri aparmış və çoxtəbəqəli Azıx və Tağlar paleolit düşərgələrini aşkar etmişdir. – 16.

**15. Natəvan,** X u r ş i d b a n u x a n q ı z ı (1832–1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 18, 20.

**16. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının, həmçinin şərqdə ilk

operanın banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 18.

**17. Molla Pənah Vaqif,** Pənah Mehdi ağa oğlu (1717) – XVIII əsr Azərbaycan şairi, məşhur ictimai və siyasi xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri. Vaqif lirikasının əsas xüsusiyyətləri millilik, xəlqilik, realizm, sadəlik və nikbinlikdir. Vaqif yaradıcılığında «Badi-səba, bir xəbər ver könlümə», «Namə gedər olsan yarın kuyinə», «Bayram oldu», «Gözlərin cəlladdır, baxışın yağı», «Durnalar», «Heyran olmuşam» və s. şeirləri xüsusi yer tutur. 12 yanvar 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. – 18, 19, 20, 21.

**18. Bülbül,** Murtuza Məşədi Rza oğlu (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı, SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. Yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. – 18.

**19. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli

dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quru-

culuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 19, 21, 48,

56, 58, 61, 80, 109, 111, 112, 125–128, 199, 213, 223–226, 229, 238.

**20. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 19, 21, 299.

**21. Pənah xan,** P ə n a h ə l i  x a n (1693–1763) Qarabağ xanlığının yaradıcısı və birinci hakimi. Cavanşir xanları sülaləsinin əsasını qoymuşdur. – 20, 24, 37, 206.

**22. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci ildə imzalanan

üçtərəfli bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 25, 35, 36, 110, 111, 112, 140, 152, 177, 191, 210, 256, 277.

**23. Tomas Bax** (d.1953) – alman və beynəlxalq olimpiya hərəkatının nümayəndələrindən biri. 2013-cü ildən Beynəlxalq Olimpiya Komitəsinin prezidentidir. – 27.

**24. Slovakiya,** S l o v a k i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min $km^2$, əhalisi 5,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislava şəhəridir. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 28.

**25. Arif Alvi** (d.1949) – Pakistanın siyasi və dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 29.

**26. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 29, 30, 158, 159, 160, 210.

**27. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də) keçirilir. Qədim zamanlardan başlayaraq, İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırdı. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir. – 31, 32, 67.

**28. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 km$^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. – 36, 112, 122, 127, 152, 160, 191, 210, 235, 254, 277.

**29. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Əhalisi 40,2 min

nəfər, sahəsi 802 $km^2$-dir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 36, 82, 130, 140, 206, 277.

**30. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir Yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış üçtərəfli bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq

Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 39, 49, 53, 98, 107, 112, 116, 118, 120, 122, 130, 160, 181, 221.

**31. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 41, 42.

**32. Ziya Bünyadov,** Z i y a M u s a o ğ l u (1923–1997) – görkəmli Azərbaycan şərqşünası, tarixçi. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı. Tarix elmləri doktoru. Akademik Vasim Məmmədəliyevlə birlikdə Quranın Azərbaycan dilinə tərcüməçisi, Sovet İttifaqı Qəhrəmanı. – 43.

**33. Sahil Babayev,** S a h i l R a f i q o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999– 2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İnvestisiyalar İdarəsinin Hüquq Departamentinin baş mütəxəssisi və müdiri vəzifələrində çalışmışdır. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbə-

sinin, 2011–2014-cü illərdə isə Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq şöbəsinin müdiri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə isə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdir. 2018-ci ildən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 43, 44.

**34. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 47, 48, 56.

**35. Türk Şurası** – 3 oktyabr 2009-cu ildə Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan arasında qurulmuş beynəlxalq təşkilat. Türk Şurasının üç mərkəzi vardır. İstanbul Ümumi katibliyin, Bakı Parlamentar Assambleyanın, Nur-Sultan isə Türk Akademiyasının mərkəzidir. – 47, 49, 54, 57, 58, 59, 62, 69, 85, 94.

**36. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın birinci Prezidenti – elbası, Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri,

1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti, 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər isə Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 47–49.

**37. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 47–49, 155.

**38. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 48, 56, 60, 64, 65, 91, 97, 119, 137, 139, 140, 154, 163, 164, 166, 168–170, 174, 177–179, 188, 190, 194, 197, 200, 206, 207, 210, 221, 228, 239, 254, 258–262.

**39. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayən-

dələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 48, 279, 282, 287.

**40. İrəvan** – qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq, ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdir. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII– IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şah (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 48, 114, 115, 140, 147, 173, 176, 179.

**41. Türkiyə,** Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 83 milyon nəfərdir. İn-

zibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 48, 53, 54, 56, 57, 62, 63, 71, 72, 96, 98, 99, 100, 145, 146, 148–150, 154, 157, 160, 168–173, 187–190, 192, 194, 198, 199, 205, 221, 254, 266, 279, 280, 281, 287, 311, 320, 321.

**42. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur. XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 48.

**43. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 49, 70, 85, 94, 95, 117, 186, 268.

**44. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 50, 57, 110, 134, 160, 162, 269.

**45. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 50, 116, 165, 166, 221, 223, 269, 270.

**46. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 50, 201.

**47. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkatda sədrlik 2019–2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 50, 54, 70, 85, 94, 96, 116, 117, 154, 230, 268, 269, 308.

**48. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 50, 54, 87, 90, 116, 301.

**49. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avropa Parlamenti məcburi xarakter daşımayan qərar verir. Avropa Parlamenti beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avropa Parlamenti Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 50, 116.

**50. Avropa Şurası Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. Üzv dövlətlərin məclis üzvlərinin təmsil olunduğu Parlament Assambleyası 324 deputatdan ibarətdir. Assambleya baş katibi, İnsan hüquqları üzrə komissarı və Avropa İnsan Hüquqları Məh-

kəməsinin hakimlərini seçir. Mənzil-qərargahı Strasburqda yerləşir. – 50, 116.

**51. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. – 50, 116, 136, 137, 199, 200, 202, 221, 311.

**52. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 51, 66, 107, 136, 141, 172, 200, 202, 204, 205, 266, 310, 311.

**53. 10 noyabr Bəyanatı** – Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezi-

denti və Ermənistanın baş naziri arasında imzalanmış, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistanın nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi haqqında müqavilə. – 53, 64, 91, 112, 166, 206, 270.

**54. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 53, 54, 57, 62, 71, 98, 168, 266, 320, 321.

**55. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 km$^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan

Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 55, 56, 111, 169, 170, 176, 183, 192, 194, 195, 292, 296, 303.

**56. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 56, 297, 303, 304.

**57. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Na-

zir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 56, 82, 130, 154, 169, 170, 191–195, 221, 275, 276.

**58. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2003–2006-cı illərdə Özbəkistan Respublikasının Baş Naziri olmuşdur. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 58.

**59. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min $km^2$, əhalisi 34 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 58, 155, 239.

**60. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min $km^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 59.

**61. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) –Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistanın Prezidentidir. – 59.

**62. Sadır Japarov** (d.1968) – qırğız siyasətçisi və dövlət xadimi. 2021-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 59.

**63. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min $km^2$, əhalisi 6 milyon nə-

fərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 59.

**64. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 59.

**65. Aleksey Overçuk** (d.1964) – Rusiyanın dövlət və siyasi xadimi. Rusiya Federasiyası Hökumət sədrinin müavini. – 60, 61, 64.

**66. Səlcuq Bayraktar** (d.1979) – Türk iş adamı, mühəndis, Türkiyənin ilk yerli istehsalı olan S/İHA sistemi «Baykar Bayraktar TB2»nin memarı, «Baykar Savunma» nın texniki direktoru. Komandası ilə yaratdığı «Bayraktar TB2» pilotsuz uçuş aparatları Türkiyə Ordusu PKK-ya qarşı hərbi əməliyyatlar, Suriyada vətəndaş müharibəsi, Liviyadakı ikinci vətəndaş müharibəsində geniş şəkildə istifadə edilmişdir. Səlcuq Bayraktar Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil olan ilk pilotsuz uçuş aparatı «Bayraktar Mini PUA»nın yaradıcısı olmuşdur. Türkiyənin ilk hücum pilotsuz uçuş aparatı «Bayraktar Akıncının» (PUA) yaradılmasında da xüsusi əməyi olmuşdur. İkinci Qarabağ müharibəsində istifadə olunan bu texnikalar qazanılan böyük Zəfərə öz töhvəsini vermiş, bu fəaliyyətlərinə görə Səlcuq Bay-

raktar Azərbaycan Respublikasının «Qarabağ» ordeni ilə təltif olunmuşdur. – 62, 63.

**67. Vladimir Putin** (d.1952) –2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 64, 91, 163, 164, 168.

**68. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 66, 67, 68, 153, 171.

**69. Trans – Anadolu qaz boru kəməri** – TANAP Layihəsi Xəzər Dənizinin Azərbaycan sektorundakı «Şahdəniz-2» yatağından və Xəzər Dənizinin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və öz növbəsində bu ölkədən Avropaya nəqlini nəzərdə tutur. TANAP Layihəsinin Gürcüstan–Tür-

kiyə sərhədindən başlayaraq CQBK sisteminə birləşməsi, Türkiyə ərazisindən keçərək Türkiyə–Yunanıstan sərhədində başa çatması və sonra təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşməsi planlaşdırılır. TANAP Layihəsi təbii qazın Şahdəniz və eyni zamanda Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard kubmetr qaz ötürülməsi nəzərdə tutulur. – 67.

**70. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 67, 142, 310.

**71. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 69, 70, 84, 85.

**72. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya, Baş Assambleyanın sessiyalarıarası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi

Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 69, 85, 94, 96, 116, 268.

**73. Ruhsar Pekcan** (d.1958) – Türkiyə siyasətçisi, mühəndis-elektrik. 2018-ci ildən Türkiyə Cümhuriyyətinin Ticarət naziridir. – 71.

**74. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 86, 88, 95, 96, 116, 267.

**75. II Elizabet** (d.1926) – Böyük Britaniya Kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 92.

**76. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı–

Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 92, 93, 107, 145, 165.

**77. Boris Conson** (d.1964) – Britaniya siyasətçisi. 2019-cu ildən Mühafizəkarlar Partiyasının lideri və Böyük Britaniyanın Baş Naziridir. – 93.

**78. UNESKO** – BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 95.

**79. İqor Krasnov** (d.1975) – Rusiyanın dövlət və siyasi xadimi. 2020-ci ildən Rusiya Federasiyasının Baş prokurorudur. – 97.

**80. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şə-

həri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 114, 115, 196.

**81. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 118, 170, 171.

**82. Aprel döyüşləri –** 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələri ilə Ermənistan silahlı qüvvələri arasında işğal olunmuş bəzi ərazilərimizin azad olunması əməliyyatı. Döyüşlər

Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş – Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi tərəfindəki yollar tamamilə erməni tapdağından azad edilmişdir. – 119.

**83. Xudafərin körpüsü** – Azərbaycan və İranı birləşdirən, Azərbaycanın Cəbrayıl rayonu ərazisində yerləşən, Araz çayı üzərində salınmış körpü. Xudafərin körpüsü 1027-ci ildə Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd tərəfindən Rəvvadilərlə mübarizə aparmaq üçün inşa olunub. Unikal memarlıq abidəsi olan körpüdə Azərbaycan memarlıq məktəbinin üslubu izlənilməkdədir. Təbii qayalar üzərində inşa edilən körpünün bir hissəsi dövrümüzə qədər gəlib çatıb. Ermənistan silahlı qüvvələrinin 1993-cü ildə işğal etdiyi Cəbrayıl rayonunda yerləşən Xudafərin körpüsü üzərində 18 oktyabr 2020-ci ildə Azərbaycan bayrağı ucaldıldı. – 130, 276.

**84. Azərbaycan Diplomatik Akademiyası** (ADA Universiteti) – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit kimi sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində

aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 132–134.

**85. Hafiz Paşayev,** H a f i z M i r C ə l a l o ğ l u (d.1941) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Xarici İşlər nazirinin müavini, diplomat, ADA Universitetinin rektoru. 1993–2006-cı illərdə ABŞ-da (eyni zamanda, Meksika və Kanadada) Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur.

Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 132, 134, 187.

**86. Hikmət Hacıyev**, H i k m ə t F ə r h a d o ğ l u (d.1979) – Azərbaycan Respublikası Prezident Administrasiyası Xarici Əlaqələr şöbəsinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi. 2014–2018-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri olmuşdur. – 136, 187.

**87. Beynəlxalq Qırmızı Xaç Komitəsi** – xüsusi xeyriyyə təşkilatı olaraq, 1863-cü ildə İsveçrənin Cenevrə şəhərində yaradılmışdır. Təşkilatın 25 üzv komitəsi beynəlxalq humanitar hüquqa uyğun olaraq, beynəlxalq və daxili silahlı münaqişə qurbanlarının həyat və ləyaqətlərinin qorunmasında xüsusi hüquqa sahibdir. Təşkilat üç dəfə Nobel Sülh Mükafatına layiq görülmüşdür. – 139.

**88. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 143.

**89. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 143, 144, 176, 177, 184, 185, 186, 315.

**90. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 154, 167–170, 179, 242.

**91. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşmış

orqanı. BMT-nin Bretton-Vudsda keçirilmiş konfransının qərarına əsasən, 1944-cü ildə yaradılıb, 1947-ci ildən isə əməliyyatlara başlayıbdır. Mənzil-qərargahı Vaşinqtonda yerləşir. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 156.

**92. Gəncə terroru** – İkinci Qarabağ müharibəsi zamanı Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən bombalanması ilə törədilən terror aktları. Mülki şəxsləri hədəf alan hücumlar nəticəsində 27 nəfər ölmüş, 125 nəfər yaralanmışdır. Hücumlardan həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da vardır. Terror aktları nəticəsində şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ciddi ziyan dəymişdir. Bununla da Ermənistan yenə beynəlxalq hüququn norma və prinsiplərini, insan haqlarını kobudcasına pozmuş, qeyri-insani əməllərinin arealını genişləndirmişdir. – 159, 161.

**93. Bərdə terroru** – Ermənistan silahlı qüvvələri tərəfindən 2020-ci il oktyabrın 27-də Bərdə rayonu-

nun Qarayusifli kəndinə, oktyabrın 28-də isə Bərdə şəhərinə olan raket hücumları. Hücumlar nəticəsində 27 nəfər ölmüş, 80 nəfərdən artıq insan isə yaralanmışdır. – 159, 161.

**94. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 171.

**95. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Fe-

derativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 174.

**96. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 174, 211–221, 223, 224, 226–229.

**97. İsrail Dövləti –** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail Dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 180, 195, 196, 284, 285, 287, 314.

**98. Kürəkçay sazişi** – 1805-ci il 14 may tarixində imzalanmış Qarabağ və Şəki xanlıqlarının Rusiya tərəfinə keçməsi barədə müqavilə. – 206, 207.

**99. «Facebook»** – dünyanın ən böyük sosial şəbəkəsi. Sosial əlaqə və informasiya mübadiləsinin möhkəmləndirilməsi məqsədilə 2004-cü ildə Mark Zuckerberg tərəfindən yaradılmışdır. – 210.

**100. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət və siyasi xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 211–213, 216–224, 228.

**101. İnam Kərimov,** İnam İmdad oğlu (d.1977) – 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri, 2018-ci ilin aprelindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 216, 278–280, 283, 285.

**102. Ceyhun Bayramov,** Ceyhun Əziz oğlu (d.1973) – iqtisadçı-hüquqşünas. 2018–2020-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. 16 iyul 2020-ci ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 216.

**103. Mikayıl Cabbarov,** Mikayıl Çingiz oğlu (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə

isə Vergilər naziri olmuşdur. 23 oktyabr 2019-cu ildən İqtisadiyyat naziridir. – 241.

**104. «Azərbaycan Televiziya və Radio Verilişləri» QSC** (AzTV) – Azərbaycanın ilk milli televiziya kanalı. Azərbaycan televiziyası 1956-cı il fevralın 14-də yayıma başlamışdır. Kanada, Rusiya, Türkiyə kimi ölkələrdə müxbir məntəqələri fəaliyyət göstərir. – 249.

**105. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində

62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 257.

**106. Elçin Quliyev,** E l ç i n İ s a a ğ a o ğ l u (d.1967) – azərbaycanlı dövlət və siyasi xadimi, Azərbaycan Silahlı Qüvvələrinin general-polkovniki, Dövlət Sərhəd Xidmətinin rəisi, Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəisi – Sərhəd Qoşunları Komandanı, Azərbaycan Milli Təhlükəsizlik Nazirinin müavini – Sərhəd Qoşunları Komandanı. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı», «Rəşadət», «Zəfər» ordenləri ilə təltif edilmişdir. – 273, 274.

**107. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 301.

**108. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u (DİF) – İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. 1971-ci ildə yaradılmışdır. Ötən əsrin 70-ci illərinin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri olan sahibkarlar dəvət edilməyə başlandı. 1987-ci ildən etibarən DİF Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Davos forumu üçün ənənəvi şəkildə illik keçirilən görüşlər xarakterikdir. DİF-in

hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. 27–31 yanvar 1995-ci ildə Heydər Əliyev ilk dəfə olaraq Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunan görüş keçirilib və Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib. – 307–309.

**109. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla

mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 309.

## Şəxsi adlar göstəricisi


**Axundov Emin** – 238, 239
**Alvi Arif** – 29
**Amreyev Bağdad** – 58, 59
**Aygör Cəngiz** – 240
**Arhan Çağrı** – 198
**Babayev Sahil** – 43, 44
**Bağcı Cahit** – 320, 321
**Bax Tomas** – 27
**Bayden Co** – 205, 266
**Bayraktar Səlçuk** – 62, 63
**Bayramov Ceyhun** – 216
**Berdıməhəmmədov Qurbanqulu** – 59
**Bəşirov Elxan** – 240
**Blinken Entoni** – 310, 311
**Bozkır Volkan** – 94, 96
**Brayzə Metyu** – 136
**Brende Borge** – 307, 309
**Bülbül** – 18
**Bünyadov Ziya** – 43
**Cabbarov Mikayıl** – 241
**Conson Boris** – 93
**Çifu Yulian** – 176

**Dil Stenli** – 305, 306
**II Elizabet** – 92
**Əhmədov Vüqar** – 246
**Əkrəm Xalid** – 158, 210
**Ələkbərov Anar** – 19
**Ələkbərov Babək** – 129
**Əliyev Heydər** – 19, 21, 48, 56, 58, 61, 80, 109, 111, 112, 125–128, 199, 213, 223–226, 229, 238
**Əliyeva Leyla** – 5, 6, 13, 15, 16, 18, 19, 21, 22, 25, 272, 278, 288, 299, 302
**Əliyeva Mehriban** – 5, 6, 13, 15, 16, 18, 19, 21, 22, 24, 25, 44, 227, 231, 232, 264, 265, 272, 278 , 288, 298–300, 302
**Əl-Məktum Həmdan** – 41,42
**Əl-Məktum Məhəmməd** – 42
**Əl-Nəhəyyan bin Zaid** – 41
**Əl-Osaymin Yusif** – 87, 89
**Ərdoğan Rəcəb Tayyib** – 53, 54, 57, 62, 71, 98, 168, 203, 266, 320, 321
**Frappi Karlo** – 142
**Filip** (*şahzadə*) – 92, 93
**Gelleh Ömər** – 230

**Göksəl Nigar** – 146
**Görgün Haluk** – 62
**Gvimradze George** – 167
**Grisoliya Cüzeppe** – 286
**Hacıbəyli Üzeyir** – 18
**Hacıyev Hikmət** – 136, 187
**Hudulov Ramazan** – 127
**Hüseynov Məmmədəli** – 16
**Xaliqi Vəli** – 191
**Xəlilov Elşən** – 242–244
**Xəlilov Rüstəm** – 238
**Xurşidbanu Natəvan** – 18, 20
**İbrahim xan** – 206
**Japarov Sadır** – 59
**Karaşahir Ramazan** – 241
**Kərimov Aydın** – 23, 25
**Kərimov İnam** – 216, 278–280, 283, 285
**Klayn Stiven** – 195
**Klüqe Hans** – 69
**Korçok İvan** – 28
**Kornel Svante** – 154
**Krasnov İqor** – 97
**Krupko İvan** – 216
**Kuzio Taras** – 201
**Qasımov Bünyad** – 232, 233
**Qebreyesus Tedros** – 69, 70, 84, 86

**Quliyev Elçin** – 273, 274
**Landsbergis Qabrielius** – 315
**Lukaşenko Aleksandr** – 211–213, 216–224, 228
**Mattarella Sercio** – 143
**Makey Vladimir** – 216
**Mayklz Sara** – 68
**Məmmədov Nurlan** – 126
**Mikayılov Zaur** – 73, 83
**Mirziyoyev Şavkat** – 58
**Molineus Sebastian** – 66–68
**Molla Pənah Vaqif** – 18, 19, 20, 21
**Naxçıvanski Cəmşid** – 128
**Nağıyev Fuad** – 265
**Nazarbayev Nursultan** – 47–49
**Orban Viktor** – 59
**Overçuk Aleksey** – 60, 61, 64
**Özoral Ərkan** – 98, 99
**Paşayev Hafiz** – 132, 134, 187
**Peskov Dmitri** – 163
**Pekcan Ruhsar** – 71
**Pənahəli xan** – 20, 24, 37, 206
**Pol Amanda** – 184, 187
**Pritçin Stanislav** – 150
**Putin Vladimir** – 64, 91, 163, 164, 168
**Reynoldz Maykl** – 141, 172
**Rivlin Reuven** – 314

**Rzayev Baba** – 235 , 236
**Səfərli Gündüz** – 124
**Summut Dennis** – 165
**Şaffer Brenda** – 180
**Şvab Klaus** – 307
**Tokayev Kasım-Jomart** – 47, 48, 56
**Vinçelli Daniel Pommier** – 207
**Vladisavljeviç Draqan** – 316, 318
**Vuçiç Aleksandr** – 316–319
**Uysal Əhməd** – 205

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abşeron** | – 231, 233, 236, 264 |
| **Ağalı** | – 278, 288–291, 293, 297 |
| **Ağbənd** | – 254, 303, 304 |
| **Ağbulaq** | – 7 |
| **Ağcabədi** | – 161 |
| **Ağdaban** | – 160 |
| **Ağdam** | – 5, 38, 54, 80, 81, 105, 122, 133, 135, 146–148, 161, 206, 208, 209, 245, 254–256, 270, 301, 302 |
| **Ağstafa** | – 178 |
| **Ağoğlan** (*Hadrut*) | – 5, 6, 8–13, 36, 138, 207, 254 |
| **Albalılıq** | – 236 |
| **Almaniya** | – 107 |
| **Amerika Birləşmiş Ştatları** | – 51, 66, 107, 136, 141, 172, 200, 202, 204, 205, 266, 310, 311 |
| **Araz çayı** | – 82 |
| **Asiya** | – 56, 155, 267 |
| **Avrasiya** | – 191 |
| **Avropa** | – 56, 75, 170, 171 |

**Azıx** – 16, 17, 18
**Bazarçay** – 82
**Belarus** – 174, 211–221, 223, 224, 226–229
**Belçika** – 184
**Belqrad** – 319
**Bərdə** – 5, 80, 81, 140, 159, 161, 191, 208, 254
**Bərgüşad çayı** – 82
**Bəsitçay** – 298
**Bibiheybət** – 231
**Bilgəh** – 236
**Binəqədi** – 43, 46
**Birinci Ağalı** – 279, 295, 297
**Birləşmiş Ərəb Əmirlikləri** – 41, 42
**Buzovna** – 233, 236
**Böyük Britaniya** – 92, 93, 107, 145, 165
**Böyük Kirs** – 25
**Cenevrə** – 84
**Ceyrançöl** – 245
**Cəbrayıl** – 6, 8, 9, 12, 36, 82, 105, 130, 152, 191, 208, 209, 254, 256, 272, 277
**Cibuti** – 230
**Çanakkala** – 203
**Çin** – 48, 279, 282, 287

| | |
|---|---|
| **Dağlıq Qarabağ** | – 9–11, 15, 17, 22, 26, 32, 33, 35, 40, 51–54, 57–59, 64, 81, 88, 91, 95, 103, 109, 110, 113, 120, 126, 131, 133, 135, 137–139, 141, 146, 150–153, 165, 166, 174, 176, 177, 182, 190, 195–198, 207, 209, 217, 219, 220, 225, 227, 252, 282, 284, 287, 292, 295, 296, 299 |
| **Daşaltı** | – 24, 25, 26 129 |
| **Donbas** | – 202 |
| **Düdükçü** | – 7 |
| **Edinburq** | – 92, 93 |
| **Əfqanıstan** | – 310 |
| **Əmircan** | – 231 |
| **Ələt** | – 242 |
| **Fransa** | – 109, 110, 137, 138, 150, 200– 204, 207 |
| **Füzuli** | – 5–10, 36, 55, 81, 105, 127, 129, 133, 135, 161, 191, 206, 208, 209, 235, 245, 254, 256, 277, 294, 296 |
| **Gəncə** | – 46, 112, 159, 161 |

**Goranboy** – 80, 81, 105, 162, 184
**Göygöl** – 254
**Günəşli** – 234
**Gürcüstan** – 118, 154, 167–170, 179, 242
**Hacıqabul** – 12, 238–243, 247, 249, 250–252
**Həkəri çayı** – 82
**Hindistan** – 319
**Horadiz** – 5, 208, 254, 273, 297, 298, 303, 304
**Hünərli** – 13
**Xankəndi** – 161, 260
**Xızı** – 161, 162
**Xirosima** – 54, 270
**Xocavənd** – 5, 6, 7, 10, 11, 35, 36, 127, 129
**İkinci Ağalı** – 279, 295, 297
**İndoneziya** – 319
**İran** – 56, 82, 130, 154, 169, 170, 191–195, 221, 275, 276
**İrəvan** – 48, 114, 115, 140, 147, 173, 176, 179
**İsrail** – 180, 195, 284, 285, 287, 314

**İstanbul** – 58, 198
**İsveç** – 154
**İsveçrə** – 84
**İtaliya** – 142–146, 279, 283–287, 283, 284
**Kaliforniya** – 150, 207
**Kəlbəcər** – 36, 112, 122, 127, 152, 160, 191, 210, 235, 254, 277
**Kiyev** – 201
**Krasnodar** – 150
**Kürdəmir** – 251
**Qafqaz** – 54, 155
**Qana** – 319
**Qaraxanbəyli** – 6
**Qazax** – 178, 242
**Qazaxıstan** – 47–49, 155
**Qəbələ** – 161, 162
**Qırğız Respublikası** – 59
**Qobustan** – 264, 265
**Quba** – 46
**Qubadlı** – 36, 82, 130, 140, 206, 277
**Laçın** – 25, 35, 36, 110, 111, 122, 140, 152, 177, 191, 210, 256, 277

| | |
|---|---|
| **Lələtəpə** | – 125, 183 |
| **Litva** | – 315 |
| **Livan** | – 226 |
| **Lüksemburq** | – 186, 209, 226, 256 |
| **Macarıstan** | – 59 |
| **Maştağa** | – 233, 236 |
| **Meyniman** | – 242 |
| **Mərdəkan** | – 233 |
| **Mincivan** | – 12, 302–304 |
| **Misir** | – 319 |
| **Moskva** | – 91, 110, 119, 225 |
| **Muğan** | – 242 |
| **Murov** | – 36, 235, 254 |
| **Nardaran** | – 236 |
| **Naftalan** | – 161, 162 |
| **Naxçıvan** | – 55, 56, 111, 169, 170, 176, 183, 192, 194, 195, 292, 296, 303 |
| **Naxçıvan Muxtar Respublikası** | – 56, 297, 303, 304 |
| **Novxanı** | – 231 |
| **Nyu York** | – 96 |
| **Oxçuçay** | – 82, 298 |
| **Özbəkistan** | – 58, 155, 239 |
| **Padarçöl** | – 245 |

**Pakistan** – 29, 30, 158, 159, 160, 210
**Pirşağı** – 231, 232
**Ramana** – 231
**Roma** – 207
**Rusiya** – 48, 56, 60, 64, 65, 91, 97, 119, 137, 139, 140, 154, 163, 164, 166, 168–170, 174, 177–179, 188, 190, 194, 197, 200, 206, 207, 210, 221, 228, 239, 254, 258–262
**Rumıniya** – 176
**Sabirabad** – 46
**Sabunçu** – 237
**Samux** – 245
**Savalan** – 235
**Serbiya** – 315, 317–319
**Suqovuşan** – 10, 36, 80, 81
**Sumqayıt** – 46
**Suriya** – 261
**Suraxanı** – 234
**Slovakiya** – 28
**Şamaxı** – 245, 264
**Şimali İrlandiya** – 92, 93

**Şirvan** – 244, 268
**Şurnuxu** – 178
**Şuşa** – 5, 9, 10, 18–25, 33–38, 40, 46, 52, 53, 58, 103, 104, 110, 111, 122, 127, 129, 130, 136, 159, 206–209, 235, 236, 254, 261, 292, 294, 302
**Şükürbəyli** – 6, 12, 235
**Tailand** – 267
**Talış** (*qəsəbə*) – 10
**Tel-Əviv** – 195
**Tehran** – 191
**Tərtər** – 80,81, 105
**Tərtərçay** – 81,82, 167
**Toğanalı** – 254
**Tovuz** – 178, 180, 183, 184
**Tuğ** – 15, 16
**Türkiyə** – 49, 53, 54, 56, 57, 62, 63, 71, 72, 96, 98–100, 145, 146, 148–150, 154, 157, 160, 168–173, 187–190, 194, 198, 199, 205, 221, 254, 266, 279–281, 287, 311, 320, 321
**Türkmənistan** – 59

**Türküstan** – 47, 48
**Ukrayna** – 201, 202, 204
**Üçüncü Ağalı** – 279, 295, 297
**Yunanıstan** – 188
**Zəngəzur** – 12, 55, 56, 150, 169, 170, 175, 176, 178, 190, 221, 258, 303, 304
**Zəngilan** – 5, 36, 82, 130, 140, 152, 153, 170, 191, 206, 208, 209, 254–256, 272, 278, 284, 288, 291, 292, 294–298, 301, 302, 304

# MÜNDƏRİCAT

FÜZULİ VƏ XOCAVƏND RAYONLARINA SƏFƏR

*15 mart 2021-ci il*............................................................ 5

KEÇMİŞ HADRUT RAYON PARTİYA KOMİTƏSİNİN BİNASINDA GÖRÜŞ

*15 mart 2021-ci il*............................................................ 13

ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*16 mart 2021-ci il*............................................................ 18

BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ CƏNAB TOMAS BAXA

*17 mart 2021-ci il*............................................................ 27

SLOVAKİYA RESPUBLİKASININ XARİCİ VƏ AVROPA İŞLƏR NAZİRİ İVAN KORÇOKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 mart 2021-ci il* ............................................................ 28

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ

*18 mart 2021-ci il*............................................................ 29

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*18 mart 2021-ci il* ........................................................ *31*

CIDIR DÜZÜNDƏ ALOVLANAN TONQAL BAŞINDAN AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*20 mart 2021-ci il* ........................................................ *33*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*25 mart 2021-ci il* ........................................................ *41*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİR VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*25 mart 2021-ci il* ........................................................ *42*

OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİNİN BAKININ BİNƏQƏDİ RAYONUNDA YERLƏŞƏN 4 SAYLI DOST MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*30 mart 2021-ci il* ........................................................ *43*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ VİDEOKONFRANS FORMATINDA QEYRİ-FORMAL ZİRVƏ GÖRÜŞÜ

*31 mart 2021-ci il* ........................................................ *47*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ ALEKSEY OVERÇUK İLƏ GÖRÜŞ

*1 apreI 2021-ci il* ............................................................ *60*

TÜRKİYƏNİN «BAYKAR» ŞİRKƏTİNİN TEXNİKİ DİREKTORU SƏLÇUK BAYRAKTAR VƏ ASELSAN ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN RƏHBƏRİ VƏ BAŞ DİREKTORU HALUK GÖRGÜN İLƏ GÖRÜŞ

*1 aprel 2021-ci il* ............................................................ *62*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*1 aprel 2021-ci il* ............................................................ *64*

DÜNYA BANKININ REGİONAL DİREKTORU SEBASTİAN MOLİNEUS İLƏ GÖRÜŞ

*1 aprel 2021-ci il* ............................................................ *66*

ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU TEDROS ADHANOM QEBREYESUSLA VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*1 aprel 2021-ci il* ............................................................ *69*

TÜRKİYƏ RESPUBLİKASININ TİCARƏT NAZİRİ RUHSAR PEKCANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2021-ci il* ............................................................ *71*

AZƏRBAYCAN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ VƏZİFƏSİNƏ TƏYİN OLUNMUŞ ZAUR MİKAYILOV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*5 aprel 2021-ci il ........................................................................ 73*

ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU TEDROS ADHANOM QEBREYESUSUN TƏŞƏBBÜSÜ İLƏ ÜMUMDÜNYA SAĞLAMLIQ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİNİN VİDEOMÜRACİƏTİ

*6 aprel 2021-ci il ........................................................................ 84*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ YUSİF BİN ƏHMƏD ƏL-OSAYMİN İLƏ GÖRÜŞ

*8 aprel 2021-ci il ........................................................................ 87*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*8 aprel 2021-ci il ........................................................................ 91*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*9 aprel 2021-ci il ........................................................................ 92*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLAN-
DİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ
NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS
CONSONA

*9 aprel 2021-ci il ........................................................... 93*

BMT BAŞ ASSAMBLEYASININ 75-ci SESSİ-
YASININ SƏDRİ VOLKAN BOZKIR İLƏ
GÖRÜŞ

*9 aprel 2021-ci il ........................................................... 94*

RUSİYA FEDERASİYASININ BAŞ PROKU-
RORU İQOR KRASNOV İLƏ GÖRÜŞ

*9 aprel 2021-ci il ........................................................... 97*

TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZ-
DƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ
SƏFİRİ ƏRKAN ÖZORAL İLƏ GÖRÜŞ

*10 aprel 2021-ci il ......................................................... 98*

BAKIDA HƏRBİ QƏNİMƏTLƏR PARKININ
AÇILIŞI MƏRASİMİ

*12 aprel 2021-ci il ......................................................... 101*

ADA UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ
«CƏNUBİ QAFQAZA YENİ BAXIŞ: MÜNA-
QİŞƏDƏN SONRA İNKİŞAF VƏ ƏMƏKDAŞ-
LIQ» ADLI BEYNƏLXALQ KONFRANSDA
İŞTİRAK

*13 aprel 2021-ci il ......................................................... 132*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ QEYRİ-RƏSMİ GÖRÜŞ

*13 aprel 2021-ci il* ........................................................... *211*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*14 aprel 2021-ci il* ........................................................... *212*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 aprel 2021-ci il* ........................................................... *216*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 aprel 2021-ci il* ........................................................... *217*

CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR GELLEHƏ

*15 aprel 2021-ci il* ........................................................... *230*

PİRŞAĞIDA START VERİLMİŞ YENİDƏN QURULMA VƏ TƏMİR-BƏRPA İŞLƏRİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*16 aprel 2021-ci il* ........................................................... *231*

SURAXANIDA «AZƏRENERJİ» ASC-nin YENİDƏN QURULMUŞ «HÖVSAN» YARIM-STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*19 aprel 2021-ci il* ........................................................ *234*

HACIQABUL RAYONUNA SƏFƏR

*20 aprel 2021-ci il* ........................................................ *238*

AZƏRBAYCAN TELEVİZİYASINA MÜSAHİBƏ

*20 aprel 2021-ci il* ........................................................ *249*

QOBUSTANDA PALÇIQ VULKANLARI TURİZM KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*22 aprel 2021-ci il* ........................................................ *264*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*24 aprel 2021-ci il* ........................................................ *266*

BMT-nin «ASİYA VƏ SAKİT OKEAN HÖVZƏSİNDƏ REGİONAL ƏMƏKDAŞLIQ VASİTƏSİLƏ BÖHRANLARDAN SONRA DAHA GÜCLÜ İNKİŞAFIN TƏMİN OLUNMASI» MÖVZUSUNA HƏSR EDİLMİŞ 77-ci SESSİYASINDA VİDEOFORMATDA ÇIXIŞ

*26 aprel 2021-ci il* ........................................................ *267*

CƏBRAYIL VƏ ZƏNGİLAN RAYONLARINA SƏFƏR

*26 aprel 2021-ci il* ........................................................ *272*

ZƏNGİLAN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*26 aprel 2021-ci il* ........................................................ *288*

«BOEİNG COMMERCİAL AİRPLANES» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU STENLİ DİL İLƏ GÖRÜŞ

*28 aprel 2021-ci il* ........................................................ *305*

DÜNYA İQTİSADİ FORUMUNUN PREZİDENTİ BORGE BRENDE İLƏ VİDEO-KONFRANS FORMATINDA GÖRÜŞ

*28 aprel 2021-ci il* ........................................................ *307*

ABŞ DÖVLƏT KATİBİ ENTONİ BLİNKEN İLƏ TELEFONLA GÖRÜŞ

*28 aprel 2021-ci il* ........................................................ *310*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*30 aprel 2021-ci il* ........................................................ *312*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB REUVEN RİVLİNƏ

*30 aprel 2021-ci il* ........................................................ *314*

LİTVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ QABRİELİUS LANDSBERGİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 aprel 2021-ci il* ........................................................ *315*

SERBİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DRAQAN VLADİSAVLJEVİÇ İLƏ GÖRÜŞ

*3 may 2021-ci il* ........................................................ *316*

TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ CAHİT BAĞÇI İLƏ GÖRÜŞ

*3 may 2021-ci il* ........................................................ *320*

QEYDLƏR ........................................................ *322*

*Şəxsi adlar göstəricisi*........................................................ *368*

*Coğrafi adlar göstəricisi*........................................................ *373*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.